# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# SƏKKİZİNCİ KİTAB

## YANVAR 2005 - MART 2005

**AZƏRNƏŞR**
**BAKI - 2011**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2011

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2011, 408 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin oxuculara təqdim olunan bu növbəti cildində müasir və qüdrətli Azərbaycan dövlət quruculuğu yolunda həyata keçirilən geniş sosial-iqtisadi islahatlara, ölkəmizin elmi və mədəni həyatına həsr olunmuş çıxış və nitqləri öz əksini tapmışdır.

Kitabda, həmçinin Azərbaycanda keçirilən İTAR-TASS günlərinin iştirakçıları– tanınmış jurnalistlər, Rusiyanın aparıcı nəşrlərinin rəhbərləri, elm, mələniyyət, idman xadimləri ilə görüşləri, Azərbaycanın milli mənafeyini əks etdirən dərin məzmunlu söhbətləri toplanmışdır.

Burada, eyni zamanda prezident İlham Əliyevin İran İslam Respublikasına, Rusiyaya, Səudiyyə Ərəbistanı Krallığına, Çin Xalq Respublikasına və İtaliyaya səfərləri zamanı bir sıra dövlət və hökumət başçıları ilə görüşləri zamanı Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinin həllində prinsipial mövqeyini əks etdirən çıxış və nitqləri, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri də yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Ə \frac{0801000000}{M-651(07)-2011}$$

**BBK-32**

© Azərnəşr, 2011

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR**

*20 yanvar 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.*

*Şəhidlərin ruhuna dua oxundu.*

*Prezident İlham Əliyev matəm musiqisinin sədaları altında «Əbədi məşəl» abidəsi önünə əklil qoydu. Əklilin üzərindəki lentdə bu sözlər yazılmışdı: «Azərbaycan Respublikasının Prezidentindən – 20 Yanvar şəhidlərinə».*

*Müdafiə Nazirliyinin hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.*

*Şəhildərin xatirəsini yad etməyə gəlmiş xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verdilər, xalqımızın kədərinə şərik olduqlarını söylədilər.*

*Prezident İlham Əliyev diplomatik korpusun rəhbərlərinə, xarici qonaqlara təşəkkürünü bildirdi.*

*Dövlət təşkilatlarının rəhbər işçiləri, respublikamızda fəaliyyət göstərən dini icmaların başçıları da şəhidlərin xatirəsini yad etməyə gəlmişdilər.*

## İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARI AZƏRBAYCANDA

*22 yanvar 2005-ci il*

*Azərbaycanda İTAR-TASS günlərinin iştirakçıları – tanınmış jurnalistlər, Rusiyanın aparıcı nəşrlərinin rəhbərləri, siyasi xadimlər, elm, mədəniyyət, idman xadimləri Bakıya gəlmişlər.*

*İTAR-TASS günlərinin iştirakçıları yanvarın 22-də Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anmışlar. Rusiyalı qonaqlar adından ulu öndərin məzarı önünə əklil və tər çiçəklər qoyulmuşdur.*

* * *

*Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına gedərək, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların xatirəsini yad etmişlər. Qonaqlar şəhidlərin məzarı üstünə tər güllər düzmüş, «Əbədi məşəl» abidəsinin önünə əklil qoymuşlar.*

* * *

*Azərbaycanda İTAR-TASS günlərinin nümayəndələri Heydər Əliyev Fondunda olmuşlar.*

*Fondla tanışlıqdan sonra İTAR-TASS-ın Baş direktoru Vitali İqnatenko Fondun fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır: «Bizim hamımız üçün, Azərbaycanda İTAR-TASS günlərinin iştirakçıları üçün belə bir görkəmli yerdə – Heydər Əliyeviç Əliyev Fondunda olmaq böyük şərəfdir. Bu, öz həyatını xalqına xidmətə həsr etmiş dahi bir insanla daha bir görüş idi.*

*Prezident Heydər Əliyevin xatirəsini əziz tutanların hamısına müvəffəqiyyət arzulayırıq.*

*RF Dövlət Duması deputatları nümayəndə heyətinin, RF Federasiya Şurasının, RF nazirlərinin, yazıçıların, jurnalistlərin, diplomatların adından*

*V.İqnatenko,*
*İTAR-TASS-ın Baş* direktoru»

## AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 yanvar 2005-ci il*

**İ l h a m   Ə l i y e v:** Əziz qonaqlar!

Əziz dostlar!

Sizi Azərbaycanda səmimi-qəlbdən salamlamaq, sizə «Xoş gəlmisiniz!» demək istəyirəm.

Rusiyanın belə mötəbər nümayəndə heyətinin ölkəmizə səfəri böyük hadisədir. Düşünürəm ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə və genişlənməsinə xidmət edəcəkdir. Mənə olduqca xoşdur ki, öz sahəsində dünyada aparıcı sayılan, gözəl ənənələri, çox böyük nailiyyətləri olan təşkilatın – İTAR-TASS-ın Azərbaycanda günləri keçirilir. Ən başlıcası odur ki, ictimai-siyasi formasiya dəyişdikdən sonra İTAR-TASS dünyada öz mövqelərini və təsirini nəinki itirmədi, əksinə, daha da möhkəmləndirdi. Dediyim kimi, artıq indi İTAR-TASS xaricdə geniş şaxəli şəbəkəyə malik olan, informasiyalarına bütün dünyada etimadla yanaşılan çox nüfuzlu təşkilatdır. Bizim aramızda ənənəvi olaraq sıx münasibətlər, dostluq münasibətləri, şəxsi ünsiyyətlər və çox yaxşı qarşılıqlı əlaqələr təşəkkül tapmışdır.

Mən Moskvaya hər dəfə səfər etdikdə və orada olduqda mütləq İTAR-TASS-ın ofisinə gedirəm və biz həmişə çox səmərəli və mehriban görüşlər keçiririk. Düşünürəm ki, sizin nümayəndə heyətinin ölkəmizə səfəri bugünkü Azərbaycanın həyatının, vəziyyətinin daha yaxşı başa düşülməsi baxımından da əhəmiyyətlidir. Azərbaycan və Rusiya sakinləri informasiyadan istifadə nöqteyi-nəzərindən heç də bərabər şəraitdə deyillər. Biz Rusiyanın televiziya kanallarını sərbəst qəbul edir, Rusiyada həyatın gedişini izləyir və orada baş verən bütün hadisələrdən xəbərda-

rıq. Rusiyada isə obyektiv səbəblər üzündən keçmiş Sovet İttifaqı respublikalarının həyatı barədə informasiya, əlbəttə ki, dolğun deyildir. Bununla əlaqədar biz real vəziyyətin tamamilə başa düşülməsi üçün Rusiya jurnalistlərinin, ictimai xadimlərinin ölkəmizə belə səfərlərindən, ölkəmizdə olmalarından çox şadıq.

Müstəqillik illərində Azərbaycan öz iqtisadi potensialını xeyli möhkəmlətmişdir, ölkə dinamik inkişaf edir. Hərçənd Sovet İttifaqının süqutundan sonra ilk illərdə ölkəmiz keçmiş müttəfiq respublikalarla müqayisədə ən ağır vəziyyətdə idi. Ölkədə tam böhran, iqtisadi tənəzzül hökm sürürdü, vətəndaş müharibəsi təhlükəsi vardı, bundan əlavə, Ermənistan ərazilərimizin bir hissəsini işğal etmişdi. Bütün bunlar çox ağır nəticələrə gətirib çıxarmışdı. Ölkəmizin gələcəyi, Azərbaycanın özünün varlığı sual altında idi. Yalnız Azərbaycan xalqının iradəsi və müdrikliyi – müasir tarixin ən ağır çağında, 1993-cü ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyevə müraciət edərək onu respublikaya başçılıq etməyə çağırması sayəsində ölkə çox ağır nəticələrdən xilas oldu. 1993-cü ildən başlayaraq ölkədə dövlətçiliyin, müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi potensialın artırılması, Azərbaycanın dünya proseslərinə inteqrasiyası sahəsində planlı surətdə iş aparılmışdır və indi də aparılır. Bu gün Azərbaycan regionun ən dinamik inkişaf edən ölkələrindən biridir, Azərbaycan Avropaya inteqrasiya proseslərində yaxından iştirak edir, öz qonşuları ilə regional miqyasda fəal əməkdaşlıq edir.

Ölkəmizin öz qonşuları ilə, xüsusən Rusiya ilə çox müsbət münasibətləri var. Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər nəinki ikitərəfli planda önəmlidir, həm də bu münasibətlər regional əməkdaşlıq çərçivəsində, hətta daha geniş səpkidə gedən proseslər çərçivəsində böyük rol oynayır və oynayacaqdır. Çox xoşdur ki, indi bu münasibətlər strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır. Biz buna böyük diqqətlə yanaşırıq və bütün istiqamətlərdə qarşılıqlı surətdə faydalı tərəfdaşlığın genişlənməsi üçün səylərimizi əsirgəməməyə çalışırıq. Bu gün Rusiya ilə Azərbaycan arasında təcili həllini gözləyən heç bir

problem yoxdur. 1990-cı illərdə obyektiv və subyektiv səbəblər üzündən meydana gəlmiş problemlər həll edilmişdir. Əlbəttə ki, Azərbaycan prezidenti Heydər Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasındakı şəxsi dostluq ikitərəfli əlaqələrin möhkəmlənməsində çox böyük rol oynamışdır. Rusiyanın tarixində ilk dəfə olaraq prezident Putinin Azərbaycana səfəri, əldə olunmuş razılaşmalar ikitərəfli əlaqələrin inkişafında yeni mərhələ açmışdır. Əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır, biz onu iki dəfə çoxaltmaq niyyətindəyik. Hesab edirik ki, bu tamamilə real perspektivlərdir.

Daim və çox fəal siyasi dialoq aparılır. Rusiyadan Bakıya və buradan Rusiyaya çoxlu nümayəndə heyəti gəlib-gedir. Əlbəttə ki, ənənəvi mədəni əlaqələrin inkişafında böyük potensial var. Azərbaycanda Rusiyanın bəzi vilayətlərinin mədəniyyət günləri keçirilmişdir.

Bildiyiniz kimi, bu il Rusiyada bütünlüklə Azərbaycan ilidir, 2006-cı il isə Azərbaycanda Rusiya ili olacaqdır. Bütün bunlar ölkələrimiz arasında münasibətlərin inkişafına kömək edir.

Buna dair çoxlu misal var. Mən onları çox sadalaya bilərəm, ancaq vaxtınızı almaq istəmirəm. Lakin qlobal baxımdan bəlkə çox mühüm olmasa da, hər halda, nümunəvi olan bir misal çəkəcəyəm. Bunu Bakıdan Moskvaya və geriyə tez-tez təyyarə ilə uçanlar yaxşı bilirlər. Bir neçə il əvvəl bizim Moskvaya gündə cəmi bir aviareysimiz vardı. O da ki, hər gün müntəzəm olaraq yerinə yetirilmirdi. İndi ölkələrimiz arasında hər gün 10-dək aviareys var. Həmin göstərici qarşılıqlı münasibətlərin səviyyəsindən daha yaxşı xəbər verir. İnsanlar arxayınca bir-birinə qonaq gedib-gəlir, işləyir, ünsiyyət saxlayır və eyni zamanda özlərini rahat hiss edirlər.

Bildiyiniz kimi, Azərbaycanda ənənəvi olaraq, tarixən milli və dini dözümlülük həmişə mövcud olmuşdur. Bu, ölkəmizin başlıca, ən mühüm nailiyyətlərindən biridir. Ölkəmizin müstəqil dövlət kimi təşəkkül tapdığı dövrdə keçmişin bu ənənələri qorunub saxlanmış və artırılmışdır və bu, böyük uğurdur. Milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda hər

bir adam öz ölkəsinin tamdəyərli və tamhüquqlu vətəndaşıdır. Ümumi evimizin daxilində belə bir əmin-amanlığın olması müvəffəqiyyətimizin rəhnidir. Bəzi başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda müstəqillik illərində heç bir rus məktəbi bağlanmadı. Ölkəmizdə Slavyan Universiteti fəaliyyət göstərir. O, rus dili və digər slavyan xalqlarının dilləri üzrə müəllimlər hazırlayır.

O ki qaldı mətbuata – mən bu barədə 2003-cü ildə Azərbaycanda rus mətbuatı günləri zamanı danışmışdım, – müstəqillik illərində rus dilində qəzetlərin sayı sovet dövründəkinə nisbətən iki-üç dəfə artmışdır. Mən bunu heç də vəziyyəti əlvan boyalarla göstərmək üçün demirəm. Əlbəttə, problemlər də var. Sadəcə olaraq bu, hökumətin və rəhbərliyin müəyyən etdiyi meyilləri, siyasəti göstərir. Biz həmin məsələdə bu siyasəti çox ardıcıl surətdə aparırıq. Ən başlıcası odur ki, buna cəmiyyət də çox həssasdır. Düşünürəm ki, əlaqələr, səfərlər, ünsiyyətlər nə qədər çox olsa, bundan hamı qazanar.

Sənaye potensialının, iqtisadi potensialın artırılması, ölkəmizdə həyata keçirilən çox iri enerji layihələri, – yeri gəlmişkən, Azərbaycanda bu gün dünyada ən böyük enerji layihəsi gerçəkləşdirilir, – bizə iqtisadiyyatı çox dinamik və hərtərəfli inkişaf etdirməyə imkan verir. İqtisadiyyatın təkcə neft amilindən asılı olmaması üçün bu gün biz regional proqramları fəal inkişaf etdiririk. 2004-cü ildə ölkədə 120 mindən artıq iş yeri yaradılmışdır. Yeri gəlmişkən, seçkiqabağı vədlərimdən biri ondan ibarət idi ki, 5 ildə Azərbaycanda 600 min iş yeri yaradılacaqdır. Əlbəttə ki, əhalimizin 8 milyon nəfər olduğunu nəzərə alsaq, bu, çox böyük rəqəmdir. Ona görə də bəziləri bunu inamsızlıqla, şəkk-şübhə ilə qarşıladılar. Amma 2004-cü il göstərdi ki, bütün bunlar hesablamaların nəticələridir və bu rəqəm göydən götürülməyibdir. Özü də, bu qədər böyük sayda iş yerləri, əsasən, paytaxtda deyil, bölgələrdə yaradılmışdır. Çünki gördüyünüz kimi, Bakı çox inkişaf etmiş şəhərdir. Biz isə paytaxtla əyalət arasında fərqi bərabərləşdirməyə çalışmalıyıq. Biz buna bölgələrin səviyyəsini qaldırmaq hesabına nail olmaq istəyirik.

Ona görə də bu gün beşilliyimizin regional vektoru öncül istiqamətlərdən biridir. Ölkədə sahibkarlıq inkişaf edir. Ümumi daxili məhsulun təxminən 75 faizi özəl sektorda istehsal olunur. Özü də iqtisadiyyatın əsas sahəsi sayılan neftin dövlət inhisarında olduğu şəraitdə.

Biz əhalinin həyat səviyyəsini yüksəltməyə çalışırıq. 2004-cü ildə minimum əmək haqqı iki dəfə qaldırılmışdır və Azərbaycan vətəndaşları, – biz bunu bəyan etmişik – ildən-ilə daha yaxşı yaşamalıdırlar. Biz buna nail olacağıq.

Ölkəmizin əsas problemlərindən biri Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsidir. Artıq 10 ildən çoxdur ki, Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır. Bu, Dağlıq Qarabağ, habelə Azərbaycanın keçmiş Dağlıq Qarabağ vilayətinin inzibati sərhədindən kənarda yerləşən 7 rayondur. Bu işğal, habelə etnik təmizləmələr aparılması nəticəsində bir milyondan çox adam qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Onların 250 min nəfəri Ermənistanda yaşamış azərbaycanlılardır, 700 mini isə erməni işğalçı qoşunlarının Azərbaycanın öz ərazisindən qovduqları daxili köçkün şəxslərdir. Bizdə digər ölkələrdən, münaqişə rayonlarından olan qaçqınlar da var, onlar ölkəmizdə sığınacaq tapmışlar. Əhalinin sayına nisbətdə götürdükdə, bunun kifayət qədər yüksək rəqəm olduğunu desəm, yəqin səhv etmərəm: 8 milyon əhalidən 1 milyonu qaçqın-köçkündür.

Bu, iqtisadi, maliyyə, mənəvi və siyasi baxımdan olduqca böyük yükdür və təəssüf ki, o indiyədək qalır. Məsələ öz həllini hələ də tapmayıbdır. Biz bütün dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əlbəttə ki, özümüzə də belə münasibət göstərilməsini istəyirik. Ümidvarıq ki, haqq-ədalət və beynəlxalq hüquq normaları zəfər çalacaqdır. Təcavüzə son qoyulacaq, işğalçı qoşunlar zəbt edilmiş ərazilərimizdən çıxarılacaq, nəhayət, sülh bərqərar olacaqdır. Biz bunu sülh yolu ilə həll etmək istəyirik. Danışıqların onillik tarixi – bu, heç bir nəticə verməyib – bunu sülh yolu ilə həll etməyə çalışdığımıza sübutdur. Amma təəssüf ki, bunu etmək mümkün olmur, ona görə də, tə-

bii olaraq, biz hər hansı bir digər variantı istisna etmirik. Azərbaycan öz ərazilərinin itirilməsi ilə heç zaman razılaşmayacaq, biz onları nəyin bahasına olursa-olsun geri qaytaracağıq. Sülh yolu ilə, yaxud qeyri-sülh yolu ilə – bu məsələ danışıqların gedişindən, habelə digər amillərdən asılı olacaqdır.

İndi Dünya Birliyi, nəhayət, etiraf edir ki, ərazilərin işğalı baş vermişdir. İndi işğal faktı tanınmışdır, BMT, eləcə də dünyanın əslində bütün dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanımışlar. Hesab edirik ki, bu məsələ kimlərinsə fantaziyaları, arzuları və ya ehtimalları əsasında deyil, məhz beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Bu məsələ, ümumən, regionda sülhün bərqərar olması üçün vacibdir, çünki Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi hərbi əməliyyatlara yenidən başlanması üçün daimi təhlükədir, bu əməliyyatlar isə çox ciddi nəticələrə gətirib çıxaracaqdır.

Ümumən demək istəyirəm ki, bu məsələnin həll edilməmiş qalmasına baxmayaraq, çox böyük sayda qaçqınlar olmasına baxmayaraq, son vaxtlar Azərbaycan iqtisadi cəhətdən də, siyasi cəhətdən də daha güclü olmuşdur. Bu müddət ərzində ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə regionda öncül mövqedədir. Əgər sərmayəçilərdə onların sərmayələrinin qorunacağına, ölkənin ardıcıl inkişafının davam etdiriləcəyinə, sabitliyin, ictimai asayişin qorunub saxlanılacağına, Azərbaycanın apardığı siyasətin istiqamətinin bundan sonra da dəyişməyəcəyinə inam olmasaydı, Azərbaycanda çox böyük enerji layihələrini həyata keçirmək mümkün olmazdı. Bizdə bütün bu amillər var. Ölkədə ictimai-siyasi vəziyyət çox əlverişlidir, iqtidarla əhali arasında tam qarşılıqlı anlaşma mövcuddur. Əlbəttə ki, belə olmasaydı, islahatları aparmaq çox çətin olardı. Biz dəstək hiss edirik, xalqın bu dəstəyinə arxalanırıq, ölkəmizdə həyatın daha yaxşı olması üçün Azərbaycan xalqına bacardığımız qədər xidmət edirik.

Vaxtınızı çox almaq istəmirəm, Azərbaycan haqqında çox danışa bilərəm. Əlbəttə, bir görüş çərçivəsində hər şeyi əhatə etmək mümkün deyildir. Düşünürəm ki, ölkəmizdə olmağınız –

bugünkü və sabahkı gün, habelə sizin öz şəxsi təəssüratınız çox mühüm rol oynayacaqdır. Ümidvaram ki, səfər yaddaqalan olacaq, siz evə yaxşı təəssüratla qayıdacaqsınız. Azərbaycan Rusiyaya dost ölkədir. Biz qonaq qəbul etməyə həmişə şadıq, həmişə ünsiyyət olmasına çalışırıq. Bu imkandan bir daha istifadə edərək, Azərbaycanda İTAR-TASS günləri keçirildiyinə görə, habelə İTAR-TASS və agentliyin rəhbəri, hörmətli Vitali Nikitiç İqnatenkonun ölkəmizə belə mötəbər nümayəndə heyəti gətirdiyinə görə İTAR-TASS-ın rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Düşünürəm ki, yaranacaq xoş ünsiyyətlər və artıq mövcud olan ünsiyyətlər, ümumən, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə, xalqlarımız arasında etimadın yüksəlməsinə kömək edəcəkdir. Arzu edirəm ki, şəhərimizin həyatı ilə tanışlığa, görməli yerlərə baxmağa imkanınız olsun, bu səfər yadınızda qalsın.

Sizi bir daha salamlamaq və demək istəyirəm ki, sizi görməyimizə çox şadıq və ümidvarıq ki, görüşlərimiz gələcəkdə də davam edəcəkdir.

**V y a ç e s l a v  F e t i s o v** (*Rusiya Federal Bədən Tərbiyəsi, İdman və Turizm Agentliyinin rəhbəri*)**:** Hörmətli cənab Prezident!

Burada, Bakıda olmaq mənim üçün böyük şərəfdir. İlk təəssüratımı bölüşmək istərdim. Təyyarəmiz gecə burada yerə enəndə Amerikada doğulan qızım dedi ki, bura Nyu-Cersiyə bənzəyir. Bakıya gələndə isə dedi ki, bu şəhər ona Parisi xatırladır. Şəhər həqiqətən gözəldir, lakin onun ən böyük sərvəti insanlardır. Bu gün həmkarlarımızla ünsiyyətdə olduq, idman obyektlərinizin hamısına getdik. Deməliyəm ki, hətta sözün yaxşı mənasında həsəd də apardıq. Bütün obyektlər yüksək texnologiya əsasında tikilmişdir, müasir tələblərə cavab verir, sanki qələbə qazanmaq məqsədi ilə yaradılmışdır. Karvansarada bizi böyük qonaqpərvərliklə qarşıladılar. Mənim üçün yeganə problem xokkey mövzusunun müzakirəsi oldu. Ümidvaram ki, bu respublikada xokkey inkişaf edəcəkdir və mən bu baxımdan kömək etməyə hazıram. Burada insanlar ötən əsrin 50-ci illərin-

dən bəri bizim əfsanəvi yığma komandamızı xatırlayırlar. Deyirlər, yadındadırmı, 1978-ci ildə sən səhv etdin və bizə az qala qol vurmuşdular. Biz, əlbəttə, bütün bunları xatırlayırıq. Təəssüratımız olduqca çoxdur və burada keçirilən günlərin ən böyük mənası insani ünsiyyətlərdir.

Bildirmək istəyirəm ki, ölkələrimizdə idmanın inkişafı ilə bağlı ümumi sistemimiz vardır. Deməliyəm ki, siz bu sahədə daha irəli getmisiniz, çünki idmana rəhbərlik bir əldə cəmlənmişdir və bu da postsovet məkanının bəzi ölkələrində mövcud olan ziddiyyətləri aradan qaldırır. Ona görə də sizdə tərəqqi hiss olunur, böyük perspektiv vardır. Bu gün həmkarımla bədən tərbiyəsi və idmanın kütləvi səviyyədə inkişafının necə vacib olduğunu müzakirə etdik.

Zənnimcə, özlüyündə zəruri olan islahat, yəni ümumtəhsil məktəblərində, ali təhsil müəssisələrində idmanın inkişafı alkoqolizm, narkomaniya, uşaq cinayətkarlığı kimi sosial problemlərin həlli deməkdir. Hesab edirəm ki, aramızda anlaşma var və təcrübə mübadiləsi aparacaq, qarşılıqlı fəaliyyət göstərəcəyik. Ümidvaram ki, ünsiyyət üçün geniş imkanlarımız vardır. Biz bir sıra kütləvi yarışlar zamanı birgə toplanışlar keçirmişik. Anlaşma vardır, biz bir dildə danışırıq.

Bu gün burada olmaq mənə çox xoşdur. Ümidvaram əlaqələrimiz davam edəcək, artacaq və biz birlikdə qələbələr qazanacağıq. Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun, siz yalnız Bakıdakı idman komplekslərində olmusunuz. Demək istəyirəm ki, son 4 il ərzində respublika ərazisində, bölgələrdə 10-dan çox müasir idman bazası tikilmişdir. Orada mehmanxanalar, hovuzlar, idmanla məşğul olmaq üçün hər cür şərait vardır. Çünki hər bir ölkədə olduğu kimi, istedadların əksəriyyəti ucqar yerlərdədir. Əgər idmanla məşğul olmaq imkanı yoxdursa, onda bu istedad özünü göstərməyəcəkdir. Biz buna xüsusi diqqət yetiririk, çünki bu, təkcə idmanda uğurlar və medallar deyil, həm də millətin, gələcək nəslin sağlamlığı, gənclərin normal həyat tərzidir. Mən özüm səkkiz ildir Azərbaycan Milli Olimpiya Komitəsinə başçı-

lıq edirəm və Azərbaycan prezidenti seçildikdən sonra da bu vəzifəni heç kimə vermədim, bu vəzifədən getmədim və getməyəcəyəm. Ona görə ki, bu vəzifə mənim üçün çox əzizdir və bu sahədə çox iş görmək olar. Özü də məhz gənc nəslin yaramaz işlərlə məşğul olmaması, narkotik vasitələrdən, spirtli içkilərdən istifadə etməməsi üçün. Gənclərin hərtərəfli inkişafı üçün alternativ yaratmaq lazımdır.

Xokkeyə gəldikdə isə, həmin nöqsanı bu il aradan qaldıracağıq. Büdcəmizdə xokkey meydançasının bərpası üçün vəsait nəzərdə tutulmuşdur. Bizim böyük idman sarayının yanında xokkey stadionu da tikilmişdir. Bu obyektin tikintisini Heydər Əliyev başlamış və başa çatdırmışdı. Sonra hər şey dəyişməyə başladıqda, obyekt yada düşmədi. Sovet İttifaqı dağıldı və əlbəttə, bu işə heç kəs diqqət yetirmədi. Meydança qaldı, lakin orada buz örtüyü yaranmadı. Ona görə də bu il qərara gəldik ki, bizim xokkey stadionumuz olacaq, xokkey komandası yaradacağıq. Ola bilər, bu, kiməsə qeyri-ciddi görünəcək – Azərbaycan və xokkey. Lakin ümidvaram ki, biz burada da uğurlar qazanacağıq, sizi də bizim xokkeyin səviyyəsi ilə tanış olmağa dəvət edəcəyik. Amma yəqin ki, bu, iki ildən tez olmayacaqdır.

**Vyaçeslav Fetisov:** Məşqçi lazım olsa, mən hazıram.

**Mixail Şvidko** (*Rusiya Federal Mədəniyyət və Kinematoqrafiya Agentliyinin rəhbəri*) **:** Çox hörmətli İlham Heydəroviç, cənab Prezident!

Siz gözəl bilirsiniz ki, mədəniyyət sahəsində Rusiya–Azərbaycan münasibətləri əslində heç vaxt ara verməmişdir. Burada əsas rolu Heydər Əliyev oynamışdır, çünki o, mədəniyyətin ölkələrimiz arasındakı münasibətlərdə nə kimi rol oynadığını çox gözəl bilirdi. Siyasi toqquşmaların yaranmasından, siyasi münasibətlərdə hansı incə məqamların meydana çıxmasından asılı olmayaraq, mədəniyyət zəminində hər şey çox sadə olmasa da, hər halda, asan həll olunurdu. Əlbəttə, dəyişməz nazir Polad müəllimin Moskvada hamını yaxşı tanıması və Moskvadakıların onu yaxından tanımaları da çox ciddi rol oynamışdı.

Ona görə də münasibətlər həmişə yüksək etimad əsasında qurulurdu və əlbəttə ki, Moskvadakı Azərbaycan diasporunun yüksək nüfuzu – bu da çox vacibdir –həm əlaqələrimizin inkişafında, həm də Rusiya və Azərbaycan mədəniyyətlərinin inkişafında da çox mühüm rol oynamışdır.

Düşünürəm ki, indi Azərbaycanda bu münasibətləri genişləndirməyə imkan verən şərait yaradılır. Filarmoniyanın, opera teatrının binalarının bərpa edilməsi, regionlarda görülən işlər – təəssüf ki, son vaxtlar rayonlara getməyə imkanım olmayıb, ancaq mənə deyiblər ki, Lənkəranda teatr binasının bərpası başa çatdırılmışdır, Şəkidə çox gözəl teatr vardır – belə deməyə əsas verir. Mən respublikanızın nailiyyətlərindən sizə danışmayacağam, lakin bizim üçün bu nailiyyətlər vacibdir. Əgər əvvəllər biz, əsasən Bakı ilə münasibətlərə istiqamət götürürdüksə, bu gün aydındır ki, ən müxtəlif imkanlar mövcuddur. Fevralın 16-da biz Rusiyada Azərbaycan ilinə başlayırıq və o, Kreml sarayında Azərbaycan mədəniyyət xadimlərinin böyük konserti ilə başlanacaqdır. Biz bütün il üçün Azərbaycan kollektivlərinin çox ciddi, geniştərkibli qastrollarını planlaşdırmışıq. Zənnimcə, İTAR-TASS və digər kütləvi informasiya vasitələri ilə çox sıx əməkdaşlıq şəraitində işləməyimiz də – burada mədəniyyət barədə çox yazan qəzetlərin baş redaktorları iştirak edirlər – bizim münasibətlərimizə yeni təkan verəcəkdir, bu il və Rusiya mədəniyyətinin Azərbaycanda təmsil olunacağı növbəti il bizim üçün yeni imkanlar açır.

Təbii ki, biz Polad Bülbüloğlunun yubileyini qeyd etmək fürsətini əldən verməyəcəyik. Mən hazırda gənc nəsli bunun üçün hazırlayıram. Sizə yalnız bircə şey deyim: Yeni il proqramı hazırladığım zaman təsadüfən – Moskvada Mahmud Esembayevin xatirəsinə həsr olunmuş konsert var idi – Poladı dəvət edə bildim və o orada popurri ifa etdi. Bundan sonra mənə aramsız telefon zəngləri edilirdi. Eləcə də, Böyük Teatrın səhnəsində Qara Qarayevin «Yeddi gözəl» baleti göstəriləndən sonra reaksiya heyrətamiz idi. Mən bütün bunları böyük məmnunluqla qə-

bul edirəm və deməliyəm ki, qarşılıqlı səfərlərimiz bizim üçün olduqca xoşdur.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən sizinlə tamamilə razıyam ki, mədəni əlaqələr əslində bir saniyə, bir gün belə qırılmamışdır. Bu əlaqələr elə möhkəmdir və qarşılıqlı surətdə elə sıx bağlıdır ki, istəsək də onları qıra bilmərik. Biz çox şadıq ki, indi bu əlaqələr möhkəmlənir və bu işdə sizin xidmətləriniz çox böyükdür. Siz Azərbaycana çox tez-tez gəlmisiniz və gəlirsiniz. Biz sizin maraqlı verilişləri çox sevirik və televiziya ilə onlara baxırıq. İstəyirik ki, bu əlaqələr mədəni həyatın müxtəlif sahələrində daha da möhkəmlənsin. Əlbəttə Rusiya mədəniyyət ustaları kommersiya səviyyəsində, qastrola çox gəlirlər, Rusiya vilayətlərinin nümayəndələri mədəniyyət günləri çərçivəsində gəlirlər. Rusiya televiziyasının verilişlərinə də baxırıq. Sizin dediyiniz kimi, infrastrukturun yaradılmasına böyük diqqət yetirməyə çalışırıq, çünki incəsənət xadimlərinin özlərini yaxşı, rahat hiss etməsi, yaxşı şəraitdə işləməsi rəhbərlikdən, hökumətdən, dövlətdən asılıdır. Regionlardakı teatrlar modernləşdirilir. Bakıda da onların bərpa edilməsinə ehtiyac var, çünki bəziləri bir qədər köhnəlmişdir. Odur ki, mən Nazirlər Kabinetinə Bakı şəhərindəki bütün teatrların tam bərpası proqramını hazırlamağı tapşırmışam. Biz muzeylər üzrə belə proqramı həyata keçirməyə artıq başlamışıq. Muzeylərimizi təkcə təmir, dizayn, interyer baxımından deyil, həm də dünyada mövcud olan müasir muzey texnologiyaları baxımından dünya standartlarına tam uyğunlaşdıracağıq.

Teatrlar üzrə də bu cür proqram gözlənilir və onu həyata keçirəcəyik. Biz mədəniyyət xadimlərinə maddi cəhətdən də kömək etməyə çalışırıq. Heç kim üçün sirr deyil ki, formasiya dəyişdikdən sonra humanitar sahə, necə deyərlər, arxa planda qalmışdı. Yəqin ki, obyektiv səbəblər olmuşdur, çünki hər bir ölkə, ilk növbədə, iqtisadi vəziyyətini yaxşılaşdırmaq haqqında düşünürdü. Belə ki, iqtisadiyyatdakı böhran vəziyyəti hamı üçün – Azərbaycan, Rusiya və digər qonşularımız üçün səciyyəvi idi. Humanitar sahə, bir növ ikinci plana keçmişdi. Mədəniyyət xa-

dimləri həmişə xüsusi üstünlüklərdən, imtiyazlardan istifadə etmiş, ehtiram sahibi olmuşlar. Əlbəttə, onların maddi vəziyyəti də ağırlaşmışdı. Odur ki, Azərbaycanda mədəniyyət xadimlərinin böyük bir qismi üçün aylıq Prezident təqaüdü təyin edilmişdir. Bu təqaüdü alanların sayı ildən-ilə artır və onları maddi cəhətdən müəyyən qədər dəstəkləmək üçün məbləğ də az deyildir. Çünki bu adamlar bizneslə məşğul ola bilmirlər, onların başqa imkanları yoxdur. Onların bizneslə məşğul olması lazım da deyildir. Bacardıqları işlə məşğul olması, peşəkarlıqlarını nümayiş etdirməsi lazımdır.

Əlbəttə, hər şey yenə də iqtisadi imkanlardan asılıdır. Əgər ölkədə vəsait varsa, əlbəttə ki, ondan istifadə olunur. Odur ki, indi biz bütün səylərimizi belə güclü iqtisadi baza yaradılmasına yönəldirik. Mən həyatdakı, iqtisadi inkişafdakı özəl sektorun rolundan artıq danışmışam. Əgər büdcəmizə nəzər salsaq görərik ki, vəsaitlərin əsas hissəsi sosial proqramlara yönəldilmişdir. Bu, əməkhaqqı, pensiyalar, müavinətlərdir. Bazar iqtisadiyyatı sosial proqramları rədd etmir, əksinə, bu proqramları, o cümlədən də humanitar, mədəniyyət sahələrində daha çox həyata keçirməyə imkan verir.

Biz Rusiyada Azərbaycan günlərinin başlanmasını səbirsizliklə gözləyirik. İlk dəfə keçiriləcək bu tədbir böyük hadisə olacaq, əvvəllər belə hal olmamışdır. Mədəniyyət günləri keçirilirdi, lakin bir ölkədə digər ölkənin günlərinin keçirilməsi həyatımızda yeni mərhələdir.

**Vitali Smirnov** (*Beynəlxalq Olimpiya Komitəsinin birinci vitse-prezidenti, Rusiya MOK-un fəxri prezidenti*)**:** Hörmətli cənab Prezident!

Sizin Milli Olimpiya Komitəsinin prezidenti olmağınız faktı Vyaçeslav Aleksandroviçdən sonra müəyyən dərəcədə mənə də çıxış etmək hüququ verir. Bizi, adətən, xoşagəlməz hadisələrlə üzləşdirən və təmizliyi uğrunda nazirimizin mübarizə apardığı futbol indiki halda işimizi yüngülləşdirmişdir. Mən Azərbaycan komandasının Moskva turnirindəki çıxışını nəzərdə tuturam və biz ona yeni uğurlar arzulayırıq.

**İ l h a m  Ə l i y e v:** Bundan əvvəlki, yarımfinala çıxmaq uğrunda qonşuların komandası ilə keçirilən oyun bizim üçün daha vacib idi.

**V i t a l i  S m i r n o v:** Mən bu salonda olarkən Heydər Əliyeviçin Moskva Olimpiadasına hazırlıq dövründə sovet idmanına köməyini və çox böyük töhfəsini xatırlamaya bilmərəm, 1980-ci illərdə idmana o, kuratorluq edirdi. Biz bunu heç vaxt unutmayacağıq. Görülmüş bütün böyük işlər, Sizin dediyiniz kimi, bölgələrdə tikilmiş iri idman mərkəzləri, bizim burada gördüyümüz gözəl idman salonları – təkbətək döyüş və həndbol salonları, idmanın digər növləri üçün salonlar dünyada ən yaxşı idman qurğularından hesab oluna bilər və bunlar çox şeyə dəlalət edir. Mən belə bir cəhəti də vurğulamaq istərdim ki, Azərbaycan, Azərbaycan idmançıları, təşkilatları çox mötəbər beynəlxalq tədbirlər keçirmək hüququ qazanmışlar. Bunu demək kifayətdir ki, idmanın 27 növü üzrə keçirilən yay Olimpiya oyunlarının üç növü, o cümlədən hakimlik baxımından, deyərdim ki, çox mürəkkəb olan boks üzrə təsnifat yarışlarını idmançılar burada keçirdilər. Heç bir irad da olmadı.

Həmkarlarıma demək istərdim ki, yaxın illərdə, bu il burada, Bakıda bədii gimnastika üzrə dünya çempionatı, ağır atletika, güləş üzrə dünya çempionatları keçiriləcəkdir. Bir sözlə, Azərbaycanın idman təşkilatları çox böyük nəticələrə nail olmuşlar və olurlar. Azərbaycan idmançılarının Olimpiya oyunlarında çıxışları olimpiadadan-olimpiadaya daha da yaxşılaşır. Azərbaycan olimpiyaçıları Atlantada bir, Sidneydə 3 medala layiq görülmüşdülərsə, Afinada 5 medal qazandılar. Bu belə ölkə üçün böyük, çox yüksək nəticədir.

Ölkələrimizin dövlət, ictimai təşkilatları arasında yaranmış əlaqələrdən də son dərəcə məmnun qaldığımı bildirmək istərdim. Biz səylərimizi dəqiq əlaqələndiririk. Düşünürəm ki, bu həm Rusiya idmanına, həm də Azərbaycan idmanına qarşılıqlı fayda gətirir. İlham Heydəroviç, bundan əlavə, Beynəlxalq Olimpiya Komitəsi prezidentinin tapşırığını yerinə yetirərək, idmanın inkişafında xidmətlərinizə görə BOK-un minnətdarlığı

əlaməti olaraq, bu xatirə hədiyyəsini Sizə təqdim etmək istərdim.

**İ l h a m Ə l i y e v:** Hörmətli Vitali Georgiyeviç, səmimi sözlərə görə çox sağ olun. Bizi uzun illər birgə iş və dostluq əlaqələri bağlayır. Xatirimdədir, 1997-ci ildə Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçilməyimdən cəmi bir neçə ay sonra Stokholmda Avropa konqresi keçirilirdi və mən orada ilk dəfə iştirak edirdim. Biz onda tanış olduq və elə o vaxtdan aramızda ən səmimi və mehriban dostluq münasibətləri yarandı. Əlbəttə, hazırda ölkələrimizin idmançıları arasında çox sıx qarşılıqlı əlaqələr mövcuddur. Biz çox çalışırıq ki, birgə tədbirlərimiz, toplanışlarımız, birgə hazırlığımız daha çox olsun. İdmançılarımız Rusiya idmançıları ilə birgə məşq etsinlər. Biz Azərbaycanda toplanışlar, məşqlər üçün yaxşı şərait yaratmışıq. Odur ki, Rusiya idmançılarının yolunu gözləyirik. Bizim Olimpiya avarçəkmə bazamız da uzun illər istifadəsiz qalmışdır. Bildiyiniz kimi, Mingəçevirdəki avarçəkmə bazası Sovet İttifaqında nadir və suyu donmayan yeganə baza idi. Uzun illər orada işğal edilmiş ərazilərdən olan qaçqınlar yaşayırdılar. Lakin ötən il elə orada, Mingəçevirdə qaçqınlar üçün yeni evlər tikildi və onlar bazadan köçürüldülər. Odur ki, indi biz bu bazanın ən yüksək səviyyədə yenidən qurulması məsələsini çox ciddi surətdə müzakirə edirik. O bizim bütün dostlarımız üçün açıq olacaqdır.

Azərbaycanda bu idman növü hələlik çox da güclü inkişaf etməyibdir. Lakin düşünürəm ki, bu baza istifadəyə veriləndən, buraya Rusiyadan, digər ölkələrdən idmançılar gəlməyə başlayandan sonra bizim idmançılarımızda da irəliləyiş olacaqdır. Çox ümid bəsləyirəm ki, bu sahədə əməkdaşlıq davam etdiriləcəkdir. Bu vacibdir. Bir çox ölkələrdə başa düşmüşlər ki, idman heç də, sadəcə olaraq, dövlətin həyatının amillərindən biri deyil, həm də təbliğatın, ictimai rəy yaradılmasının, habelə qarşılıqlı fəaliyyətin çox mühüm amilidir. Çünki insanlar, gənclər idman vasitəsilə, idman yarışları vasitəsilə bir-birini tanıyır, əlaqə yaradır, ünsiyyətdə olurlar. Əlbəttə ki, idman ulduzları böyüməkdə olan gənc nəsil üçün həmişə böyük rol oynamışlar. Azərbay-

canda biz idmanın yenidən fəxrli və nüfuzlu bir iş olmasına, idmançılara hörmət bəslənilməsinə, onların məişət problemlərinin həll edilməsinə çalışırıq və bu istiqamətdə müəyyən uğurlar qazanmışıq. Qələbələr qazanmaq naminə, dövlətin bayrağının beynəlxalq yarışlarda qaldırılması üçün özünün bütün gəncliyini, sağlamlığını idmana həsr edən insanlar, əlbəttə ki, hamıda iftixar hissi oyadırlar. Yəqin ki, insanları idmanda qazanılan qələbə qədər sıx birləşdirən heç nə yoxdur. Bu baxımdan mövqelərimiz oxşardır və biz bundan sonra da fəal əməkdaşlıq edəcəyik.

**Gennadi Burbulis** (*Rusiya Federal Məclisi Federasiya Şurasının üzvü*)**:** Hörmətli cənab Prezident!

Sizinlə görüşmək imkanına görə çox sağ olun. Bizim mötəbər nümayəndə heyətimizdə mən Rusiya parlamentini təmsil edirəm. Sizi əmin edə bilərəm ki, bizim münasibətlərimiz məzmunlu, kifayət qədər konstruktiv və qarşılıqlı surətdə faydalıdır. Lakin bu gün burada xüsusi hisslər keçirirəm, çünki həyat elə gətirmişdir ki, – özü də bu mənim üçün hadisə idi hörmətli Heydər Əliyeviç Əliyevlə çox tez-tez görüşməli olurdum. Həmin çox mürəkkəb vəziyyətdə onun müzakirə etdiyimiz ideyaları, baxışları və qənaətlərinin əhəmiyyətini mən indi o vaxtkından daha çox başa düşürəm. Bizim bu gözəl axşam görüşümüzdə Sizdən belə bir suala cavab verməniz xahiş etmək istəyirəm. Biz buraya hər il gəlirik və əmin oluruq ki, dövlətin və ölkənin inkişafı üçün üç əsas var. Bu, sabit siyasi – dövlət sistemidir. Sizdə bu, göz qabağındadır. İkincisi, inamlı sosial-iqtisadi inkişafı təmin edən iqtisadi yüksəlişdir. Sizdə bu da göz qabağındadır. Üçüncü amil də var ki, o indi bizim ölkəmizdə problemə çevrilir. Bu məsələ barədə Sizin baxışlarınızı bilmək istərdim. Bütün bunlar insanların təşəbbüsünü sərbəstləşdirən, ictimaiyyət üçün, vətəndaş cəmiyyəti təsisatları üçün qanunvericilik şəraiti yaradılması ilə bağlı olan amillərdir. Cənab Prezident, Siz həyatın bu sahəsini necə qiymətləndirirsiniz? Maraqlıdır, burada nə kimi perspektivlər var?

Yadımdadır, keçən il Siz qanunvericiliyi demokratikləşdirmək barədə danışdınız. Biz bunu qiymətləndirir, qəbul edirik.

Şəxsən Sizin üçün nə kimi problemlər və perspektivlər mövcuddur?

**İ l h a m   Ə l i y e v:** Problemlər inkişafın keçid mərhələsini yaşayan hər bir ölkənin qarşılaşdığı problemlərlə oxşardır. Əlbəttə, bəziləri deyirlər ki, keçid mərhələsi bir qədər uzanır və hər şeyi keçid mərhələsi ilə bağlamaq, yəqin düzgün olmazdı. Amma obyektiv olaraq bunu da inkar etmək olmaz. Çünki əgər iqtisadi potensialın möhkəmləndirilməsində müvəffəqiyyətə çox tez və müəyyən addımlarla, islahatlarla, iqtisadi təşəbbüslərlə nail olmaq mümkündürsə, əgər cəmiyyəti sıx birləşdirmək və ictimai əmin-amanlığa, həmrəyliyə nail olmaq mümkündürsə, cəmiyyətin demokratikləşməsi işində buna kömək edə biləcək hansısa dəqiq ifadə olunmuş tədbirlər mövcud deyildir. Bu, müxtəlif istiqamətlərdə baş verən prosesdir. Əlbəttə ki, müəyyənləşdirici amil bu məsələyə dövlətin münasibətidir. Bu məsələdə bizdə heç bir fikir ayrılığı yoxdur. Azərbaycan demokratiyanın, plüralizmin inkişafı prinsiplərinə tam sadiqdir. Bizdə söz azadlığı, öz fikrini ifadə etmək azadlığı və qalan bütün azadlıqlar tam mövcuddur. Siyasi partiyalar, demokratik təsisatlar da fəaliyyət göstərirlər. Azərbaycan Avropa Şurasının üzvü olmazdan əvvəl götürdüyü bütün öhdəlikləri – bildiyiniz kimi, Avropa Şurası demokratik dəyərlərin qorunması və irəlilədilməsi baxımından nadir bir təşkilatdır – biz yerinə yetiririk. Biz 2001-ci ildən Avropa Şurasının üzvüyük və bu üzvlük demokratik proseslərin inkişafı üçün qanunvericiliyi təkmilləşdirmək, əlverişli şərait yaratmaq baxımından çox böyük rol oynamışdır. Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinə əvvəldən və Baş nazir təyin olunana qədər mən özüm başçılıq etmişəm. Ona görə də vəziyyəti daxildən və ölkəmizdə ictimai proseslərə nə kimi müsbət təsir göstərildiyini çox yaxşı bilirəm. Demokratiya inkişaf etdirilməsə, demokratik cəmiyyət yaradılmasa, iqtisadi uğurlar yarımçıq olacaq və ümumən, uzunmüddətli ola bilməz. Başqa misallar da var. Bilirik ki, qeyri-demokratik şəraitdə iqtisadiyyatın uğurla inkişaf etdiyinə dair misallar mövcuddur, lakin

bütün bunlar müvəqqətidir. Bunlar cəmiyyətdə münasibətlərin ahəngdarlaşdırılmasına gətirib çıxara bilməz.

Azərbaycan öz xəttini bir neçə il əvvəl dəqiq müəyyən etmişdir. Bu, dövlətimizin strateji xətti və liderimizin seçimi idi və mahiyyəti də ondan ibarətdir ki, biz Dünya Birliyinə inteqrasiya yolu ilə irəliləyəcəyik. Cəmiyyəti demokratikləşdirmək və vətəndaş azadlıqlarını təmin etmək yolu ilə, demokratiyanın inkişafı yolu ilə gedəcəyik. Odur ki, bu, dərk edilmiş seçimdir. Atdığımız addımların hamısı bu istiqamətdə olmuşdur. Əlbəttə, deyə bilmərəm ki, bu sahədə vəziyyət idealdır. Belə deyildir. Problemlər mövcuddur, anlaşılmazlıq da mövcuddur. Lakin vətəndaşın imkanları və demokratik cəmiyyətdə hüquqları, təəssüf ki, bəzən düzgün şərh edilmir və qiymətləndirilmir. Məsələn, ölkədə hərc-mərclik yaradılmasını, kütləvi iğtişaşları demokratik inkişafın amilləri kimi biz heç zaman qəbul edə bilmərik.

Təəssüf ki, bu məsələdə bəzən anlayışlar dolaşdırılır. Demokratiya özbaşınalıq deyil, qayda-qanun deməkdir. Demokratiya qanuna hörmət və qanunun aliliyi deməkdir. Odur ki, demokratik proseslər və qanunvericilik çərçivəsində olan hər şey Azərbaycanda təşviq olunur, dəstəklənir və hökumət buna kömək etməyə çalışır. Lakin bu, demokratik proseslərin çərçivəsindən çıxdıqda, Azərbaycanda bəziləri hansısa şüarlarla pərdələnərək vəziyyətin sabitliyini pozmağa çalışdıqda, habelə biz həmin şüarlar altında Azərbaycanın milli mənafelərinin sarsıdılmasına yönəldilmiş hərəkətlər olduğunu hiss etdikdə, əlbəttə, buna sakitcə baxa bilmərik və prezident kimi, mənim bundan yan keçməyə haqqım yoxdur. Azərbaycan vətəndaşlarının təhlükəsizliyinə təminat verilməsi prezidentin ən mühüm vəzifələrindən biridir. Düşünürəm ki, demokratik proseslərin və inteqrasiya proseslərinin inkişafı baxımından regionda ümumi meyl artıq müəyyən edilmişdir. Əlbəttə ki, gələcəkdə bu yolda yeni mərhələlər, yeni dövrlər olacağı nəzərdə tutulur. Seçkilik, şəffaflıq prosesləri, korrupsiya ilə mübarizə – yeri gəlmişkən, biz korrupsiya ilə mübarizə haqqında qanun qəbul etmişik və o, cari

ildən qüvvəyə minib – bütün bu tədbirlər cəmiyyətin demokratikləşməsinə kömək edəcəkdir.

İqtisadi azadlıq da mühüm amildir. İndi Azərbaycanda iqtisadi azadlığın səviyyəsi çox yüksəkdir. Sahibkarlığın inkişafına çox böyük diqqət yetirilir. Sahibkarlığa yardım göstərilməsi üçün bu il dövlət büdcədən kiçik özəl sektorun birbaşa güzəştli kreditləşdirilməsinə yönəldiləcək vəsaiti iki dəfə artırır. Ölkədə baş verənlər hətta kənardan da görünür. Məsələn, tikintinin çox böyük inkişafı. Bütün bunlar iqtisadi fəaliyyət və kommersiya fəaliyyəti üzərindən məhdudiyyətlərin tam götürülməsi sayəsində mümkün olmuşdur. Bütün yoxlama orqanlarına dəqiq göstərişlər verilmişdir ki, sahibkarlara heç bir maneçilik törətməsinlər. Mən Azərbaycan sahibkarları ilə dəfələrlə görüşmüşəm, onları dəstəklədiyimi birmənalı şəkildə açıq bəyan etmişəm və bütün müvafiq orqanları onlara kömək göstərməyə, yaxud, heç olmasa, əngəl törətməməyə çağırmışam. Orta sinfin yaradılması bizim öncül vəzifələrimizdən biridir. Regionların inkişafı elə regionlarda orta sinfin yaradılması demək olacaqdır. İnsan – biznesmen, vətəndaş iqtisadi cəhətdən asılı deyilsə, siyasi cəhətdən də asılı olmur və bu zaman ona kiminsə tərəfindən təsir göstərmək çətin olur. Başqa sözlə, bu bizim strateji vəzifəmizdir və biz ona doğru gedirik.

Deməliyəm ki, ötən il ərzində bu istiqamətdə çox böyük uğurlar qazanılmışdır. Azərbaycanda uzun illər mövcud olan "siyasi məhbuslar" deyilən məsələ də öz həllini tapmışdır. Axı Azərbaycanda indiki vəziyyətə qiymət vermək üçün o zaman, 1990-cı illərin əvvəllərində – 1991-ci, 1992-ci illərdə nələr baş verdiyini bilmək lazımdır. Baş verənlər isə silahlı çevrilişlər, hökumətlərin devrilməsi idi. Bunlar hər il olurdu. Əlbəttə ki, mübarizə mövcud idi. Bu, siyasi mübarizə idi, əldə silahla aparılan hərbi mübarizə idi. Çoxlu qurban verilmişdi. Azərbaycanda baş vermiş vətəndaş müharibəsi azərbaycanlılar arasında müharibə idi. Əlbəttə, bütün bu daxili münaqişələr nəticəsində həbs olunmuş insanlar da var idi. Bu məsələ həm ölkədə, həm də xaricdə müzakirə olunurdu. 2003-cü ilin axırları və 2004-cü ilin

əvvəllərində «siyasi məhbuslar» deyilən məsələ, demək olar ki, həll olundu.

Onların hamısı azadlığa buraxılmışdır. Hazırda onlar siyasi fəaliyyətlə məşğuldurlar. Odur ki, bu məsələdə prezident kimi, mənim mövqeyim birmənalıdır və məhz siyasi barışıq ab-havasının yaradılmasına yönəldilmişdir. Bəzən bizdə də dolaşıqlıq yaranır: milli həmrəylikdən danışırlar. Azərbaycanda milli həmrəylik var və 2003-cü ilin seçkiləri bunu sübut etdi. Bu gün iqtidara olan etimad kifayət qədər yüksəkdir və islahatları həyata keçirməyə imkan verir. Siyasi həmrəylik isə, təəssüf ki, hələ yoxdur. Çünki indiyədək Azərbaycanda siyasi partiyalar və qüvvələr arasında, yumşaq desək, qərəzli münasibətlər mövcuddur. Dialoq, konstruktiv münasibətlər yoxdur.

Mən prezident seçkilərindən əvvəl də, sonra da bütün siyasi qüvvələri dəfələrlə dialoqa çağırmışam. Baxmayaraq ki, bizim partiyanın siyasi maraqları baxımından bu dialoq aktual deyil, çünki Yeni Azərbaycan Partiyası həm parlamentdə çoxluğa malikdir, həm də mən – onun nümayəndəsi prezidentəm. Lakin hakimiyyətlə müxalifət arasında normal münasibətlər yaradılması baxımından bu vacibdir. Biz qarşıdurma səhifəsini, keçmişin səhifəsini çevirməliyik. Yeri gəlmişkən, deyə bilərəm ki, bu gün Azərbaycanda özünü demokratik müxalifət kimi göstərməyə çalışan qüvvələr 1992-ci ildə ölkədə hərbi yolla hakimiyyəti devirmişdilər. Bu qüvvələr 1993-cü ildə azərbaycanlılara qarşı hərbi tədbir keçirərək Gəncədə çoxlu sayda binanı topa tutmuşdular. Həmin qüvvələr bu gün özlərini demokrat kimi göstərmək istəyirlər. Ancaq tarix belə "demokratları" yaxşı tanıyır.

Lakin bununla belə, mən hesab edirəm ki, keçmişin bütün cinayətlərinə baxmayaraq, yekun vurmaq vaxtıdır. Biz kiçik dövlətik. Bizim ərazimizin Ermənistan tərəfindən işğal olunması, qaçqınlar, coğrafi-siyasi vəziyyət kimi problemlərimiz var. Heç kim üçün sirr deyil ki, regionda vəziyyət mürəkkəbdir. Bakıda oturub hansı tərəfə – şimala, cənuba, qərbə baxsan, hər yerdə münaqişədir. İraqda münaqişə, Azərbaycanın özündə münaqişə, Çeçenistanda münaqişə və s. Bir sözlə, regionda vəziyyət mü-

rəkkəbdir. Əgər biz Azərbaycanda əmin-amanlığı, sülhü və davamlı inkişafı qoruyub saxlaya bilmişiksə, bu, təkcə bizim üçün deyil, həm də regional münasibətlər, o cümlədən qonşularımızla ikitərəfli münasibətlər üçün də vacibdir. Odur ki, ölkəmizdə sülh və təhlükəsizlik bizim üçün prioritet məsələdir.

İstərdik ki, siyasi planda da sülh olsun, ölkəmizdə siyasi fonda, siyasi müstəvidə təcavüzlər qurtarsın. Lakin bu, əlbəttə ki, təkcə bir tərəfdən asılı deyildir. Bunda siyasi prosesin bütün iştirakçılarının arzusu olmalıdır. Təəssüflə deməliyəm ki, biz bu istəyi hiss etmirik. Əksinə, konstruktiv dialoq yaratmaq üçün bizim göstərdiyimiz cəhdlər nəticəsiz qaldı. Mən bunu deməyə məcburam. Lakin, eyni zamanda, bu, əlbəttə ki, qarşımızda duran proqramları həyata keçirməkdə bizə mane ola bilməz və olmur. Bu proqramlar isə məhz təhlükəsizliyin möhkəmləndirilməsindən, sabitliyin, ictimai asayişin, iqtisadi yüksəlişin qorunub saxlanmasından, sosial problemlərin həllindən, əmək haqqının, pensiyaların artırılması və sairdən, habelə ölkəmizin dünya strukturlarına inteqrasiyasından ibarətdir. Bu baxımdan düşünürəm ki, həmin istiqamətlərin hamısında planların yerinə yetirilməsi təmin olunarsa, habelə strateji tərəfdaşlarımızla və regiondakı dost dövlətlərlə münasibətlər inkişaf edərsə, ölkəmiz müvəffəqiyyət qazanacaqdır.

**P a v e l Q u s e v** (*Moskva Jurnalistlər İttifaqının sədri, «Moskovski komsomolets» qəzetinin Baş redaktoru*)**:** Burada çox sözlər söylənildi. Bizim nəinki Azərbaycanda olmaq, baxmaq, həm də ən dərin mətləblərə varmaq imkanımız oldu. Yəni, heç yerdə yolumuzu kəsmirlər. Bu nə üçün belədir? Onun üçün ki, Azərbaycanın Rusiya jurnalistlərindən, sadəcə, çəkinməli heç nəyi yoxdur. Bir fikir verin: bizi Özbəkistana dəvət etmirlər, Türkmənistana dəvət etmirlər. Heç kim, heç bir prezident bizi oraya buraxmır, bura isə, buyurun, deyirlər. Biz buraya nəinki, sadəcə olaraq, gəlirik, bizi buraya hətta dartıb gətirirlər. Amma dartmaq lazım deyil, çünki haraya getdiyimizi və niyə getdiyimizi çox gözəl bilirik. Göstərdikləri bu təşəbbüsə görə burada hamının yanında, Jurnalistlər İttifaqı adından iki həmka-

rımıza - Vitali Nikitiç İqnatenkoya və Mixail Solomonoviç Qusmana təşəkkür etmək istəyirəm.

Bir neçə il əvvəl, böyük Heydər Əliyeviç Əliyevin təşəbbüsü və dəvəti ilə buraya gələndə və onunla ilk söhbətdən, görüşdən sonra başa düşdük ki, öz evimizə gəlmişik, elə bir yaxşı evə ki, buraya dönə-dönə qayıtmaq, gəlmək istəyirsən və bilirsən ki, burada sənə ancaq xoş münasibət göstəriləcəkdir. Bax, ona görə də jurnalistlər buraya gəlirlər, Azərbaycanda yaxşı nə varsa, hamısını görmək istəyirlər və Azərbaycan haqqında maraqlı şeylər yazırlar – hər şey, bax, bundan irəli gəlir. Xırda-para məsələlər üzərində heç dayanmaq da istəmirsən, çətinliklər hamıda var. Gələcəyə baxmaq istəyirsən. Biz burada həmkarımızla, ölkənin ən hörmətli jurnalistlərindən biri ilə söhbət etdik. O dedi: Fikir verin, hər bir ölkə üçün heyvan obrazı düşünüb tapırlar, məsələn, Çin üçün iqtisadiyyatda Çin pələngi deyirlər, bəs Azərbaycan üçün hansı obraz tapasan? Bilmirəm, mənə elə gəlir ki, bu obraz xalqdır. Əzmlə çalışan bir xalq.

Moskvada ən iri həmyerlilər birliyindən biri var. Qarşıya hər cür problemlər çıxır – biz onların hamısını bilirik. Lakin axı bu, var qüvvə ilə çalışan xalqdır. Moskvada yaşayan azərbaycanlılar arasında avaralar yoxdur, əl açıb küçələrdə dilənənlər yoxdur. Hamı işləyir, ticarətlə məşğul olur, istehsal edir, çalışır. Bax, bu, kimin hərəkətverici qüvvə olduğuna parlaq misaldır. Əlbəttə ki, hakimiyyət sistemi barədə suala cavab verərkən dedikləriniz də buna parlaq misaldır. Biz Sizə nədəsə həsəd aparırıq. Sağ olun.

**İlham Əliyev:** Xoş sözlərə görə çox sağ olun. Doğrudan da, azərbaycanlıların Rusiyada yaşaması və onların oradakı həyatı barədə mövzuya mən də toxunmaq istəyirəm. Bu çox mühüm məsələdir, mühüm sosial məsələdir, həm iqtisadi, həm də siyasi məsələdir.

Çox şadam ki, Rusiyadakı Azərbaycan diasporu təşkilatlanıb – Ümumrusiya Azərbaycan Konqresi yaradılmışdır. Ötən il biz prezident Putinlə birlikdə Konqresin qurultayında iştirak etdik.

Rusiya Federasiyasının, demək olar, bütün vilayətlərində bu Konqresin regional şöbələri var.

Bu, ikitərəfli əlaqələrin inkişafında, habelə Rusiyada yaşayan azərbaycanlıların daha çox müdafiə olunması işində olduqca böyük köməkdir. Əlbəttə, Rusiyada yaşayan azərbaycanlıların böyük əksəriyyəti Rusiya Federasiyasının vətəndaşı deyildir, onlar pul qazanmaq üçün gələn insanlardır. Mənim buna necə münasibət bəslədiyimi soruşanda, həmişə cavab verirəm ki, müsbət yanaşıram. Çünki əgər orada onlar üçün pis olsaydı, orada yaşamazdılar. Əlbəttə, problemlər mövcuddur, hər bir adamın problemləri ola bilər, bütövlükdə isə, zənnimcə, hazırda Rusiyada yaşayan azərbaycanlıların həyatı bir neçə il bundan əvvəl olduğundan xeyli yaxşıdır. Onlar daha çox müdafiə olunurlar, daha məsuliyyətlidirlər və əlbəttə, ölkələrimiz arasında bu cür etibarlı, tərəfdaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsi də Rusiyadakı azərbaycanlıların həyatının daha yaxşı olması üçün böyük amildir. Mən həmişə deyirəm ki, insan istənilən ölkədə bu ölkənin qanunlarına müvafiq yaşamalı, həmin qanunlara hörmət etməli və özünü yaşadığı ölkənin normalarına, qaydalarına və qanunvericiliyinə uyğun aparmalıdır. Əgər o özünü belə aparmırsa, orada yaşamasın. Onlar oraya öz xoşları ilə gedirlər. Əlbəttə, biz çalışırıq və istəyirik ki, bacardığımız qədər onlara kömək edək, onları dəstəkləyək, talelərində rol oynayaq. Bu, mühüm amildir.

Hazırda Azərbaycan diasporu Rusiyada ən böyüklərindən biridir. Özü də azərbaycanlılar təkcə Moskvada deyil, əslində hər yerdə – Rusiya Federasiyasının bütün şəhərlərində, vilayətlərində yaşayırlar. Mən Moskvada olarkən, Azərbaycan diasporu, onun rəhbərliyi ilə görüşmüşəm. Əlbəttə, prezident Putinin Ümumrusiya Azərbaycan Konqresinin qurultayına gəlməsi Rusiyadakı azərbaycanlıların həyatı üçün çox böyük amil idi. Zənnimcə, ikitərəfli münasibətlərimizin bu elementi daimi diqqət tələb edir və Konqres bundan sonra da belə uğurla fəaliyyət göstərəcəkdir. Əlbəttə, hakimiyyət orqanları ilə münasibətlər də çox vacibdir.

Xoş sözlərə görə çox sağ olun, ümidvaram bu münasibətlər saxlanılacaqdır. Əlbəttə, əlaqələr, insanların ünsiyyəti də çox mühüm amildir. Burada dedilər ki, Mixail Solomonoviç ordenlə təltif olunmuşdur. O, həqiqətən, buna layiqdir, mənə xoşdur ki, Azərbaycanın belə nümayəndələri müxtəlif təşkilatlarda, o cümlədən İTAR-TASS-da bu cür yüksək vəzifələr tuturlar.

Nəhayət, biz çox xoş mərasimə gəlib çatdıq. Təltif haqqında sərəncam imzalanmışdır və mən bu gün ordeni təqdim etmək istəyirəm. Onu təqdim etməzdən əvvəl Mixail Solomonoviç haqqında bir neçə söz demək istərdim. Biz bir-birimizi onilliklərdən bəri tanıyırıq. Əlbəttə, çox səmimi dostluq münasibətlərimiz var. Mişa və Yulik tanınmış, ziyalı bakılı ailəsində boya-başa çatmışlar, bu ailəyə Azərbaycanda hamı hörmət edirdi. Ata da, ana da çox böyük hörmət və ehtiram sahibi idilər. Bu ailədə böyüyən uşaqlar da öz soyadının layiqli davamçıları, Azərbaycanın və Rusiyanın layiqli vətəndaşlarıdır. Çox xoşdur ki, onlar fəaliyyətlərində böyük uğurlar qazanmışlar.

Mənə ikiqat xoşdur ki, Azərbaycanda İTAR-TASS günləri və «Şöhrət» ordeninin təqdim olunması Mixail Solomonoviçin şanlı yubileyi ilə bir vaxta düşmüşdür. Artıq bir neçə saatdan sonra onun 55 yaşı tamam olacaqdır. Baxmayaraq ki, biz onu hələ təbrik edəcəyik, mən artıq indidən onu bu şanlı tarix münasibətilə təbrik etmək, ona ən xoş arzularımı bildirmək, cansağlığı, ailədə, işdə və həyatda xoş günlər arzulamaq istəyirəm. Mixail Solomonoviçin vətəninə bəslədiyi məhəbbət müəyyən dərəcədə nadir məhəbbətdir. Bu hər birimizə nəsib olan gənclik haqqında xatirələr deyil, doğma şəhərə, böyüyüb boya-başa çatdığın şəhərə doğma övlad məhəbbətidir, insanlara, dostlara məhəbbətdir. Mixail Solomonoviç, burada sizi də çox sevirlər, sizin böyük uğurlarınıza sevinirlər. İcazə verin, Mixail Solomonoviç Qusmanın «Şöhrət» ordeni ilə təltif olunması haqqında sərəncamı oxuyum:

*«Rusiya–Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə Mixail Solomonoviç Qusman «Şöhrət» ordeni ilə təltif edilsin.*

*İLHAM ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 yanvar 2005-ci il».*

(*Azərbaycan dövlətinin başçısı ordeni Mixail Qusmana təqdim edir*).

**Mixail Qusman:** Hörmətli cənab Prezident!

Hörmətli İlham Heydəroviç!

Belə yüksək mükafat – Rusiya ilə Azərbaycan arasında çoxəsrlik tarixi olan mədəni əlaqələrin möhkəmləndirilməsinə görə mükafat üçün minnətdarlığımı ifadə etməyə söz tapa bilmirəm. Bu həmin əlaqələrin möhkəmlənməsinə mənim kiçik köməyimdir. Hələ Sovet İttifaqı dövründə dövlət mükafatlarının təqdim olunması mərasimini uzun illər televizorda izləyərkən həmişə təəccüblənirdim, görəsən təltif edilənlər nə üçün həmişə deyirlər ki, bu mükafatı kiminləsə bölüşmək istəyirlər. Mənə elə gəlirdi ki, bu, qondarma təvazökarlıqdır. İndi mən özüm də bu rolda olarkən başa düşdüm ki, yox, onlar düz edirlərmiş.

Həqiqətən, bu mükafat, əlbəttə ki, ilk növbədə mənə məxsus deyildir. İlham Heydəroviç, mən Sizinlə razıyam, bu mükafat ilk növbədə valideynlərimə məxsusdur. Bu «Şöhrət» ordeni mənim valideynlərimin şərəfinədir, qoy onların ruhu şad olsun. Onlar bütün ömürlərini Azərbaycana həsr ediblər və Azərbaycan torpağında əbədi olaraq qalıblar. Bu mükafat onların şərəfinədir, onların xatirəsinədir. Bu mükafat, həqiqətən, onlarındır, çünki mənə və Azərbaycanın Xalq artisti, Azərbaycanın əməkdar incəsənət xadimi olan qardaşıma bu böyük torpağa məhəbbət hisslərini, bu torpağa vətənpərvərlik hisslərini onlar aşılamışlar. Biz də bu hissləri bütün ömrümüz boyu yaşadırıq.

Mən artıq 30 ildir evliyəm, bu il toyumuzun 30 illiyini qeyd edəcəyik, ailəmizdə həyat yoldaşımla başlıca ixtilafımız da belə bir mübahisə üstündə olur ki, hansı şəhər daha gözəldir – onun

əslən olduğu Nizaminin vətəni qədim Gəncə, yoxsa mənim doğulub boya-başa çatdığım Bakı? Hələlik mən qalib gəlirəm. Amma siz gəncəlilərə bələdsiniz, onlar möhkəm adamlardır, onlarla mübahisə etmək çətindir, ona görə də vəziyyət mürəkkəbdir.

Bu mükafat, ilk növbədə, həqiqətən böyük agentlik olan İTAR-TASS-dakı həmkarlarıma, öz borcunu Azərbaycanda gedən gözəl proseslər barədə ölkəyə və dünyaya düzgün və obyektiv məlumat verməkdə görən həmkarlarıma məxsusdur. Onlar vicdanla, peşəkarcasına və obyektivliklə işləyirlər. Bu onların gündəlik əməyidir. Mən həmkarlarıma minnətdaram, Vitali Nikitiç İqnatenkoya çox minnətdaram. Onun şəxsi mövqeyi belədir ki, Azərbaycan əslində necə varsa, agentliyimizin xəbərlər lentində də elə olmalıdır.

Qurub-yaradan ölkə kimi, Leonid İliç Brejnevin indi dəbdə olmayan kəlamını xatırlasaq, əvvəlkitək iri addımlarla irəliləyən ölkə kimi göstərilməlidir.

Mənim oğlum da buradadır, oxuduğu Boston şəhərindən bir neçə saat əvvəl gəlmişdir. Onun damarlarında təkcə mənim etnik yəhudi qanım deyil, azərbaycanlı qanı da axır. Çox ümidvaram ki, o öz vətəninə məhəbbət hissini qəlbində bütün ömrü boyu yaşadacaqdır.

Mən bu mükafata görə çox minnətdaram, eyni zamanda, onu da xatırlayıram ki, özümün ilk mükafatımı – Azərbaycan Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanını mənə Azərbaycanın ümummilli lideri, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyeviç Əliyev təqdim etmişdir. O həmin mükafatı mənə təqdim edərkən demişdi ki, ümidvaram, bu sənin axırıncı mükafatın deyildir. Mən onun xeyir-duasını yerinə yetirə bildiyimə görə, həqiqətən xoşbəxtəm və qürur duyuram. Sağ olun.

* * *

*Görüşün sonunda İTAR-TASS agentliyinin Baş direktoru Vitali İqnatenko prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı, Yaxt klub*

*22 yanvar 2005-ci il*

*Qəbulun iştirakçıları dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya nümayəndə heyətinin rəhbəri, İTAR-TASS agentliyinin Baş direktoru Vitali İqnatenko qəbulda nitq söylədilər.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

Əziz qonaqlar!

İcazə verin, sizi Azərbaycanda bir daha salamlayım. Şəhərimizdə, ölkəmizdə İTAR-TASS günlərinin keçirilməsi çox əlamətdar hadisədir.

Bu gün biz təxminən saat yarım ərzində birlikdə olduq və yaxşı, çox açıq dialoq keçirildi, hər kəs öz fikrini və təəssüratını, öz münasibətini söyləyə bildi. Bu belə görüşlərin, daimi əlaqələrin, qarşılıqlı ünsiyyətin, səfərlərin nə qədər vacib olduğunu göstərdi. Bütün bunlar qarşılıqlı anlaşma üçün çox yaxşı ab-hava yaradır, xalqlarımızın və ölkələrimizin yaxınlaşması məqsədlərinə xidmət edir.

Bu gün ölkələrimiz arasında münasibətlər çox müsbət şəkildə və müxtəlif istiqamətlərdə inkişaf edir. Biz əməkdaşlığımızın

iqtisadiyyatda da, energetikada da, siyasi dialoqda da, habelə, təbii ki, mədəni sahədə də çox yaxşı nəticələr verdiyini görürük. İstər ictimai rəyin formalaşmasında, istərsə də real vəziyyətin geniş oxucu, tamaşaçı, dinləyici dairəsinə çatdırılmasında kütləvi informasiya vasitələrinin rolu hədsizdir.

Ona görə də Rusiya kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycana hər bir səfəri ölkəmizin necə yaşadığını görmək üçün daha bir imkandır, habelə fikir mübadiləsi aparmaq və ünsiyyətdə olmaq üçün daha bir fürsətdir.

Bu gün böyük bir nümayəndə heyətinin Azərbaycanda olması mənim üçün çox xoşdur. İndi bu nümayəndə heyətinin üzvləri arasında öz dostlarımı, çox sevdiyim, hörmət bəslədiyim, çoxdan fəal ünsiyyətdə olduğum adamları görmək mənim üçün olduqca xoşdur. Odur ki, hər belə görüş mənim üçün çox vacib və qiymətlidir.

Mən sizin hamınızı ölkəmizdə bir daha salamlamaq istəyirəm. Görüşümüz zamanı söylədiklərimi bir daha demək istəyirəm ki, siz dost ölkəyə, keçmişdə bizi birləşdirmiş yaxşı nə varsa, hamısını qiymətləndirən və xatırlayan ölkəyə, ənənələrə çox qayğı ilə ehtiram bəsləyən və onları qoruyub saxlayan ölkəyə gəlmisiniz.

Bu gün, iki müstəqil dövlət kimi, Rusiyanın və Azərbaycanın beynəlxalq aləmdə və ikitərəfli səviyyədə geniş qarşılıqlı fəaliyyət göstərdiyi bir vaxtda əlaqələr, görüşlər və müzakirələr xüsusi əhəmiyyət və xüsusi vaciblik kəsb edir.

Bilirəm ki, siz hamınız çox yorulmusunuz, bu gün səhər tezdən çox gərgin gününüz olub və sabah çoxlu tədbir olacaqdır, ona görə də vaxtınızı çox almaq istəmirəm.

Bu badəni sizin hər birinizin sağlığına və firavanlığına qaldırıram. Qoy sizin həyatınızda, işinizdə hər şey yaxşı olsun, dostlarınızın yanına tez-tez gələsiniz və ölkəmizə səfər etməyə imkanınız tez-tez olsun.

Bütün qonaqlarımızın şərəfinə, bizim sevimli İTAR-TASS-ın şərəfinə! Sizə ən gözəl nemətlər, firavanlıq və uğurlar arzulamaq istəyirəm. Sizin sağlığınıza!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ

*24 yanvar 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İran İslam Respublikasının paytaxtı Tehrana gəlmişdir.*

*İranın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş Mehrabad hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qız və oğlan prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək təqdim etdilər.*

*Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında İranın Kooperasiya naziri Əli Sufi, Xarici İşlər nazirinin müavini Möhsüm Əminzadə, İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və İranın Bakıdakı səfiri Əfşar Süleymani səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından avtomobil karvanının müşayiəti ilə Tehranda onun üçün ayrılmış "Bustan" iqamətgahına yola düşdü.*

* * *

*Yanvarın 24-də İran prezidentinin sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi sarayın önündə dostcasına, böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycanın və İranın dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev İran əsgərlərini salamladı.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ ARASINDA TƏKBƏTƏK GÖRÜŞ**

*Tehran,*
*İran prezidentinin sarayı*

*24 yanvar 2005-ci il*

*İran İslam Respublikasının Prezidenti Cənab Xatəmi onun dəvətini qəbul edərək, İrana rəsmi səfərə gəldiyinə görə Azərbaycan prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi, bu səfəri ölkələrimiz arasındakı əlaqələrdə, münasibətlərdə yeni mərhələ kimi qiymətləndirdi. İranın qonşu, dost ölkə olan Azərbaycanla bütün sahələrdə əlaqələri genişləndirməyə maraqlı olduğunu söyləyən cənab Xatəmi görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin siyasi təcrübəsindən istifadə etməklə ikitərəfli münasibətlərin, əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsinin faydalı olduğunu vurğuladı.*

*Cənab Xatəmi dövlətimizin başçısına müraciətlə dedi ki, İran jurnalistləri çox nadir hallarda bizim qonaqlarımıza belə yüksək diqqət göstərirlər. Bu onu göstərir ki, burada hamı Sizi çox sevir.*

*İrana rəsmi səfərə dəvətə, göstərilən qonaqpərvərliyə görə prezident Seyid Məhəmməd Xatəmiyə dərin minnətdarlığını bildirən prezident İlham Əliyev bu səfərin Azərbaycan–İran münasibətlərinin daha sürətlə inkişaf etdirilməsi üçün əhəmiyyətli olacağını vurğuladı.*

*Dövlətimizin başçısı dedi ki, İran jurnalistlərini mən də çox sevirəm. Bizimlə bərabər Azərbaycandan da böyük media heyəti gəlmişdir. Demək olar ki, bütün televiziya kanallarımızın nüma-*

*yəndələri buradadırlar. Mən çoxdan İrana gəlmək istəyirdim, nəhayət, bu arzum gerçəkləşdi və çox şadam ki, buradayam. Burada görüləcək işlərin nəticələrini səbirsizliklə gözləyirəm. Əminəm ki, bu istiqamətdə imzalanacaq sənədlər və apardığımız danışıqlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır.*

*Prezidentlər Azərbaycanla İran arasında qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi və genişləndirilməsi üçün siyasi-iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi barədə yekdil fikirdə olduqlarını bir daha diqqətə çatdırdılar. Tərəflər ölkələrimiz arasında imzalanmış və imzalanacaq sənədlərin müddəalarının yerinə yetirilməsinin vacibliyini xüsusi vurğuladılar.*

*Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.*

## Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan və İran prezidentlərinin keçirdikləri brifinq və jurnalistlərin suallarına cavab

**S u a l: Mənim sualım cənab İlham Əliyevədir. Cənab prezident, Sizin bu səfərinizin məqsədi nədən ibarətdir? İkincisi, Azərbaycan–İran münasibətlərinin inkişafını necə qiymətləndirirsiniz və bundan razısınızmı? Ümumiyyətlə, Azərbaycan–İran münasibətlərinin gələcəyini necə görürünüz?**

**İ l h a m  Ə l i y e v:** Səfərin məqsədi bizim ölkələrimiz arasında əldə edilmiş bütün nəticələri davam etdirmək, inkişaf etdirmək, İranla Azərbaycan arasında olan əməkdaşlığı bütün sahələrdə gücləndirməkdir.

İki ölkə arasında imzalanmış çoxlu sənədlər var. Bu sənədlər uğurla icra edilir. Xüsusilə İran İslam Respublikasının prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanmış bütün sənədlər həyatda öz əksini tapır. Bu onu göstərir ki, bizim aramızda səmimi münasibətlər,

əməkdaşlıq var. Mən şübhə etmirəm ki, indiki səfərdən sonra bu əməkdaşlıq daha da güclənəcəkdir.

İkinci suala gəldikdə, deyə bilərəm ki, İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir və bu bizim milli maraqlarımıza cavab verir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda çox gözəl əməkdaşlıq var və qarşılıqlı səfərlər – prezidentlər səviyyəsində, nazirlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində keçirilən səfərlər bizi daha da yaxınlaşdırır. Gələcək əməkdaşlığın güclənməsi üçün güclü potensial mövcuddur. Biz də gərək bu potensialdan səmərəli istifadə edək.

**S u a l: Mənim ağayi Xatəmiyə sualım var. Birinci sualım budur ki, Azərbaycan cəmiyyətində belə bir fikir var ki, əgər İran istəsə, Dağlıq Qarabağ probleminin həllinə daha çox kömək edə bilər. Sizcə Azərbaycan cəmiyyətində İranın bu imkanları şişirdilib, yoxsa doğrudan da İranın belə imkanları var və nələri edə bilər?**

**C a v a b:** Təşəkkür edirəm. Əvvəla, hörmətli cənab İlham Əliyev və onu müşayiət edən nümayəndə heyətinin üzvlərinə "Xoş gəlmisiniz!" deyirəm. Həmçinin cənab Prezidenti müşayiət edən media nümayəndələrinə də «Xoş gəldiniz!» deyirəm. Bir daha onu təkidlə qeyd etmək istərdim ki, Azərbaycanla İran arasında bu cür münasibətlər – dotsluq, qardaşlıq münasibətləri günbəgün inkişaf edir və dərinləşir.

Qarabağ məsələsinə gəldikdə isə, deyə bilərəm ki, bununla bağlı bizim mövqeyimiz aydındır. Biz çox azsaylı ölkələrdən biriyik ki, Azərbaycanın bu məsələ ilə bağlı mövqeyini tamamilə dəstəkləyirik.

Azərbaycanın ərazi bütövlüyünü və həmin ərazidə hakimiyyətini dəstəkləyirik. Biz dəfələrlə qeyd etmişik ki, məsələni zor gücü ilə həll etmək mümkün deyil, bu, düzgün yol deyildir.

Məsələni danışıq, məntiq və ağılla həll etmək yolu daha üstün yoldur. Biz belə hesab edirik ki, əgər əlaqədar dövlətlər bu məsələyə ciddi yanaşsalar, problem daha da tezliklə həll oluna bilər. Bizim hər iki ölkə ilə münasibətlərimiz var. Amma heç

vaxt razı olmarıq və yol vermərik ki, Azərbaycanın mənafeyinə zərrə qədər zərər gətirilsin. İstərdik ki, bu məsələ tezliklə həll olunsun və biz əlimizdən gələni etməyə hazırıq. Ümidvaram ki, bu məsələ tezliklə həll olunacaqdır.

**S u a l: Cənab Xatəmi, İraq hadisələrini çıxsaq, Azərbaycan ikinci yeganə müsəlman ölkəsidir ki, ərazisi işğal olunmuşdur. İran Fələstin probleminin həllində çox kəskin mövqe tutur. Hətta İsraillə əməkdaşlıqdan da çəkinir. Amma bu da var ki, Azərbaycanın 20 faiz torpağını işğal etmiş Ermənistanın bu gün qeyri-konstruktiv bir mövqe tutmasında İranla geniş əməkdaşlığının olması da rol oynayır. Bu istiqamətdə azərbaycanlılar İrandan nə gözləyə bilər? Sizin təzyiq imkanlarınız çoxdur?**

**C a v a b:** Azərbaycanlılar və onların fikri, düşüncəsi bizim üçün çox əzizdir, dəyərlidir. İşğalın kim tərəfindən törədilməsindən asılı olmayaraq, biz onu tənqid edirik. Biz bu məsələyə bir fərqlə yanaşırıq və belə hesab edirik ki, İsrail Fələstinin ərazisini tamamilə işğal edibdir. Amma Ermənistan məsələsinə gəldikdə isə, demək olmaz ki, Ermənistan böyük bir ölkənin ərazisini tamamilə işğal edibdir. Biz, ümumiyyətlə, işğalçılığı pisləyirik. Əgər bir ölkə, bir dövlət başqa bir dövlətin bircə qarış da torpağını işğal edibsə, biz onu pisləyirik. Dünya Birliyi, dünya ictimaiyyəti də buna daha diqqətlə yanaşmalıdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI

*Tehran,*
*İran prezidentinin sarayı*

*24 yanvar 2005-ci il*

**M ə h ə m m ə d  X a t ə m i:** Cənab Prezident, Sizə və Sizi müşayiət edən nümayəndə heyətlərinin üzvlərinə bir daha «Xoş gəlmisiniz» deyirəm. Bu gün bizim üçün çox yaxşı bir gündür. Çox əziz bir dostumuzu görmək və çox əziz bir millətin nümayəndəsini görmək böyük şərəfdir. Bizim Azərbaycanla münasibətlərimiz iki qonşu ölkə arasında olan münasibətlərdən qat-qat yüksəkdir. Hər halda, qonşular bir-birilə rəqabət şəraitində yaşamalıdırlar. Amma bizim münasibətlərimiz iki qonşu ölkənin münasibətlərindən qat-qat yüksəkdir. Bizi bir-birimizlə bağlayan tarixi, mədəni incilərdir və eyni zamanda qohumluq əlaqələridir. Bu onu göstərir ki, bizim mənafeyimiz bir-birilə çox sıx bağlıdır.

Mən çox şadam ki, son aylar və son il ərzində münasibətlərimiz çox sürətlə inkişaf edir. Xoşbəxtlik ondadır ki, Siz əlaqələrimizə xoşniyyətli münasibət bəsləyirsiniz. Eləcə də mən bu cür münasibət bəsləyirəm. Bizim mənafeyimiz eynidir. Bizim təhlükəsizliyimizə olan təhdidlər də eynidir. Bu bizi məcbur edir ki, bir-birimizin yanında olaq.

Son altı ay ərzində deyə bilərik ki, 20-dək sənəd imzalanıb, yaxud imzalanacaqdır. Bu bizim əlaqələrimizə göstərdiyimiz ciddi münasibətin göstəricisidir. Allah rəhmət eləsin, Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin ruhunu bir daha hörmətlə yad edirik. Biz qətiyyətlə inanırıq ki, rəhmətlik cənab

Heydər Əliyevin öz ölkəsi üçün və bu bölgədə sülhün, əmin-amanlığın yaranması üçün gördüyü işlər Sizin güclü əliniz və möhkəm iradəniz nəticəsində davam etdiriləcəkdir.

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, çox sağ olun. İlk növbədə, bu dəvətə görə, mənə və nümayəndə heyətinin bütün üzvlərinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Biz bu səfəri çox səbirsizliklə gözləyirdik. Mən çox şadam ki, bu gün buradayam, İrandayam, Sizinlə görüşürəm və hələ iki gün İranda olacağam. Şübhə etmirəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərə yeni təkan verəcəkdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir və güclənir. Münasibətlərin yeni mərhələsi, demək olar ki, 2002-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin İrana rəsmi səfərindən sonra başladı.

Hörmətli Prezident, Sizin Azərbaycana səfəriniz və səfər çərçivəsində imzalanmış çoxlu sənədlər, onların uğurlu icrası göstərir ki, ölkələrimiz arasında əlaqələr həqiqi mənada inkişaf edir və bütün sahələri əhatə edir. Hüquqi, siyasi, iqtisadi, enerji, humanitar və bütün digər sahələrdə bizim əməkdaşlığımızın əməli nəticələri vardır və ümid edirəm ki, bu əməkdaşlıq daha da yüksələcəkdir. İkitərəfli münasibətlərimiz regionda gedən proseslərə də təsir edir və regional əməkdaşlıq baxımından çox vacibdir.

Eyni zamanda regionda sülhün, təhlükəsizliyin təmin olunmasında çox böyük əhəmiyyəti vardır.

*Danışıqlarda Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov, İqtisadi İnkişaf naziri Fərhad Əliyev, Sənaye və Energetika naziri Məcid Kərimov, Təhsil naziri Misir Mərdanov, Səhiyyə naziri Əli İnsanov, Prezident Administrasiyasının şöbə müdiri Novruz Məmmədov, «Azərbaycan Hava Yolları» Dövlət Konsenrinin Baş direktoru Cahangir Əsgərov, Dövlət Dəmir Yolunun rəisi Arif*

*Əsgərov, Milli Məclisin deputatı Əsmətxanım Məmmədova, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov, İranın Bakıdakı səfiri Əfşar Süleymani və digər rəsmi şəxslər iştirak edirdilər.*

* * *

*Yanvarın 24-də axşam İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olundu.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ İLƏ GÖRÜŞ

*Tehran,*
*Azərbaycan prezidentinin «Bustan» iqamətgahı*

*24 yanvar 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevi mehribanlıqla salamlayan və onunla hər bir görüşdən məmnunluğunu bildirən cənab Kamal Xərrazi dövlətimizin başçısının İrana ilk rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin daha sürətlə inkişafına təkan verəcəyini və ikitərəfli münasibətlərdə əsaslı dönüş yaradacağını vurğuladı. O, Azərbaycan–İran münasibətlərinin daim inkişaf etdiyini xatırladaraq dedi ki, ölkələrimizin bütün sahələrdəki, xüsusən energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni imkanlar vardır. Nazir bir çox mühüm layihələrin, o cümlədən avtomobil və dəmir yolları ilə bağlı mühüm layihələrin həyata keçirilməsinin Azərbaycan və İran, eləcə də bölgənin digər ölkələri üçün böyük əhəmiyyəti olacağını söylədi.*

*İrana ilk rəsmi səfərindən razılıqla söz açan, Tehranda prezident Xatəmi ilə keçirdiyi görüşü, apardığı danışıqları çox mühüm, əhəmiyyətli hesab edən prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq üçün yeni mərhələnin başlandığını və geniş imkanlar açıldığını vurğuladı. Xalqlarımızın qədim tarixi, milli-mənəvi, dini, mədəni yaxınlığından söhbət açan dövlətimizin başçısı bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin perspektivli olduğunu dedi və münasibətlərin gələcəkdə daha da genişləndirilməsi üçün əməli addımların atılmasının vacibliyini bildirdi.*

*Görüşdə Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı məsələlər, ümumən* iqtisadi *layihələr, habelə bölgədə vəziyyət, Xəzərin* statusunun *müəyyənləşdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh* yolu *ilə həll edilməsi və hər* iki *ölkəni maraqlandıran bir sıra mühüm məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*Tehran*

*25 yanvar 2005-ci il*

*Seyid Əli Xamenei prezident İlham Əliyevi iqamətgahın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycan prezidenti ilə İranın ali dini rəhbərinin görüşündə İran prezidenti Seyid Məhəmməd Xatəmi də iştirak edirdi.*

*Dövlətimizin başçısı İlham Əliyevi mehribanlıqla, səmimiyyətlə salamlayan və onunla görüşməsindən çox məmnun olduğunu söyləyən Ayətüllah Seyid Əli Xamenei əminliklə bildirdi ki, Azərbaycan prezidentinin İrana ilk rəsmi səfəri iki dost və qonşu ölkə arasında əlaqələrin inkişafını daha da sürətləndirəcəkdir. O, eyni zamanda, görkəmli şəxsiyyət Heydər Əliyevə Allahdan rəhmət diləyərək onun siyasi fəaliyyətini, tarixi xidmətlərini yüksək qiymətləndirdi, ona böyük hörmət və ehtiram bəslədiyini və indi də əziz xatirəsini daim yad etdiyini vurğuladı. Prezident İlham Əliyev səmimi sözlərə, xoş münasibətə görə təşəkkür edərək İrana rəsmi səfərə gəlməsindən və İranın ali rəhbəri ilə görüşündən çox məmnun olduğunu bildirdi. Dövlətimizin başçısı özünə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərlikdən və səfər zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan razı qaldığını söylədi və əmin olduğunu bildirdi ki, bu səfər İran–Azərbaycan münasibətlərinin inkişafına təkan verəcəkdir. O, həmçinin dost, qonşu İran ilə bütün sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar olduğunu da xatırlatdı.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri davam etdiyini bildirən prezident İlham Əliyev torpaqlarımızın 20 faizinin hələ də işğal altında qaldığını, bir milyondan artıq vətəndaşımızın öz doğma el-obasından zorla qovularaq ağır vəziyyətdə yaşadığını xatırlatdı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlar prosesindən söhbət açdı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirən Seyid Əli Xamenei dedi ki, Qafqazda baş verən münaqişələr bölgədə sülhün və əmin-amanlığın bərqərar edilməsinə əngəl törədir. İran Ermənistanın Azərbaycana təcavüzünü daim pisləmişdir və bu münaqişə tezliklə sülh yolu ilə aradan qaldırılmalıdır.*

*Görüşdə Azərbaycan–İran əməkdaşlığının perspektivləri, o cümlədən böyük əhəmiyyəti olan nəqliyyat layihələrinin həyata keçirilməsi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİL İLƏ GÖRÜŞ

*Tehran*

*25 yanvar 2005-ci il*

*Dövlətimizin başçısını səmimiyyətlə* salamlayan *cənab Həddad Adil prezident İlham Əliyevin İrana rəsmi səfərini yüksək dəyərləndirdi və* onunla *görüşdən çox məmnun olduğunu* bildirdi. *Sonra o, parlamentin üzvlərini* prezident *İlham Əliyevə təqdim etdi.*

*Dövlətimizin başçısının İranda keçirdiyi görüşlərin faydalı* olacağını *söyləyən* parlamentin *sədri ümummilli* liderimiz *Heydər Əliyevin* tarixi *xidmətlərini xatırlatdı və* onun *xüsusilə İranla əlaqədar* siyasətini davam etdirdiyinə *görə* prezident *İlham Əliyevə təşəkkürünü* bildirdi. *Cənab Qulaməli Həddad Adil parlamentlərarası müştərək* komissiyanın *fəaliyyətinin* daha *da genişləndirilməsi üçün bir sıra təbdirlərin* görülməsinin *zəruriliyini vurğuladı.*

*İrana rəsmi səfərinin gedişindən,* ona *göstərilən* qonaqpər*vərlikdən məmnun qaldığını söyləyən* prezident *İlham Əliyev* tarixi dostluq *ənənələrinə* malik *ölkələrimizin əməkdaşlığının bütün sahələrdə inkişafının, o cümlədən* parlamentlərarası *əla*qələrin daha da genişləndirilməsinin vacibliyini bildirdi.

*Söhbət zamanı Azərbaycan ilə İran arasında hərtərəfli əlaqələrin inkişafı üçün böyük imkanların olduğu və* bunlardan *səmərəli istifadə* edilməsinin *zəruriliyi* qeyd olundu. *Qarşılıqlı əlaqələrin* daha *sürətlə inkişafı üçün nəzərdə* tutulan *bütün tədbirlərin həyata keçiriləcəyi* vurğulandı.

*Prezident İlham Əliyev və Qulaməli Həddad Adil ölkələrimiz, xalqlarımız arasında səmimi və mehriban münasibətlərin möhkəmləndirilməsində Azərbaycan və İran parlamentlərindəki dostluq qruplarının rolunu müsbət qiymətləndirdilər, eyni zamanda, onların fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini bildirdilər.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də müzakirələr aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ƏN İRİ İSTEHSAL MÜƏSSİSƏLƏRİNDƏN SAYILAN «İRAN XODRO» AVTOMOBİL ZAVODUNDA

*Tehran*

*25 yanvar 2005-ci il*

*Dövlətimizin başçısını burada zavodun Baş direktoru Mənuçöhr Məntiqi, işçilər böyük hörmətlə və mehribanlıqla qarşıladılar.*

*Prezident İlham Əliyevə zavodun fəaliyyəti barədə məlumat verilərək bildirildi ki, 2004-cü ildə müəssisədə 600 000 ədəd müxtəlif markalı avtomobillər («Səmənd», «Pegeot-206», «Pars», «Peykan» və s.) istehsal edilmişdir. Dünyanın bir çox ölkəsində fəaliyyət göstərən müəssisələri ilə birlikdə zavodda 300 000 nəfər, o cümlədən Tehrandakı istehsal sahələrində 30 000 nəfər çalışır. Müəssisənin Azərbaycanda da daimi nümayəndəliyi vardır və o, digər MDB ölkələrində də servis xidməti göstərir. Suriya, Seneqal, Ukrayna, Misir, Əlcəzair və Belarusda da müəssisənin daimi nümayəndəliyinin açılması nəzərdə tutulmuşdur.*

*Sonra prezident İlham Əliyev zavodun ayrı-ayrı istehsal sahələri ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına xatirə olaraq «Səmənd LX» markalı avtomobil hədiyyə edildi. Prezident İlham Əliyev hədiyyəyə görə təşəkkür edərək həm benzin, həm də qazla işləyən bu avtomobilin sükanı arxasında əyləşərək sürdü.*

*Prezident İlham Əliyev zavodla tanışlığından məmnun qaldığını və istehsal edilən avtomobillərin yüksək keyfiyyətə malik olduğunu bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İran inqilabının rəhbəri imam Xomeyninin məqbərəsini ziyarət etmişdir. İlham Əliyevi burada mehribanlıqla qarşıladılar. Məqbərənin qarşısında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi. Azərbaycan prezidenti İlham Əliyev imam Xomeyninin məqbərəsinə əklil qoydu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«İran İslam inqilabının rəhbəri imam Xomeyninin qəbrini ziyarət etdim. Öz xalqı və ölkəsi üçün böyük xidmət göstərmiş rəhbərin əziz xatirəsi həmişə böyük hörmətlə yad ediləcəkdir. Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

25 yanvar 2005-ci il».

### İmam Xomeyninin məqbərəsini ziyarət etdikdən sonra İran televiziyasına verdiyi qısa müsahibə

**S u a l: Cənab Prezident, bu gün Siz Xomeyninin məqbərəsini ziyarət etdiniz. Mümkünsə, imam Xomeyninin Azərbaycanda yeri barədə fikrinizi açıqlayasınız.**

**C a v a b:** Mən bu gün imam Xomeyninin qəbrini ziyarət etməyə gəlmişəm. İmam Xomeyni tarixi bir şəxsiyyətdir. İran İslam Respublikasının banisidir və İranın həyatında müstəsna

xidmətləri olmuş bir şəxsiyyətdir. Dünyada böyük nüfuzu vardı və xatirəsi də böyük ehtiramla yad edilir.

İmam Xomeyni öz ölkəsini, öz xalqını həmişə azad görmək istəyirdi. Bu gün onun bütün arzuları yerinə yetirilibdir. Azərbaycan da gənc müstəqil dövlətdir, biz yalnız 1991-ci ildə müstəqilliyimizi bərpa etdik. Əlbəttə, azadlıq, hürriyyət bizim üçün həmişə əziz olubdur. Bu gün Azərbaycan xalqı öz müqəddəratını, öz taleyini özü həll edir, bu da bizim üçün böyük xoşbəxtlikdir. Sağ olun.

## İRAN İSLAM RESPUBLİKASI DÖVLƏT MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞ

*Tehran*

*25 yanvar 2005-ci il*

*İran İslam Respublikası Dövlət Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi Rəfsəncani Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Səmimilik şəraitində keçən görüşdə cənab Rəfsəncani prezident İlham Əliyevin İrana rəsmi səfərə gəlməsindən və Tehranda onunla görüşündən çox şad olduğunu bildirdi. Məsləhət Şurasının sədri Azərbaycanın ümummilli lideri, görkəmli şəxsiyyət Heydər Əliyev ilə yaxın dost olduğunu xatırladaraq dedi ki, o öz ölkəsi və bütün region üçün tarixi fəaliyyət göstərmişdir. Allah ona rəhmət eləsin, onun İranda çox böyük hörməti vardır. Biz çox məmnunuq ki, Siz onun yolunu uğurla davam etdirirsiniz.*

*Prezident İlham Əliyev səmimi görüşə və xoş sözlərə görə dərin təşəkkürünü bildirərək cənab Rəfsəncani ilə görüşündən məmnun olduğunu vurğuladı və Azərbaycan nümayəndə heyətinin üzvlərini ona təqdim etdi. Dövlətimizin başçısı İrana səfərinin çox uğurla keçdiyini vurğulayaraq dedi ki, prezident Məhəmməd Xataminin Azərbaycana səfərindən sonra ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da güclənmişdir və biz əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Mən İrana böyük nümayəndə heyəti ilə gəlmişəm və səfər çərçivəsində bir çox sənədlərin imzalanması nəzərdə tutulmuşdur.*

*Cənab Rəfsəncani ölkələrimiz arasında əlaqələrin daim yaxşı olduğunu bildirdi, eyni zamanda, Azərbaycanda son illərdə gedən proseslərlə maraqlandı.*

*Prezident İlham Əliyev Azərbaycanın bütün istiqamətlərdə inkişaf* etdiyini, *iqtisadi baxımdan sağlam mühitin yarandığını və respublikanın gözəl perspektivləri olduğunu söylədi. Dövlətimizin başçısı* dedi ki, *qarşıdakı beş ildə Azərbaycan* daha da *inkişaf edəcəkdir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə* toxunan prezident *İlham Əliyev xüsusilə* qeyd etdi ki, bizim *ən böyük* problemimiz *Ermənistanın Azərbaycan* torpaqlarını *işğal etməsi və* bu *işğal nəticəsində ölkədə* bir milyondan *çox qaçqın və məcburi köçkünün yaranmasıdır. Təəssüflər* olsun ki, bu *məsələ danışıqlar yolu ilə hələ də öz həllini tapmayıbdır.* Bu *münaqişə* region *üçün böyük təhlükə mənbəyidir. İranın* bu *məsələdə mövqeyi ədalətli* olubdur, *həmişə* onun *dəstəyini* hiss *etmişik və* buna *görə də təşəkkür* edirik.

Sonra *görüşdə bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## İMAM XOMEYNİ ADINA «İMDAD» KOMİTƏSİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ ÇIXIŞ

*Tehran*

*25 yanvar 2005-ci il*

*Komitənin rəhbər işçiləri Azərbaycan prezidenti İlham Əliyevi mehribanlıqla, səmimiyyətlə qarşıladılar. Komitənin sədri Seyid Rza Nəiri prezident İlham Əliyevi burada görməyindən böyük şərəf duyduğunu vurğuladı. O bildirdi ki, 1990-cı illərdən İran Azərbaycanda qaçqın və məcburi köçkünlərə kömək göstərməyə başlamışdır. Əvvəl bu işlə Qızıl Aypara Cəmiyyəti məşğul olurdu. Sonra «İmdad» komitəsi tərəfindən 5000 ton yardım göndərildi. O vaxt prezident Heydər Əliyevin tapşırığı ilə komitənin Azərbaycanda fəaliyyət göstərməsi üçün icazə verildi. Hazırda komitənin Azərbaycanın 19 şəhər və rayonunda nümayəndəliyi vardır və 35 min nəfər onun yardımından istifadə edir. Azərbaycan Dövlətqaçqınkomunun sədri Əli Həsənov, digər rəsmi şəxslər İranda olmuşlar və əməkdaşlıq barədə sənədlər imzalamışıq. Seyid Rza Nəiri daha sonra bildirdi ki, "İmdad" komitəsi imam Xomeyninin tapşırığı ilə 26 il əvvəl yaradılmışdır və indi ölkədə 150 min ailəyə kömək göstərir, onlar özlərini sərbəst idarə edə bilirlər. O, komitənin Azərbaycanda yeni iş yerlərinin açılmasında, yoxsulluğun azaldılmasında və digər sahələrdə kömək edə biləcəyini vurğulayaraq dedi ki, Azərbaycanda yoxsulluğun azaldılmasına dair qəbul etdiyiniz proqramı yüksək qiymətləndiririk. Biz Heydər Əliyev Fondu ilə də əməkdaşlıq etməyə hazırıq.*

*Sonra komitənin rəhbəri Azərbaycan prezidentinin komitəyə gəlməsi münasibətilə ona xaricdə istehsal olunmuş tibbi cihaz*

*hədiyyə etdi. Bu cihaz vasitəsilə müxtəlif xəstəliklərin dəqiq səbəbini öyrənmək mümkündür.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab doktor Nəiri, çox sağ olun. Sizi və bütün dostlarımızı, qardaşlarımızı ürəkdən salamlayıram.

İlk nöbədə, təqdim etdiyiniz hədiyyəyə görə sizə minnətdaram. Bu doğrudan da xəstələrə böyük kömək olacaqdır və insanlar öz sağlamlığını saxlamaq üçün, bərpa etmək üçün «Emray»dan keçib dəqiq diaqnoz əldə edəcəklər. Bu, böyük hədiyyədir, dəyərli hədiyyədir. Əlbəttə, bu onu göstərir ki, sizin Azərbaycana etdiyiniz bütün yardımlar həqiqi mənada təmiz ürəkdən gəlir.

Mən bilirəm ki, «İmdad» komitəsi Azərbaycanda çətin vəziyyətdə yaşayan insanlara, on minlərlə insana böyük kömək göstəribdir və bu kömək, yardımlar davam edir. Bu bizim üçün həm əməli-praktiki cəhətdən, həm də mənəvi cəhətdən böyük dəstəkdir. Mən bu vaxta qədər edilmiş bütün yardımlara görə şəxsən öz adımdan sizə minnətdarlığımı bildirirəm.

Ermənistanın Azərbaycana etdiyi təcavüz və aparılmış etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurdundan didərgin düşmüşdür və qaçqın-köçkün vəziyyətində yaşayır. Bu münaqişə başlayanda, demək olar ki, Azərbaycanın heç bir maddi, iqtisadi imkanı yox idi. Ölkədə iqtisadi böhran hökm sürürdü və yardıma, köməyə çox böyük ehtiyac var idi. Biz də bu köməyi gördük. Sizin təşkilatınız bu köməyi göstərdi və çətin vəziyyətdə yaşayanlara əsl dost kimi, qardaş kimi sözdə deyil, işdə öz kömək əlini uzatdı.

Bu gün də bu xeyriyyə işləri davam edir, «İmdad» komitəsi öz fəaliyyətini davam etdirir və əlbəttə ki, bu, çətin vəziyyətdə, yoxsulluq içində yaşayan insanlar üçün böyük dəstəkdir. Çıxışınızda qeyd etdiniz ki, Azərbaycanda yoxsulluğun azaldılmasına dair proqram həyata keçirilir. Bizim məqsədimiz budur ki, Azərbaycanda, ümumiyyətlə, yoxsulluq olmasın, aradan götürülsün. Amma, əlbəttə, bu, böyük maliyyə tələb edir və biz yoxsul vəziyyətdə yaşayanların sayını ildən-ilə azaldırıq. Yəni bu

meyl müsbət istiqamətdə inkişaf edir. Amma yenə də ölkədə bu qədər problem vardır. Xüsusilə də öz torpaqlarını itirmiş qaçqın-köçkünlərin problemləri, onların həyat səviyyəsi bu gün nə həmin insanları, nə də bizi qane edir və belə olan halda, xeyriyyə təşkilatlarının köməyinə hələ ehtiyac vardır.

Bir məqamı da demək istəyirəm ki, bizə kömək göstərən bəzi beynəlxalq donor təşkilatları, xeyriyyə cəmiyyətləri indi bunu dayandırırlar və izah edirlər ki, on ildən çoxdur bu kömək göstərilir və daha onların belə bir imkanları yoxdur. «İmdad» komitəsi isə əksinə, nəinki bunu dayandırmır, hətta indi bu yardımın yeni formasını təklif edir. Bu, prezident kimi, məni çox sevindirir. Mən buna görə sizə çox minnətdaram. Əsl dost odur ki, çətin vəziyyətdə yanında olsun. Biz də bu dostluğu görürük və bunu yüksək qiymətləndiririk.

Onu da qeyd etmək istəyirəm ki, ümumiyyətlə, ölkələrimiz arasında münasibətlər yeni mərhələyə çıxıbdır. Hörmətli prezident Xatəminin Azərbaycana səfəri və mənim İrana indiki səfərim bizim ölkələrimizi bir-birinə daha da yaxın edibdir. Bizim sıx əməkdaşlığımız hər iki ölkənin milli mArağına cavab verir. Mən İrana bu niyyətlə gəlmişəm ki, bizim aramızda əlaqələr daha da güclənsin, inkişaf etsin, İran və Azərbaycan birgə çoxlu layihələr həyata keçirsin və bütün sahələrdə əməkdaşlıq daha da güclənsin. Ümid edirəm bundan sonra da bizim aramızda bu işgüzar münasibətlər davam edəcək, «İmdad» komitəsi öz fəaliyyətini keçmişdə olduğu kimi, yenə də yüksək səviyyədə davam etdirəcəkdir. Bizim də vəzifəli şəxslərimiz, aidiyyəti orqanlar bu işdə sizinlə bərabər işləyəcəkdir ki, Azərbaycanda çətin vəziyyətdə yaşayanların həyat səviyyəsi yaxşılaşsın.

* * *

*Sonra prezident İlham Əliyev komitənin Azərbaycandakı fəaliyyətindən bəhs edən fotosərgi ilə tanış* oldu.

*Görüşdən xatirə olaraq Azərbaycan prezidentinə xalça hədiyyə edildi.*

*Dövlətimizin başçısı komitənin binasında Azərbaycandan gələn qadınlarla görüşüb səmimi söhbət etdi və onlarla xatirə şəkli çəkdirdi.*

*Daha sonra prezident İlham Əliyev «İmdad» komitəsinin fəxri qonaqları kitabına ürək sözlərini yazdı.*

## İRAN MÜDAFİƏ SƏNAYESİNİN DAİMİ SƏRGİSİ İLƏ TANIŞLIQ

*Tehran*

*25 yanvar 2005-ci il*

*Burada dövlətimizin başçısını İranın Müdafiə naziri Əli Şamxani böyük hörmət və ehtiramla qarşıladı. Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. İranın Müdafiə naziri ilə görüş zamanı Azərbaycan prezidentinin səfərinin uğurla keçdiyi xüsusi vurğulandı, ölkələrimiz arasındakı əməkdaşlığın, o cümlədən hərbi sahədə əlaqələrin səviyyəsindən razılıq ifadə olundu. Bir daha vurğulandı ki, Azərbaycan prezidenti İlham Əliyevin bu uğurlu səfəri gələcəkdə əlaqələrin daha da inkişafına öz töhfəsini verəcəkdir.*

*Sonra dövlətimizin başçısı İlham Əliyev İranda istehsal olunan hərbi texnikanın nümunələri ilə tanış oldu.*

### *Sərgi ilə tanışlıqdan sonra İran televiziyasının müxbirinə verdiyi qısa müsahibə*

**S u a l: Cənab Prezident, sərgi və burada göstərilən eksponatlar barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Həqiqətən, İranda müdafiə sənayesinin yüksək imkanlara, potensiala malik olmasını müşahidə etdik. Sərgidə nümayiş etdirilən silah-sursat yüksək texnologiyaya və müasir standartlara cavab verir. Sizi bu cür uğura nail olduğunuza görə təbrik edirəm.

**S u a l**: **Cənab Prezident, İrana səfərinizin məqsədi barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Səfərin məqsədi münasibətləri daha da genişləndirməkdir. Münasibətlər uğurla davam edir, inkişafdadır. Şadam

ki, əməkdaşlıq müdafiə sahəsini də əhatə etməyə başlayır. Bütün mümkün sahələrdə əməkdaşlıq edirik. Sabah vacib sənədlər imzalanacaqdır. Bu sənədlər ölkələrimizi bir-birinə indikindən daha çox yaxınlaşdıracaqdır. Əminəm ki, səfər və imzalanan sənədlər ölkələrimizi və xalqlarımızı bir-birinə daha çox bağlayacaqdır.

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TEHRANDAKI SƏFİRLİYİNDƏ

*25 yanvar 2005-ci il*

*Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və ailə üzvləri dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev səfirliyin iş şəraiti ilə yaxından maraqlandı. Eyni zamanda, burada yaradılmış fotoguşələrlə, o cümlədən ümummilli lider Heydər Əliyevin İrana səfərini əks etdirən, xalqımızın görkəmli oğlunun həyat və fəaliyyətindən bəhs edən fotoguşə ilə yaxından tanış* oldu.

*Azərbaycan prezidenti burada yaradılmış iş şəraitindən razılığını bildirdi və səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*25 yanvar 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərinin ikinci gününün sonunda öz iqamətgahında – «Bustan» sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Asxat Orazbayı qəbul etmişdir.*

*Səmimilik şəraitində keçən görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının gələcək fəaliyyətinin perspektivləri və bu təşkilatla Azərbaycan arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞ

*Tehran,*
*İran prezidentinin sarayı*

*26 yanvar 2005-ci il*

*İran prezidenti Seyid Məhəmməd Xatəmi dövlətimizin başçısı İlham Əliyevi sarayın önündə dostcasına, böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra prezidentlər arasında görüş oldu.*

*Görüşdə Azərbaycan prezidentinin İrana rəsmi səfərinin çox uğurlu keçdiyi və ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün bu səfərin faydalı olduğu bildirildi. Tərəflər keçirilən görüşlərdə, aparılan danışıqlarda müzakirə edilən məsələlərin ölkələrimizin və xalqlarımızın milli mənafelərinə uyğun olduğunu vurğuladılar.*

*Azərbaycan–İran dostluğunun və tərəfdaşlığının möhkəmləndirilməsinin regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcəyi əminliklə vurğulandı, siyasi, iqtisadi, elmi-texniki, humanitar və digər sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə qaldırılacağı bildirildi.*

*İkitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi, eləcə də qarşılıqlı maraq doğuran məsələlərin həllinin reallaşdırılması üçün hüquqi baza yarandığı və iqtisadi münasibətlərin genişləndirilməsi üçün yaxşı şəraitin mövcud olduğu qeyd edildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu, BMT-nin və digər beynəlxalq təşkilatların bu münaqişə ilə bağlı qəbul etdiyi sənədlərin yerinə yetirilməsi, İranın problemin Azərbaycan Respublikasının ərazi*

*bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğu bir daha bəyan edildi.*

*Görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi oldu.*

## AZƏRBAYCAN VƏ İRAN ARASINDA SƏNƏDLƏRİN BİRGƏ İMZALANMASI MƏRASİMİ

*Tehran,*
*İran prezidentinin sarayı*

*26 yanvar 2005-ci il*

*Mərasimdə Azərbaycan Respublikasının hökuməti ilə İran İslam Respublikası hökuməti arasında sərhədyanı rayonlarda yaşayan Azərbaycan Respublikası və İran İslam Respublikası vətəndaşlarının sadələşdirilmiş qaydada sərhədi keçmələri haqqında memorandum, İran İslam Respublikasının Azərbaycan Respublikasına 1 milyon ABŞ dolları həcmində qrant ayırması haqqında memorandum, İran İslam Respublikasına məxsus olan sənət əsərlərinin Azərbaycan Respublikası hökuməti tərəfindən İran İslam Respublikasına təhvil verilməsi haqqında protokol imzalandı.*

*İran muzeyindən oğurlanmış iki ədəd tarixi qılınc sənədlərin imzalanması mərasimində İran tərəfinə təqdim olundu.*

*Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İran İslam Respublikasının Maarif Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi arasında anlaşma memorandumu, Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında anlaşma memorandum, Azərbaycan Dövlət Dəmir Yolu ilə İran Dəmir Yolu Təşkilatı arasında qarşılıqlı anlaşma memorandumu,*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mülki aviasiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında anlaşma memorandumu imzalandı.*

**Mərasimdə İran İslam Respublikası prezidenti Seyid Məhəmməd Xatəminin dəvəti ilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin İrana rəsmi səfərinin yekunlarına dair mətbuat üçün birgə bəyanat qəbul edildi**

İran İslam Respublikasının prezidenti cənab Seyid Məhəmməd Xatəminin dəvəti ilə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev 2005-ci il yanvarın 24–26-da yüksək səviyyəli nümayəndə heyəti ilə İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev İran İslam Respublikasının prezidenti cənab Xatəmi ilə səmimi dostluq şəraitində müzakirələr və danışıqlar aparmış, ali dini rəhbər cənab Seyid Əli Xamenei, Məsləhət Şurasının sədri cənab Haşimi Rəfsəncani, İslam Şurası Məclisinin sədri cənab Həddad Adil, Xarici İşlər naziri cənab Kamal Xərrazi ilə görüşlər keçirmiş, Təbriz şəhərinə səfər etmişdir.

Tərəflər danışıqlar və müzakirələrin nəticəsi olaraq aşağıdakıları bəyan etdilər: «Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 2002-ci il 20 may, hicri-şəmsi tarixi ilə 1381-ci il 30 ordibeheşt tarixli Müqaviləyə» əsaslanaraq;

tərəflər, Azərbaycan–İran dostluğu və tərəfdaşlığının möhkəmləndirilməsinin regionda sülhün və sabitliyin gücləndirilməsinə xidmət edəcəyinə əmin olaraq;

bərabərlik, qarşılıqlı etimad, tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq əsasında dostluq münasibətlərinə əlavə təkan verməyə hazır olduqlarını ifadə edərək;

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, suverenlik, müstəqillik, ərazi bütövlüyü və dövlətlərin bərabərliyi, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına, o cümlədən zor işlətmənin və ya zor işlətməklə hədələnmənin yolverilməzliyinə tərəfdar olduqlarını təsdiqləyərək;

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, humanitar, mədəni və digər sahələrdə ikitərəfli əməkdaşlığı keyfiyyətcə yeni səviyyəyə qaldırmaq məqsədi ilə;

iqtisadi əməkdaşlığın dərinləşdirilməsini, daha da inkişafı üçün əlverişli şəraitin yaradılmasını və tərəflərin təsərrüfat subyektləri arasında birbaşa əlaqələrin qurulmasını zəruri hesab edərək;

tərəfdaşlıq münasibətlərini möhkəmləndirmək məqsədi ilə siyasi əlaqələri və qarşılıqlı fəaliyyəti daha da inkişaf etdirəcəklər. Tərəflər ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsinə, qarşılıqlı səfərlərin həyata keçirilməsinə, hər iki ölkənin qanunverici, icra və məhkəmə orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsinə mühüm əhəmiyyət verirlər.

Tərəflər mövcud müqavilə-hüquq bazasının iki ölkə arasında münasibətlərin hərtərəfli inkişafının təmin edilməsi üçün etibarlı əsas olduğunu məmnunluqla qeyd edirlər.

Tərəflər beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi yeni qlobal çağırışlara və təhlükələrə qarşı fəaliyyət göstərmək məqsədi ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın səmərəliliyini artıracaqlar.

Tərəflər BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında münaqişələrin sülh yolu ilə həll olunması məqsədi ilə fəaliyyət göstərəcəklər.

Tərəflər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin və İKT-nin müvafiq qətnamələrinin yerinə yetiril-

məsinə və bu münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasına tərəfdar olduqlarını bir daha bəyan edirlər.

Azərbaycan Respublikası İran İslam Respublikasının ötən illərdə qaçqınlara və məcburi köçkünlərə etdiyi humanitar yardımlara görə minnətdarlığını bildirir.

Tərəflər milli təhlükəsizliyin təmin edilməsi məsələlərində əməkdaşlıq edəcək və ayrı-ayrı sazişlər əsasında hər iki dövlətin müvafiq qurumları arasında əlaqələrə yardım göstərəcəklər.

Tərəflər hər iki ölkədə mövcud potensial imkanları nəzərə alaraq, iki ölkə arasındakı ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın səviyyəsinin yüksəldilməsi məqsədi ilə lazımi işlər görəcəklər.

Dövlətlərarası Müştərək Komissiyanın əməli işinə hər iki dövlətin biznes və elm sahələrinin institut və təşkilatlarını cəlb edəcək, Azərbaycan və İran şirkətləri arasında əməkdaşlığın inkişafına kömək göstərəcəklər.

2005-ci il yanvarın 9-da Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasının nəticələri barədə memorandum"un həyata keçirilməsi üçün tədbirlər görəcək və Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətini intensivləşdirəcəklər.

Tərəflər iqtisadi, ticarət, xüsusilə neft və neft sənayesi, neft kimyası məhsulları, yüngül sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat və neft kimyası, nəqliyyat infrastrukturları və rabitə sahələrində əməkdaşlığın genişləndirilməsinə səy göstərəcəklər.

Tərəflər maliyyə və bank strukturlarının qarşılıqlı əməkdaşlığının inkişafına, birgə investisiya layihələrinin gerçəkləşməsinə, birgə müəssisələrin yaradılmasına səy göstərəcəklər.

Tərəflər ətraf mühitin mühafizəsi problemləri üzrə ikitərəfli, regional və qlobal səviyyələrdə qarşılıqlı fəaliyyəti sürətlən-

dirəcəklər. Azərbaycan Respublikası İran İslam Respublikasının Avropa–Qafqaz–Asiya beynəlxalq nəqliyyat dəhlizinə (TRACEKA) qoşulmaq niyyətini bir daha dəstəkləyir.

İran İslam Respublikası da Azərbaycan Respublikasının Şi-mal-Cənub nəqliyyat dəhlizinə qoşulmasını bir daha dəstəkləyir.

Azərbaycan Respublikası İran İslam Respublikasının ötən illərdə Naxçıvan Muxtar Respublikasının əhalisinə maddi və humanitar yardım göstərməsini yüksək qiymətləndirərək, belə yardımların davam etdirilməsinin zəruriliyini vurğuladı və İran İslam Respublikası bu yardımların davam etdirilməsi niyyətində olduğunu bildirdi.

Tərəflər Naxçıvan Muxtar Respublikası ilə əlaqədar im-zalanmış yol tikintisi, elektrik enerjisi, təbii qaz, sənaye və kənd təsərrüfatı sahələri və səhiyyə sahəsində əməkdaşlığa dair ra-zılaşmaların icrasını bəyan etdilər.

Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında humanitar sahələrdə əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsinin hər iki ölkə xalqlarının tarixi, mədəni və dini ortaqlıqdan qaynaqlanan möhkəm və obyektiv əsasa malik olduğunu bəyan edirlər.

Tərəflər iki ölkənin dostluğuna əsaslanan münasibətləri çərçi-vəsində mədəniyyət, incəsənət, elm, kütləvi informasiya vasitələri, təhsil, səhiyyə və sosial sahələrdə, o cümlədən mütəxəssislərin hazırlanması və ixtisasının artırılması sahəsində fəaliyyəti genişləndirmək istiqamətində səylərin artırılmasını vurğuladılar.

Azərbaycan Respublikası və İran İslam Respublikası Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonası olmasına səy göstərəcəklər.

Tərəflər Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın sahilyanı dövlətlərin konsensusu əsasında razılaşdırılması üzrə konstruktiv dialoqun davam etdirilməsi zəruriliyini qeyd etdilər və bununla bağlı Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun fəaliyyətinin artırılması arzusunu bildirdilər.

Tərəflər 2003-cü ildə Tehranda bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanmış Xəzər dənizinin dəniz mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının tezliklə ratifikasiya edilməsini və qüvvəyə minməsini vurğuladılar.

Tərəflər bütün dövlətlərin suveren bərabərliyinə, ərazi bütövlüyünə, onların daxili işlərinə qarışmamağa, beynəlxalq hüququn hamılıqla tanınmış digər normalarına əsaslanan beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın möhkəmləndirilməsi məqsədi ilə ikitərəfli və çoxtərəfli əsasda sıx qarşılıqlı fəaliyyəti davam etdirəcəklər.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq çərçivəsində BMT və onun təsisatları, İKT, İƏT və digər universal və regional xarakterli beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını təsdiq edirlər.

Tərəflər bu Bəyanatın konkret müddəaları və məqsədlərinin həyata keçirilməsi üçün həm hökumətlərarası, həm də idarələrarası səviyyələrdə yeni birgə fəaliyyət sahələrinin müəyyən edilməsi, o cümlədən əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində səy göstərəcəklər.

Tərəflər qəti şəkildə əmin olduqlarını bildirirlər ki, bu Bəyanat hər iki ölkənin xalqlarının maraqları naminə Azərbaycan Respublikası və İran İslam Respublikası arasındakı hərtərəfli tərəfdaşlıq münasibətlərinə əlavə təkan verəcəkdir.

## SƏNƏDLƏRİN İMZALANMASINDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Tehran*

*26 yanvar 2005-ci il*

**S u a l: Mənim ilk sualım cənab prezident İlham Əliyevədir. Cənab prezident, İran İslam Respublikasına rəsmi səfərinizi necə qiymətləndirirsiniz və imzalanan sənədlər münasibətlərimizə necə təsir göstərəcəkdir?**

**İkinci sualım hər iki prezidentədir. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsini necə görürsünüz və iki ölkənin bu sahədə əməkdaşlığını necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** İran İslam Respublikasına ilk rəsmi səfərimi çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu səfər bizim gələcək əməkdaşlığımıza güclü təkan verəcəkdir.

İranla Azərbaycan arasında olan münasibətlər daha da inkişaf edəcək, bütün sahələri əhatə edəcəkdir.

Bir neçə ay bundan əvvəl İran İslam Respublikasının Prezidenti hörmətli cənab Xatəmi Azərbaycanda səfərdə idi. Həmin səfər də çox uğurlu olmuşdu, çoxlu sənədlər imzalanmışdı. Gördüyünüz kimi, bu gün də çoxlu sənədlər imzalanıbdır. Bu sənədlərin icrası bizə imkan verəcək ki, Azərbaycanla İran arasında olan əlaqələr güclənsin, hər iki ölkə iqtisadi cəhətdən daha da inkişaf etsin, ölkələrimiz və xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

Biz ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk. Şadıq ki, bu əlaqələr çox sürətlə inkişaf edir və demək olar, iki ölkə

arasında olan əlaqələrdə yeni mərhələ başlanıbdır. Bu bizi çox sevindirir və milli maraqlarımıza cavab verir.

İkinci suala gəldikdə, qeyd etməliyəm ki, Xəzər dənizinin hüquqi statusu mütəmadi qaydada müzakirə olunur, danışıqlar davam edir və çox səmərəli, işgüzar şəraitdə keçirilir. Aparılan danışıqlar bunu göstərir ki, hər iki tərəf bu danışıqları səmimi şəkildə aparır və bizim niyyətimiz ondan ibarətdir ki, bu məsələ öz həllini tapsın.

**S e y i d  M ə h ə m m ə d  X a t ə m i:** Mən də öz növbəmdə cənab prezident İlham Əliyevin söylədiyi fikirlərə razılığımı bildirirəm. Ümid edirəm ki, bizim danışıqlarımız dostluq və hüsniyyətlə davam edir. Burada əsas mühüm məsələ ondan ibarətdir ki, Allahın bizə bəxş etdiyi çox gövhər bir dəniz olan Xəzər onun ətrafında yerləşən beş ölkəyə məxsusdur və burada hər birimizin mənafeyi, eləcə də, Allahın bizə bəxş etdiyi bu nemət də qorunmalıdır.

**S u a l: Mənim sualım İran prezidentinədir. Cənab prezident, Azərbaycanla İran arasında iqtisadi əməkdaşlığın perspektivlərini necə görürsünüz və Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşması barədə nə deyə bilərsiniz?**

**S e y i d  M ə h ə m m ə d  X a t ə m i:** Təbiidir ki, bizim apardığımız müzakirələrin əsas istiqamətlərindən biri də iki ölkə arasında iqtisadi münasibətlər idi. Cənab prezident İlham Əliyev İran İslam Respublikasının böyük sənaye və istehsal müəssisəsi ilə tanış olmuşdur. Bu gün Təbrizə səfəri zamanı çox böyük istehsal kompleksi olan traktorqayırma kompleksi ilə yaxından tanış olacaqdır. Biz mövcud ticarət əlaqələrinin genişləndirilməsini bir daha təkid edərək, ölkələrimizin münasibətlərində iqtisadi sahədə əlaqələrin daha da inkişaf etdirilməsinə çalışacağıq.

Hər iki ölkənin iqtisadi imkanları hərtərəfli inkişafımızı tamamlaya bilər. Biz ümid edirik ki, bu gün razılaşdırdığımız sənədlər gələcəkdə özünün real nəticəsini verəcəkdir.

Şimal–Cənub nəqliyyat dəhlizi çox böyük dördyoldur ki, o həm Şimal ilə Cənubu, həm də Şərq ilə Qərbi birləşdirir. Bu is-

tiqamətdə Rusiya, İran və Azərbaycan Respublikası çox mühüm əməkdaşlıq edirlər. Azərbaycanın dəmir yolu xətlərinin İranın dəmir yolu ilə birləşdirilməsi və dəhlizin daha da fəal istifadə olunması üçün çəkilməkdə olan və çəkiləcək yollar bu dəhlizin daha fəal nəqliyyat dəhlizi olacağını göstərir.

Bu gün imzalanan sənədlərdən biri də dəmir yolu sahəsində əməkdaşlığa aiddir. Şimal nöqtəsinin Azərbaycan dəmir yolu vasitəsilə Oman dənizinə birləşdirilməsi regionumuzda çox böyük dəyişikliklərin yaranmasına səbəb olacaqdır. Bu yol həmçinin Qərbin və Şərqin Cənubla və Şimalla birləşdirilməsi üçün, o cümlədən də Şimalın Hind okeanına da yolunun açılması üçün çox mühümdür.

Şimal–Cənub nəqliyyat dəhlizi təkcə Rusiya, Azərbaycan və İrana məxsus deyildir. Bəlkə də bu, yeni dünya əsrində qlobal iqtisadiyyatın birləşdirilməsi dəhlizidir. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZ ŞƏHƏRİNDƏ

*26 yanvar 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfərinin Tehran proqramı başa çatdı.*

*İran İslam Respublikası Prezidentinin sarayı qarşısında dövlətimizin başçısını rəsmi yolasalma mərasimi keçirildi*

*Sarayın qarşısındakı meydanda Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının və İran İslam Respublikasının dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Seyid Məhəmməd Xatəmi səmimiyyətlə sağollaşdılar. Prezident Xatəmi dövlətimizin başçısına müraciətlə dedi ki, inanıram, Sizin İrana bu ilk rəsmi səfəriniz ölkələrimiz, xalqlarımız üçün uğurlu olacaqdır. Səmimi sözlərə görə təşəkkür edən prezident İlham Əliyev rəsmi səfərə dəvət üçün bir daha dərin minnətdarlığını bildirdi.*

*Azərbaycan prezidentinə Tehrana rəsmi səfərini, keçirdiyi görüşləri əsk etdirən fotoalbom təqdim olundu.*

*Prezident İlham Əliyev maşın karvanının müşayiəti ilə İran paytaxtının Mehrabad hava limanına gəldi.*

*Hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev buradan təyyarə ilə Təbriz şəhərinə yola düşdü.*

* * *

*Təbrizin hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyevə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu. Milli geyimli azərbaycanlı uşaqlar dövlətimizin başçısını şeirlə salamladılar.*

*Təbriz şəhərinin küçələrində Azərbaycan prezidenti İlham Əliyevin pişvazına çıxmış sakinlər dövlətimizin başçısını hərarətlə salamlayırdılar.*

*Azərbaycan prezidenti İlham Əliyevi Təbrizə səfərində İranın Kooperasiya naziri Əli Sufi, Xarici İşlər nazirinin müavini Möhsüm Əminzadə, İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri, Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov və İranın Bakıdakı səfiri Əfşar Süleymani müşayiət edirdilər.*

## ŞƏRQİ AZƏRBAYCAN VALİLİYİNDƏ GÖRÜŞ

*Təbriz*

*26 yanvar 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi burada böyük hörmətlə, gül-çiçəklə qarşıladılar.*

*Görüşdə çıxış edən Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli Sübhanullahi prezident İlham Əliyevi Təbrizə gəlməsi müasibətilə təbrik edərək, tarixi hadisə kimi qiymətləndirdiyi bu səfərin iki ölkə arasında münasibətlərin inkişafında çox mühüm rol oynayacağını bildirdi. O, son illər Azərbaycan–İran münasibətlərinin möhkəmləndiyini, prezident Məhəmməd Xatəminin Bakıya səfərindən sonra əlaqələrin daha da canlandığını söyləyərək dedi ki, prezident İlham Əliyevin indiki səfəri ikitərəfli münasibətlərin inkişafına yeni təkan verəcəkdir. Dövlətimizin başçısına Təbriz haqqında məlumat verən vali bildirdi ki, bu, İranın ən böyük şəhərlərindən biridir. Şəhərdə xalçaçılıq xüsusilə inkişaf etmişdir, hazırda xalçanın toxunmAsı, satışı və s. daxil olmaqla, təxminən 700–800 min adam bu işlə məşğuldur. Şəhər iri istehsalal müəssisələri ilə də ölkədə məşhurdur və 5 mindən çox müəssisə vardır.*

*Cənab Sübhanullahi dedi ki, biz iqtisadiyyat, ticarət, elm və digər sahələrdə Azərbaycanla əlaqə yaratmaqda maraqlıyıq. Təbriz Universiteti nüfuzlu təhsil ocaqlarından biridir. Cənab Xatəmiyə də təşəkkür edirik ki, Təbrizdə Azərbaycanın Baş konsulluğunun açılmasına razılıq vermişdir. Hesab edirəm, ölkələrimiz arasında əməkdaşlığın genişlənməsi Təbrizin də inkişafına müsbət təsir göstərəcəkdir.*

**İ l h a m Ə l i y e v:** Biz üç gündür ki, İrandayıq, İranda rəsmi səfərdəyik. Səfər də çox uğurlu olubdur. Geniş fikir mü-

badiləsi aparmışıq və bir neçə böyük sənəd imzalamışıq. Mən şübhə etmirəm ki, bu sənədlər həyatda öz əksini tapacaq, sürətlə icra olunacaqdır. Beləliklə də İranla Azərbaycan arasında olan dostluq münasibətləri daha da yüksələcəkdir.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl İran İslam Respublikasının prezidenti hörmətli cənab Xatəmi Azərbaycanda rəsmi səfərdə idi. Həmin səfər də çox uğurlu idi. Əminəm ki, mənim də səfərim gələcək münasibətlərə yeni təkan verəcəkdir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın dərinləşməsi sahəsində artıq gözəl nəticələr vardır. Bu sahədə imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar bizə imkan verəcək ki, qısa müddət ərzində hər iki tərəf bundan böyük fayda götürsün. Xüsusilə, qaz mübadiləsi sazişi imkan verəcək ki, uzun illər qazsız qalmış Naxçıvana İrandan qaz verilsin. Biz ikitərəfli əlaqələrimizin inkişafında maraqlıyıq və istəyirik ki, bu əməkdaşlıq çox sahələri əhatə etsin.

Çox şadam ki, bu gün Təbrizdəyəm. Çoxdan Təbrizə gəlmək arzusunda idim. Bu gün bu arzum gerçəkləşdi. Təbriz bizim hamımız üçün doğma, əziz şəhərdir. Burada Azərbaycanın Baş Konsulluğunun açılması çox mühüm addımdır və çox gözəl hadisədir. Bütün bu son müddət ərzində ikitərəfli müstəvidə qazanılmış uğurlar onu göstərir ki, bir az iradə, xoş niyyət olan yerdə bütün məsələlər öz həllini tapa bilər. Əminəm ki, bizim aramızda olan münasibətlər gələcək illərdə daha da inkişaf edəcəkdir.

Mən İrana böyük heyətlə gəlmişəm və bu gün iqtisadi sahədə, humanitar sahədə və digər sahələrdə çox mühüm sənədlər imzalandı. Əminəm ki, bütün bu sənədlər uğurla icra ediləcəkdir. Hansısa məsələlər, hansısa problemlər, çətinliklər meydana çıxanda bizim hökumətlərarası komissiyamız bu məsələləri operativ qaydada həll edir və əminəm ki, sizin qaldırdığınız məsələlərə də komissiya baxacaq və həll edəcəkdir.

## TƏBRİZ TRAKTOR ZAVODU İLƏ TANIŞLIQ

*26 yanvar 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev İranın ən böyük sənaye müəssisələrindən olan Təbriz traktor zavodunda olmuşdur. Burada dövlətimizin başçısını, habelə xanımı Mehriban Əliyevanı böyük hörmətlə və səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

*Binanın üzərindən «Dost və qardaş ölkənin, Azərbaycan Respublikasının hörmətli prezidenti İlham Əliyev və nümayəndə heyəti, zavodumuza xoş gəlmisiniz!» sözləri yazılmış transparant asılmışdı.*

*Zavodda keçirilən görüşdə bu iri istehsal müəssisəsinin direktoru Möhsün Xadim Ərəbbaği prezident İlham Əliyevin və Azərbaycan nümayəndə heyətinin zavoda gəlməsindən 8 minlik kollektivin böyük məmnunluq duyduğunu bildirdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisə traktorlar, kənd təsərrüfatı üçün müxtəlif maşın və mexanizmlər istehsalı ilə məşğul olur. Bu il zavodda 15 min traktor istehsal edilməsi nəzərdə tutulur. Qarşıdakı iki il ərzində bu rəqəm 50 minə çatdırılacaqdır. Zavod öz məhsulları ilə həm İranı təmin edir, həm də 30-dan çox ölkəyə, ən çox isə Afrika ölkələrinə ixrac edir. Müəssisənin illik gəliri 100 milyon dollardan çoxdur.*

*Azərbaycan prezidenti İlham Əliyev bu iri istehsal müəssisəsində olmasından məmnunluğunu bildirdi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı zavodun ayrı-ayrı sexlərində istehsal prosesləri ilə tanış oldu, müəssisədə buraxılan kənd təsərrüfatı maşın və mexanizmlərinə baxdı, traktorlardan birinin sükanı arxasında əyləşdi.*

*Zavodla tanışlıqdan sonra Təbrizin «El gölü» mehmanxanasında Şərqi Azərbaycan əyalətinin valisi Məhəmmədəli*

*Sübhanullahinin adından Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyevin şərəfinə* ziyafət verildi.

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TƏBRİZDƏKİ BAŞ KONSULLUĞUNDA

*26 yanvar 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev ölkəmizin Təbrizdəki Baş konsulluğunda olmuşdur. Binanın qarşısına toplaşan təbrizlilər dövlətimizin başçısını hərarətlə salamladılar.*

*Azərbaycan prezidenti konsulluğun binası ilə yaxından tanış oldu, burada yaradılmış iş şəraitindən razı qaldığını bildirdi.*

*Baş konsul əvəzi Cavanşir Vəkilov qısa müddət ərzində görülən işlər barədə məlumat verərək dedi ki, burada ilk dəfə olaraq latın əlifbası ilə müstəqil ictimai-siyasi, ədəbi nəşr olan «Körpü» jurnalı buraxılmışdır. Jurnalda xalqımızın ümummilli lideri Heydər Əliyevin İran–Azərbaycan əlaqələrinə dair fikirləri, ölkəmiz haqqında ətraflı məlumat verilmişdir.*

**İlham Əliyev:** Mən sizə, diplomatlarımıza uğurlar arzulayıram. Əminəm, konsulluq yaxşı işləyəcəkdir. Bilirsiniz ki, bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin arzusu idi.

**Məhəmmədəli Sübhanullahi** (*Şərqi Azərbaycan əyalətinin valisi*): Cənab Prezident, vaxtilə dünya şöhrətli siyasi xadim Heydər Əliyevi Təbrizə dəvət edəndə mənə dedi ki, sən Təbrizdə Azərbaycanın konsulluğunu aç, mən uça-uça gələcəyəm. Bu ona qismət olmasa da, zati-alinizə qismət oldu. Allah ona rəhmət eləsin.

**İlham Əliyev:** Bu, ikitərəfli əlaqələrimizin nə qədər yüksək olduğunu göstərir. İnsanlar nə qədər əziyyət çəkib Tehrana gedir, oradan viza alır, sonra da qayıdırlar. Həm vaxt itir, həm də maddi cəhətdən problem yaranır.

**E l m a r  M ə m m ə d y a r o v** (*Azərbaycanın Xarici İşlər naziri*): Cənab Prezident, son iki ay ərzində konsulluq tərəfindən 525 viza verilmişdir.

**İ l h a m  Ə l i y e v:** İnşallah, ümid edirəm, Təbriz–Bakı reysi də açılsa, çox yaxşı olacaqdır.

**M ə h ə m m ə d ə l i  S ü b h a n u l l a h i:** Yaxın vaxtlarda bunun da şahidi olacağıq.

**İ l h a m  Ə l i y e v:** Bina da yaxşıdır. Bu yeri siz seçmisiniz?!

**A b b a s ə l i  H ə s ə n o v** (*Azərbaycanın Tehrandakı səfiri*): Cənab Prezident, prezident Xatəmi Bakıya səfərindən sonra Təbrizdə konsulluğun açılmasına rəsmi razılıq verdi. Onda gəlib cənab Sübhanullahi ilə bir yerdə bina axtaranda bu yeri seçdik. Çünki bu bina şəhərin yaxşı yerindədir, insanların buraya gəlməsi o qədər də çətin deyildir. Həm də bina təzədir, burada yaşayan olmayıbdır. Bəzi təmir işlərini də yekunlaşdırmışıq. Beləliklə, şəhərin yaxşı bir yerində konsulluq fəaliyyətə başladı.

**İ l h a m  Ə l i y e v:** Gözəl yerdir. Mən buraya gələndə ətrafda yeni tikililəri gördüm. Çox müasir binalardır. Gərək burada çalışanlar yaxşı işləsinlər ki, bizim əlaqələrimizə lazımınca kömək etsinlər.

Bilirsiniz ki, artıq konsulluğun icazəsi verildi, bizim təklif etdiyimiz konsulun namizədliyi hökumət tərəfindən təsdiq olunubdur. Təbii ki, qayıdan kimi fərman verəcəyik ki, o, işə başlasın. Hamınıza uğurlar olsun.

*Sonra prezident İlham Əliyev Təbriz Baş Konsulluğunun əməkdaşları ilə xatirə şəkli çəkdirdi, jurnalistlərə müsahibə verdi.*

**S u a l: Cənab Prezident, Siz İrana rəsmi səfərinizdən razı qaldınızmı, ümumiyyətlə, gözlədiyiniz nəticəni ala bildinizmi?**

**C a v a b:** Hesab edirəm, bəli, nəticələri ala bildik. Mən artıq bu barədə bugünkü mətbuat konfransında fikirlərimi açıqladım. Mən səfərin yekunları ilə çox razıyam. Hesab edirəm, çox uğurlu səfər olubdur. Şübhə etmirəm ki, ikitərəfli münasibətlə-

rin daha da güclənməsi baxımından səfər çox uğurlu olubdur. Apardığım bütün danışıqlar, söhbətlər onu göstərir ki, hər iki tərəfdə əlaqələrin genişlənməsi üçün böyük maraq var və böyük səylər göstərilir. Razılaşdırılmış sazişlər, müqavilələr öz bəhrəsini verməkdədir.

Bakıda cənab Xatəminin səfəri çərçivəsində imzalanmış sənədlər də çoxdur və bu gün burada imzalanmış sənədlər də qısa müddət ərzində həyatda öz əksini tapacaqdır. Bir sözlə, hesab edirəm gələcəkdə biz bu səfərin nəticələrini görəcəyik.

**S u a l: Cənab Prezident, valilikdə keçirdiyiniz görüşdə vali Sizdən bir sıra məsələlərin həllini xahiş etdi. Bununla bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Mən dedim, bizim ikitərəfli, hökumətlərarası komissiya çox səmərəli işləyibdir. Bu səfərdən əvvəl də Tehranda komissiyanın iclası keçirilmişdir və bütün məsələlər orada müzakirə olunur, o cümlədən problemli məsələlər. Deyə bilərəm ki, bizim aramızda artıq problemli məsələ qalmayıbdır. Hansısa xırda məsələ var ki, öz həllini tapmalıdır, komissiya çərçivəsində bu məsələ həll edilə bilər ki, insanlar bir-birilə daha da rahat əlaqə saxlasınlar, gediş-gəliş daha da asan olsun. Əlbəttə ki, mövcud olan hansısa xırda problemlər də tezliklə, operativ qaydada həllini tapsın.

**S u a l: Cənab Prezident, Siz bütün səfərlərinizdə olduğu kimi, İrana səfərinizdə də Dağlıq Qarabağ probleminin həlli məsələsini xüsusi müzakirə etdiniz. İran böyük qonşudur, həm Azərbaycanın, həm də Ermənistanın qonşusudur. Siz bu səfərdən sonra İranın Dağlıq Qarabağ probleminin həlli, daha doğrusu, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən çəkilməsi istiqamətində hansısa addımlar atacağını gözləyirsinizmi və ümumiyyətlə, İranın rolunda bir dəyişiklik varmı?**

**C a v a b:** İran bu məsələ ilə əlaqədar öz mövqeyini birmənalı şəkildə ən yüksək səviyyələrdə dəfələrlə bildirmişdir. O cümlədən, cənab Xatəminin Azərbaycana səfəri zamanı verdiyi

bəyanat birmənalı idi. İndiki səfər çərçivəsində də hörmətli cənab Prezident İranın mövqeyini açıq-aydın bildirdi.

Bundan başqa, bütün beynəlxalq təşkilatlarda, bütün səviyyələrdə biz daim İranın bu məsələ ilə bağlı mövqeyini hiss edirik, ədalətli mövqeyini çox bəyənirik və son dəfə Birləşmiş Millətlər Təşkilatında keçirilmiş müzakirələr zamanı İranın mövqeyi yenə də birmənalı idi. Bu baxımdan ümid edirəm ki, bu çox aydın mövqe və birmənalı yanaşma, əlbəttə, münaqişənin sülh yolu ilə nizama salınması üçün mühüm rol oynayır.

Azərbaycanla İran arasında olan əlaqələr çox mühüm əlaqələrdir. Hər iki ölkə üçün, regionda sülhün, sabitliyin bərqərar olunması üçün, ümumiyyətlə, regional əməkdaşlıq baxımından çox vacibdir. Görün, indi aramızda nə qədər sazişlər imzalanıbdır. Bunlar elə-belə sənədlər deyildir. Yəni onların heç biri kağız üzərində qalmayacaqdır. Son dörd-beş ayın təcrübəsi göstərir ki, Bakıda imzalanmış bütün sənədlər icra edilibdir.

İranın və Azərbaycanın iqtisadi potensialı artır. Bizim ikitərəfli iqtisadi əlaqələrimiz güclənir. Energetikada, humanitar sahədə, bütün başqa sahələrdə. Yəni nəyi demək istəyirəm, əlbəttə ki, bizim aramızda olan münasibətlər həm Azərbaycan üçün, həm də İran üçün hər hansı bir başqa ölkə ilə olan münasibətlərlə müqayisə edilə bilməz. Mən hesab edirəm ki, bu birmənalı mövqe, xüsusilə Ermənistanın işğalçı siyasətinin açıq-aydın pislənməsi mühüm haldır. Mən bu münasibətlə cənab Xatəmiyə, İran hökumətinə öz minnətdarlığımı bildirdim. Hesab edirəm ki, əgər bütün ölkələr, beynəlxalq ictimaiyyət belə birmənalı mövqe tutsa, məsələ tezliklə öz həllini tapar.

**S u a l: Cənab Prezident, Xəzərin statusuna dair apardığınız danışıqlardan sonra İranın mövqeyində hər hansı bir yumşalma varmı, yoxsa yenə də 20 faizə iddia edir?**

**C a v a b:** Bilirsiniz, biz hansısa yumşalmadan heç vaxt söhbət aparmırıq. Hər bir tərəfin öz mövqeyi var. Biz də hər bir mövqeyə hörmətlə yanaşırıq. Əgər hansısa bir mövqe mövcuddursa, deməli, bunun arxasında hansısa məsələlər var. Biz istəyirik ki, həmin məsələ həllini tapsın və müvafiq qurumlar, nü-

mayəndələr bu istiqamətdə işləyirlər və özü də çox gərgin işləyirlər. Bizim, hər iki tərəfin niyyəti, səmimi niyyəti bundan ibarətdir ki, bu məsələ öz həllini tapsın. Düzdür, Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmaması, demək olar ki, Xəzərdə aparılan işlərə mənfi təsir göstərmədi. Bizim onillik təcrübəmiz də onu göstərir ki, bu, Xəzər dənizinin karbohidrogen yataqlarının işlənilməsi üçün problem yaratmır. Amma buna baxmayaraq, biz istəmirik ki, bu məsələ daim belə asılı vəziyyətdə qalsın. Biz istəyirik ki, Xəzəryanı ölkələrin hamısı ortaq bir məxrəcə gəlsinlər, məsələ öz hüquqi həllini tapsın və beləliklə, bu məsələyə son qoyulsun.

Mən Bakıda da, burada da prezident Xatəmi ilə apardığım danışıqlar çərçivəsində ifadə olunan təkliflərə çox böyük diqqətlə baxıram və müvafiq göstərişlər də verilibdir ki, bu məsələ daha da dərindən incələnsin. Hər iki tərəfin mövqeyi müzakirə olunsun və biz bir yol tapaq ki, məsələ öz həllini tapsın. Hər halda, hər iki tərəfin istəyi bundan ibarətdir və göstərişlər də verilibdir. Ümid edirəm ki, danışıqlarda irəliləyiş olacaqdır.

**S u a l: Cənab Prezident, AŞPA-da Devid Atkinsonun məruzəsi qəbul olundu. Yəqin ki, Sizə bu barədə məlumat verilibdir. Bu Sizi razı saldımı?**

**C a v a b:** Bəli, mənə dünən axşam saatlarında məlumat verilibdir. Mən qətnamənin mətninə baxdım, Bakıya qayıdandan sonra onunla dərindən tanış olacağam və müzakirələr aparılacaqdır. Əlbəttə, hesab edirəm ki, bu bizim böyük qələbəmizdir. Bizim arzumuz idi ki, Avropa Şurasında bu məruzə hazırlansın və məruzə ətrafında qətnamə qəbul edilsin, Ermənistanın işğalçı siyasəti burada öz əksini tapsın. Ermənistan bir işğalçı dövlət kimi, təcavüzkar dövlət kimi, burada qınaq obyektinə çevrilsin. Orada separatçı qüvvələr ifadəsi işlədilsin. Bir sözlə, Azərbaycana qarşı edilən bütün təcavüzlər orada öz əksini tapsın – etnik təmizləmə məsələsi, bütün digər məsələlər. Ermənistan tərəfi həmişə bunun əleyhinə çıxırdı. Hər dəfə çalışırdı ki, bu müzakirə baş tutmasın, qətnaməyə dəyişikliklər etməyə çalışırdı. Bu,

bir prosesdir. Əlbəttə, deyim ki, bu qətnamə məni yüz faiz qane edir, əlbəttə, yox. Amma haradasa 90 faiz qane edir.

Əgər Ermənistanın reaksiyasına baxsanız, görərsiniz ki, onlar o qətnamənin qəbul olunmasından çox məyus olublar. Çünki bu, münaqişənin məğzini bir daha bütün dünyaya açıqlayır. Bu, münaqişəyə siyasi qiymətin verilməsi deməkdir. Biz Avropa Şurasından başqa bir şey gözləmirik. Avropa Şurasının başqa mexanizmləri yoxdur. Sadəcə, bu çox vacib bir forumdur ki, bu məsələyə siyasi qiymət verir. Minsk qrupu məsələnin praktiki həlli ilə məşğuldur. Birləşmiş Millətlər Təşkilatı indi bizim təşəbbüsümüzlə məsələyə digər prizmadan yanaşır. Avropa İttifaqı bu məsələyə daha çox iqtisadi baxımdan yanaşır ki, məsələ həll olunsun və regionda iqtisadi əməkdaşlıq olsun. Avropa Şurası isə sırf insan haqları baxımından, siyasi qiymət baxımından bu məsələyə öz münasibətini bildirdi.

Beləliklə, bizim də siyasətimiz elə bundadır ki, Ermənistana hər tərəfdən təzyiq göstərilsin. Beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi qınasınlar ki, bu da öz növbəsində, danışıqlar prosesində müsbət rol oynayacaqdır. Biz bu müsbət rolu hiss edirik. Əlbəttə, ucuz söz olar ki, deyək Avropa Şurası bunu qəbul etdi, ermənilər də bu torpaqlardan çəkildilər, getdilər. Biz o qədər də sadəlövh deyilik. Amma bu, ümumi işimizə mühüm bir töhfədir və biz bunun nəticəsini görəcəyik.

**S u a l: Cənab Prezident, Ermənistan rəsmilərini narahat edən iki layihə var idi. Bunlardan biri Şimal–Cənub dəhlizi, digəri isə Qars–Tbilisi dəmir yolunun çəkilməsidir. Deyirlər ki, bu layihələr reallaşsa, biz bütün kommunikasiyalardan kənarda qalacağıq. Bəlkə də mənə belə gəlir ki, o iki layihədə nədənsə bir ləngimə var. Şimal–Cənub layihəsi İranda da müzakirə olundu, işlər nə yerdədir?**

**C a v a b:** Mən hesab etmirəm ki, ləngimə var. Birincisi, Qars–Tbilisi dəmir yolu ilə bağlı müzakirələr, demək olar, daha da intensivləşibdir. Əgər bir neçə il bundan əvvəl bu, sadəcə olaraq, bir fikir, ideya kimi yaşayırdısa, bu gün artıq praktiki

danışıqlar aparılır. Yəqin xatırlayırsınız ki, mənim Gürcüstana rəsmi səfərim çərçivəsində, demək olar, ilk dəfə Azərbaycan tərəfindən təklif irəli sürüldü ki, beynəlxalq konsorsium yaradılsın. Azərbaycan da bu konsorsiumda həm hökumət, həm də şirkətlər səviyyəsində orada iştirak edə bilər və məsələ həll oluna bilər. Ondan sonrakı dövr onu göstərdi ki, artıq praktiki danışıqlar aparılır, məsələ müzakirə olunur və biz də çox maraqlıyıq ki, bu, tezliklə öz həllini tapsın. Azərbaycan özünə düşən maliyyə öhdəliyini də üzərinə götürməyə hazırdır ki, məsələ həll olunsun.

Şimal–Cənub dəhlizinə Azərbaycan artıq qoşulubdur. Bu istiqamətdə işlər gedir. Əgər biz bunu Şərq–Qərb dəhlizi ilə müqayisə etsək, görərik ki, Şimal–Cənub layihəsi bəlkə də daha sürətlə inkişaf edir və burada daha böyük addımlar atılır. Biz hər bir regional layihənin iştirakçısı olmaq istəyirik və olacağıq da, bəzi regional layihələrin isə təşəbbüskarıyıq. Bu, ilk növbədə, bizim öz problemlərimizi həll edəcəkdir.

Azərbaycandan kommunikasiyalar – dəniz, avtomobil yolları, neft-qaz kəmərləri nə qədər çox keçsə, o qədər də bizim həm iqtisadi vəziyyətimiz yaxşı olacaq, həm də regionda çəkimiz artacaqdır. Eyni zamanda, əlbəttə, sirr deyil ki, bütün bu layihələrin nəticəsində Ermənistan tamamilə bütün regional əməkdaşlıqdan birmənalı şəkildə təcrid olunacaqdır. Bu layihələr həyata keçsə, Ermənistanın arzuladığı o yollar məsələsi də gündəlikdən tamamilə çıxacaqdır. Onların heç bir əhəmiyyəti olmayacaqdır.

**S u a l: Cənab Prezident, ümumiyyətlə, son illər Azərbaycan–İran münasibətlərində xüsusi yaxınlaşma müşahidə olunur. İran Prezidentinin Bakıya, xüsusilə Sizin Tehrana səfərinizdən sonra bu münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Ola bilərmi ki, bundan sonra İran Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konkret olaraq Ermənistana iqtisadi təzyiq göstərsin? Təsdiqlənməmiş məlumata görə, dünən bu məsələ müzakirə olunubdur. Ermənistanın Azərbaycanla yolları bağlıdır, Türkiyə sərhədi açmır və İran da belə bir təzyiq göstərsə...**

**C a v a b:** Mən sadəcə olaraq, burada bu məsələni, necə deyərlər, diqqətə çatdırırdım. Mən heç bir təklif irəli sürmədim.

**S u a l: Cənab Prezident, Amerikanın və Avropanın siyasəti Azərbaycanın İrana yaxınlaşmasına mane olmur ki?**

**C a v a b:** Bizim ikitərəfli əlaqələrə heç kim təsir edə bilməz. Azərbaycan bütün ölkələrlə, o cümlədən İranla öz xarici siyasətini müstəqil şəkildə qurur. Biz istəyirik ki, ikitərəfli münasibətlər inkişaf etsin və bu münasibətlər müstəqil şəkildə aparılsın. Heç kim heç kimi məcbur etmir, heç bir başqa xarici amil də bizim ikitərəfli münasibətlərdə heç bir rol oynamır. Bizim böyük tariximiz var, bağlılığımız, oxşarlığımız var. Biz qonşu ölkəyik, ümumi sərhədimiz də var. Bu sərhədin arasında heç kim yoxdur ki, hansısa bir təsir etsin. Mən hesab edirəm ki, ancaq müstəqil ölkələr, güclü ölkələr özlərinin, xalqlarının xeyrinə müstəqil siyasət apara bilərlər.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26-da Təbrizdə Şairlər məqbərəsini ziyarət etdi.*

*Dövlətimizin başçısı burada dəfn olunmuş ədiblərin xatirəsini ehtiramla andı, müasir Azərbaycan və fars ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Məhəmmədhüseyn Şəhriyarın məzarı üzərinə gül dəstəsi qoydu.*

*Şərqi Azərbaycan əyalətinin incəsənət və mədəniyyət idarəsinin müdiri Rəsul Bəşiri dövlətimizin başçısına məlumat verərək dedi ki, İran ədəbiyyatının 400-dən çox nümayəndəsi buradakı qəbiristanda dəfn olunubdur. Onların hamısı təbrizli deyil, İranın müxtəlif şəhərlərindən Təbrizə gələnlər də burada şöhrət qazanaraq ömürlərini başa vurmuşlar. Məhəmmədhüseyn Şəhriyar isə məqbərədə sonuncu dəfn olunan şairdir. Onun əsərləri müxtəlif dillərdə çap olunmuşdur. İran prezidenti Xatəminin fərmanına əsasən, məqbərə daha gözəl formada*

*yenidən tikiləcək və onun ətrafında ədəbiyyat muzeyi və ədəbiyyat kitabxanası yaradılacaqdır.*

*Prezident İlham Əliyev məqbərənin xatirə kitabına ürək sözlərini yazdı:* «Şairlər məqbərəsini ziyarət etdim. Dahi Şəhriyarın qəbrini ziyarət etdim. Şəhriyarın ölməz əsərləri və əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

*26 yanvar 2005-ci il*».

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.*

## «NEFTÇİ» FUTBOL KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 yanvar 2005-ci il*

**İ l h a m  Ə l i y e v:** Mən böyük qələbə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. «Neftçi» komandası "Birlik" kubokunda Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Çıxış etdiyi qrupda bütün rəqiblərini məğlub etmişdir. Ondan sonrakı mərhələdə də çox gözəl futbol nümayiş etdirmiş və finala çıxmışdır. Finalda çox güclü «Lokomotiv» komandası ilə oynamışdır və birinci qolu da vurmuşdur. Amma sonra məğlubiyyətə uğradı. Amma buna baxmayaraq, bu çox böyük nailiyyətdir. Bu bir daha onu göstərir ki, Azərbaycanda idman yüksək səviyyədədir, Azərbaycanda idmanın bütün növləri inkişaf edir.

İndi «Lokomotiv», Kiyevin «Dinamo» kimi dünya şöhrətli komandalarla bərabər səviyyədə oynamaq və Kiyev dinamoçuları üzərində qələbə qazanmaq çox böyük nailiyyətdir. Bir neçə il bundan əvvəl bu barədə heç söhbət də gedə bilməzdi. Hamımız yaxşı bilirik ki, Azərbaycanda futbol zəif inkişaf edirdi, demək olar ki, ümumiyyətlə, inkişaf etmirdi. Bunun səbəblərini mən indi bu gün açıqlamaq istəmirəm. Hamımız bunu yaxşı bilirdik. Amma son müddət ərzində, Futbol Federasiyasına yeni üzvlər seçiləndən sonra, klublara rəhbərliyə yeni şəxslər gələndən sonra biz gördük ki, qısa müddət ərzində futbolda çox gözəl dönüş yarandı.

Əvvəllər klubların vəziyyəti çox ağır idi və ümumiyyətlə, klublara sponsor cəlb etmək mümkün deyildi. Çünki, ümumiyyətlə, futbol təsərrüfatında hökm sürən o xaos, anarxiya və özbaşınalıq, əlbəttə, imkan vermirdi ki, kimsə gəlsin burada ciddi məşğul olsun.

Bilirsiniz ki, mən 7 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm və Azərbaycanda idmanın inkişafına çox böyük əhəmiyyət verirəm. Bu həm sağlamlıq, həm normal həyat tərzi deməkdir, eyni zamanda, ölkənin imici deməkdir. Hər bir qələbə, beynəlxalq yarışda qazanılmış hər bir uğur ölkəni təbliğ edir. Ölkənin nəinki idman sahəsində, ümumiyyətlə, bütünlükdə potensialını təcəssüm etdirir. Çox heyifsilənirdim ki, dünyada ən baxılan, ən populyar idman növündə – futbolda Azərbaycan zəif çıxış edir. Hamımız yaxşı xatırlayırıq ki, beynəlxalq yarışlardakı o acı məğlubiyyətlər bizim insanlarımıza nə qədər böyük mənfi təsir göstərirdi. Buna baxmayaraq, Azərbaycan azarkeşləri həmişə futbolçuları dəstəkləyirdilər. Mən də xatırlayıram ki, beynəlxalq oyunları həmişə səbirsizliklə gözləyirdilər. Amma tribunalara gəlib o məğlubiyyəti görəndə, əlbəttə ki, bu, psixoloji baxımdan çox mənfi təsir göstərirdi.

Çox şadam ki, qısa müddət ərzində futbolda dönüş yarandı. Bizim həmişə güclü futbolçularımız olmuşdur. Bu gün bu qələbəni qazananlar da artıq neçə ildir ki, futbolla məşğul olurlar. Sadəcə olaraq, o qeyri-sağlam ab-hava, özbaşınalıq, qeyri-peşəkarlıq imkan vermirdi ki, bizim futbolumuz dirçəlsin, inkişaf etsin.

Bu gün biz düz yoldayıq. Bu gün ən populyar idman növü olan futbol Azərbaycanda çox sürətlə inkişaf edir, klublar güclənir. Mən şəxsən çox şadam və bunu dəstəkləyirəm ki, müxtəlif təşkilatlar klublara sponsorluq edirlər. Sponsorluq olmadan heç bir idman növünü, o cümlədən futbolu da inkişaf etdirmək mümkün deyildir. Mən əminəm ki, yaxın zamanlarda bizim komandalarımız dünya səviyyəli komandalara çevriləcəkdir.

Bilirsiniz ki, indi dünyada məşhur futbol komandaları, necə deyərlər, böyük bir şirkət halına çevriliblər. Futbol komandalarının həm maddi potensialı güclüdür, eyni zamanda, kommersiya fəaliyyəti də var. Yəni biz bu yola yaxınlaşırıq. Bu yol da sınanmış yoldur. Bütün inkişaf etmiş ölkələrdə futbol məhz bu yolla inkişaf edir.

Əlbəttə, finala çıxmaq böyük nailiyyətdir, böyük qələbədir. Amma hesab edirəm, razılaşarsınız ki, Ermənistanın futbol klubu üzərində qazanılan qələbəni mən ondan da böyük qələbə hesab edirəm. Bu, həqiqətən tarixi bir qələbə idi. Biz hamımız, bütün Azərbaycan xalqı bu qələbəni çoxdan arzulayırdıq. Düzdür, bizim idmançılarımız müxtəlif yarışlarda digər idman növlərində həmişə ermənilər üzərində qələbə qazanırdılar. O cümlədən Afinada keçirilmiş Olimpiya oyunlarında Azərbaycan idmançıları 5 medal qazanmışlar, Ermənistan heç bir medal qazanmamışdır. Ondan əvvəlki Olimpiya oyunlarında Azərbaycan 2 qızıl, 1 bürünc medal qazanmışdı, Ermənistan, səhv etmirəmsə, 2 bürünc qazanmışdı, onun da birini əllərindən aldılar. Çünki orada da fırıldaq işlətmişdilər, dopinqdən istifadə etmişdilər. Həm də biabır oldular.

Bu bir həqiqətdir, indi iki ölkənin idman potensialını biz əgər müqayisə etsək, görərik ki, bunların arasında böyük uçurum var. Bu belə də olacaqdır. Amma futbol, yenə də deyirəm, ən populyar, ən izlənən idman növüdür və həmin oyun mötəbər beynəlxalq yarış çərçivəsində keçirilmişdir və inamlı qələbəmiz bir daha göstərdi ki, Azərbaycan idmançıları, Azərbaycan gəncləri nəyə qadirdirlər. Bu bizim hamımız üçün çox böyük qələbə idi. Yəni bunu sözlə ifadə etmək mümkün deyildir. İnanmıram belə bir söz tapılsın ki, biz bunu ifadə edə bilək. Siz bütün xalqa, bütün millətə sevinc, qələbə bəxş etmisiniz. Azərbaycan bayrağını qaldırmısınız. Ermənilər üzərində bu inamlı qələbə təkcə idmanda qazanılan qələbə deyil, bu, ümumiyyətlə, bizim qələbəmizdir. Biz qələbə çalacağıq.

Bu gün Azərbaycanın inkişafı, Azərbaycanın iqtisadi potensialının güclənməsi, hərbi potensialının güclənməsi, beynəlxalq müstəvidə qazanılmış diplomatik uğurlar göz qabağındadır. O cümlədən bu yaxınlarda Avropa Şurasında Ermənistanı ifşa edən, onların təcavüzkar siyasətini pisləyən, onları separatçı adlandıran sənədlər qəbul edilmişdir. Biz bu qələbələri hər bir istiqamətdə qazanmalıyıq ki, nəhayət, Azərbaycan öz doğma torpaqlarını azad etsin, işğalçı qüvvələr oradan çıxsın və Azərbay-

canın ərazi bütövlüyü bərpa olunsun. Mən bunu dəfələrlə bəyan etmişəm ki, biz hər yola hazırıq və hazır olmalıyıq. Əgər danışıqlar yolu heç bir səmərə verməsə, Azərbaycan xalqının iradəsi var, qüdrəti var, səfərbərliyi var və gücü var ki, öz torpağını azad etsin.

Mən sizi bu böyük qələbə – bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm, hər birinizə – komandanın oyunçularına, məşqçilərə, «Neftçi» futbol klubunun rəhbərlərinə öz dərin minnətdarlığımı bildirirəm. İndi «Neftçi» futbol klubuna Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu rəhbərlik edir. Görürəm ki, zavodun rəhbərləri də bu məsələyə çox ürəklə, çox istəklə, ciddi yanaşırlar. Bu belə də olmalıdır. Biz hamımız çalışmalıyıq ki, kimin harada nə imkanı var, o imkanlar bir yerə çəmləşdirilib ümumi işimizə töhfə versin.

Mən bir daha sizi ürəkdən təbrik edirəm və arzu edirəm ki, bundan sonra öz parlaq qələbələrinizlə Azərbaycan xalqını neçə-neçə dəfə sevindirəsiniz. Sağ olun.

**Vidadi Rzayev** (*«Neftçi» komandasının veteran futbolçusu*): Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Biz ermənilərlə oynayanda klubumuzun rəhbəri Rövnəq Abdullayev dedi ki, ilk öncə prezidentimiz İlham Əliyev və Azərbaycan xalqı sizdən qələbə gözləyir. Bu bizi daha da ruhlandırdı. Sizin adınızı eşidəndən sonra ruh yüksəkliyimiz birə-min artdı. Biz çalışdıq ki, Sizi və xalqımızı sevindirək.

**Ağasəlim Mircavadov** (*«Neftçi» komandasının baş məşqçisi*): Biz çox sevinirik ki, klubumuz Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun nəzdindədir. Bu ad bizim üçün liderdir və həmişə olacaqdır. Turnirdə 5 görüşdən 4-də qələbə qazandıq, birində isə məğlub olduq. Amma bütün oyunları yüksək səviyyədə keçirdik. Bunu bütün mütəxəssislər, o cümlədən Rusiya mütəxəssisləri də etiraf etdilər. Hətta «Lokomotiv»lə oyundan sonra onların baş məşqçisi Yuri Syomin dedi ki, oyun bərabər səviyyədə keçdi, amma bizim bəxtimiz gətirdi. Ancaq bizim əsas oyunumuz ermənilərlə idi. Bu bizim üçün ta-

rixi oyun idi, yanvarın 19-dan 20-nə keçən gecə, 1990-cı il faciəsinə iki saat qalmış qurtardı. Rövnəq müəllim Sizin ürək sözünüzü bizə çatdırırdı. Ona görə də ruh yüksəkliyi ilə qələbəni qazandıq. Bizi bu qələbəyə ruhlandıran Siz idiniz. Sizin rəhbərliyinizlə Azərbaycanda bütün idman növləri, o cümlədən futbolumuz inkişaf edir. Biz həmişə Sizin diqqət və qayğınızı hiss edirik. Buna görə də Sizə hamımızın adından minnətdarlıq edir, cansağlığı arzulayırıq.

**R ö v n ə q A b d u l l a y e v** *(«Neftçi» futbol klubunun prezidenti*): Hörmətli cənab Prezident, icazə verin, Azərbaycanın daxili və xarici siyasətində, iqtisadiyyatında, idmanında və başqa sahələrdə qələbələrinizə, xüsusi xidmətlərinizə görə minnərdarlığımızı bildirək və Sizə çox sağ olun deyək. İcazə verin, qələbəmizin medalını Sizə təqdim edək. Bu qələbə Sizindir, Sizin hesabınıza qazanılıbdır.

*Sonra Azərbaycan Prezidentinə «Neftçi» klubu adından xatirə hədiyyələri təqdim olundu.*

**İ l h a m Ə l i y e v:** Bu xatirə hədiyyələrinə görə təşəkkür edirəm.

Həmin oyun haqqında məndə kifayət qədər məlumat var və bilirəm ki, oyun ərəfəsində ermənilər müxtəlif təkliflər də vermişdilər ki, püşkatma olsun, yaxud da, ümumiyyətlə, oyun baş tutmasın. Bu onu göstərirdi ki, onlar çox narahat idilər. Narahat idilər ki, bir tərəfdən, yəqin ki, sizin gücünüzü artıq görürdülər, hiss edirdilər ki, siz onlardan üstünsünüz. Digər tərəfdən, bu onların, yumşaq desək, bu məsələlərə yanaşmasından xəbər verir. Amma mən bilirəm ki, futbolçularımız oyuna birmənalı şəkildə böyük əzmlə, iradə ilə hazırlaşmışdılar, mənə bu gün Rövnəq deyir ki, heç gecəni də yatmamışdılar, onların bütün fikri, düşüncələri oyun haqqında idi. Əlbəttə ki, peşəkarlıqla bərabər, bu ruh yüksəkliyi imkan verdi ki, siz o qələbəni qazanasınız.

Mən oyunu izləyirdim və görürdüm ki, həqiqətən – bu, televiziyada baxanda da hiss olunurdu – oyunçularımızda nə qədər

böyük əzm, iradə var. Bu çox böyük nailiyyətdir və mən çox şadam ki, belə bir qələbə qazanıldı. Əminəm ki, gələcəkdə də neçə-neçə qələbə olacaqdır.

Bir daha sizin hamınızı təbrik edirəm. Bu tarixi qələbənin qazanılması ilə əlaqədar sizə ölkə Prezidenti kimi, öz minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olun.

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Ölkənizin milli bayramı – Vaytanqa günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yeni Zelandiya arasında yaranan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 yanvar 2005-ci il*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA**

Hörmətli xanım Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış münasibətlər, ikitərəfli əlaqələrimiz bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Şri-Lanka xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *31 yanvar 2005-ci il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixail Nikolayeviç!

Gürcüstanın görkəmli dövlət və siyasi xadimi, Baş nazir Zurab Vissarionoviç Jvaniyanın faciəli vəfatı xəbəri məni dərindən sarsıtdı.

Zurab Jvaniya Azərbaycan ilə Gürcüstan arasında dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsinin fəal tərəfdarı idi.

Bu hüznlü anlarda ağrı və kədərinizi bölüşərək, Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, mərhumun ailəsinə, doğmalarına və yaxınlarına, bütün gürcü xalqına dərin hüznlə başsağlığı verirəm.

Zurab Jvaniyanın nurlu xatirəsi həm gürcü xalqının, həm də Azərbaycan xalqının qəlbində həmişə yaşayacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı şəhəri, *3 fevral 2005-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANIN BAŞ NAZİRİNİN VƏFATI İLƏ ƏLAQƏDAR BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNƏ GEDƏRƏK BAŞSAĞLIĞI VERMƏSİ**

*4 fevral 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri Zurab Jvaniyanın vəfatı ilə əlaqədar bu ölkənin Bakıdakı səfirliyinə gedərək başsağlığı vermişdir.*

*Azərbaycan dövlətinin başçısını səfirliyin binası önündə Gürcüstanın respublikamızdakı səfiri Zurab Qumberidze qarşıladı.*

*Prezident İlham Əliyev səfirliyin əməkdaşları ilə səmimi görüşüb onlara başsağlığı verdi, Baş nazir Zurab Jvaniyanın faciəli vəfatı ilə əlaqədar səfirlikdə qoyulmuş matəm kitabına aşağıdakı sözləri yazdı:*

«Gürcüstanın görkəmli dövlət və siyasi xadimi Zurab Jvaniyanın faciəli vəfatı xəbəri məni dərindən kədərləndirdi. Zurab Jvaniya öz həyatını Gürcüstanın inkişafı və çiçəklənməsinə həsr edirdi.

O, Azərbaycanla Gürcüstan arasında dostluq, mehriban qonşuluq, qardaşlıq əlaqələrinin inkişafında mühüm və əvəzolunmaz rol oynayırdı.

Bu çətin və kədərli anlarda Gürcüstan xalqına, mərhumun ailəsinə, doğmalarına, yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Dostum Zurabın əziz xatirəsi bizim qəlbimizdə həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

4 fevral 2005-ci il».

*Sonra prezident İlham Əliyev səfir Zurab Qumberidze ilə söhbət etdi. Dövlətimizin başçısı mərhumun Azərbaycan–Gürcüstan əlaqələrinin inkişafındakı rolunu bir daha yüksək dəyərləndirərək, dost və qonşu ölkələr arasında münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyini və möhkəmlənəcəyini vurğuladı.*

*Səfir Zurab Qumberidze Gürcüstan xalqına üz vermiş kədərli hadisə ilə əlaqədar onların dərdlərinə şərik olduğuna, səfirliyə gələrək başsağlığı verdiyinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

## AZƏRBAYCANIN MƏDƏNİYYƏT NAZİRİ POLAD BÜLBÜLOĞLUNA RESPUBLİKANIN ALİ MÜKAFATI OLAN "İSTİQLAL" ORDENİNİN TƏQDİM EDİLMƏSİ

*Prezident sarayı*

*4 fevral 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Polad Bülbüloğlunu yubileyi münasibətilə təbrik etdi və Azərbaycan mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə onun «İstiqlal» ordeni ilə təltif edilməsi barədə sərəncam verdiyini bildirdi.*

*Dövlətimizin başçısı İlham Əliyev uzun illərdən bəri tanıdığı, görkəmli ifaçı, bəstəkar Polad Bülbüloğlunun unudulmaz əsərlərinin xalqımız tərəfindən həmişə sevildiyini vurğuladı və bir nazir kimi, onun Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev Polad Bülbüloğlunun uzun müddət xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında işlədiyini xatırladaraq dedi ki, ölməz Bülbülün oğlunun yaradıcılığına və fəaliyyətinə ulu öndərimiz həmişə böyük diqqət və qayğı göstərmişdir. Dövlətimizin başçısı onun yaradıcılığını bu gün də davam etdirməsini yüksək dəyərləndirərək dedi ki, bu, qəlbən hələ də gənc olduğunuzu göstərir.*

*Prezident İlham Əliyev Polad Bülbüloğlunu yubileyi münasibətilə bir daha təbrik etdi və «İstiqlal» ordenini ona təqdim etdi.*

*Polad Bülbüloğlu onu Vətənimizin ali mükafatı olan «İstiqlal» ordeni ilə təltif etdiyinə və yaradıcılığına, fəaliyyətinə verdiyi yüksək qiymətə görə prezident İlham Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi. O, ulu öndərimiz Heydər*

*Əliyevin yolunun ən layiqli davamçısı* olan Prezident *İlham Əliyevin böyük Bülbülün* varisinə *Azərbaycanın* ali *mükafatını təqdim etməsindən böyük şərəf və qürur* duyduğunu *söylədi. Ümummilli* liderimiz Heydər Əliyevin *rəhbərliyi altında* on *ildən çox işləməsindən böyük şərəf* duydubunu bildirən Polad *Bülbüloğlu* ddei ki, bu *dövr* onun *üçün həyatda ən böyük məktəb* idi *və* o, *həmin illərin heç bir gününü heç vaxt unutmayacaqdır.*

*Ulu öndərimiz Heydər Əliyevin Bülbül ocağına* daim *böyük diqqət və qayğı ilə yanaşdığını* vurbulayan Polad *Bülbüloğlu* dedi ki, *Bülbülün* ev-muzeyinin *yaradıcısı* da *məhz Heydər Əliyev olmuşdur.* O bildirdi ki, *Bülbülün* 100 illiyi *münasibətilə keçirilən təntənəli mərasimdə ümummilli* liderimiz *Heydər Əliyevin dərin məzmunlu* nitq *söyləməsi və həmin günlərdə* dahi *müğənninin məzarını* ziyarət *etməsi Bülbülün* ailə *üzvlərinin qəlbində* daim *yaşayacaqdır.*

Polad *Bülbüloğlu xalqımızın ümummilli* lideri *Heydər Əlityev məktəbinin* layiqli *davamçısı* Prezident *İlham Əliyevin* ona *Vətənin* ali *mükafatını təqdim etməsinə görə dövlətimizin başçısına* bir daha *dərin minnətdarlığını və təşəkkürünü* bildirdi.

## ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORU KRİSTİAN ŞTROHALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 fevral 2005-ci il*

*Nümayəndə heyətinin bir sıra görüşlər və müzakirələr keçirdiyini qeyd edən Azərbaycan prezidenti İlham Əliyev əmin olduğunu bildirmişdir ki, bütün bunlar ölkəmizdə bu gün gedən inkişaf prosesləri barədə nümayəndə heyəti üzvləri tərəfindən daha geniş məlumatın əldə edilməsi üçün yaxşı imkan yaradacaqdır. Prezident İlham Əliyev Azərbaycanın sürətli inkişaf yolunda olduğunu vurğulayaraq, ötən il üçün ölkə qarşısında duran bütün vəzifələrin uğurla yerinə yetirildiyini bildirmişdir. Azərbaycan Prezidenti cəmiyyətin demokratikləşməsi, ictimai-siyasi həyatın müxtəlif sahələrinin daha da inkişaf etdirilməsi sahəsində bu gün böyük işlərin həyata keçirildiyini qeyd etmişdir. Ümumilikdə götürdükdə 2004-cü ilin ölkəmiz üçün uğurlu il hesab edildiyini bildirən dövlətimizin başçısı bu ildə də Azərbaycanda yeni-yeni nailiyyətlərin qazanılacağına əminliyini ifadə etmişdir.*

*Prezident İlham Əliyevlə görüşündən məmnunluq hissi duyduğunu bildirən cənab Ştrohal cəmiyyətin demokratikləşməsi, qanunun aliliyinin təmin olunması və digər sahələrlə bağlı ölkəmizdə islahatların həyata keçirilməsində rəhbərlik etdiyi qurumun Azərbaycanla əməkdaşlığını yüksək qiymətləndirmişdir. O, Prezident Administrasiyası və hökumət nümayəndələri ilə təmasların güclü əməkdaşlıq və dostluq şəraitində həyata keçirildiyini xüsusi vurğulamışdır.*

*Cənab Ştrohal büronun hazırda ölkəmizlə əməkdaşlığının çox mühüm mərhələsinə qədəm qoyduğunu bildirmişdir. O bu il Azərbaycanda Konstitusiyanın qəbul edilməsinin 10 illiyini, ölkəmizin yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoymasını, parlament seçkilərinin keçirilməsini, təmsil etdiyi təşkilatın əsas sənədinin qəbul edilməsinin 30 illiyini həm Azərbaycan üçün, həm də Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu üçün əlamətdar hadisələr kimi dəyərləndirmişdir.*

*Azərbaycan prezidentinin müəyyən etdiyi xarici siyasət kursunda Avratlantik strukturlara inteqrasiya prinsiplərinin aydın şəkildə əks olunduğunu vurğulayan cənab Ştrohal rəhbərlik etdiyi qurumun ölkəmizlə əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir.*

## BMT-nin SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KARLOS MAQARİNYOS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 fevral 2005-ci il*

*Sənaye İnkişafı Təşkilatı ilə ölkəmizin əlaqələrinin səviyyəsindən məmnunluq ifadə edən dövlətimizin başçısı bu təşkilatla əməkdaşlığa dair yeni sənədin imzalanmasının əhəmiyyətini vurğuladı və birgə mühüm layihələr üzərində işlərin həyata keçirilməsini bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi. Ölkəmizdə iqtisadi inkişafla bağlı bir sıra mühüm proqramların, o cümlədən regional inkişaf proqramının uğurla həyata keçirildiyini diqqətə çatdıran prezident İlham Əliyev bütün bunların Azərbaycanda yeni iş yerlərinin yaradılmasına, iqtisadi infrastrukturun möhkəmləndirilməsinə, ümumən iqtisadi inkişafa xidmət etdiyini vurğuladı. Azərbaycan prezidenti bu baxımdan beynəlxalq təşkilatların, o cümlədən BMT-nin Sənaye İnkişafı Təşkilatının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirdi. O, qeyd etdi ki, bizim məqsədimiz müasir, güclü iqtisadiyyat qurmaqdan ibarətdir və buna nail olacağımıza əminik.*

*Bakıya səfərindən razılığını söyləyən Karlos Maqarinyos Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vaxtilə Avstriyada rəsmi səfərdə olarkən rəhbərlik etdiyi təşkilatın mənzil-qərargahına gəlməsini və onunla görüşünü böyük məmnunluqla xatırladığını bildirdi. O, fürsətdən istifadə edərək Azərbaycan prezidentini təşkilatın növbəti baş konfransına dəvət etməkdən şərəf duyduğunu vurğuladı. Sonra BMT-nin Sənaye İnkişafı Təşkilatının fəaliyyəti barədə məlumat verən cənab Maqarinyos*

*dövlətimizin başçısına BMT-nin iqtisadi fəaliyyətini əks etdirən kitabı təqdim etdi. Baş direktor Azərbaycanın iqtisadi sahədə, o cümlədən ümumi daxili məhsulun artımı, inflyasiyaya nəzarət, xarici investisiyaların cəlb edilməsi və digər sahələrdəki böyük uğurlarını xüsusi olaraq vurğuladı. O, hazırda Azərbaycanın Sənaye və Yanacaq Nazirliyi ilə birlikdə ölkəmizdə energetika sahəsində təmiz texnologiyalar mərkəzinin yaradılması üzərində iş getdiyini diqqətə çatdıraraq, ekoloji funksiyalar daşıyacaq bu işdə Azərbaycan Prezidentinin dəstəyini yüksək qimətləndirdi.*

*Konfransa dəvəti məmnunluqla qəbul etdiyini bildirən prezident İlham Əliyev ölkəmizdə ekoloji problemlərin həllinə ölkə rəhbərliyi tərəfindən böyük diqqət yetirildiyini qeyd edərək, bu sahədə fəaliyyət proqramının hazırlanması üzərində böyük iş aparıldığını xatırlatdı. Dövlətimizin başçısı bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın uğurlu nəticələr verəcəyinə əminliyini vurğuladı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İran arasındakı ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərinin bugünkü səviyyəsindən məmnunluq duyuram. Ölkələrimizin milli maraqlarına cavab verən əməkdaşlığımızın əhatə dairəsi daim genişlənməkdədir.

Dövlətlərarası münasibətlərimizin, çoxsəpkili əlaqələrimizin dərinləşməsində qarşılıqlı səfərlərimizin böyük əhəmiyyəti vardır.

Fürsətdən istifadə edərək, bu yaxınlarda ölkənizə səfərim zamanı mənə və nümayəndə heyətimizə göstərilən diqqətə və qonaqpərvərliyə görə Sizə bir daha öz minnətdarlığımı bildirmək istərdim. Ümidvaram ki, səfər çərçivəsində keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, imzalanan sənədlər ikitərəfli münasibətlərimizin, ümumiyyətlə, regional əməkdaşlığın inkişafına yeni təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 4 fevral 2005-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ
ALİ DİNİ RƏHBƏRİ
AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ
HƏZRƏTLƏRİNƏ**

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

İran İslam Respublikasının milli bayramı – İslam inqilabı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Əminəm ki, tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsi ilə Azərbaycan–İran əməkdaşlığı üçün açılan yeni perspektivlər ümumi rifahımıza xidmət edəcəkdir.

Bu günlərdə ölkənizə rəsmi səfərimi, Sizinlə görüşümü, söhbətimizi məmnunluqla xatırlayıram. Səfər zamanı mənə və nümayəndə heyətimizin bütün üzvlərinə göstərilən qonaqpərvərliyə və yüksək diqqətə görə Sizə öz təşəkkürümü bildirirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İran xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 fevral 2005-ci il*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏNT ARINÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Sədr!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Sizin nümayəndə heyətinizin Azərbaycana səfəri bizim ikitərəfli əlaqələrin nə qədər yüksək olmasını göstərir. Biz bütün sahələrdə çox gözəl əməkdaşlıq edirik. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq münasibətləri günü-gündən inkişaf edir və güclənir. Biz çox istəyirik ki, bu əlaqələr bütün sahələrdə özünü göstərsin, daha fəal, daha dinamik şəkildə inkişaf etsin. Həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə əməkdaşlığımız çox uğurludur və bizim ənənəvi dostluq, qardaşlıq əlaqələrimiz sürətlə inkişaf edir.

Əlbəttə, bu münasibətlə mən Türkiyəyə etdiyim rəsmi səfəri də və onun nəticələrini də xüsusi vurğulamaq istəyirəm. Səfər çox uğurlu keçmişdir və səfər çərçivəsində bizim görüşümüz olmuşdur. Mənim Türkiyə Böyük Millət Məclisində də görüşlərim və çıxışım olubdur. Bu səfər və ondan sonra baş verən hadisələr bir daha göstərir ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr inkişaf edir. Biz ən yaxın müttəfiqlərik. Çox sevinirəm ki, həm iqtisadi, həm də siyasi sahədə əlaqələr irəliyə gedir.

Son müddət ərzində Azərbaycana Türkiyədən müxtəlif səviyyəli çoxlu nümayəndə heyəti gəlmişdir. Eyni zamanda, Türkiyə–Azərbaycan biznes forumu keçirilmişdir və mən də bu fo-

rumda iştirak etdim və qarşılıqlı marağın nə qədər yüksək səviyyədə olduğunu gördüm.

Biz Türkiyə iş adamlarının buraya gəlməsini alqışlayırıq. Burada mövcud olan imkanlar onlar üçün, bizim qardaşlarımız üçün açıqdır və çalışırıq ki, bizim həm iqtisadi, həm siyasi, həm də bütün başqa sahələrdə olan əlaqələrimiz daha da güclənsin.

Türkiyə Böyük Millət Məclisi ilə Azərbaycanın Milli Məclisi arasında olan əlaqələr də təqdirəlayiqdir, qarşılıqlı səfərlər olubdur. Mən dəfələrlə Türkiyədən olan millət vəkilləri ilə burada görüşmüşəm və bu səfərləri alqışlayıram. Sizin səfərinizi xüsusilə alqışlayıram. Mən Türkiyədə olarkən göstərdiyiniz qonaqpərvərliyə görə sizə bir daha minnətdaram. Əminəm ki, sizin Azərbaycana səfəriniz çox uğurlu olacaqdır. Azərbaycan sizin öz ölkənizdir, öz vətəninizdir. Mən də istəyirəm ki, siz burada özünüzü doğma evdəki kimi hiss edəsiniz. Bütün dostlarımız, qardaşlarımız burada çox gözəl günlər keçirsinlər. Sizi bir daha ürəkdən salamlayıram.

**B ü l ə n t  A r ı n ç** (*Türkiyə Böyük Millət Məclisinin sədri*): Hörmətli Cümhur başqanı, bu lütfkar ifadələriniz, məni və nümayəndə heyətimi qəbul etdiyiniz üçün mən də çox təşəkkür edirəm. Sağ olun, var olun.

Azərbaycan Milli Məclisinin sədri hörmətli Murtuz Ələsgərovun dəvəti ilə bu gözəl, qardaş ölkəni ziyarət edirik. Bu bizim üçün böyük məmnunluq və bəxtiyarlıqdır. Burada beş millət vəkili vardır, onlarla birlikdə Məclisimizin bir heyəti bu gün Azərbaycandadır. Hörmətli parlamentin sədri, dostluq qrupunun üzvləri ilə görüşlərimiz oldu. İndi də Sizin qəbulunuzdayıq. Azərbaycana – dostlarımızın, qardaşlarımızın yanına gəldiyimiz üçün heç bir qəriblik çəkmədən, bir-birimizi qucaqlayaraq qardaşlığımızın bir örnəyini göstərmək istəyirik.

Azərbaycanda gördüyünüz böyük işlərə və xidmətlərə görə və Türkiyə ilə olan əlaqələrimizi ən yüksək nöqtəyə çıxardığınız üçün Sizə çox təşəkkür edirik. Hörmətli atanız, Azərbaycanın böyük dövlət adamı mərhum Heydər Əliyevi rəhmətlə və ehtiramla anmaq istəyirəm. Onun zamanında atılan gözəl addımlar

bu gün bəhrəsini verir. Onun bir övladı olaraq, Azərbaycanın prezidenti olaraq Siz də təqdirəlayiq öndərliyinizlə bu gözəl ölkəyə xidmət edirsiniz. Türkiyədən – həm Məclisimizdən, həm Baş nazirimizdən, həm də bütün dostlarımızdan Sizə salamlar, sevgilər gətirdik.

Keçən ilin aprel ayında Türkiyəyə etdiyiniz səfər zamanı Məclisimizə təşrif buyuraraq söylədiyiniz nitqlə bizləri çox məmnun etmişdiniz. Aprelin 14-də Məclisimizdə söylədiyiniz nitqi bütün dostlarımız hələ də böyük həyəcanla, böyük qürur hissi ilə xatırlayırlar. Azərbaycanın illər boyu, əzəldən əbədiliyə qədər davam edən qardaşlığını və dostluğunu bu gün gerçəkdən sıx-sıx hiss etmişik.

Türkiyə və Azərbaycan əbədi dostdur. Tarixdən gələn mədəniyyətimizlə, inancımızla, birliyimizlə bu günə qədər yaşadıq, bir-birimizə dayaq olduq, bir-birimizə güc verdik.

Bu gün səhər Fəxri xiyabanı, Şəhidlər xiyabanını ziyarət etdik.

Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmış bütün qardaşlarımıza, türk şəhidlərinə, bütün şəhidlərə rəhmət dilədik, oradakı məscidi ziyarət etdik. Nə qədər ki, onlar var, biz də varıq. Onların xatirəsini unutmaq, onların qiymətini bilməmək mümkün deyildir. Təbii ki, ən əvvəl mərhum dövlət başqanı Heydər Əliyevin məzarını ziyarət etdik.

Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət olmaq şərəfi bizimdir və bundan böyük qürur duyuruq. Bu gün Azərbaycan Sizin idarəçiliyinizlə iqtisadi, sosial baxımdan, dünya siyasəti baxımından, dinamik xarici siyasət yürütmək baxımından irəliləyərək güclənməkdədir. Biz Azərbaycanın haqlı mübarizəsini dəstəkləyirik. Azərbaycanın işğal altında olan torpaqlarının tezliklə azad edilməsini, bu acının və zülmün tezliklə bitməsini diləyirik. Türkiyə ilə Azərbaycan eyni millət və iki dövlət kimi, istər Birləşmiş Millətlər Təşkilatında, istərsə də ATƏT-də, Avropa Şurasında birlikdə hərəkət etməkdədir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində də birliyimiz vardır. İnanıram ki, aramızdakı əlaqələr kimi, dünya siyasətində də işbirliyimiz

vardır. Əminəm ki, Sizin güclü rəhbərliyiniz Azərbaycanın neçə illərdir davam edən məsələsini ən qısa zamanda çözəcəkdir. Biz sizinlə birlikdəyik, acılarınızı, adətən, birlikdə çəkirik.

Türkiyədən gələn iş adamları və sərmayəçilərin Azərbaycanda göstərdikləri xidmətləri bilirik. Bu gün onlarla bir yığıncaq keçirdik. Bir çox iş adamlarımız kiçik, böyük sərmayələri ilə Azərbaycan xalqının iqtisadi rifahının yaxşılaşması üçün çalışır. Çox məmnunuq ki, bütün dostlarınız Sizə təşəkkür edirlər. Hamısı Sizin və Azərbaycan hökumətinin iş adamlarımıza verdiyi qiymətə görə məmnunluqlarını ifadə edirlər. Onların məsələlərinə göstərdiyiniz diqqətə görə təşəkkür edirlər.

Vaxtınızı çox almaq istəmirəm, Sizi təkrarən Türkiyədə görməyi arzulayırıq. İnşallah, hörmətli Cümhur başqanımız ən qısa zamanda Azərbaycanı ziyarət edər. Məclis üzvlərimiz, bütün xalqımız Sizi təkrar gözləyir. Parlamentinizin sədrini də, dostluq qrupunun üzvlərini də dəvət etdik. Uzun müddət deyil, çox qısa zamanda Türkiyədə və Azərbaycanda bir yerdə olacağıq. Əgər Sizin bir ricanız varsa, onu da hər zaman Türkiyəyə çatdırmağa hazırıq. Gözəl sözlərinizə və səmimi qəbulunuza görə Sizə bir daha təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Sağ olun, çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim də ən səmimi salamlarımı, ən xoş arzularımı hörmətli Cümhur başqanına və hörmətli Baş nazirə çatdırasınız. Biz görüşürük, daim əlaqə saxlayırıq, telefonla danışırıq. Bu belə də olmalıdır. Bizim aramızda münasibətlər elə səviyyədədir ki, istənilən məsələyə münasibətimizi bildiririk, müzakirə edirik. Xüsusilə Azərbaycanın ən ağrılı, ən çətin problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsini daim müzakirə edirik və öz fikirlərimizi bölüşürük.

Mən qeyd etmək istəyirəm ki, – bunu artıq hamı bilir, amma bir daha demək istəyirəm – Türkiyə bu məsələdə daim Azərbaycanın yanında olubdur, Azərbaycanı dəstəkləyibdir, haqqı, ədaləti dəstəkləyibdir. Biz bu dəstəyi bu gün də hiss edirik.

Siz tamamilə düzgün qeyd etdiniz ki, bütün beynəlxalq təşkilatlarda, bütün hallarda Türkiyə bu məsələ ilə əlaqədar Azər-

baycanı dəstəkləmişdir. Xüsusilə bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasının iclasında Türkiyə nümayəndə heyəti üzvlərinin fəal iştirakı, tutarlı dəlillərlə bizim mövqeyimizi izah etməsi, əlbəttə, qəbul edilmiş sənədə, qətnaməyə çox güclü təsir etmişdir. Vaxtilə şəxsən orada iştirak etmiş insan kimi, mən bunu xüsusilə böyük sevinc hissi ilə, böyük məhəbbət hissi ilə qeyd edirəm və xahiş edirəm ki, Türkiyə nümayəndə heyətinin bütün üzvlərinə mənim təşəkkürlərimi çatdırasınız. Biz orada çox səmərəli işləmişik və hesab edirəm ki, belə qətnamənin qəbul olunması gələcəkdə məsələnin həlli istiqamətində atılmış addımlar arasında çox mühüm rol oynayacaqdır.

Biz ikitərəfli müstəvidə, regional müstəvidə çox fəal əməkdaşlıq edirik. Bilirsiniz ki, regionda Türkiyənin, Azərbaycanın iştirakı olmadan irimiqyaslı layihələr həyata keçirilə bilməz. Bu bizim önəmimizi bir daha vurğulayır və onu göstərir ki, regional əməkdaşlıq baxımından Türkiyə və Azərbaycan aparıcı rol oynayırlar. Regionda bütün məsələlərdə – iqtisadi, nəqliyyat, enerji layihələrində biz vahid ailə kimi, vahid komanda kimi iştirak edirik. Başqa cür ola da bilməz. Biz bir millət, iki dövlətik. Bu prinsip bizim üçün əzizdir və həmişə əziz olacaqdır. Bütün tədbirlərdə, bütün işlərdə həmişə bir-birimizi dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Azərbaycanın Avratlantik strukturlara inteqrasiyasının, beynəlxalq təşkilatlarla, o cümlədən NATO ilə əməkdaşlığının uğurla həyata keçirilməsindən məmnunluğunu vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, NATO regional məsələlərə daha çox cəlb olunur. NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsinin təyin olunması bunun yaxşı nümunəsidir.*

*Azərbaycan–NATO əlaqələrinin Fərdi tərəfdaşlığın fəaliyyət planı üzərində həm Azərbaycan tərəfinin, həm də NATO tərəfinin fəal işləməsini yüksək qiymətləndirən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, qarşılıqlı əlaqələr bundan sonra daha da genişlənəcəkdir.*

*Prezident İlham Əliyev NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin Bakıya səfərini xatırladaraq qeyd etdi ki, həmin səfər zamanı çox səmərəli görüşlər keçirilmiş, danışıqlar aparılmışdır.*

*Cənab Robert Simmons NATO Baş katibinin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı və cənab Yaap de Hoop Sxefferin Bakıda keçirdiyi görüşləri məmnunluqla xatırladığını nəzərə çatdırdı. Qonaq dedi ki, Baş katibin Bakıya səfəri çox uğurlu olmuşdur və cənab Yaap de Hoop Sxeffer həmin səfər zamanı keçirdiyi görüşləri, apardığı müzakirələri çox yüksək qiymətləndirir.*

Azərbaycan–NATO əlaqələrinin Fərdi tərəfdaşlığın fəaliyyət planı üzərində işlərin başa çatmaq üzrə olduğunu vurğulayan cənab Robert Simmons həmin sənədin yaxın zamanlarda Şuraya təqdim olunacağını söylədi.

Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini nəzərə çatdıran qonaq əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Prezident İlham Əliyev NATO Baş katibinin səmimi salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını cənab Yaap de Hoop Sxefferə çatdırmağı xahiş etdi.

**Azərbaycan Respublikasının prezidenti  lham Əliyev fevralın 10-da Prezident sarayında ABŞ-ın «Nyu-York tayms» qəzetinin İstanbul bürosunun rəhbəri xanım Suizan Saksa müsahibə vermişdir**

*Dövlətimizin başçısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələr, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının işlənilməsi və bu sahədə Azərbaycanda görülən işlər, regional problemlər və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.*

## «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİR İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ

*«Gülüstan» sarayı*

*11 fevral 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli konfrans iştirakçıları!

Düz bir il bundan əvvəl, 2004-cü il fevralın 11-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı» qəbul edilmişdir. Biz bu gün bir il ərzində görülən işlərə yekun vuracaq, görülən işləri təhlil edəcək, mövcud olan problemləri araşdıracağıq. Bir sözlə, bu bir il ərzində regionlarda görülən bütün işlər təhlil ediləcəkdir.

Konfransın işi bundan ibarət olacaqdır ki, bu yığıncaqdan sonra bölmələrdə müxtəlif məsələlər müzakirə olunacaqdır. Onu da qeyd etməliyəm ki, konfransda iştirak etmək üçün yerli icra hakimiyyəti orqanlarının rəhbərləri çağırılıblar, bu gün burada iştirak edirlər. Eyni zamanda, sahibkarlar iştirak edirlər. Beləliklə, hesab edirəm ki, həm görülən işlərə yekun vurulacaq, həm də gələcəkdə görüləcək işlər haqqında sərbəst, açıq şəkildə fikir mübadiləsi aparılacaqdır.

Bütövlükdə 2004-cü il Azərbaycan üçün uğurlu il olubdur. Bütün sahələrdə qarşımızda duran vəzifələr həyatda öz əksini tapıbdır. Azərbaycan bütün istiqamətlərdə uğurla inkişaf edir və bu gün burada nümayiş etdirilən qısa videofilm onu göstərir ki, bizim iqtisadi göstəricilərimiz çox yüksək səviyyədə olubdur. Eyni zamanda, bütün başqa sahələrdə də ölkəmiz öz siyasətini sərbəst şəkildə aparıb və qarşıda duran məsələləri həll edibdir. Xarici siyasət istiqamətində, sosial məsələlərin həlli istiqamə-

tində, vətəndaşlarımızın həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində və əlbəttə, iqtisadi inkişaf istiqamətində uğurlar göz qabağındadır. Mən burada rəqəmləri təkrar etmək istəmirəm. Bunlar artıq səsləndi və 2004-cü ildə müşahidə olunan artım çox yüksəkdir.

İndi bizim əsas vəzifəmiz öz işimizi müəyyən edilmiş proqram çərçivəsində qurmaq, xüsusilə yerlərdə yeni iş yerlərinin açılması istiqamətində, yeni infrastrukturun yaradılması istiqamətində fəal işləmək olacaqdır.

Bilirsiniz ki, bir il bundan əvvəl qarşımızda çox çətin, eyni zamanda şərəfli vəzifə qoyulmuşdu ki, Azərbaycanın bütün bölgələrində yeni infrastruktur, yeni iş yerləri yaradılsın, bir sözlə, regionlarla paytaxt arasında olan fərq azalsın. Hesab edirəm, görülən işlər deməyə əsas verir ki, biz buna nail ola bildik. 2004-cü ildə iqtisadiyyatımızda müsbət meyllər daha da gücləndi və bu bizə 170 minə qədər yeni iş yerləri açmağa imkan verdi ki, onlardan da 90 mini daimi iş yeridir.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatı son on il ərzində iri addımlarla irəliləyir, yüksək sürətlə inkişaf edir. Əgər biz statistik göstəricilərə nəzər salsaq görərik ki, ümumi daxili məhsul, iqtisadiyyatın digər önəmli göstəriciləri yüksək sürətlə artıbdır. Müsbət meyllərin gücləndirilməsi, davam etdirilməsi bizim qarşımızda duran ən əsas vəzifələrdən biridir. Sirr deyil ki, bütün iqtisadi uğurlarımızın əsasında 1995-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatlar siyasəti durmuşdur. Bu islahatlar müxtəlif sahələrdə öz gözəl nəticələrini vermişdir və biz indi bu islahatları davam etdiririk.

Həyat yerində durmur, qarşımıza yeni vəzifələr, yeni məsələlər çıxır. Biz də bütün bu məsələləri həll etməliyik və həll edəcəyik. Bunun üçün bütün imkanlar var. Azərbaycan hökumətinin düşünülmüş iqtisadi strategiyası var, proqramı var, rəhbərliyi, iradəsi var, xalqın da dəstəyi var. Bütün bu amillər olduğu təqdirdə istənilən məsələ öz həllini tapa bilər.

Hesab edirəm ki, 2005-ci il Azərbaycanın, ümumiyyətlə, inkişafı üçün çox vacib və önəmli il olacaqdır. Heydər Əliyevin

neft strategiyasının əsasını təşkil edən 2005-ci ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəcəkdir. Bu, bütövlükdə regionda həm iqtisadi, həm siyasi, həm də bütün başqa məsələlərə çox ciddi təsir göstərəcəkdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının uğurla davam etdirilməsi bizim qarşımızda duran ən başlıca məsələlərdən biri idi. Çox şadam ki, Azərbaycan rəhbərliyi qonşu dövlətlərlə birlikdə, xarici investorlarla birlikdə öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirib və layihə uğurla icra edilir.

2005-ci ildə iqtisadiyyatımızın inkişafı istiqamətində çox vacib addımlar atılmalıdır. Regional inkişaf proqramının icrası davam etdirilməlidir, digər proqramlar öz həllini tapmalıdır. İnfrastruktur layihələri daha da sürətlə həyata keçiriləcəkdir. Bilirsiniz ki, Azərbaycanı hərtərəfli, dinamik şəkildə inkişaf etdirmək üçün bütün amillər olmalıdır. İlk növbədə, infrastruktur inkişaf etməlidir. Bu baxımdan 2005-ci ildə görüləcək işlər bizə infrastrukturu inkişaf etdirmək imkanı verəcəkdir. Yollar çəkilməli, yeni elektrik stansiyaların tikintisinə başlanmalı, digər infrastruktur layihələri öz həllini tapmalıdır.

Beləliklə, Azərbaycanın hərtərəfli inkişafı mümkün olacaqdır. Eyni zamanda, 2005-ci ildə sahibkarlara kömək, yardım daha böyük həcmdə olacaqdır. Əgər 2004-cü ildə Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə 100 milyard manat kredit ayrılmışdısa, 2005-ci ildə bu məbləğ iki dəfə artırılaraq, 200 milyard manata çatdırılacaqdır. Bu da son hədd deyil və bu gün buraya, bu salona gəlməzdən əvvəl sərgi ilə tanış olarkən bir daha gördüm ki, kreditlərin hesabına böyük işlər görülübdür.

Sərgidə nümayiş etdirilən məhsullar yalnız son bir il ərzində verilmiş kreditlərin hesabına yaradılmış müəssisələr, yaxud inşa olunmuş müəssisələr, yaradılmış iş yerləri nəticəsində buraxılmışdır. Biz 2005-ci ildə sahibkarlara köməyin həcmini iki dəfə artıracağıq və əlbəttə, gözləyəcəyik ki, nəticə də daha yüksək olsun.

Kənd təsərrüfatı istiqamətində qəbul edilmiş qərarlar imkan verəcək ki, bizim fermerlərimiz daha da səmərəli işləyə bilsin-

lər. «Aqrolizinq» şirkətinin yaradılması onu göstərir ki, bu sahəyə də böyük diqqət var. «Aqrolizinq» şirkəti vasitəsilə 2005–2006-cı illərdə 250 milyard manat dəyərində kənd təsərrüfatı texnikası alınacaqdır. Bilirsiniz ki, bu, kənd təsərrüfatının inkişafı üçün ən vacib məsələlərdən biridir. Texnikanın çatışmazlığı, köhnəlməsi, yaxud da nasaz vəziyyətdə olması böyük çətinliklər yaradır. Yeni texnikanın alınması və fermerlərə kredit şəklində verilməsi, əlbəttə ki, kənd təsərrüfatında böyük canlanmaya gətirib çıxaracaqdır.

Bir sözlə, həm dövlət öz üzərinə düşən məsələləri həll edir və edəcəkdir, eyni zamanda, sahibkarlar özəl sektorda öz üzərinə düşən vəzifələri yerinə yetirirlər. Mən bu gün qeyd etmək istəyirəm ki, sahibkarların fəaliyyəti Azərbaycanın inkişafına çox böyük töhfədir. Bu da sirr deyil ki, azad sahibkarlıq yalnız o ölkələrdə uğurla inkişaf edir ki, orada sahibkarlara, sahibkarlar sinfinə dövlət tərəfindən qayğı var, diqqət var. Mən hesab edirəm ki, bu qayğını bütün sahibkarlar hiss edirlər.

Son müddət ərzində mənim sahibkarlarla keçirdiyim çoxsaylı görüşlər buna əyani sübutdur. Nəinki görüşlər, sahibkarlara açıq dəstəyin verilməsi, hesab edirəm, onların həyatını, necə deyərlər, yüngülləşdirir. Halbuki bu istiqamətdə problemlər az deyil, hələ də müxtəlif orqanlar tərəfindən yersiz yoxlamalar baş verir, sahibkarların fəaliyyətinə müdaxilələr davam edir və bu məni çox narahat edir. Mən dəfələrlə açıq bəyan etmişdim ki, buna son qoyulmalıdır. Xüsusilə, yerli icra hakimiyyəti orqanları sahibkarlara maneçilik törətməməlidirlər. Əksinə, kömək etməlidirlər. Çünki prezident kömək edir və prezidentin yerlərdə olan nümayəndələri də bu siyasəti aparmalıdırlar. Təəssüf edirəm ki, bəzi yerlərdə bu məsələyə diqqət hələ də lazımi səviyyədə deyildir. Əlbəttə, biz tədbirlər görəcəyik.

Ümumiyyətlə, inzibati tədbirlər görülür. Öz vəzifəsini layiqincə yerinə yetirə bilməyən insanlar, əlbəttə ki, vəzifələrini itirirlər. Əgər gələcəkdə də biz bununla rastlaşsaq, şübhəsiz ki, ciddi ölçülər görüləcəkdir.

Sahibkarların uğurlu işi bizim hamımızın uğurudur. Azərbaycanın inkişafı bu istiqamətdədir, bu yoldadır, başqa yol yoxdur. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri çox dərin köklər salır və inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, inkişaf üçün başqa yol yoxdur. Biz başqa yolları da görmüşük. Biz fərqli sistemdə yaşamışıq və gördük ki, o sistemin gələcəyi, axırı yoxdur. Ona görə ümumi daxili məhsulda sahibkarlığın, özəl sektorun payının qalxması və təxminən 74–75 faizə çatması çox sevindirici haldır. Nəzərə alsaq ki, bizim iqtisadiyyatımızın əsas istiqaməti, sahəsi neft sektorudur və o da dövlət sektorundadır, onu çıxsaq, görərik ki, – əslində özəl sektorun payı, bəlkə də 80–90 faizə yaxındır.

Mən hesab edirəm ki, 2005-ci ildə, 2006-cı ildə, ümumiyyətlə, 2008-ci ilə qədər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası çərçivəsində biz qarşımızda duran bütün məsələləri həll edəcəyik. Zənnimcə, 2004-cü il bu baxımdan gözəl nümunədir. Bu onu göstərdi ki, biz qarşımıza qeyri-real planlar qoymuruq. Biz heç vaxt əhalini populist vədlərlə aldatmaq fikrində olmamışıq və olmayacağıq. Hər bir ölkənin inkişafı üçün ən önəmli məsələlərdən biri də iqtidarla xalq arasında inamın yüksək səviyyədə olmasıdır. Bu çox mühüm məsələdir. Biz bu inamı qazanmışıq, bu inamı hiss edirik və əlbəttə, istəmirik ki, bu inamı itirək. Bu inamı itirməmək üçün gərək yaxşı işləyək, ləyaqətlə işləyək. Verdiyimiz bütün vədləri yerinə yetirək, qarşımıza qoyduğumuz proqramları uğurla icra edək.

Bizim 2004-cü ildə müxtəlif sahələrdə çoxlu proqramlarımız olubdur.

Xarici siyasət istiqamətində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapıbdır. Mən bu barədə çox danışmaq istəmirəm, hər şey göz qabağındadır. Humanitar sahədə verilmiş bütün vədlər həyatda öz əksini tapıbdır. Mən həmişə bəyan etmişəm ki, baxmayaraq biz bazar iqtisadiyyatı prinsipinə sadiqik və Azərbaycan bu istiqamətdə inkişaf edəcək, eyni zamanda, sosial məsələlərə daim diqqət göstəriləcəkdir. Sosialyönümlü

proqramlar həmişə diqqət mərkəzindədir və bir neçə dəfə artırılmış minimum əməkhaqqı, pensiyalar, digər sosial müavinətlər bunu təsdiq edir.

Əlbəttə, regionların inkişafı istiqamətində görülmüş bütün tədbirlər bir məqsədə qulluq edirdi ki, 2004-cü ildə nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapsın. Əlbəttə, çətinliklər də, problemlər də olubdur, çatışmayan cəhətlər də olubdur. Bu təbiidir. Həyatda hər şey olur. Amma bütövlükdə götürəndə, 2004-cü ili təhlil edəndə biz görürük ki, qarşımızda duran bütün məsələlər öz həllini tapıbdır.

Mən hesab edirəm ki, bugünkü konfrans gələcək fəaliyyətimizə çox gözəl töhfə verəcəkdir. Burada yerli icra hakimiyyəti orqanlarının başçıları, sahibkarlar, dövlət məmurları, iqtisadi inkişafla bilavasitə məşğul olan qurumların, nazirliklərin rəhbərləri iştirak edirlər. Hesab edirəm ki, çox açıq, sərbəst və səmərəli müzakirə aparılmalıdır.

Mən bununla giriş sözümü yekunlaşdırıram və istəyirəm ki, biz gündəliyə keçək.

## YEKUN NİTQİ

Hesab edirəm ki, çox məzmunlu, səmərəli çıxışlar səsləndi. Çıxışlarda həm görülən işlər haqqında danışıldı, həm də mövcud problemlər qeyd olundu. Biz bu problemləri bilirik. Qarşıda duran vəzifələri necə icra etmək lazımdır, onu da bilirik. Ona görə gərək nəzərdə tutulmuş bütün layihələri, proqramları birlikdə icra edək. İstiqamət yolları – onlar bəllidir. Bu barədə dəfələrlə ən yüksək kürsülərdən bəyan edilibdir. Çıxışlarda, qəbul edilmiş qərarlarda, proqramlarda bütün o istiqamət yolları öz əksini tapıbdır.

Bizim vəzifəmiz ondan ibarətdir ki, nəzərdə tutulmuş bütün planlar, proqramlar icra edilsin. Təbii ki, yerli istehsalın güclənməsinə böyük diqqət göstərilməlidir. Bizim məqsədimiz budur ki, Azərbaycanda istehlak olunan əksər mallar ölkəmizdə istehsal edilsin. Buna imkanlar var. Bunu etmək üçün, əlbəttə ki, ye-

ni, müasir müəssisələr – zavodlar, fabriklər yaranmalıdır, tikilməlidir. Buna da nail olmaq üçün müxtəlif yollar var: bir tərəfdən, güzəştli kreditlər hesabına – bu il biz onların həcmini iki dəfə artırmışıq – digər tərəfdən, sahibkarların öz vəsaitləri hesabına, yəni kommersiya kreditlərinin hesabına. Bunu etmək üçün, əlbəttə, Azərbaycanda bank sektoru da inkişaf etməlidir. Güclü bank sektoru Azərbaycanda iqtisadi inkişafın güclənməsi üçün çox mühüm amildir. Banklar güclü olsa, banklarda kifayət qədər vəsait olsa, əlbəttə, bu vəsait kredit şəklində Azərbaycan iqtisadiyyatının inkişafı üçün işləyəcəkdir. Bu sahəyə böyük diqqət göstərilməlidir və hesab edirəm ki, burada da irəliləyiş müşahidə olunur. Hələ deyə bilmərəm ki, bizdə güclü bank sektoru formalaşıbdır. Amma, hər halda, bu istiqamətdə müsbət meyllər görünməkdədir.

Orta təbəqənin yaranması hər bir ölkə üçün prioritet məsələ olmalıdır. Xüsusilə təbii ehtiyatlarla zəngin olan ölkələrdə bu məsələyə diqqət göstərilməlidir. Çünki sirr deyil ki, neftlə, qazla, digər təbii ehtiyatlarla zəngin olan bəzi ölkələrdə hansısa bir arxayınçılıq hissi yaranır. Biz buna yol verə bilmərik. Əgər neft hasil edən ölkələrin inkişafına nəzər salsaq görərik ki, əksər hallarda o ölkələrdə iqtisadi-sosial məsələlər öz həllini tapmır. Bu ölkələrdə yoxsulluq mövcuddur, təbəqələşmə çox sürətlə gedir və bir sözlə, o cəmiyyətlərdə sosial ədalətdən söhbət gedə bilməz. Biz bütün həm müsbət, həm də mənfi təcrübələri öyrənmişik, öyrənirik. Əlbəttə, başqa ölkələrdə edilmiş səhvləri təkrar etmək niyyətində deyilik. Orta təbəqə yaranmalıdır, qeyri-neft sektoru inkişaf etməlidir. İqtisadiyyat, ümumiyyətlə, çoxşaxəli olmalıdır və bizim qəbul etdiyimiz bütün qərarlar bu məqsədə qulluq edir.

Neft sektoru Azərbaycan üçün həlledici sektordur və hələ uzun illər belə də olacaqdır. Bunu etiraf etmək lazımdır. Nəzərə alsaq ki, bizim bütün neft-qaz layihələri, neft-qaz kəmərləri reallaşdırılandan sonra ölkəyə böyük həcmdə valyuta gələcək, onda görərik ki, qeyri-neft sektoru neft sektoru ilə rəqabət apara bilməz. Bu, təbii bir haldır. Amma o demək deyil ki, biz, sadəcə

olaraq, oturub gözləyək ki, nə vaxt böyük neft gələcək və neftdən gələn vəsaiti necə böləcəyik. Yox, neftdən gələn vəsait şəffaf şəkildə Neft Fondunda saxlanılır və Neft Fondunun resursları ildən-ilə artır. Bu gün Azərbaycanın valyuta ehtiyatları təxminən 2 milyard dollara bərabərdir. Bu təxminən bizim büdcəyə bərabər olan ehtiyatdır və bilirsiniz ki, ondan olduqca həssaslıqla, qənaətlə istifadə edirik. İlk növbədə, Azərbaycanda sosial baxımdan ən az müdafiə olunan insanlara – qaçqın və məcburi köçkünlərə, onların sosial vəziyyətinin yaxşılaşmasına yönəldirik. Eyni zamanda, büdcədə nəzərdə tutulmuş layihələrin həyata keçirilməsinə də yönəldirik. Pensiyaların, əmək haqlarının qaldırılması, yeni investisiya layihələri üçün də bu vəsaitdən istifadə olunur. Amma bu bizim böyük ehtiyatımız, böyük sərvətimizdir. Əlbəttə ki, ildən-ilə bu məbləğlər artacaqdır. Bu da bizə imkan verəcək ki, bütün məsələlər daha dinamik, operativ şəkildə öz həllini tapsın. Azərbaycanda orta əmək haqqı da qaldırılacaq, investisiya xərcləri də, güzəştli kreditlərin həcmi də artacaqdır. Bir sözlə, bütün istiqamətlərdə inkişaf olacaqdır.

Amma bütün bunlarla yanaşı, qeyri-neft sektorun inkişafı, regionlarda yeni iş yerlərinin yaranması böyük əhəmiyyət kəsb edən məsələlərdir. İş yerlərinin yaranması müxtəlif baxımdan, istiqamətlərdən önəmlidir. İlk növbədə, insanları işlə təmin edir, digər tərəfdən, bu iş yerlərinin yaranması istehsal sektorunda baş verir. Bu isə yeni və yerli istehsalın yaranması deməkdir, burada əldə olunan vəsait də Azərbaycana qulluq edir. Ödənilən vergilər də bizim büdcəmizi artırır. Yəni bu, zəncirvari bir prosesdir. Biz buna kompleks şəkildə yanaşmalıyıq. Hər bir iş yerinin yaranmasının müxtəlif istiqamətlərə təsiri güclüdür.

Yoxsulluqla mübarizə bizim prioritet məsələlərimizdən biridir. Bu istiqamətdə də işlər aparılır. Azərbaycanda yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşür. Amma yenə də bu çox böyük rəqəmdir, 40 faizdən yuxarıdır. Bu baxımdan, əlbəttə, beynəlxalq təşkilatlarla birlikdə daha da ciddi işləməliyik. Azərbaycanda yoxsul adam olmamalıdır.

Əlbəttə, buna bu gün, sabah nail olmaq mümkün deyildir. Ancaq, hər halda, bu bizim məqsədimizdir. Ən vacib məsələ odur ki, hər bir işdə qarşıya məqsəd qoyulsun və o məqsəd düzgün olsun. Məqsədə çatmaq üçün, yollarla getmək üçün proqramlar tərtib edilməli, qəbul olunmalıdır və bunlarda iştirak edən hər bir qurum öz vəzifəsini ləyaqətlə icra etməlidir. Yalnız bu təqdirdə biz istədiyimizə nail ola bilərik. Ona görə Azərbaycanın xoşbəxt gələcəyi bütün qurumlardan asılıdır. Dövlət başçısı, Nazirlər Kabineti, nazirlər, müvafiq qurumlar, yerli icra hakimiyyəti orqanları, sahibkarlar və adi vətəndaşlardan asılıdır. Biz hamımız bir nöqtəyə vurmalıyıq, hamımız çalışmalıyıq ki, ölkəmizi daha da zənginləşdirək, müasirləşdirək, güclü dövlət yaradaq. Ancaq güclü dövlət müstəqil siyasət apara bilər. Ancaq güclü dövlətdə insanlar özlərini rahat hiss edə bilərlər. Mənim də məqsədim buna nail olmaqdır.

2000-ci ildə parlament seçkiləri ərəfəsində və ondan sonrakı dövr ərzində dəfələrlə bu mövqe açıq-aydın bildirilmişdir ki, Azərbaycan güclü olmalıdır, iqtisadiyyatımız güclənməlidir, insanlarımız daha da yaxşı yaşamalıdır.

Məni çox incidir, çox üzür ki, Azərbaycanda yoxsulların sayı çoxdur. Nə üçün bu belə olmalıdır? Belə olmamalıdır, biz nəyə görə bununla barışmalıyıq? Necə edək ki, bunun qarşısını alaq, azaldaq, ümumiyyətlə, bunu bizim həyatımızdan çıxaraq? Hansı tədbirlər görülməlidir?! Deyə bilərəm ki, 2004-cü ildə görülən və sonrakı illərdə görüləcək işlərin hamısı bu məqsədə qulluq edəcək ki, Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın. Mən demişəm, bir də deyirəm ki, bizim insanlarımız ildən-ilə daha da yaxşı yaşamalıdır. Ona görə minimum əmək haqlarının, pensiyaların qaldırılması birinci addımlardır. Məsələn, indi bizim maddi imkanlarımız buna imkan verir – 2005-ci ilin büdcəsi 2004-cü illə müqayisədə 25 faiz artıbdır. Burada iqtisadçılar oturublar, yəqin ki, bilirlər, məncə, Azərbaycanın müstəqillik dövründə belə yüksək artım heç vaxt olmamışdır. Biz buna nəyin hesabına nail olduq? Onun hesabına ki, daha da ciddi maliy-

yə nizam-intizamı tətbiq olunub, bizim ehtiyatlarımız daha da səmərəli şəkildə səfərbər edilibdir.

Əlbəttə ki, Azərbaycanın ümumi inkişafı, ümumi daxili məhsulun artımı buna gətirib çıxarır. Nəzərə alsaq ki, 2005-ci ildə ümumi daxili məhsulun artımı haradasa 14–15 faiz civarında nəzərdə tutulub, görərik ki, bu artım daha da sürətlə gedəcəkdir. Bu gün bizim büdcəmiz 2 milyard dollardır. Halbuki bir neçə il, təxminən üç-dörd il bundan əvvəl 1 milyard dollardan aşağı idi. Amma bu da son hədd deyil, bu da bizi qane etmir. Azərbaycanın müxtəlif tələbatlarını ödəmir. Bu, ancaq indiki mərhələdə bəzi məsələləri həll etməyə imkan verir. Bizim büdcəmiz daha da artmalıdır. Buna imkan var və belə vəzifə qoyulubdur. Təkcə neftin hesabına yox. Neftin hesabına, əlbəttə ki, müxtəlif layihələr, müxtəlif infrastruktur layihələri həyata keçiriləcəkdir. Çünki Azərbaycan nefti Azərbaycan xalqının sərvətidir və Azərbaycan xalqının xeyrinə işləməlidir, qulluq etməlidir.

Mən həmişə deyirəm ki, bu bizim böyük sərvətimizdir və Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində böyük uğurlar əldə edilibdir. Dünyanın ən böyük enerji layihəsi bu gün Azərbaycanda həyata keçirilir. Əgər xarici investorların Azərbaycana, Azərbaycanın gələcəyinə inamı olmasaydı, əgər Azərbaycanda sabit ictimai-siyasi vəziyyət olmasaydı, heç kim bura o qədər vəsait qoymazdı. Amma, dediyim kimi, bu gün dünyanın ən böyük enerji layihəsi Azərbaycanda həyata keçirilir. Biz buna nəyin hesabına nail olmuşuq?! Bu, göydən düşməyib. Ən çətin coğrafi-siyasi vəziyyətdə Bakı–Tbilisi–Ceyhan layihəsi həm iqtisadi, həm siyasi, həm də texniki cəhətdən uğurla inşa edilir.

Bütün bunlar onu göstərir ki, görülən işlər öz səmərəsini verir və neft amili, neft sektoru Azərbaycanda xalqımızın xeyrinə işləyir və bundan sonra da onun mənafeyinə xidmət edəcəkdir. Amma başqa sahələrdə də böyük imkanlar var. Bu imkanlar artıq işə düşübdür. Ancaq deyə bilərəm ki, tam həcmdə işə düşməyibdir. Bir çox problemlər mövcuddur. Biz iş yerləri yaratmaq niyyətindəyik və bu gün səsləndi nə qədər yeni iş yerləri

açılıbdır, regionlarda yeni müəssisələr, fabriklər yaradılıbdır. Amma bunu daha da sürətlə təmin etmək üçün, əlbəttə, orada enerji resursları olmalıdır. Çox təəssüf edirəm ki, Azərbaycanda indiyə qədər bu məsələ öz həllini tapmayıbdır. Düzdür, bunun obyektiv səbəbləri var. Mən bu məsələni bilən adam kimi deyirəm ki, obyektiv səbəblər mövcuddur. Azərbaycanda elektrik stansiyaları köhnəlib, ötürücü xətlər köhnəlib, elektrik stansiyalarının gücü çatmır ki, Azərbaycanın elektrik enerjisinə olan tələbatını tam şəkildə ödəsin. Biz bunu bilirik və addımlar atılır. Bakıda, Sumqayıtda və digər şəhərlərdə yeni stansiyalar tikiləcək ki, tələbat tam ödənilsin.

Amma eyni zamanda, subyektiv səbəblər də var. Biz bunu da bilirik. Bilirik ki, qış aylarında, xüsusilə rayonlarda elektrik enerjisi təchizatı çox aşağı səviyyədə olur. Bilirsiniz, burada bir az təzadlı vəziyyət yaranır. Yerli icra hakimiyyəti orqanları bunu "Azərenerji"nin üzərinə, "Azərenerji" də icra hakimiyyəti orqanlarının üzərinə yıxır. Mən bu məsələ ilə dəfələrlə məşğul olmuşam, çağırmışam, göstərişlər vermişəm. Görürəm ki, bunun heç bir xeyri yoxdur. Biz belə vəziyyətlə barışa bilmərik. Ciddi tədbirlər görülməlidir ki, 2005-ci ilin qışında bu məsələlər aradan götürülsün. Yenə də deyirəm, obyektiv səbəblər var. Bizdə indi lap qaz da, mazut da kifayət qədər olsa, yenə də mövcud olan güclər imkan vermir ki, tələbat tam şəkildə ödənilsin. Amma eyni zamanda, mən bilirəm, real imkan var ki, bu sahədə vəziyyət xeyli dərəcədə yaxşılaşsın.

Qazın verilməsi ilə bağlı vəziyyət də bizi narahat edir. İldə xaricdən təqribən 5 milyard kubmetr qaz alınır və buna 300 milyon dollar vəsait ayrılır. Qazın keyfiyyəti də o qədər yaxşı deyildir. Evlərə verilən qaz çox az təzyiqlə gəlir. İnsanlar bu qazın pulunu ödəməlidir. Amma qazı yaxşı verin ki, ödəsinlər. Qaz az verilir, yaxud da zəif verilir, pul da tələb olunur. Pul tələb edilməlidir, bunun başqa yolu yoxdur. Azərbaycan bəlkə də dünyada yeganə ölkədir ki, burada alınan qazın qiyməti ilə əhaliyə satılan qazın qiyməti arasında 5 dəfə fərq var. Bu dözülməzdir. Əlbəttə ki, bütün ölkələrdə tariflərə baxılır və Azərbaycan da is-

tisna olmamalıdır. Amma gərək bu məhsul verilsin ki, onun pulu alınsın. İnsan dükana gedəndə bir məhsul alır, bir əşya alır. Onun pulunu verir, alır. Qazın isə pulunu verir, amma onu almır. Dözülməz bir haldır. Ona görə, bir də deyirəm, həm yerlərdə, həm də mərkəzdə bu məsələyə ciddi baxılmalıdır və tədbirlər planı tutulmalıdır.

Mənə məruzələr gəlir ki, hər şey yaxşıdır. Amma mən real vəziyyəti bilirəm. Özüm bilirəm, rayonlarda, bölgələrdə oluram. Məlumatım var. O məlumat təkcə hakimiyyət orqanlarından gəlmir, müxtəlif mənbələrdən gəlir. Ona görə Azərbaycanda real vəziyyəti bilirəm və bilməliyəm. Çünki mən Azərbaycanın prezidentiyəm, hər şeyi bilməliyəm. Çünki hər işə görə mən məsuliyyət daşıyıram. Yaxşı, mən bu məsuliyyəti daşıdığım halda, kimsə bu vəziyyətdən sui-istifadə etdiyinə, ya öz şəxsi maraqları naminə, yaxud da sadəcə olaraq, necə deyərlər, bu məsələyə biganə yanaşdığına görə burada problemlər yaranır. Bizim vəzifəmiz ondan ibarətdir ki, əlimizdən gələni edək, Azərbaycanda bütün istiqamətlərdə vəziyyət yaxşılaşsın. İlk növbədə, insanlara münasibət yaxşı olmalıdır.

Mən indi özüm haqqında danışmaq istəmirəm, yeri də deyil. Amma deyə bilərəm ki, mənə ünvanlanan bütün məktublara cavab verilir, harada imkan var, ölçülər götürülür və məsələlər həll olunur. Əlbəttə ki, hər bir məsələni həll etmək mümkün deyildir. Amma əgər bu şikayət, yaxud ərizə ədalətlidirsə və onun həlli yolları varsa, biz hamımız bunu etməliyik.

Əgər şikayətçinin heç bir problemi yoxdursa, heç vaxt qışda, soyuqda küçədə məktubla durub gözləməyəcək. Əgər bu adam şikayətlə müraciət edirsə, deməli, onu nəsə narahat edir, deməli, haradasa ədalətsizlik var, haradasa onun hüquqları pozulubdur. Biz hamımız buna reaksiya verməliyik.

Yaxşı, əgər prezident buna reaksiya verirsə, mənim yerlərdə nümayəndələrim də reaksiya verməlidir. Amma bir çox hallarda belə deyildir. Yerli icra hakimiyyəti orqanlarının başçılarının bəziləri şikayətçiləri heç qəbul da etmirlər. Onda siz orada nə üçün oturmusunuz? Mən sizi orada nə üçün saxlayıram? Belə

olmaz! Yerli icra orqanlarının rəhbərləri mənim nümayəndələrimdir və onlar Azərbaycan hakimiyyətini yerlərdə təcəssüm etdirirlər. İnsanlar onların fəaliyyəti əsasında, ümumiyyətlə, hakimiyyət haqqında rəy formalaşdırırlar. Belə olan halda, siz prezidentdən nümunə götürün. Yəni mənim şikayətlərə baxmağa imkanım var, sizin imkanınız yoxdur? O qədər çox işləyirsiniz ki, buna imkan yoxdur?

Mən deyirəm, görürsünüz, bütün rayonlarda olarkən şəxsən o ərizələri götürürəm. Çünki bəzi hallarda götürürlər, mənə çatmır. Amma mən onu götürəndə, yazanda ki, buna baxılmalıdır və tədbir görülməlidir, əlbəttə ki, diqqətdə olur, nəzarətdə olur.

Hər bir məsələyə, ərizəyə baxılmalıdır. Yenə də deyirəm, elə ərizələr, şikayətlər var ki, onlar həm reallığı əks etdirmir, həm də qərəzli olur. Eyni zamanda, onların həlli mümkün deyildir. Bu, aydın məsələdir. Amma harada ki, həll etməyə imkan var, mütləq həll olunmalıdır.

Mən bu barədə demişəm, bir də demək istəyirəm ki, hüquq-mühafizə orqanları biznesə olan yersiz müdaxilələri dayandırmalıdır. Buna heç bir ehtiyac yoxdur. Biznes inkişaf etməlidir, vergisini verməlidir və öz işi ilə məşğul olmalıdır. Əgər vergini vermirsə, onda Vergilər Nazirliyi bunu yoxlayır və kim vermirsə, onu cəzalandırır, yaxud da digər ölçü götürür. Amma yersiz yoxlamalar, müdaxilələr bizim ümumi işimizə ziyandır.

Bu, prezidentin siyasətidir, mən də bunu bəyan etmişəm. Bunu, sadəcə, söz naminə, yaxud da təbliğat naminə deməmişəm. Prezident seçkilərindən artıq təxminən bir il yarım keçir. Sahibkarlarla keçirdiyim çoxsaylı görüşlərim də, yəqin hamıya açıq göstərir ki, mən sahibkarları dəstəkləyirəm və onlar da mənə güvənirlər. Mənim siyasətim budur. Deməli, bütün başqa orqanların da siyasəti belə olmalıdır. Müdaxilələr olmamalıdır, onlara süni maneələr yaratnmamalıdır. Kömək etmək əvəzinə, onlardan hansısa qanunsuz tələblər olmamalıdır. Eyni zamanda, sahibkarlar da öz hüquqlarını cəsarətlə müdafiə etməlidirlər. Harada ki, belə hallar var, birbaşa mənə müraciət etsinlər. Əgər

başqa yerlərə müraciətləri cavabsız qalırsa, mənə müraciət etsinlər, mən ölçü götürərəm.

Bəzi hallarda məhkəmələrdə süründürməçilik hökm sürür. Eyni zamanda, ədalətsiz qərarlar çıxarılır. Xüsusilə iqtisadi fəaliyyətlə məşğul olan firmalar arasında gedən mübahisələrə də bir çox hallarda qərəzli yanaşılır. Buna da son qoyulmalıdır. Əgər məhkəmələrdə ədalətsiz qərarlar çıxarılırsa, biz necə hüquqi dövlət yaradacağıq?! Hər yerdə ədalət olmalıdır və ədalət hər bir cəmiyyətin, hər bir quruluşun əsas prinsipi olmalıdır. Harada ədalət yoxdursa, orada inkişaf ola bilməz. Ona görə, bu məsələ də məni çox narahat edir. Mən belə hesab edirəm ki, ciddi məşğul olmalıyıq və məhkəmələrdə məsələyə yanaşmada ciddi dönüş yaranmalıdır.

Bir sözlə, bu problemlər təkcə sahibkarlıq fəaliyyətinə maneə törətmir, ümumiyyətlə, bizim cəmiyyətimizin inkişafına mane olur. Biz istəyirik ki, cəmiyyətimiz inkişaf etsin. Azərbaycan cəmiyyətində sosial ədalət hökm sürsün. Əlbəttə ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və burada bazar iqtisadiyyatı prinsipləri hökm sürür. Hər bir insanın qarşısında eyni şərait, eyni imkanlar olmalıdır ki, o öz potensialından istifadə edib özünün həyat səviyyəsini yaxşılaşdırsın.

Əlbəttə ki, burada icra orqanlarından çox şey asılıdır. Hökumətin fəaliyyətindən çox şey asılıdır. Amma eyni zamanda, vətəndaşların fəaliyyətindən də çox şey asılıdır. Biz elə bir cəmiyyət yaratmalıyıq ki, hər bir vətəndaş burada rahat yaşasın, azad yaşasın, heç bir təzyiqə məruz qalmasın. Öz iradəsini açıq, sərbəst şəkildə ifadə etsin. Bu mənim prinsipimdir və bilirəm ki, yalnız və yalnız bu prinsiplərin əsasında biz güclü dövlət yarada bilərik.

Burada müxtəlif çıxışlarda səsləndi ki, 2004-cü ildə görülən işlər bir daha onu göstərir ki, etdiyimiz seçim düzgün olubdur. Gəncənin icra hakimiyyətinin başçısı dedi, mən də qeyd etmək istəyirəm ki, Gəncədə çoxmərtəbəli binaların tikintisinə başlanıbdır. Deyir ki, təməl qoyulan kimi, artıq mənzillər satılır. Yəni bu onu göstərir ki, paytaxtla regionlar arasında olan fərqlər

yavaş-yavaş aradan götürülür. Yəni Bakıda da vəziyyət bu cürdür və əgər Gəncədə və əminəm ki, başqa yerlərdə də belə hadisələr baş verirsə, bu onu göstərir ki, artıq regionların inkişafı başlanıbdır.

İnkişafın bir neçə vacib əlaməti var. Onlardan biri də inşaatdır. İndi Bakını görürük – necə gözəl binalar, yeni yaşayış binaları, başqa binalar tikilir. Həm şəhərimizi gözəlləşdirir, eyni zamanda insanlar da bundan bəhrələnir. Əgər bu iş indi regionlarda da başlayıbsa, bu çox mühüm göstəricidir və bir daha onu göstərir ki, biz düz yoldayıq.

Yenə də demək istəyirəm ki, bütün bu problemlərə, çətinliklərə baxmayaraq, Azərbaycan 2004-cü ildə düzgün istiqamətdə, çox dinamik inkişaf edibdir. Bunu iqtisadi göstəricilər sübut edir. Cəmiyyətimizdə hökm sürən ab-hava göstərir. Azərbaycanın rahat yaşaması, ölkəmizin, insanlarımızın təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşaması mənim üçün ən başlıca vəzifədir. Mən bu təhlükəsizliyin təminatçısıyam. İnsanların təhlükəsizliyinin təminatçısıyam. Azərbaycanın inkişafı, çiçəklənməsi və xoşbəxtliyi mənim üçün ən vacib məsələdir.

Mən hesab edirəm ki, bu konfrans da bu sahədə gördüyümüz işlərə bir növ yekun vuracaqdır. Bildiyiniz kimi, fasilədən sonra bölmələrdə müzakirələr aparılacaqdır. Onları Baş nazirin müavinləri aparacaqlar. Eyni zamanda, bizim digər işçilərimiz, nazirlərimiz, icra hakimiyyətinin başçıları, sahibkarlar da fəal iştirak etməlidirlər və bütün məsələlər, necə deyərlər, sərbəst, açıq şəkildə müzakirə olunmalıdır. Konfransın məqsədi də məhz bundadır ki, biz görülən işlərə yekun vuraq, təhlil edək, müsbət, mənfi məqamları üzə çıxaraq və 2005-ci ilin uğurlu keçməsi üçün fəaliyyət planını hazırlayaq.

Mən buna görə sizə bir daha öz minnətdarlığımı bildirirəm. Sahibkarlara öz minnətdarlığımı bildirirəm ki, 2004-cü ildə bizə inanıb Azərbaycana sərmayə qoydular və gördülər ki, düz etdilər, səhv etmədilər.

Bu sərmayələr də lazımi səviyyədə qorunur. Azərbaycanda xarici sərmayə necə qorunursa, yerli sərmayə də eləcə qorunma-

lıdır, bunların arasında heç bir fərq qoyulmamalıdır. Ümid edirəm ki, 2005-ci ildə biz səmərəli işləyəcəyik, bu inkişaf tempi saxlanılacaqdır. Arzu edirəm ki, gələn il fevralın 11-də yenə yığışaq və 2005-ci ilin yekunlarını müzakirə edək. Sağ olun.

* * *

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz ki, biz müxtəlif sahələrdə fərqlənmiş insanları vaxtaşırı mükafatlarla təltif edirik. Amma nədənsə, belə bir praktika var idi ki, özəl fəaliyyətlə məşğul olanlar bu məsələlərdə bir az qıraqda qalırdılar. Halbuki özəl sektor, sahibkarlar, yenə də deyirəm, bu gün Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynayırlar. Buna görə mən bu gün Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsində fərqlənmiş sahibkarların «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında sərəncam imzaladım və istəyirəm ki, elə bu gün də medalları təqdim edəm.

**YUNANISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında təşəkkül tapmış ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da xalqlarımızın mənafeyinə uyğun olaraq həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar, o cümlədən Avratlantik strukturlar çərçivəsində daha da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə uzun ömür, möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və çiçəklənmə, yunan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 fevral 2005-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistanın Bəlucistan əyalətində və ölkənin digər bölgələrində aramsız yağışlar nəticəsində baş vermiş daşqınların xeyli insan tələfatı və itkilər törətməsi ilə əlaqədar Sizə, qardaş Pakistan xalqına və hökumətinə dərin hüznlə başsağlığı verirəm.

Həlak olanların və itkin düşənlərin ailələrinə Allahdan səbir, Pakistan xalqına isə əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 fevral 2005-ci il*

**ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Herat–Kabul reysi ilə uçan Boinq-737 təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda insan tələfatının olması xəbəri məni dərindən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, həlak olanların ailə üzvlərinə, yaxınlarına və dost əfqan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 fevral 2005-ci il*

**AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ CƏNAB ANDREAS QROSS VƏ CƏNAB ANDRES HERKEL İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*12 fevral 2005-ci il*

*Görüş zamanı Azərbaycanın Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığının müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

*Həmməruzəçi Andres Herkel ölkəmizdə fəaliyyət göstərən Estoniya icmasının üzvləri barədə nəşr olunmuş kitabı dövlətimizin başçısına təqdim etmişdir.*

## MOSKVADA ÇIXAN «NEZAVİSİMAYA QAZETA»NIN MÜXBİRİ VİKTORİYA PANFİLOVAYA VERDİYİ MÜSAHİBƏ

*8 fevral 2005-ci il*

**S u a l: İlham Heydəroviç, bu ilin payızında Azərbaycanda parlament seçkiləri olacaqdır. Bir sıra ekspertlər hesab edirlər ki, MDB-nin digər ölkələrində olduğu kimi, burada da Milli Məclisə mümkün qədər daha çox rusiyapərəst əhval-ruhiyyəli siyasətçilər seçilməsi üçün Moskva seçkiqabağı mübarizənin gedişinə təsir göstərməyə çalışır. Siz belə bir «Rusiya amili»ni nəzərə alırsınızmı?**

**C a v a b:** Əgər müstəqillik əldə edildiyi vaxtdan bəri Azərbaycanda istənilən seçkilərin keçirilməsinin tarixinə nəzər salsaq aydın olar ki, bunlarda kənar amil rol oynamayıbdır. Azərbaycanın iqtisadi potensialı möhkəmləndikcə, regionda və dünyada rolu artdıqca kənardan hər hansı bir təsir minimuma enir. Biz heç bir kənar müdaxilə və təzyiq hiss etmirik: Azərbaycanın müstəqil siyasət yeritməyə, o cümlədən də iqtisadi inkişaf, energetika təhlükəsizliyi baxımından müstəqil siyasət aparmağa gücü çatır. Demək olar, heç kəsin Azərbaycana təsir vasitələri yoxdur. Bu da yaxşıdır, çünki normal, etibarlı münasibətləri, dostluq münasibətlərini yalnız güclü dövlətlə, müstəqil tərəfdaşla qurmaq olar. Biz ölkələrin asılılığa düşməsini alqışlamırıq. Belə asılı ölkələr isə var, mən onların adlarını çəkmək istəmirəm. Asılı ölkə elə əvvəldən zəifdir və ondan nə desən gözləmək olar. Belə ölkə bu gün birindən asılıdır, sabah başqasından asılı olacaqdır. Azərbaycanın bugünkü inkişafının dəyəri ondadır ki, biz ancaq milli mənafelərimizi əks etdirən müstəqil siyasət aparırıq.

**S u a l: Azərbaycanın Rusiya ilə münasibətlərinin indiki səviyyəsini necə səciyyələndirərdiniz: strateji müttəfiqlik, tərəfdaşlıq, mehriban qonşuluq?**

**C a v a b:** Biz münasibətlərimizi strateji tərəfdaşlıq kimi qiymətləndiririk, ölkələrimiz arasında yüksək səviyyədə qarşılıqlı anlaşma var, fəal siyasi dialoq aparılır. Bizim aramızda, demək olar, həll edilməmiş məsələlər qalmamışdır. İqtisadi əlaqələrimiz yaxşı inkişaf edir, əmtəə dövriyyəsi fəal surətdə yüksəlir və biz onu iki dəfə artırmağı planlaşdırırıq. Bir sözlə, indiki münasibətlərimiz bizi qane edir və düşünürük ki, bu, hər iki tərəfin xeyrinədir. Üstəlik, cari il Rusiyada Azərbaycan ili elan edilmişdir. 2006-cı il isə Azərbaycanda Rusiya ili olacaqdır.

Bundan əlavə, ümumən regionda təhlükəsizlik və sabitlik də bizim əməkdaşlığımızdan asılıdır. Bildiyiniz kimi, Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında vasitəçilik mandatına malik olan ATƏT-in Minsk qrupunun həmsədridir.

**S u a l: Məlumdur ki, Moskva münaqişə tərəflərinin qəbul etdikləri istənilən qərarı dəstəkləyəcəkdir. Rusiyanın rolu ATƏT-in Minsk qrupu çərçivəsi ilə bitirmi, yoxsa o, əlavə təsir vasitələrinə malikdir?**

**C a v a b:** Biz Minsk qrupunu vahid orqanizm hesab edirik və həmsədrlər arasında heç bir müqayisə aparmaq istəməzdik. Lakin Rusiya Azərbaycanla sərhədə malik olan və bu regionda yerləşən yeganə həmsədr ölkədir. Əlbəttə, bu, münaqişənin həlli üçün onun məsuliyyətini artırır. Biz hesab edirik, Minsk qrupunun fəaliyyəti belə olmamalıdır ki, "siz özünüz razılığa gəlin, biz də bu razılaşmanı təsdiqləyək". Əgər özümüz razılığa gələ bilsəydik, indiyədək gələrdik. Minsk qrupu məhz ona görə yaradılmışdır ki, tərəflər razılığa gələ bilməmişlər. Ona görə də biz hesab edirik ki, Minsk qrupunun fəaliyyəti, ilk növbədə, beynəlxalq hüququn prinsipləri və normalarının qorunmasına yönəldilməlidir. Bu da ondan ibarətdir ki, hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Azərbaycan heç kimin ərazi bütövlüyünü

pozmayıb, bizim ərazi bütövlüyümüz isə pozulubdur. Ermənistan tərəfindən olan təcavüz, etnik təmizləmələr və davakar separatizm hərəkətləri nəticəsində bir milyondan çox azərbaycanlı qaçqına, məcburi köçkünə çevrilmişdir. Bütün bunlar aparıcı beynəlxalq təşkilatların sənədlərində, o cümlədən Avropa Şurasının qətnaməsində öz əksini tapmışdır. Biz münaqişənin həllini belə görürük: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistanın işğalçı qoşunları Azərbaycan ərazilərindən çıxarılmalı, qaçqın-köçkünlər öz yerlərinə qayıtmalıdırlar. Bu halda sülh bərqərar olar. Hesab edirəm ki, Dünya Birliyi bu cür yanaşmaya get-gedə daha çox yaxınlaşır. Zənnimcə, Minsk qrupunun son vaxtlar fəallaşması nəticələr verə bilər.

**S u a l: Ekspertlərin fikrincə, AŞPA-nın bu yaxınlarda qəbul etdiyi qətnamə Ermənistana yox, daha çox Azərbaycana sərfəlidir. Bu o deməkdirmi ki, Bakı özünün diplomatik uğurunu inkişaf etdirərək, münaqişənin həlli prosesini ATƏT-in Minsk qrupu çərçivəsindən çıxarmağa, əsas diqqəti AŞ və BMT strukturlarına yönəltməyə çalışır?**

**C a v a b:** Biz bu fikirdəyik ki, ATƏT-ın Minsk qrupu öz funksiyalarını yerinə yetirməlidir. Əlbəttə, biz indi vasitəçilərin dəyişməsini istəmirik. Ancaq biz açıq deyirik ki, Minsk qrupunun fəaliyyətindən narazıyıq, çünki nəticələr yoxdur. Yeri gəlmişkən, Ermənistan tərəfi isə vaxtaşırı bəyan edir ki, o, Minsk qrupunun fəaliyyətindən razıdır. Yəqin ona görə ki, nəticələr yoxdur. Ümumən biz formatın dəyişməsini istəmirik, ancaq hesab edirik ki, beynəlxalq təşkilatların iştirakı və fəallığı sülhyaratma prosesinin irəliləməsinə kömək göstərəcəkdir. Odur ki, biz məsələni BMT və Avropa Şurası çərçivələrində qaldırmışıq, baxmayaraq ki, Ermənistan tərəfi buna həmişə mane olmağa çalışmışdır.

Biz indi Avropa Birliyinin bir növ regional əməkdaşlıq prizmasından Qarabağ məsələsi ilə daha fəal məşğul olması faktını da alqışlayırıq. Məsələlərin müxtəlif beynəlxalq qurumlarda geniş müzakirəsinin, zənnimcə, faydası olacaqdır.

**S u a l: Siz Moskvaya səfərinizin gedişində prezident Putinlə Qarabağ problemini müzakirə edəcəksinizmi? Hər şeydən göründüyü kimi, o, Slovakiyada Buşla görüşdə də Qarabağ haqqında danışacaqdır.**

**C a v a b:** Düşünürəm ki, belə də olacaqdır. Hər halda, bizim bütün əvvəlki görüşlərimizdə də belə müzakirə olmuşdur və qarşıdakı görüş də istisna təşkil etməyəcəkdir. Bundan əlavə, MDB-nin sammiti zamanı Ermənistan və Azərbaycan prezidentlərinin görüşü çərçivəsində aparılan danışıqlara Rusiya prezidenti də qoşulmuşdu ki, bu da Rusiyanın problemin həllinə marağını göstərir.

**S u a l: Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu yaxınlarda Bakıda oldu. Verilən xəbərlərə görə, MDB-də islahatlar aparılması məsələləri və Dağlıq Qarabağ problemi müzakirələrin əsas mövzuları olmuşdur. Lakin belə bir informasiya da var ki, Lavrov Sizi Azərbaycanın Kollektiv Təhlükəsizlik Haqqında Müqavilə Təşkilatına daxil olmasına razı salmağa çalışmışdır. Bu məlumat nə dərəcədə doğrudur?**

**C a v a b:** Xeyr, bu mövzu müzakirə edilməmişdir. Biz Kollektiv Təhlükəsizlik Haqqında Müqavilə Təşkilatına daxil olmağın mümkünlüyü məsələsini nəzərdən keçirmirik.

**S u a l: Rusiyada bir sıra iri azərbaycanlı sahibkarlar işləyirlər. Belə deyirlər ki, onlarla Azərbaycanın rəsmi hakimiyyəti arasında münasibətlər yaxşı deyildir. Sizcə, RF-də işləyən azərbaycanlı biznesmenlərin respublika ilə əlaqələri inkişaf etdirmələrinə nə mane olur? Axı onlar Azərbaycanın iqtisadi inkişafında əhəmiyyətli rol oynaya bilərlər.**

**C a v a b:** Hesab edirəm ki, əksinə, münasibətlər çox yaxşıdır. Yeri gəlmişkən, 2003-cü ildə keçirilən prezident seçkilərində Rusiyada yaşayan azərbaycanlılar da iştirak etdilər və onların böyük əksəriyyəti məni dəstəklədi. Azərbaycan rəhbərliyi ölkənin hüdudlarından kənarda, o cümlədən Rusiyada yaşayan bütün azərbaycanlılara çox diqqətlə yanaşır. Ona görə də münasi-

bətlər çox konstruktivdir. Mən xaricdə yaşayan azərbaycanlıların ölkəmizin iqtisadiyyatına vəsait yatırmalarını alqışlayıram. Əlbəttə, ölkə miqyasında götürdükdə, bu o qədər də böyük faiz deyildir. Lakin özlüyündə bu, ölkəmizə olan inamı, daxili siyasi vəziyyətin sabitliyini göstərir. Odur ki, bu baxımdan bizim heç bir problemimiz yoxdur və öz tərəfimizdən xaricdəki Azərbaycan diasporuna mənəvi dəstək göstəririk.

**S u a l: Azərbaycan müstəqillik əldə edəndən sonra belə təsəvvür yaranmışdı ki, Bakı Türkiyənin asılılığına düşəcəkdir. Lakin etnik yaxınlığa baxmayaraq, Ankara Bakı üçün "siyasi lokomotivə" çevrilmədi. Nə üçün?**

**C a v a b:** Biz bütün qonşularımızla yaxşı münasibətlərin inkişaf etdirilməsinə tərəfdarıq. Bizim xarici siyasət doktrinamız da məhz buna əsaslanır. Ənənəvi olaraq, Türkiyə ilə çox yaxın münasibətlərimiz var. O, dünyada Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkədir və bizim aramızda siyasi, iqtisadi, mədəni, insani əlaqələrin və ünsiyyətlərin səviyyəsi çox yüksəkdir. Biz buna çox şadıq. Ancaq biz öz münasibətlərimizi yalnız hüquq bərabərliyi, qarşılıqlı hörmət, qarşılıqlı dəstək və rəğbət səviyyəsində qururuq. Mən bir daha vurğulamaq istəyirəm ki, biz Azərbaycana qarşı təsir hiss etmirik.

Azərbaycan müstəqilliyinin ilk dövründə – 1991–1992-ci illərdə və müəyyən dərəcədə də 1993-cü ildə müxtəlif mənafelərin kəsişdiyi məkan idi. Lakin yəqin ki, bunun özü də obyektiv idi. Əlbəttə, o vaxtkı iqtidarın zəifliyi, səriştəsizliyi və qeyri-peşəkarlığı da öz rolunu oynamışdı. Ancaq xalq öz liderini tələb etdikdə və Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra biz müstəqil xarici siyasət xəttini fəal surətdə möhkəmlətməyə başladıq. Bizə bütün qonşularla yaxşı, mehriban münasibətlərin olması lazımdır. Ancaq Azərbaycanın rəqabət meydanına çevrilməsinə də yol verməyəcəyik.

**S u a l: Gürcüstanın yeni rəhbərliyi ilə münasibətləriniz necədir? Vaxt-vaxt gömrük, sərhəd problemləri meydana**

**çıxır, həmin ölkədəki azərbaycanlılarla bağlı məsələ kəskinləşir. Buna səbəb nədir?**

**C a v a b:** Bizim ölkələrimiz arasında problem yoxdur. Mən bunu çox mühüm hesab edirəm ki, Gürcüstanda da, Azərbaycanda da yeni rəhbərlik ikitərəfli münasibətləri məhz çoxdankı, gözəl ənənələrimiz əsasında qurur. Mənim Gürcüstan rəhbərliyi ilə çox yaxşı şəxsi münasibətlərim var. Biz regional səviyyədə, xüsusilə energetika və kommunikasiya sahələrində fəal əməkdaşlıq edirik.

Sərhəddə yaranan məsələlərə gəldikdə, onlar obyektiv xarakter daşıyır. Gürcüstanın hakimiyyət orqanları qaçaqmalçılıqla mübarizə apardıqda biz bunu alqışlayırıq. Eləcə də biz Asiyadan gələn və Azərbaycan ərazisindən keçərək, guya Avropaya aparılan qaçaqmalçılıq yükləri sonra Ermənistana göndəriləndə tədbirlər gördük və deyirlər ki, indi Ermənistan bazarında benzinin qiyməti az qala iki dəfə bahalaşıb. Ona görə ki, biz bu qaçaqmalçılığın qarşısına sədd çəkdik. Doğrudur, sərhəddə müxtəlif yüklər olan çoxlu vaqon yığılıb qalmışdır, lakin bu labüddür. Əgər biz bu sahədə qayda-qanun yaratmaq, dələduzluğa və qaçaqmalçılığa son qoymaq istəyiriksə, onda belə tədbirlər əsaslıdır. İndi bizim ölkələrimiz birgə xidmətlər və postlar yaratmışlar, onlar xoşagəlməz hallara yol verilməməsi üçün yüklərin Azərbaycan ərazisindən və Gürcüstan ərazisindən keçməsini çox dəqiq izləyirlər. Bütün bunlar texniki xarakter daşıyır və bizi ayırmır, əksinə, birləşdirir.

**S u a l: Siz bu yaxınlarda Tehranda səfərdə oldunuz. Mətbuat yazırdı ki, İranın iqtisadi imtiyazlar vəd etməsinin müqabilində Azərbaycan Pentaqonun İrana qarşı hazırladığı əməliyyatlara qoşulmayacağına təminat vermişdir. Tehranda Sizə konkret olaraq nə vəd etmişlər?**

**C a v a b:** Bizim xarici siyasətimiz o dərəcədə şəffaf, prezidentin və hökumətin fəaliyyətinin açıqlıq səviyyəsi o dərəcədə yüksəkdir ki, bu, hansısa dumanlı gümanlara yer qoymamalıdır. Sizin dedikləriniz uydurmadır. Tehranda bu barədə, ümumiy-

yətlə, söhbət getməmişdir. İran prezidentinin Azərbaycana ötən il etdiyi səfər kimi, bu səfər də ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm idi. Bizim çoxlu iqtisadi layihələrimiz var, uzun illərdən bəri qalmış sənədlər, o cümlədən elektrik enerjisi mübadiləsinə, qaz mübadiləsinə, bildiyiniz kimi, blokadada olan Naxçıvana İran qazının verilməsinə dair sənədlər imzalanmışdır. Azərbaycanlılar yaşayan Təbrizdə Azərbaycanın konsulluğunun açılması haqqında qərar qəbul edilmişdir. Bizim ikitərəfli münasibətlərimiz çox dinamik inkişaf edir.

O ki qaldı Azərbaycan ərazisində hansısa xarici qüvvələrin yerləşdirilməsinə, bizim mövqeyimiz kifayət qədər dəqiqdir və dəfələrlə, o cümlədən də mənim tərəfimdən bəyan edilmişdir ki, Azərbaycan heç kimin silahlı qüvvələrinin öz ərazisində yerləşdirilməsini məqsədəuyğun saymır. Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici hərbi baza yoxdur. Ancaq Gürcüstan hökuməti bu bazalardan xilas olmağa çalışırsa, Ermənistan əksinə, öz ərazisində xarici hərbi qüvvələri artırmağa hazırdır. Lakin bu onların öz işidir. Bizim mövqeyimiz isə belədir ki, ölkəmizdə xarici hərbi kontingentin yerləşdirilməsini məqsədəuyğun hesab etmirik və bunda heç bir məna görmürük. Azərbaycan müstəqil dövlətdir, biz qonşularımızla sülh şəraitində yaşamaq, regionda sülh olmasını istəyirik.

**S u a l: Amma həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli üçün güc işlədilməsinin mümkünlüyündən danışmışlar. Məsələn, Ermənistanın Müdafiə naziri Serj Sarkisyan və Azərbaycanın keçmiş Xarici İşlər naziri Vilayət Quliyev bu barədə bəyanatlar vermişlər...**

**C a v a b:** Azərbaycanın 10 ildən çoxdur danışıqlar aparması (erməni tərəfinin təqsiri üzündən bunun heç bir nəticə verməməsinə baxmayaraq) göstərir ki, biz münaqişənin dincliklə aradan qaldırılması xəttinə sadiqik və problemi sülh yolu ilə həll etməyə çalışırıq. Düşünürəm ki, sülhyaratma prosesinin potensialı hələ tamamilə tükənməyibdir. Danışıqların uğurlu olacağına

hələ ümidimiz var. Ancaq biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq və danışıqlar imitasiyasında iştirak etməyəcəyik. Görsək ki, danışıqlar faydasızdır və yeni vəziyyət yaranacaq, onda danışıqlar dayandırılacaq və biz də bu yeni vəziyyəti nəzərdən keçirəcəyik. Azərbaycan xalqının səbri sonsuz deyildir. Biz daha 10 il danışıqlar prosesində qala bilmərik. Biz silahlı qüvvələrimizi gücləndiririk. 2004-cü ildə hərbi xərclərimizin artımı təxminən 40 faiz olmuşdur. Mütləq rəqəmlə götürdükdə isə, Azərbaycanın müdafiə xərcləri Ermənistanın müdafiə xərclərindən iki dəfə çoxdur. Biz bu potensialı artıracağıq. Hazırda Azərbaycanın və Ermənistanın iqtisadi potensialı müqayisəedilməzdir. Görün, bizim bütün mühüm iqtisadi layihələrimiz həyata keçirildikdən sonra vəziyyət necə olacaqdır. Bizdə gələn il üçün ümumi daxili məhsulun artımı 15 faiz səviyyəsində planlaşdırılır. Köhnə terminlərlə desək, Ermənistan bizimlə bərabər sürətlə silahlanmaya tab gətirməyəcəkdir.

**S u a l: Müxtəlif səviyyələrdə və bütün MDB ölkələrində müzakirə edilən son mövzulardan biri Gürcüstandakı və yaxud Ukraynadakı kimi, «məxməri» inqilabların təkrarlanmasının mümkünlüyüdür. Sizcə, Azərbaycanda hakimiyyətin inqilabi yolla dəyişməsi mümkündürmü?**

**C a v a b:** Düşünürəm ki, yox, Azərbaycanda heç bir inqilab gözlənilmir. Mən sizə belə deyəcəyəm: 2003-cü ilin prezident seçkiləri aydın şəkildə göstərdi ki, seçkilərin nəticələri cəmiyyətdə hökm sürən əhval-ruhiyyəyə uyğun idi. Seçkilərdən əvvəl keçirilmiş ictimai rəy sorğuları və bilavasitə səsvermədən çıxanlarla aparılmış sorğular da bunu sübut edirdi. Əlbəttə, uduzan tərəf məğlubiyyəti ilə razılaşmaq istəmir, çünki bu onlar üçün siyasi səhnədən getmək demək olardı. Özü də bu adamlar 1993-cü ildən başlayaraq bütün seçkilərdə – həm prezident, həm də parlament seçkilərində uduzmuşlar. Seçkilər günü, rəsmi yekunlar hələ elan edilməzdən əvvəl və ertəsi gün hansısa bir tragikomik "inqilab" cəhdi göstərildi. Lakin bu çox miskin bir mənzərə idi! Hərçənd kifayət qədər davakar formada idi.

Amma xalq onları dəstəkləmədi. O yerdə ki, xalq hökuməti dəstəkləyir, orada inqilab mümkün deyildir. Çünki insanların dəstəyi olmadan heç bir resurs – nə inzibati, nə də maliyyə resursu iqtidarın hakimiyyətdə qalmasına kömək edə bilməz. Nə qədər ki, Azərbaycanda xalq iqtidara etimad göstərir, burada heç bir inqilab ola bilməz. Mən isə özümdən asılı olan hər şeyi edəcəyəm ki, bu etimad azalmasın. Ona görə də bir il ərzində biz bölgələrdə 170 mindən çox iş yeri yaratmışıq. Minimum əməkhaqqını, sosial müavinətləri iki dəfə artırmışıq. Siyasətimizin sosial yönümü çox vacibdir və ona görə də burada müxalifətin manevr etməsinə meydan yoxdur.

**S u a l: «Nezavisimaya qazeta»da belə yazılar getmişdir ki, respublika hökumətində parçalanma dərinləşir, iki tayfa – «Naxçıvan» və «Ermənistan» tayfaları arasında mübarizə kəskinləşir. Belə iddiaların əsası varmı və Siz bu cür çəkişmələrə son qoymaq üçün nə kimi tədbirlər görmək niyyətindəsiniz?**

**C a v a b:** Bəzən mən də belə yazılar görürəm, ancaq onlar reallıqdan uzaqdır. Bizdə belə şey yoxdur, üstəlik, heç bir tayfa və ziddiyyətlər yoxdur. Azərbaycanda iqtidar vahiddir. Yəqin ki, prezident seçkilərində mən həm də buna görə belə asanlıqla qələbə qazandım. Bizdə ixtilaf yox idi. Bütün hakimiyyət strukturları mənim ətrafımda birləşmişdi və belə vəziyyət indi də davam edir. Mən hələ Baş nazir təyin edildiyim vaxt bildirmişdim ki, bu komanda ilə işləyəcəyəm. Bizdə monolit və tamamilə nəzarət edilən vəziyyət mövcuddur. Mən yerliçilik zəminində hər hansı fərq qoyulmasının əleyhinəyəm. Mən bunu qəbul etmirəm.

***«Nezavisimaya qazeta», 2005-ci il 14 fevral. Müsahibənin mətni «Azərbayca» qəzetində (15 fevral 2005-ci il) dərc edilmişdir.***

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan Respublikası Rusiya Federasiyası ilə hərtərəfli əlaqələrin möhkəmlənməsi və genişlənməsinə çox böyük əhəmiyyət verir. Bərabərhüquqlu tərəfdaşlığa və qarşılıqlı surətdə faydalı əməkdaşlığa əsaslanan münasibətlərimiz həm regional kontekstdə, həm də dünya kontekstində ikitərəfli qarşılıqlı əlaqəni müasir tələblərə və təhdidlərə adekvat reaksiya göstərməyə şərait yaradan səviyyəyə qaldırmağa imkan yaradır.

2005-ci ilin Rusiya Federasiyasında Azərbaycan Respublikası ili elan edilməsi dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsini səciyyələndirən parlaq sübutdur.

İnanıram ki, Rusiyada Azərbaycan ili, eləcə də 2006-cı ildə Azərbaycanda Rusiya ili xalqlarımız arasındakı ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinə və qarşılıqlı anlaşmaya yeni təkan verəcəkdir.

Əminəm ki, Rusiyada Azərbaycan ili çərçivəsində planlaşdırılmış və Azərbaycan mədəniyyəti və incəsənəti festivalı ilə başlanan tədbirlərin, habelə elm və mədəniyyət dairələrinin, siyasi və işgüzar dairələrin nümayəndələrinin görüşlərinin keçirilməsi ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsi yolunda mühüm mərhələ olacaqdır.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, bütün rusiyalılara sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 fevral 2005-ci il*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Qambiya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi–qəlbdən təbrik edir, dost ölkənizə sülh, əmin-amanlıq və daim çiçəklənmə arzulayıram.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmış əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə ən xoş arzularımı çatdırır, Qambiya xalqına firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 fevral 2005-ci il*

**AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RENE VAN DER LİNDE-NƏ**

Hörmətli cənab Sədr!

Avropa Şurası Parlament Assambleyasının Sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi–qəlbdən təbrik edirəm. Biz Azərbaycan ilə Avropa Şurası arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Bu mənada Avropa Şurasının bütün strukturları ilə əlaqələrimizi hər cür genişləndirməyə, başçılıq etdiyiniz Parlament Assambleyasının işində yaxından iştirak etməyə çalışırıq.

Əminəm ki, demokratik ideלların təntənəsi naminə konstruktiv əməkdaşlığımızın, birgə fəaliyyətimizin səmərəsini artırmaq üçün biz bundan sonra da ardıcıl şəkildə qarşılıqlı səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDAS ADAMKUSA**

Hörmətli cənab Prezident!

Litva Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Litva xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi–qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimiz sayəsində həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar, o cümlədən Avratlantik strukturları çərçivəsində daim möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ

Hörmətli cənab Prezident!

Tehran şəhərindəki məsciddə baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ**
**AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ**

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Tehran şəhərindəki məsciddə baş vermiş yanğın zamanı çoxlu sayda insanın həlak olması və xəsarət alması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciəli hadisə ilə bağlı Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDƏ**

Hörmətli cənab Prezident!

Beyrut şəhərinin mərkəzində törədilmiş terror aktı nəticəsində insan tələfatı, Livanın keçmiş Baş naziri Rafiq Həririnin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni tam dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Livan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

**TÜRKMƏNİSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Sizi yubileyiniz – anadan olmağınızın 65 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bu yubiley müstəqil Türkmənistan üçün bir də onunla əlamətdardır ki, həmin gün türkmən xalqı öz milli bayramını – Dövlət Bayrağı Gününü də qeyd edir. Sizi və dost Türkmənistan xalqını bu bayram münasibətilə səmimi-qəlbdən təbrik etmək istərdim.

Azərbaycan Türkmənistanla ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərinə böyük əhəmiyyət verir.

Əminəm ki, birgə səylərimiz sayəsində ölkələrimiz arasında əməkdaşlıq xalqlarımızın rifahı naminə, regionda sülh və sabitlik naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Möhtərəm Saparmurad Atayeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Türkmənistan xalqına firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 fevral 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*15 fevral 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Rusiya Federasiyasının paytaxtı Moskvaya gəlmişdir.*

*Azərbaycanın və Rusiyanın dövlət bayraqları ilə bəzədilmiş «Vnukovo-2» hava limanında prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül-çiçək təqdim edildi.*

*Dövlətimizin başçısı İlham Əliyevi təyyarənin pilləkəni yanında Rusiya Xarici İşlər nazirinin birinci müavini Valeri Loşşinin, ölkəmizin Moskvadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanında Rusiya Xarici İşlər nazirinin birinci müavini Valeri Loşşinin ilə qısa söhbət etdi.*

*Dövlətimizin başçısı avtomobil karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## RUSİYA FEDERASİYASINDA AZƏRBAYCAN İLİNİN AÇILIŞI İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Moskva, Kreml*

*16 fevral 2005-ci il*

**V l a d i m i r   P u t i n**: Hörmətli cənab Prezident, icazə verin, Sizi ürəkdən salamlayım. Xoşdur ki, biz Sizinlə belə tez-tez, indi isə Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı kimi gözəl bir hadisə ilə əlaqədar görüşürük. Biz bu barədə ötən il razılığa gəlmişdik. Bununla əlaqədar demək istəyirəm ki, kifayət qədər fəal inkişaf edən heç də təkcə iqtisadi əlaqələrimiz deyildir. Ötən il əmtəə dövriyyəsi rekord həddədək –50 faizədək artaraq, təxminən bir milyard dollara yaxınlaşmışdır. Hər halda, biz milyard səviyyəsinə tezliklə nail olacağıq, indi əmtəə dövriyyəsi təqribən 800 milyon dollardır. Keçən il biz sizinlə 1 milyard dollar səviyyəsinə çıxmağı qarşıya məqsəd qoymuşduq. Əminəm ki, biz buna yaxın vaxtlarda çatacağıq.

Lakin xüsusilə xoşdur ki, ölkələrimiz arasında humanitar əlaqələr kəsilmir, əksinə, inkişaf edir. Ötən il Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Rus dilinin dəstəklənməsinə Sizin necə münasibət göstərdiyinizi bilirəm. Bizim məlumatımıza görə, Azərbaycanda əhalinin, demək olar, 40 faizi rusdillidir, yəni onlar rus dilində sərbəst danışırlar. Zənnimcə, bundan da çoxdur. Bugünkü tədbiri, Rusiyada Azərbaycan ilinin açılışını, sözsüz, əlamətdar hadisə hesab edirəm. Bu tədbirdə şəxsən işti-

rak etməyə gəldiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

**İ l h a m  Ə l i y e v**: Vladimir Vladimiroviç, çox sağ olun. Rusiya Federasiyasında Azərbaycan ilinin açılışı kimi belə mühüm hadisə ilə əlaqədar yenidən Moskvada olmağıma çox şadam. Biz buna çox böyük əhəmiyyət veririk və ümidvarıq ki, bütün bu il ikitərəfli münasibətlərimizin, dostluq münasibətlərimizin möhkəmlənməsi əlaməti altında keçəcək və bu bir ildə biz daha da yaxın olacağıq. Düz bir il əvvəl, Rusiyaya mənim rəsmi səfərim zamanı müəyyənləşdirilən planların belə sürətlə həyata keçirilməsindən də çox məmnunam. Əmtəə dövriyyəsinin 50 faiz artması qarşılıqlı marağın, qarşılıqlı faydanın parlaq göstəricisidir. Ümumiyyətlə, siyasi müstəvidə konstruktiv, yaxın münasibətlər olmadan, iqtisadi sahədə belə sıçrayışa nail olmaq mümkün olmazdı. Bu il biz Bakıda Rusiya–Azərbaycan biznes forumu kimi böyük tədbir də keçirdik. Dövlət müəssisələri və özəl müəssisələr səviyyəsində əlaqələr genişlənir.

Qeyd etdiyiniz kimi, humanitar sahədə də böyük tərəqqi var. Lakin bu sahə əməkdaşlığın qalan bütün istiqamətlərindən həmişə bir növ irəlidə olmuşdur. Əvvəlki illərdə olduğu kimi, yenə də Azərbaycanda rus dilinə, rus mədəniyyətinə münasibət ən yüksək səviyyədədir. Biz ikitərəfli əməkdaşlığın səviyyəsindən çox məmnunuq, əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Yeri gəlmişkən, biz keçən il heç ümid etmirdik ki, əmtəə dövriyyəsi belə sürətlə artacaqdır. Biz əmtəə dövriyyəsini daha uzaq perspektivdə iki dəfə artırmağı qarşıya məqsəd qoymuşduq. İndi bu, artıq reallıqdır. Odur ki, bütün bunlar məmnunluq hissi doğurur və biz buna çox şadıq.

Dəvətə görə bir daha təşəkkür edirəm. Düşünürəm ki, bu gün Rusiyada Azərbaycan ilini açırıq, gələn il isə Azərbaycanda Rusiya ilini açacağıq.

**V l a d i m i r  P u t i n:** Ölkələrimiz arasında əməkdaşlığın daha bir istiqamətinə, yəni investisiya fəaliyyətinə toxunaraq bildirmək istəyirəm ki, Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa hazır olan bir çox Rusiya şirkətlərinin planları məlum-

dur, tamamilə konkret layihələr var. Biz gün ərzində onların barəsində danışa bilərik.

**İ l h a m Ə l i y e v:** Biz bu sərmayələri alqışlayırıq və səmərəli, faydalı əməkdaşlıq ediləcəyinə ümid bəsləyirik.

* * *

*Prezident İlham Əliyev daha sonra Azərbaycandakı sosial-iqtisadi vəziyyətdən, son bir ildə bu istiqamətdə əldə olunmuş uğurlardan danışdı. O bu sahədəki nailiyyətləri və ölkəmizdə sabitliyin daha da möhkəmlənməsini prezidentliyinin ilk ili üçün çox yüksək nəticə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkədə ümumi daxili məhsulun dinamik şəkildə artdığını, keçən il Azərbaycan iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulduğunu vurğulayaraq, bu işdə yerli sərmayəçilərin də fəallıq göstərdiyini bildirdi.*

*Dövlət başçıları Azərbaycanın həyatındakı bütün bu amillərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün də əhəmiyyətli olduğunu qeyd etdilər. Eyni zamanda, ötən il Moskvada Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayının keçirilməsinin Rusiyada yaşayan azərbaycanlıların vəziyyətinin yaxşılaşdırılmasında müsbət rol oynadığını bildirdilər.*

*Humanitar sahələrdə əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edən prezidentlər fevralın 16-da Rusiyada Azərbaycan ilinin açılmasının əhəmiyyətini bir daha vurğuladılar.*

*Görüşdə ikitərəfli əlaqələrin aktual məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Bildirildi ki, Rusiyada Azərbaycan ili çərçivəsində RF-nin federal və regional hakimiyyət orqanlarının, elm, təhsil, mədəniyyət təşkilatlarının və digər strukturlarının azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığı qarşılıqlı əlaqələrin daha da güclənməsinə kömək edəcəkdir.*

*İqtisadi əməkdaşlığın bütün spektrləri üzrə irəliləyişdən, o cümlədən ticarət dövriyyəsinin artmasından, yanacaq-energetika bölməsində və digər sahələrdə əlaqələrin inkişafından razı-*

*lıqlarını bildirən dövlət başçıları bütün bu istiqamətlərdə geniş imkanların mövcud olduğunu da vurğuladılar.*

*Prezidentlər bir sıra beynəlxalq və regional məsələlər haqqında da ətraflı fikir mübadiləsi etdilər. Şimal–Cənub nəqliyyat dəhlizinin perspektivləri, beynəlxalq və regional təhlükəsizlik məsələləri geniş müzakirə olundu. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı danışıqlar prosesi, mövcud vəziyyət və problemin həlli barədə də geniş fikir mübadiləsi aparıldı.*

## RUSİYADA AZƏRBAYCAN İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Moskva, Kreml sarayı*

*16 fevral 2005-ci il*

*Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimi olmuşdur. Rusiyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş salona toplaşanlar Azərbaycan Respublikasının prezidenti İlham Əliyevi və Rusiya Federasiyasının prezidenti Vladimir Putini hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycanın və Rusiyanın dövlət himnləri səsləndi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin açılış mərasimində çıxış etdilər.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Moskvada olmaq və Rusiyada Azərbaycan ilinin açılışında iştirak etmək mənə çox xoşdur. Əminəm ki, bu il çox uğurla keçəcəkdir. Moskvada da, Rusiya Federasiyasının digər şəhərlərində də çoxlu müxtəlif tədbirlər planlaşdırılmışdır. Şübhəm yoxdur ki, bu il ərzində rusiyalılar bugünkü Azərbaycanın nə ilə yaşadığından, necə inkişaf etdiyindən və nə kimi nailiyyətlərinin olduğundan daha yaxşı xəbər tutacaqlar.

Biz Rusiyada Azərbaycan ilinin keçirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, bu bir il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da möhkəmlənəcəkdir. Bu münasibətlər indi də kifayət qədər yüksək səviyyədədir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq var. Biz regional məsələlərdə, regional inki-

şafda, regional təhlükəsizlikdə iştirak edirik, iqtisadi əlaqələr çox fəal inkişaf edir. Bu gün biz Vladimir Vladimiroviçlə ikitərəfli iqtisadi münasibətlərin vəziyyəti barədə fikir mübadiləsi apararkən böyük məmnunluqla qeyd etdik ki, cəmi bir ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 50 faiz artmışdır. Əlbəttə, ötən ilin fevralında mənim Rusiyaya rəsmi səfərim zamanı biz əmtəə dövriyyəsini iki dəfə artırmağı qarşıya bir vəzifə kimi qoyduq. Lakin, görünür, güman etmirdik ki, bu, belə tez baş verəcəkdir. Bu sübut edir ki, çox böyük qarşılıqlı maraq, qarşılıqlı surətdə çox faydalı iqtisadi fəaliyyət və ticarət var.

Humanitar sahədə münasibətlərimiz həmişə yüksək səviyyədə olması ilə fərqlənmişdir və bu gün də belədir. Azərbaycanda rus mədəniyyətinə, rus dilinə həmişə çox qayğı ilə yanaşmışlar və yanaşırlar. Bu, həmişə belə olmuşdur və həmişə də ölkəmizi fərqləndirmişdir. Lakin çox xoşdur ki, ictimai formasiyadan asılı olmayaraq, istənilən şəraitdə mövcud olmuş bu gözəl ənənələr indi də yaşayır, inkişaf edir və möhkəmlənir. Mən hesab edirəm ki, ikitərəfli münasibətlərin bütün müsbət təcrübəsi bu əlaqələrin inkişafına gələcəkdə də xidmət edəcəkdir. Biz bunu çox istəyirik. Təsadüfi deyil ki, biz Rusiya ilə münasibətlərimizi strateji tərəfdaşlıq kimi qiymətləndiririk. Biz təkcə sözdə deyil, bəyanatlarda deyil, praktikada da, real işlərdə də tərəfdaşıq.

Arzu edirəm ki, Rusiyada Azərbaycan ili uğurla keçsin. Hesab edirəm ki, belə də olacaq və dediyim kimi, biz bir-birimizi daha yaxşı tanıyacaq, başa düşəcək və bir çox məsələləri birlikdə həll edəcəyik. Lakin eyni zamanda düşünürəm ki, 2005-ci il ərzində biz Azərbaycanda 2006-cı ildə olacaq Rusiya ilinin keçirilməsinə də fəal hazırlaşacağıq. Əlbəttə ki, ikitərəfli münasibətlərimiz yalnız Azərbaycan və Rusiya illəri çərçivəsindəki tədbirlərlə məhdudlaşmayacaqdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək, dərinləşəcək və yeni-yeni sahələri əhatə edəcəkdir.

Əziz dostlar, mən sizin hamınızı Azərbaycan xalqı və hökuməti adından ürəkdən salamlayıram. Rusiyaya, Rusiya xalqına sülh, firavanlıq və tərəqqi arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydərov!

Əziz dostlar!

Sözsüz ki, bu gün əlamətdar gündür. Biz ona azərbaycanlı dostlarımıza və həmkarlarımıza bəslədiyimiz xüsusi hisslə, xüsusi xeyirxahlıqla hazırlaşmışıq. İndii Rusiyada Azərbaycan ilini açarkən bu şənliklərin iştirakçılarını və qonaqlarını Moskvada görməyə şadam. Əlbəttə, Azərbaycan Prezidenti, bu qərarın işlənilməsində, bu tədbirin hazırlanmasında iştirak etmiş bütün adamlara, indiki məqamadək görünmüş böyük işə görə ürəkdən təşəkkür etmək istəyirəm. Əminəm ki, bu il ərzində də heç də az iş görülməyəcək və bunların çox böyük müsbət nəticəsi olacaqdır.

Rusiyada da, Azərbaycanda da belə geniş vüsətli tədbirlər keçirmək təşəbbüsü bir il əvvəl, Azərbaycan Prezidenti İlham Heydəroviçik Moskvaya səfəri zamanı irəli sürülmüşdü. Bu təşəbbüs həm ictimaiyyət, həm də yaradıcı kollektivlər tərəfindən geniş dəstəklənmişdir. Zənnimcə, başqa cür ola da bilməzdi. Axı xalqlarımız Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin möhkəmlənməsini tstəyirlər. Xalqlarımız ümumi tarixə malikdir, onların dünyaya baxışları oxşardır, insan taleləri sıx çulğaşmışdır. Bütün mili özünəməxsusluğuna baxmayaraq, xalqlarımız bir-biri üçün həmişə maraqlı və əhəmiyyətli olmuşlar. Xüsusilə dəyərlidir ki, tarixin bütün döngələrində etibarlı müttəfiqlər və səmimi dostlar kimi qalaraq bir-birini dəstəkləmişlər.

Xüsusi vurğulamaq istəyirəm ki, son illər ərzində, son onillik ərzində Azərbaycanla Rusiya arasında münasibətlərin belə müsbət inkişafı Heydər Əliyeviç Əliyevin nüfuzu və müdrikliyi sayəsində mümkün olmuşdur. Rusiyada biz onu, unutmamışıq, xidmətlərini xatırlayırıq və xatirəsini ehtiramla yad edirik.

Rusiya və Azərbaycan xalqları bizim vahid irsimizə – həm dinc quruculuq, həm də əsgəri irsimizə hörmətlə yanaşırlar. Mən keçmiş Sovet İttifaqının elminə, mədəniyyətinə, deməli,

ümumi inkişafımıza çox böyük töhfə vermiş insanların hamısının adlarını sadalamayacağam. Xalqlarımızın qardaşlığı faşizmlə mübarizədə od-alov içində möhkəmlənmişdir. Qələbənin 60 illiyi yaxınlaşır. Təbii ki,biz onu birlikdə qeyd edəcəyik. Mən dəvəti qəbul etdiyinə və bu il mayın 8-9-da Moskvada olacağına görə Azərbaycan Prezidentinə təşəkkür edirəm. Fürsətdən istifadə edərək, Azərbaycanın müharibə veteranlarını salamlamaq istəyirəm. Biz Böyük Vətən müharibəsi cəbhələrində fədakarcasına vuruşmuş və ümumi qələbəmizi təmin etmiş 600 min azərbaycanlının igidliyini və qəhrəmanlığını ehtiramla yad edirik. Onların 42-si Sovet İtifaqı Qəhrəmanı adına layiq görülmüş, 12-si isə «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.

Bizim günlərdə Rusiya–Azərbaycan siyasi, iqtisadi və mədəni dialoqu ardıcıl və fəal surətdə inkişaf edir. Hər iki ölkənin vətəndaşları öz həyati əhəmiyyətli problemlərinin həllini bu dialoqun inkişafı ilə bağlayırlar. Şöhrət qarşılıqlı surətdə faydalı kooperasiyadan, işədüzəltmə və miqrasiya məsələlərindən, təhsil sahəsi də daxil olmaqla ümumi mədəni-informasiya məkanından istifadə edilməsindən, habelə zəngin mili ənənələrin qorunub saxlanılmasından gedir. Prezident indicə xatırlatdı ki, son bir ildə əmtəə dövriyyəmiz 50 faiz artmışdır. Bu, son illərin parlaq nəticəsidir. Həmçinin xüsusi vurbulamaq istərdim ki, tərəfdaşlığımız regional sabitliyin əhəmiyyətili amilidir. Biz MDB-nin imkanlarından daha fəal istifadə edilməsində eyni dərəcədə maraqlıyıq. Eləcə də ümumi sosial-iqtisadi problemlərin həlli üçün, mili təhlükəsizliyə olan təhdidlərə, terrorizm əvə ekstremizmə qarşı birgə müqavimət göstərilməsi üçün. Rusiya Qarabağ düyününün layiqincə açılmasına kömək göstərməyə və bu regionda etibarlı təhlükəsizliyi təmin etməyə də çalışır.

Biz Rusiya və Azərbaycan xalqlarının yaxınlaşmasında humanitar əlaqələrə xüsusi önəm veririk, xalqlarımızın ümumi mənəvi irsinin qorunub saxlanmasına tərəfdarıq. Bu baxımdan 2004–2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq

proqramının birinci mərhələsinin uğurla həyata keçirildiyini qeyd etmək istəyirəm. İnsani əlaqələr əsil millətlərarası və dinlərarası həmrəyliyin əsasını təşkil edən tükənməz strateji resursdur. Burada da ən sanballı sözü yaradıcı və elmi ziyalılar, dini istimaiyyət, ən müxtəlif konfessiyaların, diasporların nümayəndələri deməlidirlər. Onların nüfuzu və yaradıcı enerjisi dialoqumuzu xeyli zənginləşdirməyə qadirdir. Əminəm ki, Rusiyada Azərbaycan ilinin bütün proqramlarının birləşdirici əhval-ruhiyyəsi yeni ictimai və işgüzar təşəbbüslərə, insanlar arasında birbaşa əlahələrə yeni yol açmalıdır. Biz Azərbaycanla ən sıx əməkdaşlıq etmək istəyirik və tərəfdaşlarımızın da bu cür əhval-ruhiyyədə olduğunu hiss edirik.

Xalqlarımıza bir daha sulh və firavanlıq arzulamaq, Rusiyada Azərbaycan ilinə isə «Xoş gəlmisən!» demək istəyirəm.

Sizə uğurlar olsun.

* * *

*Fevralın 16-da Azərbaycan prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş «Vnukovo-2» hava limanında prezident İlham Əliyevi Rusiya Xarici İşlər nazirinin birinci müavini Valerii Loşşinin, respublikamızın Moskvadakı səfiri Ramiz Rizayev və digər rəsmi şəxslər, Azərbaycan diasporunun nümayəndələri yola saldılar.*

## «MƏRKƏZİ AZƏRİ» PLATFORMASINDAN* İLK NEFTİN HASİLATINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*18 fevral 2005-ci il*

*Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri»-«Çıraq»-«Günəşli» (AÇG) yataqlarının «Mərkəzi Azəri» hissəsindən ilk neftin hasilatına başlandı. Bu münasibətlə «Mərkəzi Azəri»dəki yeni tikilmiş platformada təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün vertolyotla platformaya gəldi. Burada dövlətimizin başçısını Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord, ARDNŞ-nin prezidenti Natiq Əliyev və platformada çalışan mütəxəssislər səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı İlham Əliyevə platformanın quruluşu, ilk neftin hasil olunmasını göstərən cədvəl göstərildi.*

*ABƏŞ-in prezidenti Devid Vudvord məlumat verdi ki, qarşıdakı aylarda bu platformanın yanında kompressor və suvurma platforması da quraşdırılacaqdır. Artıq onun dayaq özülü qurulub və yaxın vaxtlarda üst modulları gətiriləcəkdir. Apardığımız əməliyyat1arın hər biri uğurlu olmuşdur.Belə ki, Xəzərdə ilk dəfə həyata keçirilən ən böyük əməliyyat nəticəsində 15 min tonluq qurğu buraya gətirilərək, dayaq bloklarının üzərinə*

---

* «Mərkəzi Azəri» platforması Bakıdan 100 kilometr şərqdə, dənizin dərinliyinin 128 metrə çatdığı sahədə yerləşir. «Mərkəzi Azəri» obyektləri 48 quyu gövdəsinə malik hasilat, qazma və yaşayış platformasından (NQY), «Səngəçal» terminalına çəkilmiş 30 düymlük neft və 28 düymlük qaz kəmərlərindən, Səngəçaldakı mövcud terminalın genişləndirilməsindən ibarətdir.

*oturdulmuşdur. Artıq burada 10 hasilat quyusu qazılıbdır. İndi «Qərbi Azəri»də hasilat quyuları qazılır. Bu il ərzində «Mərkəzi Azəri»dən «Çıraq-1»ə nisbətən daha çox neft hasil ediləcəkdir. Hazırda burada istismarda olan quyu bp-nin dünyada işlətdiyi ən hasilatlı quyudur.*

*Prezident İlham Əliyev platforma ilə tanışlıqdan sonra rəmzi sürgünü açdı, neftçilərimizin köhnə ənənəsinə uyğun olaraq, neftdən üzünə sürtdü. Mərasimin digər iştirakçıları da böyük məmnunluqla bu ənənəyə əməl etdilər.*

**İ l h a m   Ə l i y e v:** Əziz dostlar!

Bu gün «Azəri» yatağında ilk neft çıxarılır. Bu, böyük bayramdır, böyük hadisədir və mən bu gözəl bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

On il bundan əvvəl «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanda yeni dövr başladı, Heydər Əliyev neft strategiyası icra olunmağa başladı. Bu illər ərzində Azərbaycan xarici tərəfdaşları ilə birlikdə öz neft-qaz yataqlarının işlənilməsində böyük uğurlar əldə etmişdir, böyük nəticələr var. Bu gün «Azəri» yatağından ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıda qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurlu işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də uğurla davam edir və bu yaxınlarda biz onların istifadəyə verilməsini qeyd edəcəyik. Şübhə yoxdur ki, əgər 1994-cü ildə Heydər Əliyevin uzaqgörənliyi, cəsarəti olmasaydı, biz bütün bu nailiyyətləri əldə edə bilməzdik. Ümumiyyətlə, indi təsəvvür etmək çətindir ki, əgər biz xarici şirkətlərlə bu işlərə başlamasaydıq, Azərbaycanın indiki vəziyyəti necə olacaqdı.

Bu gözəl və tarixi gündə mən *bp* şirkətinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Mən bu fəaliyyəti çox yüksək qiy-

mətləndirirəm. *bp* bizim ən əsas tərəfdaşımızdır, çox etibarlı tərəfdaşdır. Bizim 10 il ərzində olan əməkdaşlığımız bir daha göstərir ki, harada əməkdaşlıq varsa, xoş niyyət, qarşılıqlı hörmət varsa, orada işlər də çox yüksək səviyyədə görülür.

*bp* şirkətinin və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin digər üzvləri bizə inanmışlar, bizim gələcəyimizə inanmışlar. Azərbaycana milyardlarla dollar sərmayə qoymuşlar və onun nəticəsində bütün bu işlərin görülməsi mümkün olmuşdur. Mən Azərbaycan dövləti adından *bp* şirkətinə və konsorsiumun bütün üzvlərinə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Şirkət bu illər ərzində Heydər Əliyevin neft strategiyasını Azərbaycanda çox uğurla həyata keçirir və bu gün bu gözəl əməkdaşlıq davam edir. Xarici şirkətlər, Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan hökuməti, biz hamımız vahid bir komanda kimi işləmişik. Ona görə də uğur qazanılıbdır. Şübhə etmirəm ki, bu əməkdaşlıq gələcəkdə daha da güclənəcəkdir.

Mən çox şadam ki, bütün bu böyük, nəhəng, dünya miqyaslı layihələrin həyata keçirilməsində Azərbaycan mütəxəssisləri, azərbaycanlı işçilər, fəhlələr çox fəal iştirak ediblər və ümumi işimizə öz töhfələrini veriblər.

Mən bu gün buraya gələrkən, «Çıraq-1» platformasının üzərindən uçarkən 1997-ci ilin unudulmaz o gününü bir daha xatırladım. 1997-ci il noyabrın 12-də «Çıraq» yatağından ilk neft hasil edilmişdi və biz hamımız orada o hadisəni qeyd edirdik. Çox yaxşı xatırlayıram ki, o gün ən çox sevinən xalqımızın ümummilli lideri Heydər Əliyev idi.

Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun ideyaları yaşayır, onun əməlləri yaşayır və Azərbaycan xalqına xidmət edir. Bu gün bu nəhəng platformanın istifadəyə verilməsi də onun siyasəti nəticəsində mümkün olmuşdur. Mən bir daha qeyd etmək istəyirəm ki, bütün planlar, nəzərdə tutulmuş bütün layihələr vaxtlı-vaxtında yerinə yetirilir, Azərbaycan dövləti,

Azərbaycan hökuməti öz strateji seçiminə sadiqdir və biz bu işləri davam etdirəcəyik.

Əziz dostlar, mən sizin hamınızı bu hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, yeni uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan nefti bundan sonra da Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycan dövlətinin güclənməsinə xidmət edəcəkdir.

Sağ olun.

* * *

*Təntənəli mərasimdə ABƏŞ-in prezidenti Devid Vudvord çıxış etdi və içərisində neft olan xüsusi qabı dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev ABƏŞ-in prezidenti Devid Vudvorda xatirə olaraq "Bakının mənzərəsi" tablosunu təqdim edərək dedi:*

– Mən də öz tərəfimdən bu gözəl rəsmi sizə təqdim edirəm. Bakı sizin üçün də doğma şəhər, sizin üçün bir vətən olubdur. Mən çox şadam ki, Azərbaycanda işləyən xarici dostlarımız, tərəfdaşlarımız burada özlərini çox rahat hiss edirlər. Mən əminəm ki, Bakı həmişə sizin üçün doğma şəhər olaraq qalacaqdır.

**BRUNEY DƏRÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney Dərüssalamın milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 fevral 2005-ci il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARNOLD RÜYTELƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Estoniya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 fevral 2005-ci il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX CABİR
ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına yönələn səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 fevral 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Prezident sarayında İtaliyanın ANSA xəbər agentliyi Ankara bürosunun rəhbəri Luçio A.Leanteyə müsahibə vermişdir.*

*Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu bildirən cənab Leante ölkəmizdə dinamik inkişafın şahidi olduğunu, Bakının gözəl və abad şəhər kimi xoş təsir bağışladığını vurğulamışdır.*

*Prezident İlham Əliyev İtaliya Respublikasına qarşıdakı rəsmi səfəri, Azərbaycan–İtaliya münasibətlərinin bugünkü səviyyəsi, Azərbaycanın müasir dünyada yeri, regionda və Avropada təhlükəsizliyə, iqtisadi tərəqqiyə töhfəsi və digər məsələlər haqqında suallara ətraflı cavab vermişdir.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Kirman vilayətində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri*, 22 fevral 2005-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Ölkənizin cənub-şərqində baş vermiş zəlzələnin doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *22 fevral 2005-ci il*

## XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün sizə xalqımızın tarixində kədərli və ağrılı bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən olan Xocalı soyqırımı ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlarından birini yaşadı. Həmin gün qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən Yer üzündən silindi. Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur.

Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə çətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər uzağa gedən taktiki məqsədlər güdürdülər. Bununla xalqımızı qorxutmaq,

mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədlərinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Faciənin miqyasına və ağırlığına baxmayaraq, hakimiyyətdə olan qüvvələr o zaman bu qanlı cinayət barədə beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə vaxtında lazımi məlumat verməmiş, həyəcan təbili çalmamış, əksinə, xalqın qəzəbindən və hakimiyyəti itirəcəklərindən qorxaraq əsl həqiqəti xalqdan gizlətmişlər. Müxalifətdə olan qüvvələr isə həmin dövrdə ümumxalq müsibətindən hakimiyyətə gəlmək üçün əlverişli vasitə kimi istifadə etmişdilər. Yalnız ümummilli liderimiz Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu qanlı cinayət siyasi-hüquqi qiymətini almış, onun dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün tədbirlər görülmüşdür.

Hazırda Azərbaycan rəhbərliyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həlli, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması uğrunda ardıcıl səylər göstərir. Beynəlxalq təşkilatlar, aparıcı dövlətlər münaqişənin kökləri, səbəbləri və nəticələri barədə getdikcə daha artıq məlumatlandırılır, Azərbaycanın ədalətli mövqeyini etiraf edirlər. Bu gün Xocalı faciəsi dünyanın böyük dövlətlərinin parlamentlərində müzakirəyə çıxarılır, onun təfərrüatları ictimaiyyətə açıqlanır. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri tərəfindən Ermənistanın işğalçı, təcavüzkar dövlət olduğu təsdiq edilir, ondan işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmaq tələb olunur.

Xocalı faciəsindən keçən illərin təcrübəsi göstərdi ki, xalqımız, ölkə ictimaiyyəti ayıq-sayıq olmalı, dezinformasiya və təxribat sahəsində böyük təcrübəsi olan ermənilərin planlarını daim ifşa etməlidir. Ermənistan dövlətinin və erməni millətçilərinin

Qafqaz bölgəsində həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının bəşəriyyət üçün təhlükəsi açılıb göstərilməlidir. Bu sahədə bizim görəcəyimiz işlər çoxdur. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması daha səmərəli və ardıcıl aparılmalıdır. Xarici ölkələrdə getdikcə öz mövqelərini gücləndirən soydaşlarımız da bu işdə yaxından iştirak etməli, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri Xocalı soyqırımı kimi hadisələrə yaşadıqları dövlətlərdə lazımi qiymət verilməsinə çalışmalıdırlar. Düşünürəm ki, müstəqil, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər.

Bir daha Xocalı qəhrəmanlarının və şəhidlərinin əziz xatirəsini dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyərək, xalqımıza başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 fevral 2005-ci il*

**QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CON KOFİ AGİYEKUM KUFUORA**

Hörmətli cənab Prezident!

Qana Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2005-ci il*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Bolqarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA RESPUBLİKASINDA VƏ VATİKAN DÖVLƏTİNDƏ

*Fevralın 24–26-da Azərbaycan prezidenti İlham Əliyev İtaliya Respublikasında və Vatikan dövlətində rəsmi səfərdə olmuşdur.*

*Fevralın 24-də Azərbaycanın və İtaliyanın dövlət bayraqları ilə bəzədilmiş Romanın «Çampino» hərbi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Təyyarənin pilləkəni yanında Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyevi İtaliya Xarici İşlər Nazirliyi dövlət protokolu idarəsinin rəisi Paolo Puçi di Benesiki, Vatikan dövlətinin nümayəndələri, Azərbaycanın İtaliyadakı səfiri Emil Kərimov, İtaliyanın Azərbaycandakı səfiri Marqarita Kosta, Roma hava donanmasının komandanı, «Çampino» hərbi hava limanının komandanı hərarətlə, mehribanlıqla qarşıladılar.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha – «Vestin Excelsior» mehmanxanasına yola güşdü.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İtaliya Respublikası Prezidentinin «Quirinale» sarayına gəldi.*

*Üzərində Azərbaycanın və İtaliyanın dövlət bayraqları dalğalanan sarayın qarşısında Azərbaycan dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyevi və xanımı* Mehriban *Əliyevanı sarayın önündə İtaliya* Respub-*likasının* prezidenti Adzelyo *Çampi və xanımı böyük hörmətlə və mehribanlıqla qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*24 fevral 2005-ci il*

*İtaliya prezidentinin sarayının «Solotto Rosso» salonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikasının Prezidenti Adzelyo Çampi arasında təkbətək görüş keçirilmişdir.*

*İtaliya prezidenti onun rəsmi dəvətini qəbul edərək Romaya səfərə gəldiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Cənab Adzelyo Çampi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1997-ci ildə İtaliyaya rəsmi səfərini xatırladaraq, həmin səfərdən sonra ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinin başlandığını söylədi.*

*İtaliyaya prezidenti dedi ki, o, Azərbaycanda olmasa da, burada aparılan uğurlu islahatlardan xəbərdardır və xüsusilə qanunverиçilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində görülən işlər ölkənin Avropaya tam inteqrasiyasına şərait yaradacaqdır.*

*Cənab Adzelyo Çampi Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğuladı ki, vaxtilə İtaliya da belə problemlə qarşılaşmışdı və biz onun həlli təcrübəsindən istifadə edərək Azərbaycana kömək göstərməyə hazırıq. ATƏT-in Minsk qrupunun vasitəçilik səylərinin hələ bir nəticə vermədiyini xatırladan prezident Adzelyo Çampi bildirdi ki, İtaliya Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi üçün köməyini əsirgəməyəcəkdir.*

*Prezident İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə İtaliya dövlətinin başçısına təşəkkür etdi, ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra daha da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

*Görüşdə vurğulandı ki, Azərbaycan prezidentinin bu səfəri ikitərəfli əlaqələrin inkişafında yeni səhifə olacaqdır.*

*Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün ağır nəticələrindən, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qalldırılması sahəsində aparılan danışıqlardan bəhs etdi, problemin beynəlxalq hüquq normaları əsasında həll edilməsinin vacibliyini vurğuladı. Azərbaycan prezidenti eyni zamanda xatırlatdı ki, BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə Ermənistan tərəfinin təqsiri üzündən hələ də kağız üzərində qalır. Bu baxımdan dövlət başçıları vurğuladılar ki, BMT-də islahatların aparılması, onun nüfuzunun artırılmasına imkan verən müvafiq mexanizmlər yaradılması vacibdir.*

*Prezident İlham Əliyev Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatlardan ətraflı bəhs etdi.*

*Görüşdə Azərbaycanda həyata keçirilən mühüm enerji layihələri barədə də söhbət getdi. Dövlət başçıları ölkələrimiz arasında iqtisadi sahədə, xüsusən neft sektorunda uğurlu əməkdaşlığı qeyd etdilər. Siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar olduğu vurğulandı.*

*Tərəflər bir sıra beynəlxalq və regional məsələlər ətrafında da fikir mübadiləsi etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev İtaliya prezidenti Adzelyo Çampini ölkəmizə rəsmi səfərə dəvət etdi, dəvət məmnunluqla qəbul olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİ ARASINDA TƏKBƏTƏK GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANATLAR

### İtaliya prezidenti Adzelyo Çampinin bəyanatı

Mən Azərbaycan prezidenti İlham Əliyevi «Quirinale» sarayında salamlamaqdan çox məmnunam.

Sizin Romaya səfəriniz ölkələrimiz arasında əlaqələrin inkişafına nə qədər əhəmiyyət verdiyimizi sübut edir.

On dörd il əvvəl Azərbaycan öz müstəqilliyini elan edəndən sonrakı müddət ərzində İtaliya həmişə sizin ölkəyə dostluq münasibəti göstərmiş və iqtisadi-sosial tərəqqini dəstəkləmişdir.

Son beş ildə yaradılmış əlverişli mühit əsasında hazırda iqtisadi və mədəni əməkdaşlıq sahəsində geniş perspektivlər mövcuddur.

İlk növbədə enerji sektorunda, habelə ticarət, birbaşa sərmayə qoyuluşu, birgə müəssisələr yaradılması və infrastruktur layihələrinin həyata keçirilməsində böyük potensial vardır.

Azərbaycan hazırda geniş islahatlar, xüsusilə qanunvericilik, idarəetmə və iqtisadiyyatın modernləşdirilməsi sahəsində mühüm islahatlar həyata keçirir. Bütün bunlar sizin ölkənizin Avropa məkanına tam inteqrasiya etməsinə şərait yaradacaqdır.

Azərbaycanın Avropa Şurasına üzvlüyü demokratik plüralizmə və fundamental azadlıqlara, o cümlədən söz və mətbuat azadlığına söykənən bir sistemin inkişafına daha güclü təkan vermişdir.

Bütün bu sahələrdə ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Azərbaycan Avropaya daha da yaxın olacaqdır.

Avropa Birliyi sabitliyin və tərəqqinin təmin edilməsi, uzunmüddətli münaqişələrin qarşısının alınması üçün səylərini davam etdirir və bu sahədə mükəmməl nümunədir. Bu, Avropa xalqlarının birgə yaşaması və sivilizasiyanın ümumi prinsiplərini bölüşməsi nəticəsində mümkün olmuşdur. Avropa Birliyinin yeni Konstitusiyasının qüvvəyə minməsi üzv ölkələrin qonşuluq əlaqələrinin möhkəmlənməsi üçün zəruridir. İlk növbədə öz sərhədlərinə diqqət yetirən Avropa Birliyi bu sərhədlərin genişləndirilməsinə də böyük əhəmiyyət verir. İndi Balkanlarla əlaqələrin, oradakı vəziyyətin sabitləşdirilməsinin Avropa Birliyi üçün böyük əhəmiyyəti vardır. Bu, eyni zamanda Qafqaza da, orada sabitliyə və region ölkələrinin tərəqqisinə kömək etməyə də aiddir.

Biz sivilizasiyanın bütün bu əsas dəyərlərini və Avropa Birliyinin Azərbaycan, ümumən Qafqaz regionu ilə tərəfdaşlığının gücləndirilməsini, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsini çox mühüm hesab edirik.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Hər şeydən əvvəl, icazə verin, qədim mədəniyyətə və tarixə malik olan İtaliya torpağında nümayəndə heyətimiz üçün göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirim.

Məmnunluqla bildirirəm ki, hazırda Azərbaycan ilə İtaliya arasında ənənəvi dostluq, əməkdaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf etməkdədir. Xüsusilə qeyd etmək istərdim ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya dövlət səfəri müasir mərhələdə bu münasibətlərin əsasını qoymuş, əlaqələrimizin gələcək inkişafına böyük təkan vermişdir.

Bu gün Dünya Birliyində öz layiqli yerini tutan Azərbaycan Avropa ailəsinə, Avratlantik strukturlarına sürətlə inteqrasiya

etməkdədir. Bütün digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də Azərbaycan uğurla inkişaf edir. Ölkəmiz regionda həyata keçirilən qlobal enerji və nəqliyyat layihələrinin ən fəal iştirakçılarından birinə çevrilmiş və bir sıra mühüm layihələrin isə təşəbbüskarı olmuşdur.

Qeyd etmək istərdim ki, hazırda Azərbaycanda gedən inkişaf prosesləri təkcə ölkəmizdə deyil, ümumiyyətlə, bölgədə sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edir. Lakin Ermənistanın Azərbaycana qarşı uzun illər davam edən təcavüzü bu proseslərin qarşısında böyük əngəllər törədir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ATƏT-in Minsk qrupunun ilk sədri qismində İtaliyanın rəhbərliyi altında hazırlanmış nizamlanma planları bu günə kimi həyata keçirilməmişdir. Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi yalnız və yalnız beynəlxalq hüququn əsas prinsipləri olan dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanır.

Qeyd etmək istərdim ki, ölkəmizin Avropa strukturları ilə əlaqələrinin möhkəmləndirilməsinə, Azərbaycanın Avropanın qonşuluq siyasətinə daxil olması işinə İtaliya mühüm töhfə vermişdir. Avropa Birliyi – Azərbaycan münasibətləri çərçivəsində TRACEKA və İNOQEYT kimi infrastruktur layihələrində, beynəlxalq enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri kimi strateji layihələrin həyata keçirilməsi sahəsində İtaliyanın ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndiririk. İtaliyanın "Eni" şirkəti 1995-ci ildən Azərbaycanda karbohidrogen ehtiyatlarının işlənilməsi layihələrinə cəlb olunmuşdur, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak edir.

Ölkələrimiz beynəlxalq terrorizm, nüvə silahının yayılması, narkotik maddələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasi-

ya ilə və digər müasir çağırış və təsirlərlə mübarizə məsələlərində, habelə demokratiyanın daha da möhkəmləndirilməsi, insan hüquqlarının qorunması və qanunun aliliyinin təmin olunması sahəsində də eyni mövqedən çıxış edirlər.

Humanitar sahədə tarixən ölkələrimiz arasında əlaqələr mövcud olmuşdur. Bu sahədə də əməkdaşlığımızın daha çox genişləndirilməsi üçün böyük imkanlar vardır. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Fevralın 24-də İtaliya prezidenti Adzelyo Çampinin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar təşkil edildi.*

*Naharda dövlət başçılarının xanımları da iştirak edirdilər.*

*Süfrə arxasında səmimi söhbət zamanı Azərbaycanla İtaliya arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın zəruriliyi vurğulandı.*

## **İTALİYANVN TANINMIŞ «ENİ» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ ROBERTO POLİ İLƏ GÖRÜŞ**

*Azərbaycan prezidentinin iqamətgahı–
«Vestin Excelsior» mehmanxanası*

*24 fevral 2005-ci il*

*Dövlətimizin başçısı bu şirkətin Azərbaycanla əlaqələrindən, İtaliyanın Azərbaycanda iri enerji layihələrinin həyata keçirilməsində iştirakından məmnun qaldığını bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.*

*Cənab Roberto Poli Azərbaycan prezidenti İlham Əliyevi Romada salamlamaqdan şad olduğunu söylədi, bu səfərin iki ölkə arasında iqtisadi sahədə əlaqələrin daha da güclənməsinə tikan verəcəyini bildirdi.*

*Görüşdə Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri kimi mühüm strateji layihələrin həyata keçirilməsi sahəsində İtaliya ilə Azərbaycan arasında əməkdaşlıq yüksək qiymətləndirildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.*

## İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİ İLƏ GÖRÜŞ

*24 fevral 2005-ci il*

*Azərbaycanın və İtaliyanın dövlət bayraqlarının asıldığı binanın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni Azərbaycan prezidenti İlham Əliyevi avtomobilin yanında böyük ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan rəhbəri ilə İtaliya hökumətinin başçısı arasında görüş oldu. Dövlətimizin başçısı İlham Əliyevi Romada görməyindən böyük məmnunluq duyduğunu söyləyən cənab Silvio Berluskoni Azərbaycanın dinamik inkişaf etməsi barədə məlumatı olduğunu bildirdi, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi və daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı.*

*Prezident İlham Əliyev İtaliyada ona və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi, müstəqillik illərində Azərbaycanın keçdiyi yoldan, qarşılaşdığı çətinliklərdən, eyni zamanda, ölkəmizin Avropaya inteqrasiyası istiqamətində görülən işlərdən danışdı. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsinin bütün region üçün əngəllər törətdiyini vurğulayaraq, bu problemin aradan qaldırılmasında Avropa Birliyinin də fəallığının artırılmasının zəruriliyini söylədi.*

*İtaliya hökumətinin sədri bu fikirlə tam razılaşaraq dedi ki, Azərbaycanın Avropaya inteqrasiyası yüksək səviyyədə davam edir və Avropa Birliyinin münaqişənin həllində daha fəal rol oynaması üçün İtaliya öz köməyini əsirgəməyəcəkdir.*

*Azərbaycan prezidenti münaqişənin həlli ilə bağlı danışıqlar prosesindən, ATƏT-in Minsk qrupunun fəaliyyətindən bəhs etdi, problemin sülh yolu ilə aradan qaldırılmasında Azərbaycanın mövqeyini açıqladı.*

*Söhbət zamanı Azərbaycan–İtaliya münasibətlərinin mövcud səviyyəsi yüksək qiymətləndirildi, son üç ildə qarşılıqlı mal dövriyyəsinin xeyli artdığı, bu dinamikanın davam etdirilməsi üçün bundan sonra da səylər göstəriləcəyi bildirildi. İqtisadi əməkdaşlığın perspektivləri, ölkəmizdə orta sahibkarlığın inkişafında İtaliya iş adamlarının iştirakı barədə də fikir mübadiləsi edildi.*

*Görüşdə Azərbaycanın müasir dünyada yeri, regionda və Avropada təhlükəsizliyə, iqtisadi tərəqqiyə töhfəsi və hər iki ölkəni maraqlandıran bir sıra regional və beynəlxalq məsələlər haqqında ətraflı fikir mübadiləsi aparıldı.*

* * *

*Görüş başa çatdıqdan sonra İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi şam yeməyi təşkil olundu.*

## AZƏRBAYCAN – İTALİYA BİZNES FORUMUNDA NİTQ

*Roma,*
*«Aldrovandi Palace» mehmanxanası*

*25 fevral 2005-ci il*

*Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin və İtaliyanın İstehsal Fəaliyyəti Məsələləri Nazirliyi Xarici Ticarət İnstitutunun birgə təşkil etdikləri forumda Azərbaycanın 50-yə yaxın şirkətindən 60-dan çox iş adamı iştirak edirdi. Onlar əsasən yüngül sənaye, metallurgiya, maşınqayırma, tikinti, mebel istehsalı, informasiya texnologiyaları sahələrini təmsil edirdilər. Foruma İtaliya biznesinin müxtəlif sahələrini təmsil edən 170-dən çox iş adamı da dəvət olunmuşdu.*

*Tədbir çərçivəsində Azərbaycanın «Gilan» və İtaliyanın «Betvend TMCİ Padavan» şirkəti 5 milyon avro dəyərində konserv zavodunun tikintisi haqqında razılığa gəlmişlər. Azərbaycanın «Lotos» və İtaliyanın «Aredo Luçia» şirkətləri arasında imzalanmış razılaşmaya əsasən, çılçıraq və başqa məişət malları istehsal edəcək birgə müəssisə yaradılacaqdır.*

*Forumu İtaliyanın İstehsal Fəaliyyəti Məsələləri Nazirliyi Xarici Ticarət İnstitutunun direktoru Venaamino Qulntieri açdı.*

**İlham Əliyev:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, Azərbaycan hökuməti adından sizin hamınızı salamlayır, İtaliyada bu cür əhəmiyyətli görüşün keçirilməsindən çox məmnun olduğumu bildirmək istəyirəm. Ümumiyyətlə, biz ikitərəfli münasibətlərimizə çox böyük önəm veririk. Bu əlaqələr bütün sahələrdə uğurla inkişaf edir. Bizim çox yaxşı siyasi, iqtisadi və humanitar münasibətlərimiz var. Əlbəttə, dünən

İtaliyanın prezidenti və Nazirlər Şurasının sədri ilə keçirdiyimiz görüşlər ikitərəfli məsələlər ətrafında anlaşmanın möhkəmlənməsinə zəmin yaratdı. Daha sonra biz regional xarakterli məsələlər, regional təhlükəsizlik və əməkdaşlıq kimi məsələlər üzərində geniş fikir mübadiləsi apardıq. Bir sözlə, əminəm ki, mənim İtaliyaya rəsmi səfərim mövcud olan ikitərəfli münasibətlərimizə yeni təkan verəcəkdir.

Təbii ki, ölkələrimiz arasındakı iqtisadi əlaqələr qarşılıqlı anlaşmanın, əməkdaşlığın həm ikitərəfli formatda, həm də Azərbaycan – Avropa Birliyi formatında daha da gücləndirilməsi üçün vacib vasitədir.

Azərbaycanın çox yaxşı iqtisadi göstəriciləri var. Bizim ölkə uğurla inkişaf edir və keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, Azərbaycanın iqtisadi nailiyyətləri gözə çarpan səviyyədədir. Sovet İttifaqının süqutundan sonra Azərbaycan öz müstəqilliyini elan edərkən ölkəmiz xaos vəziyyətinə düşmüşdü. Lakin sonrakı illər ərzində Azərbaycan addım-addım həm siyasi, həm də sosial, iqtisadi islahatlar sayəsində, cəmiyyətimizin demokratikləşməsi yolu ilə problemləri həll edə bilmişdir. Nəticədə biz sabitliyin bərqərar edilməsinə, iqtisadi inkişafa nail olmuşuq. İndi Azərbaycanın hər bir vətəndaşı bu iqtisadi inkişafdan faydalanmaq imkanını əldə etmişdir.

Ölkəmizin neft və qaz sənayesi iqtisadiyyatımızın inkişafında xüsusi və başlıca rol oynamışdır. 1994-cü ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış neft strategiyası bu gün, on il keçdikdən sonra iqtisadi inkişafımızın və ümumiyyətlə, Azərbaycanın inkişafının açarı olmuşdur. Hazırda Azərbaycanın regional məsələlərdəki rolu get-gedə artır. Bu baxımdan, neft və qaz amilləri, nəqliyyat dəhlizinin yaradılması, enerji məhsullarının daşınması layihələri böyük əhəmiyyət kəsb edir.

Biz xarici tərəfdaşlarımız üçün çox əlverişli şərait yaradılmasına nail olmuşuq. Xarici sərmayədarlar Azərbaycanda özlərini çox yaxşı hiss edirlər. Şübhəsiz, bu sərmayələr lazımi qaydada qorunur.

Bu, sərmayələrin yatırılması, sərmayədarların etimadının artırılması üçün ilkin şərtdir. Etimadın qazanılması illər tələb edir. Biz çox məmnunuq ki, bu məsələnin öhdəsindən gələ bildik.

Bu gün biz Azərbaycanın iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan regionda aparıcı ölkədir. Yalnız ötən il ərzində iqtisadiyyatımıza yatırılan sərmayələrin həcmi 5 milyard ABŞ dolları təşkil etmişdir və bu daha da artacaqdır. Ölkəmizdə həyata keçirilən nəhəng enerji layihələri xarici sərmayəçilərin hökumətimizə və gələcəyimizə göstərdikləri etimadı bir daha təsdiqləyir, Azərbaycanın sabit və davamlı inkişafına inamlarını artırır. Təbii ki, siyasi sabitlik, sosial sabitlik də çox vacib rol oynayır.

Bundan başqa, hökumət və xalq arasında olan münasibətlər qarşılıqlı inama arxalanır. Özlüyündə bu da potensial xarici sərmayəçilərin etimadını artırır.

Gələcək illər ərzində Azərbaycanın iqtisadi göstəriciləri, əvvəllərdəki kimi, uğurlu olacaqdır. Bu ilki büdcəmizin artımı 25 faiz səviyyəsindədir. Bu il ümumi daxili məhsulun artımı 14–15 faiz proqnozlaşdırılır. Ümidvaram ki, bu cür yüksək inkişaf sürətini gələcəkdə də saxlayacağıq.

Neft və qaz sənayesinin inkişafı ilə bağlı proqramlara gəldikdə, biz artıq böyük uğurlar əldə edə bilmişik. Bakı–Tbilisi–Ceyhan boru kəmərinin tikintisi çox uğurla gedir. Biz yeni qaz kəmərinin tikintisini planlaşdırırıq. Bu kəmər vasitəsilə qaz Avropa istehlakçılarına çatdırılacaqdır. Biz nəqliyyat və yük daşınması məsələlərinə xüsusi əhəmiyyət veririk. Çünki ölkəmizin çoğrafi mövqeyi bizi Şimal–Cənub və Qərb–Şərq arasında ən əlverişli nəqliyyat qovşağına çevirir. Biz etibarlı tranzit ölkəyik. Bunları nəzərə alaraq, hazırda regional əməkdaşlıqda daha yaxından iştirak etmək məqsədi ilə nəqliyyat infrastrukturumuzu inkişaf etdirmək fikrindəyik.

Biz inkişafımızın yeni mərhələsinə qədəm qoyuruq.

Bu mərhələdə iqtisadiyyatımızı şaxələndirmək əzmindəyik. Biz iqtisadiyyatımızın qeyri-neft sektoruna xüsusi diqqət veririk ki, ölkəmiz müxtəlif istiqamətlərdə inkişaf edə bilsin. Gələcək-

də biz yalnız neft və qaz amilindən və ya neftin, qazın qiymətlərindən asılı olmaq istəmirik. Eyni zamanda, biz neft hasilatı ilə məşğul olan digər ölkələrin təcrübəsini öyrənərək gördük ki, neft hər bir ölkə üçün heç də həmişə tərəqqi gətirməmişdir. Məhz buna görə biz şəffaflıq məsələsinə və neft gəlirlərinə xüsusi diqqətlə yanaşırıq. Bu məqsədlə Azərbaycanda çox şəffaf bir qurum kimi tanınan Neft Fondu yaradılmışdır. Bu gəlirlər haqqında məlumat Azərbaycanın hər bir vətəndaşı tərəfindən izlənilə bilər.

Hazırda iqtisadi prioritetimiz qeyri-neft sektorudur. Bir il bundan öncə, fevral ayında biz ölkədə regional sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsinə başlamışıq. Bu yaxınlarda biz bu proqramın bir illiyini də qeyd etmişik. Tədbir zamanı geniş müzakirələr apardıqdan sonra ötən bir il ərzində Azərbaycanda rayonlarda və qeyri-neft sektorunda 170 mindən çox iş yerinin açılmasından çox məmnun qaldıq. Bu, ölkənin yeni istiqamətdə inkişafı deməkdir. Ölkəmizin paytaxtı ilə yanaşı, rayonları da inkişaf etməyə başlamışdır. Təbii ki, bu baxımdan bizim iqtisadiyyatın müxtəlif sahələrində xarici sərmayələrə ehtiyac vardır.

Azərbaycanın neft və qaz hasilatı sahəsindəki təcrübəsi, xarici şirkətlərlə birgə işin aparılması modeli bir daha təsdiqləyir ki, ölkəmiz etibarlı tərəfdaşdır. Biz xarici sərmayələri qəti surətdə qoruyuruq və bu sahədə heç bir tərəflə heç vaxt nə ziddiyyətimiz, nə də beynəlxalq mübahisəmiz olmuşdur. Son on il ərzində xarici şirkətlərlə əməkdaşlığımız Azərbaycanın etibarlı tərəfdaş olduğunu açıq-aydın təsdiqləyir. Çünki biz xarici tərəfdaşlarımızla bütün işlərimizi açıq və ədalətli şəraitdə, öz milli maraqlarımıza uyğun aparırıq. Bu sahədəki əsas konsepsiyamız ondan ibarətdir ki, sərmayə kimi yatırılan hər bir dollar lazımınca qorunur və qorunacaqdır. Ümidvaram ki, bu konfrans İtaliyanın iş adamlarında ölkəmizdə olan hazırkı vəziyyətlə, qüvvədə olan qanunvericiliklə, biznes imkanları ilə, yeni sərmayələr üçün potensial sahələrlə daha yaxından tanış olmaq imkanı yaradacaqdır.

Azərbaycanda görüləsi işlər də çoxdur. Biz iqtisadi islahatlarımızın yeni mərhələsindəyik. Nailiyyətlərimiz də az deyildir. Həyata keçirilən genişmiqyaslı özəlləşdirmə proqramları, torpaq islahatı sayəsində bu gün ÜDM-in 74 faizi özəl sektorun payına düşür. Baxmayaraq ki, neft sektoru dövlətin əlindədir, özəl sektor əksəriyyət təşkil edir. Prioritetlərimizdən biri də ondan ibarətdir ki, biz güclü orta təbəqəni formalaşdırmalıyıq. Çünki inkişaf etmiş dövlətlərin təcrübəsi onu göstərir ki, orta təbəqəsiz ölkənin tam inkişafı mümkün deyildir.

Kənd təsərrüfatı, neft kimyası, turizm, bank və sığorta sahələrində gözəl imkanlarımız var. Bir sözlə, biz xarici şirkətlərlə işləməyə hazırıq. Qapılarımız dostlarımızın üzünə açıqdır. Biz açıq qapı siyasəti yürüdürük və bu siyasət davam etdiriləcəkdir. Azərbaycanda fəaliyyət göstərən bir çox şirkətlər, o cümlədən İtaliya şirkətləri vəziyyətlə tanışdırlar və mövcud potensial haqqında xəbərləri var. İstəyimiz Azərbaycanda hələ fəaliyyətə başlamamış şirkətləri ölkəmizə dəvət etməkdən ibarətdir.

Ölkəmizin böyük potensialı var, ölkəmiz maraqlıdır. Hesab edirəm ki, forum ölkəmizin bu şirkətlər üçün təqdim olunmasında vacib rol oynayacaqdır.

Bizim dövlətimiz gəncdir. Azərbaycan keçmişdən miras qalmış problemləri olan və müstəqilliyi yeni qazanmış ölkədir. Biz müstəqilliyimizi tariximizin ən çətin anlarında, 1991-ci ildə qazanmışıq. O vaxt Ermənistan və Azərbaycan arasında müharibə gedirdi. Bu müharibə nəticəsində Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, etnik təmizləmə siyasətini aparmış və sonda bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ölkəmizdə 8 milyon əhalinin 1 milyonu qaçqın-köçkün vəziyyətində yaşayır. Bu, böyük siyasi, iqtisadi və sosial problemdir. Lakin ərazi bütövlüyümüzün pozulmasına baxmayaraq, biz siyasi və iqtisadi inkişafa nail ola bildik. İndi Azərbaycan regionda çox həlledici rol oynayır. Bizim iştirakımız olmadan heç bir regional layihə baş tuta bilməz. Biz siyasi cəhətdən güclənmişik, dövlət müstəqilliyimizi möhkəmləndirmişik.

Hazırda Azərbaycan tam müstəqil siyasət yürüdür. Biz heç bir xarici yardımdan asılı deyilik və qonşu dövlətlərin bəzilərindən fərqli olaraq, ölkəmiz heç bir xarici təsir altında deyildir. Biz milli maraqlarımızın müdafiəsinə əsaslanan müstəqil siyasət həyata keçirmək iqtidarındayıq. Ermənistanla atəşkəs əldə edildikdən sonra biz anlayırıq ki, problemlərimizi həll etmək üçün biz güclü dövlət olmalıyıq. Güclü dövlət olmaq üçün isə çox çalışmalıyıq və xarici sərmayəçilər üçün əlverişli şərait yaratmalıyıq, yeni iş yerləri açmalıyıq, infrastrukturumuzu inkişaf etdirməliyik. Bu proses artıq gedir.

Bu günlərdə Azərbaycan diplomatiyasının Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq aləmdəki uğurları, enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi sahəsindəki nailiyyətlərimiz ölkəmizin böyük potensialının göstəricisidir.

Gələn illər ərzində biz neft hasilatının həcmini üç dəfə artıracağıq, bir və ya iki il ərzində hasil edəcəyimiz təbii qazı Avropa bazarlarına çıxaracağıq.

Beləliklə, Azərbaycan ilə Avropa Birliyi arasındakı münasibətlər yeni xarakter alacaqdır. Biz enerji daşıyıcılarının nəqli sahəsində etibarlı alternativ əraziyə çevriləcəyik və bu istiqamətdə hazırda Avropa Birliyi ilə sıx işləyirik. Buna görə də İtaliya ilə ikitərəfli münasibətlər inkişafımızın çox vacib bir elementidir. Biz İtaliyanı özümüzə yaxın, dost hesab edirik. İtaliya Azərbaycanı Avropaya inteqrasiya yolunda tam dəstəkləyir. Bizim İtaliya ilə hökumətlər, siyasətçilər, parlament təmsilçiləri səviyyəsində çox gözəl əlaqələrimiz var. Eyni zamanda, mən ümid edirəm ki, bu cür münasibətlər iş adamları arasında da inkişaf edəcəkdir. Biz artıq enerji sektorunda fəaliyyət göstərən İtaliya şirkətləri ilə çox yaxşı əlaqələr qurmuşuq. Zənn edirəm ki, onların özü bunu təsdiqləyə bilər. İtaliya şirkətlərinin Azərbaycanda daha geniş fəaliyyəti üçün vaxt artıq yetişibdir. Qapılarımız sizin üzünüzə açıqdır. Sizləri ölkəmizdə görməkdən çox şad olardıq. Ölkəmizə gəlin və mövcud olan imkanları qiymətləndirin. Şübhəsiz, indiki forum da bu istiqamətdə vacib elementdir. Əmi-

nəm ki, forum boyu hər iki ölkədən olan iş adamları bir-biri ilə tanış olmaq, müxtəlif məsələləri müzakirə etmək imkanı əldə edəcəklər.

Göstərdikləri qonaqpərvərliyə görə İtaliya xalqına, hökumətinə və təşkilatçılara bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Mən dünən buraya gəlmişəm. Artıq qeyd etdiyim kimi, İtaliyanın rəhbərləri ilə çox səmərəli görüşlərimiz oldu. Mən heç şübhə etmirəm ki, bu səfərdən və forumdan sonra münasibətlərimiz daha da möhkəmlənəcəkdir. Forum iştirakçılarına isə bu tədbirə göstərdikləri diqqətə görə bir daha təşəkkürümü bildirirəm. Mən İtaliya xalqına sülh və əmin-amanlıq arzulayıram.

* * *

*Forumun sonunda prezident İlham Əliyev italiyalı iş adamları ilə səmimi söhbət etdi, «Aldrovandi Palace» mehmanxanasının fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

* * *

*Prezident İlham Əliyev daha sonra İtaliyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü, senator Fiorello Provera ilə söhbət etdi. Söhbət zamanı Azərbaycanın AŞPA ilə əməkdaşlığına toxunuldu və burada ölkəmizin mövqeyinin İtaliya tərəfindən dəstəklənməsi vurğulandı. Dövlətimizin başçısı ölkəmizə obyektiv münasibətinə görə cənab Proveraya təşəkkürünü bildirdi.*

## BMT-nin ROMADA YERLƏŞƏN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATINDA GÖRÜŞ

*25 fevral 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə təşkilatın Baş direktoru Jak Dyuf səmimiyyətlə qarşıladı.*

*Prezident İlham Əliyev bu təşkilatın fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Səmimilik şəraitində keçən söhbət zamanı cənab Jak Dyuf Azərbaycan prezidentinin vaxt ayırıb onunla görüşməsindən şərəf duyduğunu, başçılıq etdiyi təşkilatın Azərbaycanla əlaqələrinə böyük əhəmiyyət verdiyini bildirdi və əməkdaşlığın perspektivlərindən danışdı.*

*Prezident İlham Əliyev təşkilatın ölkəmizdə həyata keçirmək istədiyi layihələrin əhəmiyyətini vurğulayaraq dedi ki, bu əməkdaşlıq ərzaq təhlükəsizliyini təmin etmək və yoxsulluğun azaldılması baxımından müsbət rol oynayacaqdır. Mövcud əlaqələrin uğurla davam etdirilməsi üçün Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyində müxtəlif islahatlar aparılır, ölkəmizə yeni texnologiyaların və sərmayələrin cəlb olunması zəruridir. Dövlətimizin başçısı Azərbaycanda sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi haqqında danışaraq bildirdi ki, son il yarım ərzində ölkəmizdə 170 min yeni iş yeri açılmışdır və əsas diqqət regionların iqtisadi inkişafına yönəldilmişdir.*

*Cənab Jak Dyuf Azərbaycan prezidentinin bu istiqamətdə siyasi iradəsini yüksək qiymətləndirərək dedi ki, ölkədə kənd təsərrüfatı məhsullarının rəqabətə davamlılığını yüksəltmək vacibdir. Bu sahədə mühüm addımlar atılmasından xəbərim vardır. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf*

*proqramlarını yüksək dəyərləndirən təşkilatın rəhbəri bu ilin birinci yarısında Azərbaycana səfər edəcəyini bildirdi.*

### Sonra Prezident İlham Əliyev və Jak Dyuf jurnalistlərə qısa müsahibə verdilər

**S u a l: Cənab Prezident İlham Əliyev və BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının Baş direktoru Jak Dyuf, Siz Azərbaycan qaçqınları ilə bağlı məsələni müzakirə etdinizmi?**

**İ l h a m Ə l i y e v:** Bəli, biz bir çox məsələləri müzakirə etdik. Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyi, yoxsulluğun azaldılması və ərzaq çatışmazlığı kimi məsələlərə toxunduq. Təbii ki, qaçqınlar məsələsi ölkəmizi narahat edən ən böyük problemdir və biz bu problemi beynəlxalq təşkilatların yardımı ilə həll etməyə çalışırıq.

**J a k D y u f:** Biz Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevlə burada görüşməkdən çox məmnunuq. Onun buraya gəlməsi Azərbaycanda ərzaq təhlükəsizliyinə və yoxsulluğun azaldılması məsələsinə verdiyi böyük diqqətin təzahürüdür. Biz çox şadıq ki, 1991–1992-ci illərdə ərzaq çatışmazlığı ilə üzləşən insanların sayı xeyli azalmışdır. O vaxtla müqayisədə ərzaq çatışmazlığı 37 faizdən 2 faizə düşmüşdür. Biz ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının inkişafı proqramlarını həyata keçirsək, yeni iş yerləri açılacaqdır. Biz çox məmnunuq ki, prezident İlham Əliyev yoxsulluğun azaldılması məsələsini əhəmiyyətli hesab edir. Fermerlər üçün kapitaldan istifadə etmək imkanlarının təmin edilməsi də vacibdir. Eyni zamanda vacibdir ki, ölkədə istifadə olunan ərzaq da keyfiyyət standartlarına cavab versin. Beləliklə, biz Azərbaycanla əməkdaşlığımızı genişləndirmək və proqramları artırmaq əzmindəyik.

## DÜNYA ƏRZAQ PROQRAMI TƏŞKİLATININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN CON PAUELL İLƏ GÖRÜŞ

*Azərbaycan prezidentinin iqamətgahı – «Vestin Excelsior» mehmanxanası*

*25 fevral 2005-ci il*

*Söhbət zamanı prezident İlham Əliyev Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərindən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində son illər görülən işlərdən danışdı. Prezident İlham Əliyev cənab Con Pauellə müraciətlə dedi ki, siz Azərbaycanda olmusunuz, çadır düşərgələrinə getmisiniz, biz bu sahədə sizinlə yaxşı əməkdaşlıq edirik. Çoxsaylı qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bu sahədə hələ sizin köməyinizə ehtiyacımız vardır. Bunun nəzərə alınmasını xahiş edirik.*

*Dövlətimizin başçısı ilə görüşündən məmnun qaldığını söyləyən və qəbula görə minnətdarlığını bildirən Con Pauell dedi ki, biz Azərbaycana yenidən gələrək, qaçqın və məcburi köçkünlərin problemlərini bir daha öyrənəcək, əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik.*

## İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ PYERFERDİNANDO KAZİNİ İLƏ GÖRÜŞ

*25 fevral 2005-ci il*

*Cənab Kazini Azərbaycan ilə İtaliya arasında əlaqələrin yüksək səviyyədə olduğunu, ölkəmizin son illər ərzində böyük nailiyyətlər əldə etdiyini vurğuladı və bunun məmnunluq doğurduğunu söylədi. O dedi ki, biz parlamentlərarası əlaqələrin inkişafına böyük əhəmiyyət veririk və daha da inkişaf etdirmək niyyətindəyik. Deputatlar palatasının sədri Azərbaycanın və İtaliyanın terrorizmə qarşı mübarizəsini müsbət dəyərləndirdi. Azərbaycanın ərazi bütövlüyünün pozulması məsələsinə toxunan cənab Kazini Azərbaycan prezidentindən bu barədə ətraflı məlumat almaq istədiklərini bildirdi.*

*O, kiçik və orta sahibkarlığın inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini də vurğuladı.*

*Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür edərək bildirdi ki, Azərbaycan İtaliya ilə əməkdaşlığa böyük əhəmiyyət verir. İtaliya Avropa Birliyinin üzvüdür və bu ölkə ilə əməkdaşlığın bütün sahələrdə inkişafı respublikamızın Avropa ailəsinə inteqrasiyası baxımından əhəmiyyətlidir.*

*Ölkəmizin Milli Məclisində Azərbaycan–İtaliya dostluq qrupu fəaliyyət göstərir. İtaliya parlamentinin üzvləri bizimlə beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər və bu da çox müsbət haldır.*

*Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında əməkdaşlıq əsasən neft-qaz sahəsində olsa da, qeyri-neft sektoruna da İtaliya kapitalının cəlb edilməsinə zərurət vardır. Məhz bu məqsədlə Azərbaycan–İtaliya biznes forumu keçirilmiş və ölkəmizin iş adamları həmin tədbirdə iştirak etmişdir.*

Azərbaycanın iqtisadi inkişaf perspektivlərindən də danışan prezident İlham Əliyev ümumi daxili məhsulun hər il 10 faiz artdığını qeyd edərək bildirdi ki, 2005-ci ildə bunun 14–15 faizə çatdırılması nəzərdə tutulur.

Azərbaycanın uğurlu regional əməkdaşlıq apardığını söyləyən dövlətimizin başçısı dedi ki, bu yolda əsas maneə Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bu təcavüz, erməni millətçilərinin etnik təmizləmə, separatizm siyasəti nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunmuş və 1 milyondan artıq soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür.

Bütün bunlar Avropa Şurası Parlament Assambleyasının son qətnaməsində öz əksini tapmışdır. Həmin sənəddə göstərilir ki, Avropanın bir ölkəsi bu qitənin digər ölkəsinin ərazi bütövlüyünü pozmuşdur. Bu çox mühüm siyasi sənəddir.

Azərbaycan prezidenti daha sonra münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı, Dünya Birliyinin və beynəlxalq təşkilatların bu məsələdə ədalətli mövqe tutmasının, ATƏT-in Minsk qrupunun fəaliyyətinin gücləndirilməsinin vacibliyini vurğuladı.

Sonda Pyerferdinando Kazini prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

Dövlətimizin başçısı isə cənab Kaziniyə Azərbaycan xalçası hədiyyə etdi.

* * *

Fevralın 25-də İtaliya Parlamentinin Deputatlar Palatasının sədri Pyerferdinando Kazininin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir. Nahar zamanı bir sıra beynəlxalq və regional məsələlər, parlamentlərarası əlaqələr haqqında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Pyerferdinando Kazinini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

## İTALİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

*Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Vestin Excelsior» mehmanxanasında İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Covanni Petruççi ilə görüşmüşdür.*

*Söhbət zamanı İtaliya ilə Azərbaycan arasında idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi, gələcəkdə əlaqələrin daha da genişləndirilməsi üçün tədbirlər görməyin zəruriliyi vurğulandı.*

* * *

## ROMA FORUMU VƏ KOLİZEY İLƏ TANIŞLIQ

*Fevralın 25-də Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dünyanın məşhur abidələrindən sayılan Roma forumunun qalıqları və Kolizey* ilə tanış oldular.*

---

*Qədim Roma memarlıq abidəsi olan forumun tikintisinə hələ eramızdan əvvəl VI əsrdə başlanmışdı. Eramızın 75–80-ci illərində inşa edilən Kolizeyin uzunluğu təxminən 190 metr, eni 156 metrdir. Qladiator döyüşləri və digər tamaşalar üçün nəzərdə tutulan Kolizey 50 minə yaxın tamaşaçı tuturdu. Kolizey Roma amfiteatrlarından ən böyüyüdür. 1970-ci illərdə Kolizeydə bərpa işləri aparılmışdır.

## İTALİYANIN «RAİ NEWS-24» TELEKANALININ «NEXT» PROQRAMINA VERDİYİ MÜSAHİBƏ

*25 fevral 2005-ci il*

**A p a r ı c ı: Axşamınız xeyir. Studiyada Piyetro di Paskualedir. «NEXT» xəbərlər proqramına xoş gəlmisiniz. Bu axşam sizin diqqətinizə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevdən götürdüyümüz müsahibəni təqdim edirik. O bu gün burada bizimlədir.**

**Cənab Prezident, İtaliyaya xoş gəlmisiniz!**

**İ l h a m Ə l i y e v:** Sağ olun!

**A p a r ı c ı: Cənab Prezident, icazənizlə, söhbətimizi müəyyən sxem üzərində quraq. Müsahibəyə başlamazdan əvvəl, bizim ölkəmizdən uzaqlarda yerləşən, lakin eyni zamanda qəlbimizdə olan Azərbaycanın əsas dörd elementini qısaca xatırlatmaq yerinə düşərdi.**

**Mən indi sözü şərhçi Marko Silentsioya verirəm.**

**M a r k o S i l e n t s i o:** 1990-cı illərin əvvəllərində müstəqilliyini qazanan bir sıra ölkələr kimi, Azərbaycan da növbəti illər ərzində mürəkkəb siyasi və iqtisadi keçid dövrünü yaşamaq məcburiyyətində oldu. Qafqazın digər ölkələrindən fərqli olaraq, Azərbaycanda zəngin neft və qaz yataqları vardır. Keçmişdə bütün Sovet İttifaqında, o cümlədən Sibirdə böyük neft və qaz yataqları mövcud olsa da, məhz bu ölkənin resursları həmişədən geniş şəkildə istismar olunurdu.

Azərbaycan Qafqazın ən mühüm geostrateji nöqtəsində yerləşir. Şimal və Cənub, Qərb və Şərq dəhlizlərinin qovuşuğunda olan Azərbaycan, xüsusən də Bakı tranzit məkanı rolunu oynayır. Neft kəmərlərinin əksəriyyəti, hətta planlaşdırılmış, lakin hələ ki, başa çatdırılmamış boru kəmərləri də bu zonadan keçir. 2003-cü ildə ölkədə ümumi daxili məhsulun artımı 11,2 faiz təş-

kil etmişdir. Lakin əsas problemlər həll olunmamış qalır. Azərbaycan rəhbərliyi karbohidrogen ehtiyatlarının hasilatından əldə etdiyi gəlirləri hələ ki, ölkə iqtisadiyyatının qeyri-neft sahələrinə tam sərf olunmasına çalışır. Belə bir durum Azərbaycanı neftin qiymətlərindən asılı vəziyyətdə saxlayır.

Bu gün bizim qonağımız olan prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Moskva və Vaşinqton arasında həssas tarazlığın saxlanılmasına yönəldilib. Bir tərəfdən, Azərbaycan 200 il rusların əsarəti altında olmuşdur. Bu ölkədə Rusiyanın təsiri, xüsusən də mədəni sahədəki təsiri olduqca böyükdür. Moskva Azərbaycanın ən mühüm ticarət tərəfdaşlarından biridir. Ölkədə çoxlu rus yaşayır. Digər tərəfdən isə Birləşmiş Ştatlar Qafqazda get-gedə öz nüfuzunu artırır. Vaşinqton Azərbaycanın iqtisadi inkişafı üçün yardım ayırır. Bu vəziyyət Rusiyanı narahat edir. Prezident Putin əvvəlcə Gürcüstanı, sonra isə Ukraynanı itirdi.

Nəhayət, Dağlıq Qarabağ məsələsinə toxunaq. Bu, Ermənistanla Azərbaycan arasında olan ərazi mübahisəsidir. Torpaq iddiası iki qonşu ölkəni bir-birinə qarşı müharibəyə sürüklədi. Lakin problemin aradan qaldırılması üçün bu günə kimi aparılan danışıqlar prosesində, o cümlədən Dağlıq Qarabağ üçün statusun müəyyən edilməsində heç bir irəliləyiş əldə edilməmişdir. Bu vaxta qədər tərəflər bir-birinə qarşı etimadsızlığı bir yana qoyub, konstruktiv dialoqun aparılması üçün iradə nümayiş etdirə bilməmişlər.

**A p a r ı c ı: Sağ olun!**

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev əvvəllər ölkəmizdə olmuşdur. Bilmək istərdik ki, bu dəfəki səfərin məqsədi nədən ibarətdir?**

**İ l h a m  Ə l i y e v:** Əvvəlcə bildirmək istəyirəm ki, İtaliyada olmağımdan çox şadam və ölkənizə etdiyim rəsmi səfəri olduqca vacib hesab edirəm. Mənim İtaliyanın prezidenti, Baş naziri, parlamentin sədri və digər rəsmiləri ilə çox faydalı görüşlərim və müzakirələrim olub. İkitərəfli münasibətlərimizə aid bir sıra məsələlər barədə, o cümlədən Avropa Birliyi ilə olan

əlaqələrimizlə bağlı fikir mübadiləsi apardıq. Bundan başqa, regional əməkdaşlıq və təhlükəsizlik haqqında danışdıq. Söhbətlərimiz zamanı digər məsələləri də nəzərdən keçirdik. Bizim aramızda regional vəziyyətə dair çox yaxşı anlaşma mövcuddur. Mən ölkəmizdə gedən sürətli inkişaf haqqında məlumat verdim. Azərbaycanın beynəlxalq aləmdəki rolu, xüsusən də regional təhlükəsizliyə verəcəyi töhfəsi təsvir olundu. Ümumiyyətlə, ölkənizə səfərimdən çox razıyam. Apardığımız müzakirələr bizim üçün çox faydalı oldu və səmimi dostluq şəraitində keçdi. Beləliklə, Azərbaycana gələcək inkişaf üçün xoş təəssüratla qayıdacağam.

**S u a l: Cənab Prezident, bəzi məsələlər var ki, onlar bizi xüsusilə maraqlandırır. Ölkələrimiz arasındakı münasibətlər ən qədim zamanələrə təsadüf edir. Mənə mətbuat xidmətinizdən bildirdilər ki, Venesiyanın intibahı vaxtlarında, yəni XV əsrdə İtaliyanın Azərbaycanda səfirliyi olub. Lakin indi bir-birimizi o qədər də yaxşı tanımırıq. Bu baxımdan bütün vacib məsələlər barədə Sizin fikrinizi öyrənmək bizim üçün maraqlı olardı. Misal üçün, böyük mövzulardan başlayaq: İraqdakı müharibə və hazırkı durum. Bu məsələ ilə bağlı Sizin mövqeyiniz necədir?**

**C a v a b:** Əvvəla, onu deyim ki, dünyada insanlar bizim ölkə haqqında bir çox faktları bilmirlər. Baxmayaraq ki, bizim çox zəngin tariximiz var. Dünyanın bir çox xalqları ilə tarixi münasibətlərimiz var. Hazırda biz artıq suveren ölkəyik. Müstəqilliyimizi yalnız Sovet İttifaqının süqutundan sonra, 1991-ci ildə əldə etmişik. Bu gün deyə bilərik ki, bizim cəmi 14 yaşımız var. Yəni müstəqilliyimizin 14 ili ərzində bütün beynəlxalq birliklə münasibətlərimizi qurmuşuq və onları inkişaf etdiririk.

Təbii ki, keçmiş illər bizim üçün siyasi təsisatların formalaşdırılması və iqtisadi inkişaf sahəsində həlledici olmuşdur. Bu dövr ərzində biz totalitar sistemdən yeni sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçməyə nail olmuşuq. Bu keçid bizim üçün böyük çağırış olmuş, lakin eyni zamanda böyük imkanlar açmışdır.

O ki qaldı Sizin sualınıza, xüsusən də İraqdakı vəziyyətlə bağlı deyə bilərəm ki, biz hamımız İraqda sülhün bərqərar olunmasında maraqlıyıq. Biz İraq xalqının tam təhlükəsiz şəraitdə yaşamasını, İraq cəmiyyətinin inkişafını görmək istəyirik. Bildiyiniz kimi, Azərbaycan İtaliya kimi, dərhal koalisiyaya qoşulmuşdur. Biz İraqda sülh və təhlükəsizlik işinə böyük töhfə vermişik. Biz özümüz də münaqişədən əziyyət çəkmişik, müharibənin qurbanı olmuşuq. Bu günlərdə İraq xalqının çəkdiyi əzab-əziyyətləri yaxşı anlayırıq. İnsanların üzləşdiyi çətinlikləri də yaxşı başa düşürük. Ona görə də sülh və təhlükəsizliyin bərqərar olunmasına töhfə vermək üçün öz tərəfdaşlarımızla və dost ölkələrlə birgə işləyirik. Ümid edirəm ki, seçkilərdən sonra iraqlılar özləri öz ölkələrini idarə edəcək və gələcək taleyini özləri müəyyən edəcəklər. İnanıram ki, İraqdakı vəziyyət ciddi şəkildə sabitləşəcək və beləliklə, bu ölkəyə sülh və təhlükəsizlik yenə də qayıdacaqdır.

**S u a l: Hazırda ölkələrin üzləşdiyi problemlər həddindən artıq çoxdur. Zənn edirəm ki, Azərbaycan da demokratikləşmə yolunda müəyyən çətinliklərə baxmayaraq, irəliyə doğru addımlayacaqdır. Sizin fikrinizcə, ölkənin demokratikləşməsi istiqamətində bu gün hansısa ciddi maneələr mövcuddurmu?**

**C a v a b:** Müstəqilliyimizi qazandıqdan sonra biz nəinki çətinliklərlə üzləşdik, həm də açıq seçim qarşısında qaldıq. Misal üçün, biz o vaxt düşünməliydik ki, hansı yolla irəliyə gedəcəyik, ölkəni necə inkişaf etdirəcəyik. Azərbaycan xalqı seçimini etdi: beynəlxalq birliyə, Avropa strukturlarına tam inteqrasiya olunmaq yolunu tutdu. Eyni zamanda, ölkəmizdə demokratikləşmə prosesi başlandı. Təbii ki, bu proses müstəqil ölkə kimi, qısa tarix baxımından uzun hesab edilə bilməz. Söhbət yalnız 14 ildən gedir, yəni bu müddət ərzində totalitar sistemdən demokratik sistemə keçid o qədər asan deyildir. Lakin biz ilbəil ölkəmizin demokratik təsisatlarını inkişaf etdiririk. Cəmiyyətimizdə demokratikləşmə prosesi davam edir. Bu baxımdan, hesab edirəm ki, biz bu sahədə gözəçarpan nəticələri əldə edə bilmişik.

Beynəlxalq miqyasda baş verən hadisələr bizim diqqət mərkəzimizdədir.

Azərbaycan Avropa Şurasının üzvüdür. Bildiyiniz kimi, bu təşkilat demokratiyanın təşviqi və insan hüquqlarının qorunması prinsiplərini əsas tutur. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində böyük işlər aparmışıq. Avropada əsas sayılan qanunların qəbul olunması məqsədi ilə ölkədə islahatları daha da inkişaf etdiririk. Bu istiqamətdə biz irəliləməyi davam etdirəcəyik. Biz öz üzərimizə çox strateji öhdəlik götürmüşük. Azərbaycan açıq bəyan edib ki, ümumi dəyərləri qəbul edir və demokratikləşmə prosesini davam etdirmək əzmindədir.

Üzləşdiyimiz problemlərə gəldikdə isə, deyə bilərəm ki, ölkəmizdə bir sıra problemlər mövcuddur. Ən böyük problemlərdən biri isə Ermənistanın Azərbaycana qarşı davam edən işğalıdır. Bu təcavüz və etnik təmizlənmə nəticəsində ərazimizin 20 faizi zəbt edilib, bir milyon qaçqın və məcburi köçkünümüz var. Bu bizim ən ciddi problemimizdir. Mən hətta deyərdim ki, bu problem dünyada ən ağır problemlərdən biridir.

Bundan başqa, ölkəmizdə mövcud olan digər böyük problem yoxsulluq problemidir. Əldə etdiyimiz gözəçarpan iqtisadi nailiyyətlərlə yanaşı, bir sıra faydalı sosial proqramlar həyata keçirilir. Əgər nəzər salsanız görərsiniz ki, son illər ərzində Azərbaycandakı illik iqtisadi artım orta hesabla 10 faiz olmuşdur. Gələcəkdə bu göstərici daha da artacaqdır. Buna baxmayaraq, hələ də bir çox insanlar yoxsulluq səviyyəsindən aşağı yaşayırlar. Təbii ki, bir çox insanların yoxsul yaşadığı şəraitdə normal və demokratik cəmiyyət yaratmaq mümkün deyildir. Məlumdur ki, yoxsul şəraitdə yaşayan insanlar hər gün öz həyatını düşünürlər. Onlar hər zaman fikirləşirlər ki, öz uşaqlarını necə yedizdirsinlər. Bu onların gündəlik ehtiyacıdır.

Beləliklə, bu cür məsələləri həll etmək üçün iqtisadiyyatı inkişaf etdirməli və yeni iş yerləri açmalıyıq, yeni strukturlar yaratmalıyıq. Hər bir vətəndaş üçün yeni imkanlar yaradılmalıdır. Yalnız bu nəticələrə nail olduqdan sonra cəmiyyətimiz yeni demokratik dəyişikliklərə tam hazır olacaqdır. Bu istiqamətdə biz

üzərimizə öhdəliklər götürmüşük və bu yolla getməyi davam etdirəcəyik.

**S u a l: Ümumiyyətlə, çox maraqlı fakt əldə etmişik. Yəni son əlli il ərzində bütün dünya ölkələrində vəziyyət öyrənildikdən sonra, belə bir qənaətə gəliblər ki, ümumi daxili məhsulun adambaşına illik həcmi 6 min ABŞ dollarından aşağıdırsa, həmin ölkədə demokratiya risk altındadır. Lakin bu göstəricidən yuxarı olan ölkələrdə demokratiya sabit olaraq qalır. Sizin ölkədəki vəziyyət necədir?**

**C a v a b:** Bizim ölkəmizdə ümumi daxili məhsulun adambaşına illik həcmi 1000 ABŞ dollarıdır. Lakin əgər bunu biz beş il bundan əvvəlki göstərici ilə müqayisə etsək görərik ki, o vaxt bu rəqəm cəmi 300 ABŞ dolları səviyyəsində idi. Hazırda iqtisadi artım sürətlənir. Ümumi daxili məhsul get-gedə artır və gələcəkdə daha yüksək göstəricilər əldə edəcəyik. Amma sizin söylədiyiniz fikirlə də razıyam. Yoxsul ölkələrdə sosial problemlər daha ağırdır.

Misal üçün, işsizlik və yoxsulluq problemləri var. Belə bir şəraitdə Avropanın inkişaf etmiş ölkələrindəki kimi demokratik cəmiyyət qurmaq çox çətindir. Reallıq bundan ibarətdir. Bütün bunlar nəinki hökumətin iradəsindən və ya siyasətindən asılıdır, eyni zamanda, qanunvericilik sahəsində atdığımız addımlar, güclü demokratik cəmiyyətin qurulmasına yönəlmiş qanunların qəbulu da çox vacibdir. Belə təşəbbüslər və iqtisadi inkişaf arasında mövcud olan fərqə nəzər salsaq, onda anlaya bilərik ki, bütün bu işlər nə dərəcədə əhəmiyyətlidir. Bu gün bizim əsas məqsədimiz və başlıca vəzifəmiz mümkün qədər güclü iqtisadiyyatın yaradılmasıdır.

Sizə deyə bilərəm ki, 2003-cü ilin oktyabr ayında prezident seçkilərindən sonra biz 170.000 yeni iş yeri açmışıq. Bunların əksəriyyəti aqrar rayonlarda yaradılıb. Yeni iş yerlərinin açılması həyata keçirdiyimiz iqtisadi inkişaf proqramlarının əsasını təşkil edir. Onu da deməliyəm ki, əldə etdiyimiz nəticələr kifayət qədər yaxşıdır.

Azərbaycan eyni zamanda, enerji layihələrinin həyata keçirilməsində çox fəaldır. Bu, nəqliyyat layihələrinə də aiddir. Hazırda bəyan edə bilərik ki, biz uğurlu gələcəyimizə inamla baxırıq. Ümid edirik ki, gələn 3–5 il ərzində biz istədiyimiz nəticələri görəcəyik və Azərbaycan iqtisadi baxımdan çox güclü dövlətə çevriləcəkdir. Lakin indi biz iqtisadi inkişafımızın ilkin mərhələsindəyik. Beləliklə, lazımi nəticələri əldə etmək üçün bütün imkanlardan istifadə edəcəyik.

**S u a l: Bütün çətinliklərə baxmayaraq, əldə etdiyiniz nəticələr böyükdür. Hazırda Bakıdan çox vacib neft kəmərləri gedir. Çünki Xəzər dənizindəki neft və qaz yataqları olduqca böyük əhəmiyyət daşıyır. Yəni dünyada ən böyük yataqlardan biridir. Bu neft kəmərləri nə dərəcədə sizin iqtisadiyyatınız üçün faydalıdır və nə dərəcədə sabitlik üçün risklidir?**

**C a v a b:** Əgər biz neft kəmərləri haqqında danışırıqsa, bu layihələr ölkəmiz üçün çox sərfəlidir. Mən bunu ona görə deyirəm ki, burada söhbət nəhəng enerji layihəsindən gedir. Bu layihəyə qoyulan sərmayələrin həcmi 3 milyard ABŞ dollarıdır. Bu kəmər bizim üçün geniş tranzit imkanlarını açacaq və neft məhsullarımızı dünya bazarlarına çıxaracaqdır. Azərbaycan gələn 3–4 il ərzində neft hasilatını artıracaq və bu, gündə bir milyon barrel təşkil edəcəkdir. Beləliklə, görürsünüz ki, gəlirlərimiz artacaqdır. Bundan başqa, neft kəməri regional əməkdaşlığa da böyük töhfə verəcəkdir. Çünki bu kəmər üç ölkənin – Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçir. Bu üç ölkə arasındakı regional əməkdaşlıq çox yüksək səviyyədədir. Yeni neft kəməri mövcud olan münasibətləri daha da sıx edəcəkdir.

Hesab edirəm ki, neft kəməri həmçinin regional təhlükəsizliyin qorunmasında böyük rol oynayacaqdır. Regionun sabitliyinə xidmət edəcəkdir. Çünki bildiyiniz kimi, əfsuslar olsun ki, Cənubi Qafqaz regionu əsrlər boyu münaqişələr məkanı olubdur. Ümid edirik ki, çəkiləcək yeni neft kəməri regionda sülhün və demokratiyanın daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Neft kəməri ölkələrimizi zənginləşdirəcək və əldə etdiyimiz gəlirlər sayəsində vətəndaşlarımız daha yaxşı yaşayacaqlar.

Beləliklə, adambaşına ümumi daxili məhsulun indiki 1000 dollarlıq həcmi daha da artacaqdır. Bütün bu nailiyyətlər avtomatik olaraq demokratiyanı və daimi sabitliyi inkişaf etdirəcəkdir. Yəni bu neft kəmərinin reallaşmasından sonra mən heç bir risk görmürəm.

Bu, yalnız gəlir gətirə bilər. Ehtimal olunan hər hansı bir risk istisna edilir. Çünki bu layihənin mümkün olacaq riskləri hətta 1994-cü ilin əvvəlində müzakirə olunmuşdur. O vaxt biz böyük çətinliklərlə üzləşmişdik. Bu maneələr həm xaricdə, həm də ölkə daxilində mövcud idi. Tez-tez dövlət çevrilişinə cəhdlər baş verirdi. Bunun bir səbəbi də o idi ki, Azərbaycan neft kəmərini öz maraqlarına uyğun olaraq planlaşdırırdı. Daha sonra digər təhlükələr özünü büruzə verdi. Bütün bu faktlar birbaşa həmin neft kəməri ilə bağlı idi. Bu neft kəməri bizim gələcəyimiz üçün olduqca vacibdir. Yəni bu kəmər olmasa, Azərbaycan öz neftini nəql edə bilməyəcəkdir. Əgər nefti hasil edirsənsə, lakin onu dünya bazarlarına çıxara bilmirsənsə, demək, onu hasil etməyə dəyməz.

Beləliklə, əgər söhbət risklərdən gedirsə, bu, artıq keçmişə aid olan məsələdir. Biz inanırıq ki, bu il yeni neft kəmərini istismara verə biləcəyik və neftin yeni marşrutla nəqli başlayacaqdır. Hamı, o cümlədən bizim dostlarımız bu imkandan yararlanacaqdır.

**S u a l: Biz bilirik ki, boru kəmərlərinin çəkilməsi ilə məşğul olan bütün ölkələr müəyyən problemlərlə üzləşmişlər: Əfqanıstan, Gürcüstan, Ukrayna, Çeçenistan. Mən arzulayıram ki, belə problemlər Sizin ölkənizdən yan keçsin. Lakin yenə də bilmək istəyirəm ki, nəyə görə Siz belə problemlərinizin olmayacağına əminsiniz?**

**C a v a b:** Bilirsiniz, bizim vəziyyətimizi digər ölkələrdə baş verən hadisələrlə müqayisə etmək çətindir. Bunun səbəblərini anlamaq o qədər də asan deyildir. Hər bir ölkənin öz xüsusi səbəbləri var. Hər bir sabitlik üçün təhlükə də var. Əgər müasir ta-

riximizə nəzər salsaq görərik ki, Azərbaycanda da oxşar problemlər baş vermişdir. 1991-ci ildə müstəqillik qazandıqdan sonra ilk vaxtlar dəfələrlə ölkədə dövlət çevrilişi özünü büruzə vermişdir. Yəni hökumət yalnız bir il hakimiyyətdə qaldıqdan sonra hər hansı dövlət çevrilişi baş verirdi. Hökumətə qarşı silahlı əməliyyatlar keçirilir, hakimiyyətə yeni qüvvələr can atırdı.

Hesab edirəm ki, ölkəmizdəki sabit inkişaf məhz Azərbaycan rəhbərliyinin müdrikliyi və cəsarəti sayəsində mümkün olubdur.

Mən 1993-cü ildən bəri hakimiyyətdə olan rəhbərliyi nəzərdə tuturam. Müxtəlif problemlərə, mürəkkəb geosiyasi vəziyyətə, Ermənistan tərəfindən ərazimizin işğalına və vətəndaş müharibəsinə baxmayaraq, Azərbaycan düzgün istiqamət seçib, irəliyə doğru addımlaya bildi. Ölkəmiz sabit inkişafa nail oldu, keçid dövrünü uğurla davam etdirdi.

Siyasi nailiyyətlərimizə nəzər salsaq, görərik ki, biz Avropaya və Avratlantik strukturlarına inteqrasiya istiqamətində uğurlar əldə etmişik. Siyasi və iqtisadi islahatlar aparırıq. Ölkə iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin cəlb edilməsinə nail olmuşuq. Bizim ölkə adambaşına olan xarici sərmayənin həcminə görə nəinki regionda, hətta Şərqi Avropa ölkələri arasında liderdir. Hesab edirəm ki, bu, əsas səbəblərdən biridir.

Eyni zamanda, düşünürəm ki, hökumət və xalq arasında olan etimad da vacibdir. Əgər xalq hökuməti, dövləti dəstəkləyirsə, onda həmin ölkə uğurla inkişaf edir və belə bir şəraitdə sabitlik pozula bilməz. Əgər əksinə olsa, yəni hökumət ilə xalq arasında inam olmasa, hər hansı mənfi hadisə baş verə bilər. Son on iki il ərzində Azərbaycanda ümumi vəziyyət çox müsbət olmuşdur. Faktiki olaraq, ölkəmizdəki siyasi vəziyyət tam sabitdir. Biz düşünülmüş daxili siyasət aparırıq. Bu siyasət milli maraqlarımızın müdafiəsinə yönəlibdir. Biz həm iqtisadi, həm enerji, həm də hərbi baxımdan heç bir digər ölkədən asılı deyilik. Müstəqilliyimiz, sadəcə bayrağımız kimi müstəqillik rəmzlərinə əsaslanmır. Ölkəmiz ona görə müstəqildir ki, Azərbaycan müstəqil siyasət yürüdür. Gördüyünüz kimi, indi bizim müstəqil siyasəti-

miz daha da güclənir. Məhz sadaladığım səbəblərə görə, bizim ölkə bəzi qonşu ölkələrin üzləşdiyi problemlərdən yan keçmişdir.

**S u a l: Cənab Prezident, icazə verin kiçik bir sual-cavab edək. Mən bir neçə suallar verim, Siz isə onları qısa şəkildə cavablandırın. Birinci sual: Sizin fikrinizcə, Azərbaycan özünü Avropaya, yoxsa Asiyaya yaxın hiss edir?**

**C a v a b:** Əgər 0 və 100 nisbətini götürsək, – o baxır söhbət nədən gedir. Misal üçün, mədəni baxımdan götürsək, mən deyərdim ki, Azərbaycan 50 faizdədir. Azərbaycan elə bir ölkədir ki, burada həm Avropa, həm Asiya mədəniyyətləri bir-birinə qovuşur. Əgər şəhərlərimizdəki memarlıq abidələrinə və binalara baxsaq görərik ki, yenə də Azərbaycanda həm Avropanın, həm də Şərqin təsiri var. İnsanların mentalitetinə gəldikdə isə, mən yenə də 50 faiz deyərdim. Əgər söhbət siyasi inkişafdan gedirsə, mən 80 faiz Avropa tərəfə danışardım. Çünki bu istiqamət siyasətimizin əsas hissəsidir. Nəzərə alsaq ki, Azərbaycan Avropa Şurasının üzvüdürsə, Avropa Birliyinin Yeni qonşuluq siyasətinə daxil edilibsə, onda görərik ki, bizim Avropa Birliyi ilə olan əməkdaşlığımız geniş vüsət almışdır. Biz Avropa ölkəsi kimi tanınırıq. Lakin eyni zamanda, bizim çox güclü adət-ənənələrimiz var. Təbii ki, milli mənliyimiz, mədəni irsimiz, dinimiz bizim üçün və gələcək nəsillər üçün çox dəyərlidir.

Bilirsiniz, yaxşı olardı ki, Siz ölkəmizə səfər edəsiniz və bütün bunları özünüz görəsiniz. İtaliya və Azərbaycan bir-birilə sıx əməkdaşlıq edir. Artıq qeyd etdiyim kimi, ölkəmiz haqqında məlumat azdır. Biz bunu normal qəbul edirik, çünki ölkəmiz gəncdir. Bir çoxları Azərbaycanı hələ tanımır. Lakin biz ildən-ilə tanınırıq və inkişaf edirik. Hesab edirik ki, bizim Avropaya inteqrasiya siyasətimiz uğurla davam edəcəkdir.

**S u a l: Cənab Prezident, beləliklə, müzakirə etdiyimiz məsələyə qayıdaq. Siz ölkənizin adət-ənənələri və tarixi haqqında danışdınız. Sizin milli bayrağınızda aypara və səkkizguşəli ulduz təsvir olunubdur. Bu, türk bayrağına oxşayır. Bilirik ki, siz Türkiyə ilə həmsərhədsiniz. Siz hətta dediniz**

**ki, həyatınız boyu Türkiyəni sevmisiniz və türkcə danışırsınız. Ümumiyyətlə, iki ölkə arasında hər hansı fərqlər varmı?**

**C a v a b:** Bilirsiniz, bunu demək çətindir. Hər hansı ölkənin, bir qayda olaraq, öz xarakterik xüsusiyyətləri var. Türklər bizim xalqımıza çox yaxındırlar. Onlar həm etnik, həm linqvistik baxımdan azərbaycanlılara çox yaxındırlar. Biz qarşılıqlı surətdə bir-birimizə çox hörmətlə yanaşırıq. Uzun illər ərzində, hələ Sovet İttifaqının bir hissəsi olan Azərbaycanın Türkiyə ilə, bizim türk qardaşlarımızla əlaqə yaratmaq imkanı yox idi. Yalnız müstəqilliyimizi qazandıqdan sonra – onu da qeyd edim ki, Türkiyə müstəqilliyimizi tanıyan birinci ölkə oldu – əlaqələrimizi qurmağa başladıq. Hazırda Azərbaycan ilə Türkiyə arasında olan münasibətlər çox yüksək səviyyədədir. İstər siyasi, istərsə də iqtisadi və ya mədəni baxımdan əlaqələrimiz çox yaxşıdır.

Lakin eyni zamanda, Türkiyə Türkiyədir, Azərbaycan isə Azərbaycandır. Faktiki olaraq, hər bir ölkənin öz problemləri var. Öz uğurları var. Bununla belə, münasibətlərimiz çox güclüdür, apardığımız əməkdaşlıq çoxşaxəlidir. Biz bir-birimizi hər zaman müxtəlif məsələlərdə dəstəkləyirik. Xüsusən də beynəlxalq təşkilatlar çərçivəsində istənilən məsələ üzrə bir-birimizə dəstək veririk. Türkiyə bizim bir nömrəli müttəfiqimizdir. Bizim Türkiyə ilə çox oxşarlıqlarımız var. Lakin fərqlərdən danışsaq, təbii ki, onlar da mövcuddur. Yəni bir ölkə digər ölkədən fərqlənir. Yaxşısı budur ki, biz bir-birimizi ayıran yox, əksinə, birləşdirən məsələlər haqqında danışaq.

**S u al: Şübhəsiz ki, Siz Türkiyənin Avropa Birliyinə qəbul olunmasını dəstəkləyirsiniz...**

**C a v a b:** Bəli.

**S u a l: Çox güman ki, bu hadisə baş versə, Siz hesab edirsiniz ki, Sizin ölkənin də növbəsi çatar?**

**C a v a b:** Biz bu məsələdə realist olmalıyıq. Bu gün Azərbaycanın reallıqları var ki, onlar Avropa Birliyinin tələblərinə cavab vermir. Lakin bizim bütün siyasətimiz Avropaya tam in-

teqrasiya olunmaq məqsədi daşıyır. Biz Avropa ilə daha sıx əlaqələr qurmaq istəyirik. Təbii ki, bir neçə il keçdikdən sonra bəlkə bizim üçün də belə bir imkan yaranacaq və bu məsələni nəzərdən keçirəcəyik. Azərbaycan da öz növbəsində Avropa Birliyinə və ümumiyyətlə, Avropaya öz töhfəsini verə bilər. Ölkəmizin zəngin tarixində bir çox mühüm faktlar mövcuddur. Bizim böyük potensialımız var. Məhz bu səbəbə görə də, biz həqiqətən istəyirik ki, Azərbaycan ilə Avropa Birliyi arasında daha geniş əməkdaşlıq aparaq. Bu əməkdaşlıq, eyni zamanda bizim Avropa ölkələri ilə olan sıx münasibətlərimizə arxalanır.

Misal üçün, bu baxımdan İtaliya ilə olan əlaqələrimiz vacib əhəmiyyət daşıyır. İtaliya hər zaman bizim inteqrasiya siyasətimizi dəstəkləyibdir. Şübhəsiz ki, biz bunu yüksək dəyərləndiririk. Çünki biz Avropa Birliyi ilə münasibətlərimizi eyni zamanda bu təşkilatın üzvü olan ölkələrlə ikitərəfli əlaqələrimiz əsasında qururuq.

**S u a l: Sizin İranla uzun sərhədiniz var. Uzun əsrlər boyu Sizin bu ölkə ilə münasibətləriniz olub. Bu günlərdə Siz Birləşmiş Ştatlarla birgə eyni koalisiyanın üzvüsünüz. Lakin Birləşmiş Ştatlar və İran arasında olan gərginliyi nəzərə alsaq, gələcəkdə iki tərəf arasında münasibətlərin daha da ağırlaşacağı təqdirdə Sizin mövqeyiniz necə olacaqdır?**

**C a v a b:** Biz İraqdakı koalisiyanın üzvüyük. İran bu koalisiyaya aid deyildir. Siz düzgün qeyd etdiniz ki, bizim İranla uzun sərhədimiz var. İranla olan münasibətlərimiz çox yaxşıdır. Bu yaxınlarda mən İranda rəsmi səfərdə olmuşam. Ötən il İran prezidenti bizim ölkəyə səfərə gəlmişdi. Biz İranla bir sıra ikitərəfli sənədlər imzalamışıq. Bu sazişlər iqtisadi əməkdaşlığa da aiddir. Biz bu ölkə ilə iqtisadi münasibətlərimizin daha da inkişaf etməsindən çox məmnun olardıq. Eyni zamanda, Azərbaycan və İran arasında regional inkişaf sahəsində ümumi anlaşma mövcuddur. Biz İranın daxili işlərinə qarışmırıq. İran isə eynilə bizim daxili işlərimizə hörmətlə yanaşır. Bu ölkə ilə olan əlaqələrimiz qarşılıqlı hörmət və etimad prinsipinə əsaslanır.

Təbii ki, nə Azərbaycan, nə də İran sabah bir-birinə qarşı heç bir addım atmazlar. Biz sülh şəraitində yaşamaq istəyirik. Çalışmalıyıq ki, ölkəmizdə və ümumiyyətlə, regionumuzda yalnız sülh olsun. Hesab edirəm ki, bu, ən önəmli yoldur. Çünki yalnız əməkdaşlıq və anlaşma yolu ilə müxtəlif mürəkkəb məsələlər öz həllini tapa bilər. Bu baxımdan mən əminəm ki, bizim tərəfimizdən İrana və yaxud əksinə, heç vaxt heç bir təhlükə ola bilməz.

**S u a l: Beləliklə, biz gəlib İranın nüvə proqramı probleminə çıxırıq. Siz inanırsınız ki, İranın sərəncamında nüvə silahı ola bilər?**

**C a v a b:** Birincisi, atom bombasının olması ilə bağlı heç bir sübut yoxdur. İranın rəhbərliyi tərəfindən verilən bəyanatlara uyğun olaraq, onların bütün nüvə proqramları dinc məqsədlərlə həyata keçirilir. Əgər heç bir dəlil yoxdursa, onda biz nəyə görə bu silahın olmasına inanmalıyıq? Hər bir ölkənin dinc məqsədlərlə nüvə proqramlarını inkişaf etdirməyə hüququ var.

Misal üçün, bizim sərhədlərimizin yaxınlığında atom elektrik stansiyası var. Bu stansiya Ermənistan ərazisindədir. Görürsünüz ki, biz bu məsələni problemə çevirmirik. Biz inanmırıq ki, İran nüvə silahını istehsal etməkdədir. Biz İranın rəhbərləri tərəfindən verilən bəyanatlara inanırıq. Bu baxımdan Beynəlxalq Atom Enerjisi Agentliyinin verdiyi bəyanatda da İranın nüvə proqramlarının dinc məqsəd daşıdığı artıq bildirilmişdir. İranın böyük həcmdə neft hasilatına baxmayaraq, bu ölkənin əlavə enerji mənbələrinə ehtiyacı var. Azərbaycan və İranın enerji sahəsində ümumi layihəsi var. İran bizə qışda elektrik enerjisi verir, biz isə İrana kənd təsərrüfatı məhsulları ixrac edirik. Beləliklə, bu ölkədəki elektrik stansiyaları sülh məqsədinə xidmət edir.

**S u a l: Moskva və Putin ilə münasibətləriniz necədir?**

**C a v a b:** Rusiyaya gəldikdə, bizim gözəl münasibətlərimiz var. Prezident Putinlə şəxsi münasibətlərimiz çox yüksək səviyyədədir. Hesab edirəm ki, Rusiya ilə əməkdaşlığın bugünkü səviyyəsi 1991-ci ildən etibarən görünməmiş yüksək səviyyəyə

qalxmışdır. Ötən il ikitərəfli iqtisadi əməkdaşlığımız xeyli artmışdır və biz bundan çox məmnunuq. Rusiyanın bazarları bizim üçün çox vacibdir. Azərbaycandakı ticarət imkanları da Rusiyanın iş adamları üçün çox cəlbedicidir.

Biz çox şadıq ki, mövcud olmuş hər hansı çətinlik və problemlər artıq aradan qaldırılmışdır. 1990-cı illərin müəyyən hissəsində Rusiya ilə Azərbaycan arasında münasibətlər çox gərgin olmuşdur. Bunun səbəbi onunla izah oluna bilər ki, o vaxt Azərbaycana qarşı müharibə aparan Ermənistan Rusiyadan yardım alırdı. Artıq danılmaz faktdır ki, Rusiya qeyri-qanuni yolla Ermənistana külli miqdarda silah və sursat vermişdir. Bu əməliyyatın həcmi 1 milyard ABŞ dollarından çox olmuşdur. Həmin vaxt böyük bir mübahisə yarandı. Rusiyanın Dövlət Duması bu məsələnin araşdırılması məqsədi ilə geniş müzakirələr apardı. Sonra isə prezident Putin hakimiyyətə gəldi və vəziyyət tamamilə dəyişdi. Rusiya Federasiyasının prezidenti kimi, Putin ilk dəfə olaraq Azərbaycana səfər etdi. Məhz bu səfərdən sonra ikitərəfli münasibətlər sabit şəkildə və uğurla inkişaf etməyə başladı.

Biz Xəzər dənizinin hüquqi statusu ilə bağlı mübahisəmizi həll edə bildik və digər problemləri aradan qaldırdıq. Misal üçün, nəqliyyat dəhlizləri. Biz neft məhsullarımızı Rusiyanın ərazisi vasitəsilə də nəql edirik. Rusiyadan təbii qaz alırıq. Beləliklə, qarşılıqlı faydalı münasibətlər qurmuşuq. Bu əlaqələr bizim üçün çox əhəmiyyətlidir. Biz qonşu ölkələrlə sülh şəraitində yaşamaq istəyirik. Təbii ki, belə olsa, Azərbaycan daha da təhlükəsiz şəraitdə yaşayacaqdır.

**S u a l: Cənab Prezident, yaxşı olardı ki, qaçqınlar probleminizi də həll edə biləsiniz.**

**C a v a b:** Biz qaçqın-köçkünlər probleminə diqqətlə yanaşırıq. Bu, ən ağır problemlərdən biridir. Təsəvvür edin ki, bir milyona yaxın insanın normal yaşamaq imkanı yoxdur. Hökumətimiz onların problemləri ilə məşğuldur. Onlar üçün əlimizdən gələni edirik. İmkanımızda olan bütün resurslar onların həyatının asanlaşdırılmasına yönəldilibdir. Lakin məsələnin özü həll

olunmalıdır, işğala son qoyulmalıdır. Bu günlərdə bir çoxları Ermənistan və Azərbaycan arasında baş verən hadisələr haqqında məlumatlıdır. Uzun illər ərzində Ermənistan öz diasporu və lobbisindən istifadə edərək, təbliğat aparırdı ki, ictimai rəyi öz tərəfinə çəksin. Lakin hazırda bütün məsələlərə aydınlıq gətirilibdir.

Yanvar ayında Avropa Şurası Ermənistan və Azərbaycan arasında olan münaqişə ilə bağlı qətnamə qəbul edibdir. Həmin sənəddə aydın şəkildə yazılıb ki, məsələ həll olunmalıdır. Daha sonra deyilir ki, Ermənistan etnik təmizləmə siyasətini apararaq, Azərbaycan ərazisinin 20 faizini işğal edib və bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Beləliklə, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz artıq aydın şəkildə göstərilibdir. Avropa Şurası tərəfindən bir sıra sərt bəyanatlar verilibdir.

Əgər biz sülh yolu ilə münaqişənin həllindən danışırıqsa, bu nə deməkdir? Cavab çox sadədir. Ermənistan torpaqlarımızın ilhaqı siyasətinə son qoymalıdır. Bundan sonra Dağlıq Qarabağa muxtariyyətin ən yüksək statusu verilə bilər. Dünyanın bir çox digər ölkələrində də belə muxtar regionlar var. Lakin bu o demək deyil ki, Azərbaycanda yaşayan ermənilər bizim ərazimizin bir hissəsini qoparıb Ermənistana birləşdirsinlər. Ermənilər Rusiyada, Amerikada, Fransada, Gürcüstanda yaşayırlar. Təsəvvür edin, əgər onlar yaşadıqları həmin ölkələrdə eynilə müstəqillik tələb etsələr, nələr baş verər! Nəhayət, erməni xalqı artıq öz müqəddəratını təyin edibdir. Ermənistan dövləti artıq mövcuddur.

Beləliklə, Ermənistan ərazi iddialarından əl çəkməli və işğal etdiyi torpaqlarımızdan öz silahlı qüvvələrini çıxarmalıdır. Bizim qaçqın-köçkünlər isə öz doğma yurd-yuvalarına qayıtmalıdırlar. Sonra isə biz adekvat təhlükəsizlik zəmanəti verərək, onlarla sülh şəraitində yaşaya bilərik. Bütün digər variantlar istisna olunur. Bugünkü Azərbaycan Ermənistandan dəfələrlə güclüdür. Hazırda bizim iqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından beş dəfə yüksəkdir. Gələn 2-3 il ərzində bu, artıq on dəfə yüksək olacaqdır. Bizim çox yaxşı inkişaf perspektivlərimiz

var. Onların gələcəkdə belə imkanları yoxdur. Nəqliyyat sahəsində də imkanları məhduddur. Potensialları zəifdir, onlar diaspordan, digər ölkələrin yardımından asılıdırlar. Təbii ki, bu da çox çəkə bilməz. Ona görə hesab edirəm ki, ermənilər üçün ən yaxşı yol bu münaqişəyə tezliklə son qoymaqdır.

Biz hər dəfə soruşuruq: bu işğal nəticəsində ermənilər nəyə nail oldular? Digər ölkənin ərazisini işğal altında saxlamağa onları nə vadar edir? Beynəlxalq ictimaiyyət onları təcavüzkar hesab edir. Zənnimcə, əgər ermənilər bu iddialarından əl çəkə bilsələr, onların həyatı yaxşılaşacaqdır. Əgər bu, baş verməsə, onda heç bir nəticə olmayacaqdır. Çünki regional inkişaf olmadan, nəqliyyat xətləri açılmadan ermənilərin gələcəyi dumanlıdır.

**S u a l: Digər bir sualım var, bu beynəlxalq mövzuya aiddir. Sual bu günlərdə bir çoxlarının diqqət mərkəzində olan geosiyasi məsələ ilə bağlıdır. Söhbət Livanla Suriya arasındakı münasibətlərdən gedir. Sizin fikrinizcə, Suriya Livandan qoşunlarını çıxarmalıdır , yoxsa əksinə olmalıdır?**

**C a v a b:** Prinsip etibarilə, bizim bu məsələ ilə bağlı siyasətimiz birmənalıdır. Heç bir ölkə digər ölkənin istəyi olmadan onun ərazisində hərbi birləşmələrini saxlamamalıdır. Azərbaycanda heç bir dövlətin hərbi bazası yoxdur. Əvvəlcə, rusların qoşunları var idi, lakin bizim tələbimizlə, onlar ölkəmizi tərk etdilər. Gürcüstanda Rusiyanın hərbi bazaları var. Gürcüstan Rusiyadan qoşunların çıxarılmasını xahiş etsə də, hələ ki, bazalar tam çıxarılmayıbdır. Ermənistanda da Rusiyanın hərbi bazaları var. Lakin ermənilər ruslardan ölkədə qalmağı xahiş ediblər.

Dediyiniz məsələyə gəldikdə isə, əgər Livan hökuməti və xalqı digər ölkənin qoşunlarının çıxarılmasını istəyirsə, onda həmin hərbçilər Livanı tərk etməlidir. Yəni zorla heç bir hərbi qüvvə digər ölkənin ərazisində yerləşdirilməməlidir. Bu bizim siyasətimizdir. Söhbət təkcə Azərbaycandan getmir. Gəlin məsələyə qlobal səviyyədə nəzər salaq. Əgər xalq xarici əsgərlərin ölkədən çıxarılmasını istəyirsə, onda qoşunlar həmin ərazini tərk etməlidir.

**S u a l: Qayıdaq yenə Azərbaycana və İtaliya ilə olan münasibətlərə. İki ölkə arasında olan mövcud ikitərəfli münasibətləri daha yüksək səviyyəyə qaldırmaq üçün nə etməliyik?**

**C a v a b:** İtaliyaya səfərim zamanı çox mühüm danışıqlar apardıq. Eyni zamanda, əhəmiyyətli biznes forum keçirildi. Bu gün səhər mən həmin forumda çıxış etdim. Forumda iştirak etmək üçün Azərbaycandan İtaliyaya 50-dən çox iş adamı gəlmişdir. Bir çox müqavilələr imzalandı. Belə bir tədbirin keçirilməsi bizim İtaliya ilə daha sıx iqtisadi əməkdaşlığın aparılmasında maraqlı olduğumuzu bir daha nümayiş etdirdi. Hazırda enerji sahəsində çox fəal işləyirik. Bir sıra italyan şirkətləri bizimlə tərəfdaşlıq edir, ölkəmizə sərmayə qoyublar. İqtisadiyyatın müxtəlif sektorlarında olan münasibətlərimiz qarşılıqlı marağa əsaslanır.

Ölkəmizin bugünkü təqdimatı çox əhəmiyyətli oldu. Bu forum potensial sərmayə imkanlarına malik olan digər italyan şirkətləri üçün də əhəmiyyətlidir. Əlavə olaraq sizə deyə bilərəm ki, İtaliya bizim ən mühüm ticarət tərəfdaşlarımızdan biridir. Ötən ilin göstəricilərinə görə ölkələrimiz arasında ticarət dövriyyəsi 1,7 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Bu, əsasən neft məhsullarının ixracı ilə bağlıdır. Hazırda iqtisadi münasibətlərimizi şaxələndirmək fikrindəyik. Misal üçün, indi Azərbaycanda bir çox yeni imkanlar açılıbdır. Yeni kənd təsərrüfatı müəssisələri, fabriklər yaradılmışdır. Həmin müəssisələrdə İtaliyanın texnologiyalarından istifadə edilir.

Məsələn, bir faktı nəzərinizə çatdırım. Hətta bu bir az təəccüblü olacaq. Biz Azərbaycanda motsarella pendirinin istehsalına başlamışıq. Çox yaxşı və dadlıdır. Keyfiyyəti isə çox yüksəkdir.

Görürsünüz ki, iqtisadi sahədə böyük işlər görə bilərik. Yaxşı iqlim şəraitimiz var, torpağımız münbitdir. Becərilən kənd təsərrüfatı məhsulları İtaliyadakı kimidir. Lakin sizdə yeni müasir texnologiyalar var. Bu sahədəki təcrübəniz də zəngindir. Biz bu sözləri tərif üçün demirik, çalışırıq ki, sizin təcrübənizdən faydalanaq. Biz qarşılıqlı maraq əsasında sıx əlaqələr yaradırıq.

**S u a l: Bilirik ki, əhalinizin sayı 8 milyondan çoxdur və əsas hissəsini müsəlmanlar təşkil edir. Lakin eyni zamanda ölkənizdə katoliklər, pravoslavlar və digər dinlərin nümayəndələri yaşayır. Onlar yan-yana sülh şəraitində yaşayıblar. Bu sahədə hər hansı ciddi problemləriniz olubmu?**

**C a v a b:** Bizim dini zəmində heç vaxt heç bir problemimiz olmayıbdır. Bu, Azərbaycana xas olan xüsusiyyətlərdən biridir. Ölkəmizdə dini dözümlülük çox yüksək səviyyədədir. Azərbaycanda dini azadlıq var, hər kəs öz dini baxışlarına uyğun şəkildə və xristian, katolik, pravoslav, yəhudi və müsəlman dinindən asılı olmayaraq, istənilən etiqadı seçə bilər. Bütün dinlər arasında sülh şəraiti var. Məlumat üçün deyə bilərəm ki, bu yaxınlarda Bakıda katolik kilsəsinin tikintisinə başlanacaqdır. Bizim cəmiyyətimizdə dözümlülük hər zaman mövcud olubdur. Bu hətta sovet dövründə də var idi. Hətta dini zəmində toqquşmaların baş verdiyi hallarda, Azərbaycanda heç vaxt belə bir problem müşahidə olunmayıbdır. Bu xüsusiyyət cəmiyyətimizə xas olan ən müsbət cəhətlərdən biridir. Müxtəlif dinlərin nümayəndələri arasında tam anlaşma var. Mən bunları ona görə söyləmirəm ki, ölkəmizi məhz müsbət mənada təsvir edim. Bu reallıqdır. Ölkəmizi tanıyan şəxslərin hamısı təsdiqləyə bilər ki, dini zəmində bizim heç bir problemimiz olmayıb və əminəm ki, heç vaxt olmayacaqdır.

**S u a l: Cənab Prezident, söhbətimizi yekunlaşdıraraq şəxsi həyatınızla bağlı sual vermək istərdim. Sizin üç övladınız var. Onlar nə ilə məşğuldurlar?**

**C a v a b:** Mənim uşaqlarımın hamısı təhsil alır. Mənim iki qızım var, onlar artıq universitetdə oxuyurlar. Oğlum isə hələ balacadır, məktəbə gedir. Ümidvaram ki, uşaqlarım təhsillərini uğurla başa vuracaq, cəmiyyətimizin layiqli üzvləri olacaqlar.

**S u a l: Növbəti sualım qeyri-adi olacaq. Sizin fikrinizcə, insanlar və xalqlar arasında sülhün bərqərar olunması üçün nə lazımdır? Dünyada əmin-amanlığı təmin etmək üçün hansı sirri bilmək lazımdır? Bunun üçün Siz nəyi seçərdiniz: məhəbbəti, təhsili, yoxsa tanışlığı?**

**C a v a b:** Şübhəsiz, bunların hamısı vacibdir. Lakin bu sualı daha sistemləşdirilmiş formada vermək lazımdır. Məncə, təhsili mən birinci vacib element kimi hesab edərdim. Çünki təhsil olmadan, savadlı nəsil olmadan, heç bir nailiyyət əldə etmək mümkün deyildir. Hazırda biz ölkəmizdə bir sıra təhsil proqramlarını sürətlə həyata keçiririk. Çünki indi ölkəmizdə böyüyən gənclər tamamilə başqa mühitdə formalaşırlar. Yəni mənim həmyaşıdlarımla müqayisədə, indiki vəziyyət tamamilə fərqlidir.

Misal üçün, mən Sovet İttifaqında təhsil almışam. Yaxşı təhsil idi, lakin mənim elə imkanım olmayıb ki, gedim Avropanın və ya Amerikanın təhsil ocaqlarında təhsilimi davam etdirim. O vaxt bu, mümkün deyildi. Hər şey qadağan idi. Əksinə, indi gənc nəsil tam azaddır. Müstəqil ölkədə yaşayır. Gənclər asanlıqla istədiyi fakültəni və yaxud istədiyi təhsil ölkəsini seçir. Onlar özləri yaşayış yerlərini müəyyən edirlər. Zənnimcə, bu, üstün cəhətdir və xoşbəxtlikdir. Bəlkə də gənc nəsil özü bunu anlamır. Ona görə anlamır ki, heç vaxt totalitar rejimdə yaşamayıbdır. Yəni gənc nəsil azad bir ölkədə, bazar iqtisadiyyatı şəraitində böyüyür. Buna görə də təhsil məsələsi öncül xarakter daşımalıdır. Əgər tarixdə ən böyük nailiyyətləri əldə etmiş ölkələrə nəzər salsaq görərik ki, həmin ölkələrdə təhsilin inkişafına böyük diqqət yetirilirdi. Biz də istəyirik ki, bu istiqamətdə atdığımız addımları davam etdirək və bu modeldən istifadə edək.

**A p a r ı c ı: Cənab Prezident, sağ olun!**

**İ l h a m Ə l i y e v:** Sağ olun! Təşəkkür edirəm.

**A p a r ı c ı: Bizimlə olmağınıza görə Sizə minnətdarıq. Beləliklə, müsahibəmiz başa çatdı.**

*Müsahibənin mətni «Azərbaycan» qəzetində*
*(17 mart 2005-ci il) dərc olunmuşdur*

## İTALİYA–AZƏRBAYCAN BİRGƏ BƏYANNAMƏSİ

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İtaliya Respublikası prezidentinin dəvəti ilə 2005-ci il fevralın 24–26-da İtaliyada rəsmi səfərdə olmuşdur.

İtaliya və Azərbaycan 1997-ci il sentyabrın 25-də Romada imzalanmış «Münasibətlərin prinsiplərinə dair birgə bəyannamə» əsasında konkret fəaliyyətə başlamış və bu illər ərzində beynəlxalq hüquq prinsipləri, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, Helsinki Yekun Aktı və digər müvafiq beynəlxalq sənədlərə əsaslanaraq, eləcə də demokratiya, siyasi plüralizm, insan hüquqlarına hörmət və azad bazar iqtisadiyyatı kimi dəyərlərə olan birgə inamları çərçivəsində güclü və çoxsahəli əməkdaşlıq əlaqələrini inkişaf etdirmişlər.

Belə möhkəm təmələ malik əsaslardan çıxış edərək, hər iki ölkə ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi və genişləndirilməsi istiqamətində fəaliyyət göstərməyə dair öhdəliklərini yenidən təsdiqləyir, habelə bu yolla Avropa qitəsində sabitliyin və təhlükəsizliyin qorunub saxlanılmasına öz töhfələrini verirlər.

İtaliya ölkə rəhbərliyinin təşəbbüsü olan Avropa və Avratlantik təsisatlarla əlaqələrinin möhkəmləndirilməsi sahəsindəki inkişafı bəyənir, Azərbaycanın idarəetmə və iqtisadi sistemini siyasi demokratiya və azad bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaq məqsədi ilə daxili islahatlar sahəsində göstərdiyi səyləri yüksək qiymətləndirir. İtaliya iqtisadi və sosial sahədə Azərbaycanda həyata keçirilən yoxsulluğun azaldılması proqramı üzrə hökumətin təşəbbüsünü xüsusi qiymətləndirir. Avropa Birliyinin Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin edilməsində mühüm rol oynamış İtaliya həm də regionun «Avropa qonşuluq siyasəti»nə daxil olunmasına fəal töhfə vermişdir. İtaliya bu

genişlənmənin Birliklə Cənubi Qafqaz dövlətləri arasında əlaqələrin real şəkildə güclənməsini təşviq edəcəyinə və həm maraq dairəsində olan regiondakı üç ölkə, həm də Avropa Birliyinin özü üçün faydalı olacağına əmindir. İki ölkə TRASEKA və İNOQEYT proqramlarını, Bakı–Tbilisi–Qars dəmir yolu kimi infrastruktur layihələrin həyata keçirilməsini də əhatə edən Avropa Birliyi – Azərbaycan münasibətləri çərçivəsində sıx əlaqələndirməni qoruyub saxlayacaqdır.

İtaliya bu kontekstdə ən azı iki ölkənin xarici işlər nazirlikləri arasında daha intensiv əlaqələr səviyyəsində Azərbaycan hakimiyyətini dəstəkləmək və yardım göstərmək niyyətini bir daha təsdiq edərək vurğulayır ki, uğurla həyata keçirilməsi və tam mənada səmərəli olması üçün «Avropanın qonşuluq siyasəti» əməkdaşlıq və bərabərhüquqlu mehriban qonşuluq münasibətlərinə, habelə aidiyyəti hökumətlərin açıq və konstruktiv regional dialoqunun gücləndirilməsi öhdəliklərinə əsaslanacaqdır ki, bu da Cənubi Qafqazın sülh və tərəqqi regionuna çevrilməsinə gətirib çıxara bilər.

Hər iki ölkə ikitərəfli əlaqələr səviyyəsində mövcud olan «gücləndirilmiş dialoq» siyasətindən məmnunluqlarını ifadə edir. Bu dialoq çoxsaylı yüksək səviyyəli səfərlərin mübadiləsinə yol açmışdır və prezident Əliyevin Romada olması onların hazırda ən yüksək nöqtəsidir. İtaliyaya gəldikdə, o bu siyasətlə həm ikitərəfli əlaqələr çərçivəsində, həm də Avropa Birliyinin nüfuzlu üzvü kimi, uzun müddətdən bəri mövcud olan və bu günə qədər Cənubi Qafqazda siyasi, iqtisadi və sosial inkişafı ləngidən regional münaqişələrin həllinə töhfə vermək məramını təsdiq edir. Beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normalarına, xüsusilə də dövlət müstəqilliyi, suverenlik və ərazi bütövlüyünə uyğun olaraq və 1997-ci il 25 sentyabr tarixli «Münasibətlərin prinsipləri haqqında birgə bəyannamə»yə istinad edərək, İtaliya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ATƏT vasitəsilə də dəstəyini təsdiq edir.

XXI əsrin qlobal çağırışlarına cavab verməsi üçün BMT-nin imkanlarının artırılması məqsədi ilə hər iki ölkə Birləşmiş Mil-

lətlər Təşkilatı ətrafında çoxtərəfli yanaşmaya tam dəstək verdiklərini və BMT sisteminin tam tərkibdə gücləndirilməsi üzrə öhdəliklərini bir daha təsdiqlədilər.

Onlar Birləşmiş Millətlər Təşkilatında islahatlar prosesinin uğurla həyata keçirilməsi üçün sıx əlaqələndirməyə ehtiyacın olduğunu yenidən təsdiq edirlər. BMT-də islahatların aparılması fərdi məsələləri ayrılıqda qabartmaqla deyil, ümumi razılıq əsasında həyata keçirilməlidir.

Təhlükəsizlik Şurasında islahatların aparılmasına gəldikdə isə İtaliya və Azərbaycan məsələnin üzv dövlətlərin ümumi razılığına uyğun və beynəlxalq ictimaiyyətin maraqlarını əks etdirən şəkildə həllinə üstünlük verilməsinin vacibliyi ilə razılaşırlar. Bu kimi həll yolları coğrafi təmsilolunmanın, demokratikliyin və səmərəliliyin qorunması və artırılmasına olan ehtiyacdan ruhlanmalıdır.

İtaliya Azərbaycanın Dünya Ticarət Təşkilatına daxil olmaq arzusunu əlverişli sayır.

Müxtəlif ölkələrin hücumlara məruz qaldığı şəraitdə İtaliya və Azərbaycan beynəlxalq terrorizmin hazırda ən ağır və təhlükəli problemlərdən biri olduğunu bildirdilər. Öz fəaliyyəti ilə özünü qəti şəkildə sivilizasiyalı dünyaya qarşı qoymuş terrorizmin pislənməsinə məhdudiyyət qoyulmamalı və ikili standartlara yol verilməməlidir. Terrorizmin ayrı-ayrı mədəniyyətlərin və dinlərin adı ilə bağlanması inkar edilməlidir, əksinə, bu məsələdə müxtəlif təriqətlər və sivilizasiyalar arasında dialoqun olması vacibdir. Bu kontekstdə İtaliya və Azərbaycan terrorizmin dəf edilməsi üçün birgə əməkdaşlıq etməyə hazır olduqlarını bir daha təsdiq edir və ixtisaslaşmış beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı tərəfindən həyata keçirilən antiterror fəaliyyətini tam dəstəklədiklərini ifadə edirlər.

İtaliya və Azərbaycan bir sıra cinayətkar fəaliyyətlərə (qeyri-qanuni immiqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq və s.) qarşı mübarizə məqsədi ilə beynəlxalq əməkdaşlığın vacibliyini və həmin sahələrdə birgə fəaliyyət niyyətlərini bir daha təsdiqləyirlər.

Hər iki ölkə ikitərəfli münasibətlər çərçivəsində ümumi maraq kəsb edən bir çox sahələrdə əldə olunmuş əhəmiyyətli nailiyyətlərdən məmnundur və iqtisadi sahədə son dövrdə ticarət-sənaye palatalarının fəaliyyətə başlaması, iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiyanın yaradılmasına dair sazişin imzalanması kimi hadisələrin mühümlüyünü vurğuladılar. Bu kontekstdə hazırda əhəmiyyətli sayılan karbohidrogen sektoru gələcəkdə xüsusi əməkdaşlıq sahəsi kimi aktual olaraq qalacaq, yaxın zamanlarda əlavə neft və qaz kəmərlərinin istifadəyə verilməsi (xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri) və Xəzər dənizinin zəngin yataqlarının gələcəkdə tammiqyaslı istismarı İtaliya–Azərbaycan əməkdaşlığı üçün də yeni imkanlar yaradacaqdır.

Hər iki ölkə iqtisadi əməkdaşlığın şaxələndirilməsinin təşviqinin üstünlüklərini qəbul edir və bu məqsədlə indiyə qədər nəqliyyat və kommunikasiya, turizm, ətraf mühit, müəllif hüquqlarının qorunması və digər bu kimi az istismar olunmuş sahələrdə səmərəli fəaliyyət göstərmək üçün İtaliyanın kiçik və orta sahibkarlıq modelinin nəzərdə tutduğu potensialdan istifadə edəcəkdir.

Hər iki ölkə, həmçinin mədəniyyət sahəsində əməkdaşlığa əhəmiyyət verir, tələbələr və tədqiqatçılar mübadiləsinin artırılmasına, elm adamları, mədəniyyət və incəsənət aləminin nümayəndələri, kütləvi informasiya vasitələri və televiziya xəbər xidmətləri arasında əlaqələrə yardım göstərməyə hazır olduqlarını bildirirlər.

Prezident Əliyevin səfəri ilə əlaqədar imzalanmış sənədlər («Azərbaycan Respublikası hökuməti və İtaliya Respublikası hökuməti arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatı və aradan qaldırılması üzrə qarşılıqlı inzibati yardım haqqında saziş», «Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Respublikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəniyyət abidələrinin qorunması və inventarlaşdırılması sahəsində əməkdaşlığa dair bəyannamə», «Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İtaliya Res-

publikası Mədəni İrs və Mədəni Fəaliyyət Nazirliyi arasında mədəni dəyərlərin mühafizəsi və onların oğurlandığı halda geri qaytarılması ilə əlaqədar əməkdaşlığa dair bəyannamə», «Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və İtaliya Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu», «Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və İtaliya Milli Olimpiya Komitəsi arasında texniki və idman sahələrində əməkdaşlıq haqqında saziş», «AzərTAc və A-NSA xəbər agentlikləri arasında informasiya mübadiləsi və əməkdaşlıq haqqında saziş», «Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Roma Şəhər Meriyası (İtaliya Respublikası) arasında dostluq və əməkdaşlıq haqqında protokol», «Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə İtaliya Respublikasının RAİ Radio-Televiziyası arasında əməkdaşlığa dair saziş») əməkdaşlığı və mübadilələri artırmaq, iki ölkə arasında «gücləndirilmiş dialoq»un gələcək konkretliyini təmin etmək, normativ qarşılıqlı etimad mühitini genişləndirmək üçün birgə istəyin göstəricisidir.

## VATİKAN DÖVLƏTİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*26 fevral 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Vatikan dövlətinə gəlmişdir. Dövlətimizin başçısının şərəfinə İsveçrə qvardiyasının fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Burada dövlətimizin başçısının təntənəli qarşılanma mərasimi oldu. Prezident İlham Əliyevi müqəddəs taxt-tacın prefekti monsenyor Xarven, prefektin müavini Paolo de Nikolo, İsveçrə qvardiyasının komandanı, Kardinallar kollegiyasının üzvləri, Roma Papasının digər rəsmi nümayəndələri ehtiramla qarşıladılar.*

*Monsenyor Xarven dövlətimizin başçısını qarşılayanları ona təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin Vatikanın dövlət katibi kardinal Ancelo Sodano ilə təkbətək görüşü oldu. Kardinal Sodano dövlətimizin başçısını səmimiyyətlə salamladı, onun İtaliya Respublikasına və Vatikan dövlətinə rəsmi səfərini yüksək dəyərləndirdi. O, Azərbaycan prezidenti İlham Əliyevə Vatikan dövlətinin başçısı, zati-müqəddəsləri Papa II İohann Pavelin salamlarını çatdırdı.*

*Azərbaycanın müstəqilliyinin Vatikan dövləti tərəfindən 13 il bundan əvvəl tanındığını bildirən Ancelo Sodano vurğuladı ki, Papa II İohann Pavel dinindən, irqindən, milli mənsubiyyətdən asılı olmayaraq, bütün insanların, xalqların dostu kimi tanınır.*

*Özünə və ölkəmizin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı Vatikanı ziyarət etdiyini, Papa II İohann Pavel ilə görüşüb ətraflı fikir mübadiləsi apardığını, eyni zamanda Vatikan dövləti başçısının*

*Azərbaycana səfərinin də uğurla keçdiyini xatırlatdı. Prezident İlham Əliyev zati-müqəddəsləri Papa II İohann Pavelə Tanrıdan şəfa dilədi.*

*Görüşdə Azərbaycanla Vatikan dövləti arasında əlaqələrdən də söhbət getdi. Kardinal Ancelo Sodano bildirdi ki, Azərbaycanda tikilməkdə olan katolik kilsəsinin açılış mərasimində iştirak etmək üçün Bakıya gələcəkdir.*

*Prezident İlham Əliyev ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, həyata keçirilən islahatlardan ətraflı söhbət açdı. Daha sonra xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və onun respublikamız üçün faciəli nəticələrdən bəhs edən dövlətimizin başçısı dedi ki, Ermənistan qeyri-konstruktiv mövqe tutduğuna görə, məsələnin sülh yolu ilə aradan qaldırılması mümkün olmur. Bu məsələdə Azərbaycanın mövqeyini açıqlayan prezident İlham Əliyev bildirdi ki, mötəbər beynəlxalq təşkilatlar və dünyanın nüfuzlu dövlətləri münaqişənin tezliklə həll edilməsi üçün səylərini gücləndirməlidir.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı. Görüşdən sonra Azərbaycan prezidenti dövlət katibi Ancelo Sodanoya xatirə hədiyyəsi təqdim etdi. Vatikanın dövlət katibi prezident İlham Əliyevə, habelə Azərbaycan nümayəndə heyətinin üzvlərinə hədiyyələr və üzərində II İohann Pavelin şəkli olan xatirə medalları təqdim etdi.*

* * *

*Sonra dövlətimizin başçısı İlham Əliyevi müqəddəs taxt-tacın prefekti monsenyor Xarven, prefektin müavini Paolo de Nikolo, İsveçrə qvardiyasının komandanı, Kardinallar kollegiyasının üzvləri, Roma Papasının digər rəsmi nümayəndələri hörmətlə yola saldılar.*

*Fevralın 26-da Azərbaycan prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan dövlətinə rəsmi səfəri başa çatdı. Azərbaycanın və İtaliyanın dövlət bayraqları ilə bəzədilmiş Romanın «Çampino» hərbi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi İtaliya Xarici İşlər Nazirliyi dövlət protokolu idarəsinin rəisi Paolo Puçi di Benesiki, Vatikan dövlətinin nümayəndələri, Azərbaycanın İtaliyadakı səfiri Emil Kərimov, İtaliyanın Azərbaycandakı səfiri Marqarita Kosta, Roma Hava Donanmasının komandanı, «Çampino» hərbi hava limanının komandanı səmimiyyətlə yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 26-da axşam Bakıya qayıtdı.*

## İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 mart 2005-ci il*

*Cənab Səfəri Azərbaycan prezidenti İlham Əliyevə İran prezidenti Məhəmməd Xatəminin salamlarını və bu yaxınlarda Tehranda məsciddə baş vermiş yanğın və Zərənddəki zəlzələ ilə əlaqədar başsağlığı məktublarına görə minnətdarlığını çatdırdı. O, Azərbaycan Prezidentinin İrana bu yaxınlarda rəsmi səfərinin uğurla keçdiyini vurğulayaraq, İran tərəfinin səfər zamanı imzalanmış sənədlərin həyata keçirilməsi istiqamətində konkret məsələlər üzərində işlədiyini qeyd etdi. Mehdi Səfəri əlaqələrimizin bundan sonra da daim inkişaf edəcəyinə əminliyini vurğuladı.*

*Dövlətimizin başçısı İran prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarının prezident Məhəmməd Xatəmiyə çatdırılmasını xahiş etdi. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə və xalqlarımızın maraqlarına uyğun şəkildə inkişaf etməsindən razılığını ifadə edən prezident İlham Əliyev İrana rəsmi səfərindən, ölkənin rəhbərləri ilə keçirdiyi görüşlərdən məmnunluğunu bildirdi. O, Tehranda imzalanmış sənədlərin, aparılan danışıqların və müzakirələrin xalqlarımızın bir-birinə daha da yaxınlaşması baxımından əhəmiyyətli olduğunu qeyd etdi. Dövlətimizin başçısı həmçinin Təbrizə səfərinin yüksək şəkildə təşkil edildiyini vurğuladı. Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA ÇIXIŞ

*3 mart 2005-ci il*

Bildiyimiz kimi, martın 2-də axşam «Monitor» jurnalının Baş redaktoru Elmar Hüseynov qətlə yetirilmişdir. Bu barədə bütün mətbuat orqanları məlumat vermişlər. Biz bu məsələyə öz münasibətimizi bildirməliyik. Eyni zamanda, istintaq çox yüksək səviyyədə aparılmalıdır və hüquq-mühafizə orqanları çalışmAlıdırlar ki, bu cinayət tezliklə açılsın. Deyə bilərəm, bu, müstəqil Azərbaycanın tarixində ilk belə hadisədir ki, hansısa mətbuat orqanının rəhbəri, yaxud da işçisi öldürülür.

Azərbaycanda mətbuat azadlığı mövcuddur və ümummilli lider Heydər Əliyev senzuranı ləğv etməklə bu azadlığa xüsusi şərait yaratmışdır. Azərbaycanda mətbuat azaddır və bu, cəmiyyətdə normal qarşılanır. Azad mətbuat azad cəmiyyətin əsaslarından biridir və biz də hüquqi, demokratik dövlət qururuq.

Azərbaycanda azad mətbuatın formalaşması üçün çox mühüm işlər görülübdür. Həm mətbuat işçilərinin özləri bu sahədə böyük işlər görüblər, eyni zamanda, dövlət tərəfindən mətubata münasibət həmişə müsbət olubdur. İqtidaryönlü mətbuat, yaxud da müxalifət mətbuatı olmasından asılı olmayaraq, biz heç vaxt ayrı-seçkilik qoymamışıq.

Bildiyimiz kimi, vaxtilə prezident Heydər Əliyev tərəfindən qəbul edilmiş qərara görə, mətbuat orqanlarının bütün borcları dondurulmuşdur və onlara kreditlərin verilməsi, mətbu orqanların güzəştli şərtlərlə nəşri haqqında göstərişlər verilmişdir. Bu siyasət bu gün də davam edir.

Ümumiyyətlə, Azərbaycan cəmiyyəti tərəfindən, iqtidar və müxalifət tərəfindən mətbuat orqanlarına münasibət çox dözümlüdür. Baxmayaraq ki, ortaya tənqidi fikirlər qoyulur. Hətta bəzi hallarda reallığı əks etdirməyən məsələlərdə də öz əksini tapır.

Amma bu da təbiidir. Həm ölkə, həm də bizim bütün demokratik təsisatlar, o cümlədən mətbuat keçid dövrünü yaşayır. Hesab edirəm, biz bu dövrü elə yaşamalıyıq ki, Azərbaycanda bütün azadlıqlar tam şəkildə öz əksini tapsın.

Bəzi hallarda müəyyən yazılarla bağlı insanlar, o cümlədən məmurlar məhkəmələrə müraciət edirlər. Mən şəxsən bunu dəstəkləmirəm və bir neçə dəfə bu müraciəti etmişdim ki, dövlət məmurları, nazirlər və digər vəzifəli şəxslər mətbuatda gedən yazılarla bağlı məhkəmələrə müraciət etməsinlər. Amma təbii ki, bu hər birinin hüququdur və heç kim bu hüququ heç kimin əlindən ala bilməz. Lakin bütövlükdə Azərbaycan iqtidarının mövqeyi belədir ki, mətbuata azadlıq verilib və çalışmaq lazımdır ki, Azərbaycanda azad mətbuat inkişaf etsin.

Hesab edirəm ki, törədilmiş qətl Azərbaycanın demokratik inkişafına böyük zərbədir və hüquq-mühafizə orqanları çalışmalıdırlar ki, bu cinayətin üstü tezliklə açılsın, cinayəti törətmiş şəxslər məsuliyyətə cəlb olunsunlar.

«Monitor» jurnalının Azərbaycanda özünəməxsus yeri vardır. Bu jurnal həm iqtidara, həm də müxalifətə münasibətdə öz mövqeyini saxlayır. Jurnalda həm iqtidar, həm də müxalifət tənqid olunur. Həm iqtidar, həm də müxalifət bu tənqidi həmişə normal qəbul edirdi. Yenə də deyirəm ki, azad mətbuatın mövcudluğu bizim ölkəmizin demokratik inkişafı üçün ən başlıca şərtlərdən biridir. Hesab edirəm ki, bu hadisə ilə, bu qətllə bağlı hüquq-mühafizə orqanları birgə fəaliyyət göstərməlidirlər.

Bəzi qüvvələr bu olaydan istifadə edib öz şəxsi siyasi maraqlarını güdəcəklər. Artıq belə məlumatlar var. Biz buna imkan verə bilmərik. Azərbaycanda son illər ərzində yaranmış vəziyyət, ictimai-siyasi durum çox müsbətdir. Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır və bizim başlıca vəzifəmiz bu sabitliyi, əmin-amanlığı, asayişi qorumuq və möhkəmləndirməkdir. Ona görə əgər kimsə öz siyasi maraqlarını, yaxud da şəxsi maraqlarını təmin etmək üçün istifadə edirsə, bunun qarşısı alınmalıdır.

Azərbaycanın inkişafında maraqlı olmayan qüvvələr var və biz bunu nəzərə almaya bilmərik. Biz Azərbaycanın inkişafının bütün məqamlarında xaricdən və daxildən qaynaqlanan bir çox sui-qəsdlərin şahidi olmuşuq. Bu il biz "Mərkəzi Azəri" yatağından əsas neftin çıxarılmasına nail olduq. Yaxın aylarda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi başa çatdırılacaq və biz ilk nefti göndərəcəyik. Azərbaycan növbəti parlament seçkilərini keçirməyə hazırlaşır. Belə bir məqamda jurnalistin qətlə yetirilməsi Azərbaycanın demokratik inkişafına vurulan ağır zərbədir. Bu hadisəni törədənlər Azərbaycanın beynəlxalq aləmdə formalaşan imicinə zərbə vurmağa, Azərbaycanı azad sözün boğulduğu bir ölkə kimi təqdim etməyə, seçki ərəfəsində nüfuzdan salmağa çalışırlar. Biz bu qətlin üstünün açılmasına və təxribatçıların ifşa olunmasına çalışmalıyıq.

Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dəfnin təşkili ilə bağlı mərhumun ailəsinə müraciət etmək haqda göstəriş vermişəm. Əgər onlara hansısa yardım, kömək lazım olacaqsa, bunu edin və lazımi tədbirlər görün.

* * *

*İclasda hadisənin təfərrüatı ilə bağlı hüquq-mühafizə orqanları rəhbərlərinin məruzələri dinlənilmiş və əlavə göstərişlər verilmişdir.*

## «MONİTOR» JURNALININ BAŞ REDAKTORU ELMAR HÜSEYNOVUN ÖLDÜRÜLMƏSİ İLƏ BAĞLI MƏTBUAT ÜÇÜN BƏYANAT VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Prezident sarayı*

*3 mart 2005-ci il*

Dünən axşam «Monitor» jurnalının baş redaktoru Elmar Hüseynov qətlə yetirildi. Mən mərhumun ailəsinə, qohumlarına, yaxınlarına başsağlığı verirəm. Allah rəhmət eləsin!

Hadisədən sonra mənə məlumat verildi. Mənim tərəfimdən hüquq-mühafizə orqanlarının rəhbərlərinə lazımi göstərişlər verilmişdir. Bilirsiniz ki, indi istintaq gedir və biz hamımız istintaqın nəticələrini gözləməliyik.

Mən bu gün səhər Təhlükəsizlik Şurasının iclasını keçirdim, bu məsələ müzakirə olundu. İstintaqın ilkin nəticələri məruzə edildi və geniş müzakirə aparıldı. Mənim tərəfimdən bütün hüquq-mühafizə orqanlarına qəti tapşırıq verilmişdir ki, bu məsələ çox ciddi araşdırılsın və cinayətkarlar ədalət mühakiməsinə cəlb olunsunlar.

Azərbaycanın müasir tarixində bu, ilk belə hadisədir. Bu vaxta qədər dinc şəraitdə jurnalistlər belə zorakılığa heç vaxt məruz qalmamışlar. Bu, ölkəmiz üçün böyük ləkədir. Hesab edirəm ki, Azərbaycanın demokratik inkişafına vurulmuş böyük zərbədir.

Azərbaycan çox uğurla inkişaf edir, öz iqtisadi, siyasi potensialını gücləndirir. Regional məsələlərdə lider funksiyasını öz üzərinə götürübdür. Bilirsiniz ki, 2005-ci il ölkənin gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. 2005-ci ildə Azərbaycan

üçün, bölgə üçün və ilk növbədə Azərbaycan xalqı üçün müstəsna əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilməlidir. Azərbaycanda 2005-ci ildə parlament seçkiləri keçiriləcəkdir. Biz hamımız indidən çalışmalıyıq ki, seçkilər ədalətli, şəffaf şəkildə keçirilsin və Azərbaycan xalqının iradəsi seçkilərdə tam mənada öz əksini tapsın, ifadə olunsun.

Bir sözlə, hesab edirəm ki, 2005-ci il Azərbaycanın gələcək inkişafı üçün həlledici il olacaqdır. Ona görə belə təxribatların, vəhşi hərəkətlərin baş verməsi, əlbəttə, bizi çox narahat edir. İlk növbədə, ona görə ki, gənc insan qətlə yetirildi, onun ailəsi başsız qaldı. Digər tərəfdən, ümumiyyətlə, bəzi qüvvələr bu vəziyyətdən öz maraqlarını təmin etmək üçün istifadə edə bilərlər. Həm daxili, həm də xarici dairələr bundan istifadə edə bilərlər.

İndi istintaq getdiyinə görə mən heç bir fərziyyə söyləmək istəməzdim. Bu, düzgün də olmazdı. İstintaq gedir və lazım gələrsə, əgər ehtiyac olarsa, biz beynəlxalq ekspertlərlə də əməkdaşlıq etməyə hazırıq. Artıq bizim hüquq-mühafizə orqanları tərəfindən müvafiq instansiyalara bu barədə müraciət edilibdir. Əgər belə bir ehtiyac olarsa, biz bunu etməyə hazırıq və özümüz bu təşəbbüslə çıxış edirik. Ən başlıcası da ondan ibarətdir ki, tezliklə cinayət açılsın və bu dəhşətli qətli törədənlər məsuliyyətə cəlb olunsunlar.

**S u a l: Cənab Prezident, Siz dediniz ki, belə bir mühüm vaxtda bu təxribatın törədilməsindən bəzi qüvvələr sui-istifadə edə bilər və demək olar ki, artıq istifadə edirlər. Yəni müxalifət tərəfindən bəzi fikirlər səsləndirilir. Bu məsələyə münasibətiniz necədir?**

**C a v a b:** Mən təəssüf edirəm ki, bu insanın faciəsi, ailənin faciəsi kiminsə əlində bir alətə çevrilə bilər. Hesab edirəm ki, bu  yolverilməzdir. Buna heç cür imkan vermək olmaz. Bu hadisədən heç bir siyasi kampaniya düzəltmək olmaz.

Ümumiyyətlə, Azərbaycanda gedən proseslər, ictimai-siyasi həyatda  gedən proseslər müsbət istiqamətdə inkişaf edir. Bilirsiniz ki, Azərbaycanda iqtidarla xalq arasında inam yüksək sə-

viyyədədir və ictimai-siyasi vəziyyətin sabit saxlanılması Prezident kimi, mənim ən başlıca vəzifələrimdən biridir. Ona görə, əlbəttə, heç bir imkan verilməyəcək ki, kimsə bu hadisədən istifadə edib öz siyasi maraqlarını təmin etsin. Amma eyni zamanda hesab edirəm ki, bütün siyasi qüvvələr özlərini təmkinlə aparmalı, heç bir qanun pozuntusuna yol verməməlidirlər. Yenə də deyirəm, bu məsələdən şəxsi ambisiyalar naminə heç kim istifadə etməməlidir.

**S u a l: Cənab Prezident, biz dünən hadisə yerində idik. İndi Siz dediniz ki, istintaq gedir. Amma əsas iki versiyadan danışılırdı. Birinci versiya ondan ibarətdir ki, Azərbaycanda parlament seçkiləri yaxınlaşır. Misal gətirirdilər ki, Gürcüstanda müxalifətdə olan jurnalistin ölümündən və Ukraynada jurnalist Qonqadzenin ölümündən sonra ölkədə vəziyyət gərginləşmişdi. Bunlarda ölkədə vəziyyəti gərginləşdirmək istəyən xaricdə olan üçüncü qüvvələrin əli ola bilər. Digər bir versiya isə hökumətin içində hər hansı bir şəxsin, yaxud hər hansı bir oliqarxın belə niyyətə düşməsi ola blər. Sizcə, bu iki versiyanın hansının üzərində daha çox düşünülür və daha hansı inanılan ola bilər?**

**C a v a b:** Bilirsiniz, bu, əlbəttə ki, istintaqın işidir və mən istintaqa müdaxilə edə bilmərəm və heç vaxt istəməzdim ki, necə deyərlər, bu barədə fikrimi bildirim. Amma eyni zamanda, mən hesab edirəm ki, ən çox inandırıcı versiya məhz dediyiniz birinci versiyadır. Çünki doğrudan da Azərbaycanda mövcud olan indiki ictimai-siyasi sabitliyi hansısa bir üsullarla, yaxud da bir hərəkətlə pozmaq mümkün deyildir. Ciddi bir hadisə baş verməlidir ki, Azərbaycanda bu sabitliyə hansısa bir zərbə dəysin. Ona görə mən onu istisna etmirəm. Bu həm daxili qüvvələrin marağına qulluq edir, bəzi xarici dairələrin marağına qulluq edir. Belə olan hallarda, adətən, sual verilir ki, bu qətl kimin xeyrinədir? Əgər biz bu suala cavab versək görərik ki, kimin xeyrinədir. Hər halda, Azərbaycan iqtidarının xeyrinə deyildir. Azərbaycanda vəziyyəti gərginləşdirmək istəyən, Azərbaycanda bu müsbət meyllərin qarşısını almaq istəyən dairələrin, qüvvələ-

rin marağındadır. Amma, əlbəttə, bu mənim şəxsi fikirlərimdir. İstəməzdim ki, mənim fikirlərim istintaqa hər hansı bir təsir göstərsin. Ona görə, əlbəttə, bütün versiyalar öyrənilməlidir.

Bilirsiniz ki, "Monitor" jurnalı uzun illərdir fəaliyyət göstərir. Onun özünə xas olan mövqeyi var. Azərbaycanda hər bir mövqeyə hörmətlə yanaşılır. Azad mətbuat bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdən biridir. Bilirsiniz ki, vaxtilə tətbiq edilmiş senzura məhz Heydər Əliyevin dövründə aradan götürüldü və bu gün Azərbaycanda mətbuat azadlığı var və bu reallıqdır. Bu azadlığı heç kim boğa bilməz və ümumiyyətlə, bunu etmək mümkün deyildir. Əlbəttə, bu jurnalın müxtəlif yazıları, müxtəlif məqalələri kimisə qıcıqlandıra bilər. Amma bu, artıq bir neçə il, bəlkə beş il, altı ildir davam edir və jurnalda həm iqtidarla bağlı, həm də müxalifətlə bağlı müxtəlif tənqidi yazılar gedirdi.

Misal üçün, mən deməzdim ki, bu jurnal müxalifətin bir orqanıdır. Çünki orada iqtidarla müxalifət, demək olar ki, eyni, təxminən eyni səviyyədə tənqid edilir, yaxud da bəzi məsələlər təhlil olunur. Hesab edirəm ki, hər iki tərəf buna normal baxır. Yəni, Azərbaycan cəmiyyəti – onun iqtidarı da, müxalifəti də artıq belə açıq mətbuata öyrəşibdir. Yenə də deyirəm, Azərbaycanın demokratik inkişafı baxımından bu bizim ən böyük nailiyyətlərimizdən biridir. Törədilmiş bu qətl məhz azad mətbuatın, demək olar ki, boğulmasına, yaxud da başqa maraqların güdülməsinə yönəldilmişdir. Amma yenə də deyirəm ki, bunu əlbəttə, istintaq araşdırmalıdır.

**S u a l: Cənab Prezident, əgər belə bir hadisə ilə Azərbaycanı nüfuzdan salmaq, Azərbaycanın rəhbərliyinə zərbə vurmaq istəyirlərsə və buna nail olunmursa, bu o deməkdirmi ki, bundan sonra bu cür və buna oxşar cəhdlər davam edəcəkdir?**

**C a v a b:** Bilirsiniz, heç bir şeyi istisna etmək olmaz. Mən yenə də birinci sualın cavabına qayıdıram. Azərbaycan indi öz müstəqilliyinin, bəlkə də ən vacib ilini yaşayır. 2005-ci il bütün cəhətlərdən – iqtisadi, regional inkişaf, siyasi cəhətdən həlledici il olacaqdır. Ona görə heç kim istisna edə bilməz ki, buna oxşar

hadisə, yaxud da bundan daha da dəhşətli hadisə baş verməsin. Biz bunu istisna edə bilmərik.

Qonşu ölkələrdə baş verən hadisələr, terror aktları, təxribatlar göstərir ki, heç bir ölkə özünü tam mənada müdafiə olunmuş hesab edə bilməz. Heç kim yüz faiz sığortalı deyil, o cümlədən biz də. Ona görə hüquq-mühafizə orqanlarının üzərinə böyük vəzifələr düşür. Amma o da həqiqətdir ki, hər bir insanın yanına, hər bir tanınmış adamın yanına bir qoruyucu, yaxud da mühafizəçi qoymaq mümkün deyildir. Ona görə burada həm də şəxsi məsuliyyətdən söhbət gedir. Cəmiyyətdə, siyasətdə müəyyən çəkiyə malik hər bir insan ehtiyatlı olmalıdır. Heç kim təminat verə bilməz ki, sabah buna oxşar hadisə təkrarlanmasın. Əlbəttə, biz öz tərəfimizdən hər şeyi edirik və əlimizdən gələni edəcəyik ki, Azərbaycanda asayiş pozulmasın, cinayətkarlar məsuliyyətə cəlb olunsunlar. Hüquq-mühafizə orqanlarının vəzifəsi də məhz bundan ibarətdir. Mən bu gün onların qarşısında məsələni çox kəskin qoydum ki, qısa müddət ərzində bu cinayətin üstü açılmalıdır.

Ümumiyyətlə, Təhlükəsizlik Şurasında daha geniş kontekstdə söhbət aparılmışdır. Son müddət ərzində Azərbaycanda, Bakıda baş vermiş xoşagəlməz hadisələr, silahlı basqınlar, adam oğurluğu və nəhayət, bu qətl hadisəsi çox narahatedici simptomlardır. Mən bilmirəm, biz bunu nə dərəcədə ümumiləşdirib hansısa bir sistem çərçivəsinə sala bilərik, yoxsa yox – əlbəttə, bunu hüquq-mühafizə orqanları etməlidir. Amma, hər halda, bu bizi düşünməyə vadar edir. Belə hadisələrin çoxalması və qəddarlığı prezident kimi, məni narahat edir. Ona görə hüquq-mühafizə orqanlarının qarşısına ciddi tələblər qoyulubdur. Orada çox ciddi əlaqələndirmə olmalıdır. Bütün orqanlar – Daxili İşlər Nazirliyi, Baş prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi birgə fəaliyyət göstərməlidir. Bilirsiniz ki, hərənin öz funksiyası var, hərənin də öz imkanları vardır. Ona görə burada birgə fəaliyyət olmalıdır ki, belə hallara yol verməyək.

**S u a l: Cənab Prezident, insanların əsas narahatlığı ondan yaranır ki, bir çox qalmaqallı cinayətlər bu günə qədər**

**açılmamış qalır. Siz dediniz ki, Təhlükəsizlik Şurasının iclasında tapşırıqlar vermisiniz. Bu istiqamətdə də tapşırıqlar olubmu?**

**C a v a b:** Bəli, olub. Geniş iclas bir saat yarım davam edibdir və bu vaxta qədər açılmayan cinayətlər haqqında məruzələr edilibdir. Mən indi bunları açıqlamaq istəmirəm. Bu hadisələri siz də bilirsiniz. Bəzi işlərdə müəyyən irəliləyiş var. Amma əfsuslar olsun ki, əksər hallarda bu cinayətlərin üstü açılmır. Ona görə bütün tədbirlər görülməlidir. Amma onu da bilirik ki, bəzi cinayətlər təəssüf ki, hələ açılmamış qalır.

**S u a l: Cənab Prezident, həbsxanalarla bağlı hadisələrdən insanlar ciddi narahat olmuşdur. Sizə bu barədə tam məruzə olunubmu, nə baş verir və bu, narahatlıq doğuracaq səviyyədədirmi?**

**C a v a b:** Əlbəttə, məruzə olunub və sizə də deyə bilərəm ki, artıq bir neçə aydır bu barədə müxtəlif məlumatlar daxil olur. Əlbəttə, mənim tərəfimdən onlar öyrənilir, təhlil edilir və son müddət ərzində o kadr dəyişiklikləri də elə-belə baş vermədi. Bunun arxasında müəyyən işlər var, təhlillər var, məlumatlar var.

Ümumiyyətlə, mən bu vəziyyətlə tanış olanda dəhşətə gəldim. Mən heç təsəvvür edə bilməzdim ki, bu cür dəhşətli qanun pozuntuları var. Heç bir mənəviyyata, əxlaqa sığmayan, qanuna sığmayan hadisələr var. Ona görə ciddi tapşırıq verilibdir ki, ciddi araşdırma aparılsın və ölçülər götürülsün. Biz imkan verə bilmərik ki, Azərbaycanda cinayətkar ünsürlər baş qaldırsın. Heç vaxt Azərbaycanda buna imkan verə bilmərik. Azərbaycanda qayda-qanun var. Bəzi başqa ölkələrin təcrübəsi onu göstərir ki, əgər vaxtında ciddi tədbirlər görülməsə, bu cinayətkar aləm ölkədə gedən proseslərə çox güclü şəkildə təsir edir. Biz isə buna imkan verə bilmərik. Ona görə ciddi tədbirlər görülür. Ancaq qanun çərçivəsində. Hər şey qanun çərçivəsində olmalıdır. Biz qanunu qeyri-qanuni yollarla tətbiq edə bilmərik. Qanunun aliliyi demokratik cəmiyyətin qurulması üçün başlıca şərtdir və biz o sistemdə də buna  nail olacağıq.

**S u a l: Cənab Prezident, parlament seçkilərinə çox vaxt qalsa da, bu gün ölkədə əsas müzakirə mövzusu seçkilərlə bağlıdır. Bu məsələ Sizin nə qədər diqqətinizdədir və Azərbaycanın prezidenti kimi, Siz əmin edə bilərsinizmi ki, seçkilər tam obyektiv, ədalətli keçiriləcəkdir?**

**C a v a b:** Birincisi, mən istəməzdim ki, bugünkü müsahibə bu çərçivədən kənara çıxsın. Bəlkə bu sualdan sonra biz bunu yekunlaşdıraq. Çünki mənim sizinlə əsas görüşmək istəyim bu hadisə ilə bağlı idi. Qalanlarını sonra da müzakirə edə bilərik. Amma bir halda sual verirsiniz, deyim ki, mən hesab edirəm, Azərbaycanda parlament seçkiləri ədalətli, şəffaf şəkildə keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi öz əksini tapacaqdır. Seçkilər və onun nəticələri Azərbaycanın demokratiya yolunda daha da uğurla addımlamasını təmin edəcəkdir.

Amma eyni zamanda mən istəməzdim ki, 2005-ci il bu seçkilər şüarı altında keçsin. Seçkilərə hələ, haradasa, 8 ay vaxt var. Azərbaycanda prezident, parlament və bələdiyyə seçkiləri müxtəlif vaxtlarda, illərdə baş verir, əgər biz belə bir yanaşma ilə davam etsək, onda bütün illərimiz elə seçkilərə sərf olunacaq.

Seçkilər bir prosesdir. Biz hamımız bilirik və çox vacibdir ki, seçkilərdən əvvəlki dövrdə hər bir namizədə eyni, bərabər şərait yaradaq ki, seçkilər yüksək səviyyədə keçsin. Biz bunu təmin edəcəyik.

Əlbəttə, seçkilərin keçirilməsi, səslərin hesablanması və bütün digər məsələlər şəffaf şəkildə olmalıdır və olacaqdır. Mən əminəm, çoxlu müşahidəçilər gələcəkdir. Bizim onlardan yeganə arzumuz, xahişimiz o olacaq ki, öz müşahidələrini ədalətli aparsınlar. Bəzi hallarda müşahidəçilər bağlı qapılar arxasında bir şey deyirlər, amma görürsən ki, rəsmi bəyanatlarda tam başqa bir ifadələr ortaya çıxır. Bu, məruzələri hazırlayan insanlara bizim etimadımızı artırmır və ümumiyyətlə, məruzələrə inam o qədər də böyük olmur. Ədalətli yanaşma olmalıdır, heç bir siyasi motivasiya olmamalıdır. Seçkilərdə və seçkilərə qiymət verəcək sənədlərdə ədalət və reallıq öz əksini tapmalıdır.

Amma yenə də demək istəyirəm ki, Azərbaycanın inkişafı və gündəlik məsələləri gərək kölgədə qalmasın. İndi bizim əsas niyyətimiz, istəyimiz, arzumuz odır ki, ölkəmizi çox sürətlə inkişaf etdirək, modernləşdirək, müasirləşdirək, yeni infrastruktur yaradaq, siyasi təsisatları möhkəmləndirək. Azərbaycanda demokratik cəmiyyətin yaradılması istiqamətində daha da inamla islahatlar aparaq. Seçkilər bu siyasətin bir tərkib hissəsidir. Ona görə də sadaladığım bütün bu məsələlər seçkilərin kölgəsində qalmamalıdır. Amma yenə də deyirəm ki, eyni zamanda bütün seçki prosesi də təmin olunmalıdır. Sağ olun.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 mart 2005-ci il*

*Gürcüstanın Baş nazirinin səfərini fikir mübadiləsi aparmaq, qazanılmış uğurlara yekun vurmaq və əməkdaşlığın gələcək inkişaf yollarını müəyyən etmək baxımından daha bir imkan kimi səciyyələndirən prezident İlham Əliyev son bir ildə ticarət dövriyyəsinin 1,7 dəfə artmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı dedi ki, bu artım Azərbaycan və Gürcüstanın iqtisadiyyatlarının uğurlu inkişafını, iqtisadi potensialının güclənməsini, habelə ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə fəal inkişaf etdiyini göstərir. Ötən il birgə iqtisadi komissiyanın yaradılmasının da bu sahədə böyük rolu olmuşdur. Hesab edirik ki, iqtisadi əməkdaşlıq sahəsində daha böyük potensial mövcuddur və biz bütün bu imkanlardan maksimum istifadə etməyə çalışacağıq. İkitərəfli münasibətlər baxımından ölkələrimiz arasında qarşılıqlı anlaşma, əməkdaşlıq və qarşılıqlı dəstək ən yüksək səviyyədədir. Prezident Mixail Saakaşvilinin Azərbaycana səfəri və mənim Gürcüstana səfərim ölkələrimizin nə qədər yaxın olduğunu, ikitərəfli formatda və regional məsələlərdə səylərimizi necə sıx əlaqələndirdiyimizi göstərdi ki, bu da münasibətlərin gələcək inkişafı üçün böyük əhəmiyyətə malikdir.*

*Prezident İlham Əliyev daha sonra xatırlatdı ki, biz həmişə demişik ki, Azərbaycanın əmin-amanlığı Gürcüstanın əmin-amanlığından asılıdır. Ümidvaram ki, Gürcüstanın əmin-amanlığı da Azərbaycanın əmin-amanlığından asılıdır. Biz ənənəvi olaraq tarixən və mədəni baxımdan bir-birimizə çox yaxın olmuşuq və*

ölkələrimizin inkişafının hazırkı mərhələsində Gürcüstanın və Azərbaycanın yeni rəhbərliyi arasında olan tam qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və dostluq çox əhəmiyyətlidir.

Gürcüstana rəsmi səfəri zamanı söylədiyi "biz prezidentlər dostuq edirik və hamı da dostluq etməlidir" sözlərini bir daha yada salan dövlətimizin başçısı Gürcüstanda yaşayan azərbaycanlıların da rəhbərlər arasındakı belə səmimi münasibəti hiss etdiklərini qeyd etdi. Prezident İlham Əliyev prezident Mixail Saakaşvili ilə Marneuli rayonuna etdikləri səfəri mühüm hadisə kimi dəyərləndirdi və Azərbaycan rəhbərliyinin yerli hakimiyyət orqanları ilə birlikdə bu bölgədə sosial infrastrukturun, idmanın və digər sahələrdə inkişafına yardım göstərməyə çalışdığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, prezidentlərin qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar uğurla yerinə yetirilir. O cümlədən humanitar sahədə – məktəblərin kitablarla təmin olunmasında, teatrların fəaliyyətinin təmin edilməsində böyük irəliləyiş vardır. Mənim sərəncamımla Azərbaycandakı gürcü teatrına dövlət teatrı statusu verilmişdir və onun fəaliyyətinə hər cür yardım göstəriləcəkdir.

Əməkdaşlıq sahəsindəki nailiyyətlərdən məmnunluğunu bir daha vurğulayan prezident İlham Əliyev Gürcüstanın uğurlarının, iqtisadi potensialının güclənməsinin, beynəlxalq və regional məsələlərdə rolunun artmasının sevindirici olduğunu söylədi, Prezident Mixail Saakaşviliyə özünün ən xoş, dostluq arzularını çatdırmağı xahiş etdi. Eyni zamanda, Zurab Noğaidelini Baş nazir təyin olunması münasibətilə təbrik etdi, yeni vəzifəsində ona uğular arzuladı.

Cənab Zurab Noğaideli onun üçün çox əziz və sevimli şəhər olan Bakıya səfərindən məmnunluğunu söylədi və ölkələrimiz arasındakı dostluğu iki xalqın hər bir nümayəndəsinin dostluq münasibətlərinin nəticəsi kimi səciyyələndirdi. O dedi: "İcazənizlə, mən Sizin atanız, prezident Heydər Əliyevin son illər təkcə Azərbaycanın inkişafında deyil, habelə Gürcüstan–Azərbaycan əlaqələrinin və Gürcüstanın bir dövlət kimi inkişafında rolunu xüsusi olaraq vurğulamaq istəyirəm. Hesab edirəm ki, onun

*xidmətləri çox mühümdür və* biz bunu unutmuruq, *həmişə* min-*nətdarlıq* hissi *ilə xatırlayırıq və xatırlayacağıq".*

*Gürcüstanın Baş* naziri *öz fəaliyyətində ikitərəfli əlaqələrin inkişafına* daha böyük dinamizm *vermək üçün səy göstərəcəyini və* bundan *ötrü bütün sahələrdə böyük* potensial *olduğunu söylədi. O, Bakı–Tbilisi–Ceyhan əsas* ixrac boru *kəməri,* iqtisadi *və ticarət əlaqələri sahəsində əməkdaşlığın* daha da *möhkəmləndirilməsi və hökumətlərarası* komissiyanın *iclasında müzakirə* olunan *digər məsələlər barədə məlumat* verdi.

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNALABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tunis arasındakı xoş münasibətlərin inkişafı, əlaqələrimizin daha da genişləndirilməsi üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uğurlar, dost Tunis xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2005-ci il*

## NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNİYA POHAMBAYA

Hörmətli cənab Prezident!

Namibiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq münasibətlərinin inkişafı xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı bildirir, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 mart 2005-ci il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli qadınlar!

Əziz analar və bacılar!

Sizi 8 Mart – Beynəlxalq qadınlar günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan qadınları əsrlər boyu xalqımızın taleyində böyük rol oynamışlar. Qadın adına hədsiz ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır.

Tariximizə dahi şəxsiyyətlər bəxş etmiş Azərbaycan qadınının gözəlliyini, onun mənəvi saflığını, mərdliyini və sədaqətini görkəmli sənətkarlarımız öz əsərlərində dönə-dönə tərənnüm etmişlər.

Tarixin sınaqlarından alnıaçıq, üzüağ çıxan Azərbaycan qadını bu gün müstəqil respublikamızda demokratik cəmiyyətin aparıcı üzvü kimi çıxış edir. Ölkəmizi inkişaf edən firavan bir dövlətə çevirmək yolunda görülən işlərdə qadınlarımızın müstəsna əməyi var.

Milli dövlət quruculuğunun ən müxtəlif sahələrində xüsusi xidmətlər göstərən Azərbaycan qadını ictimai proseslərin fəal iştirakçısıdır. O, ölkəmizdə sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əzmkarlıq göstərir, vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi, milli-mənəvi dəyərlərin daim yaşadılması və mədəniyyətimizin inkişaf etdirilməsi üçün var qüvvəsini səfərbər edir.

Azərbaycan qadını doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu indiki dövrdə gəncləri vətənə sədaqət

ruhunda tərbiyə edərək onları xalqa, cəmiyyətə layiqli övlad yetişdirmək kimi üzərinə düşən ağır yükü şərəflə çəkir.

Əziz qadınlar!

Hamınıza cansağlığı, ailə səadəti, xoşbəxtlik və gələcək işlərinizdə uğurlar diləyirəm. Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 mart 2005-ci il*

## DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev maestro Mstislav Rostropoviçin Azərbaycana növbəti səfərindən məmnunluq duyduğunu bildirdi və onun rəhbərliyi altında konsertin Azərbaycanda həmişə olduğu kimi, indi də böyük maraqla gözlənildiyini vurğuladı.*

*Mstislav Rostropoviç öz vətənində olmağından qürur hissi keçirdiyini bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin sayəsində Azərbaycanla əlaqələrinin daim yüksək səviyyədə saxlanıldığını və bu əlaqələrin prezident İlham Əliyevin fəaliyyəti dövründə də uğurla davam etdirildiyini vurğuladı.*

*Fransada YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclasında iştirakına toxunan dünya şöhrətli musiqiçi Azərbaycan prezidentinin xanımı, Xoşməramlı səfir Mehriban Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyətinin fəaliyyətinin orada çox böyük diqqət və maraqla izlənildiyini bildirdi. O, xanım Mehriban Əliyeva tərəfindən təqdim edilmiş Azərbaycan musiqi albomunun tədbirdə xüsusi rəğbətlə qarşılandığını vurğuladı.*

*Mstislav Rostropoviç Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətində dövlətimizin başçısına yeni-yeni uğurlar arzuladı.*

*Martın 7-də Azərbaycan Dövlət Filarmoniyasında maestro Mstislav Rostropoviçin dirijorluğu ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olmuşdur.*

*Konsertdə Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva olmuşlar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ

*8 mart 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığnın dövlət bayraqları ilə bəzədilmiş hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Krallığın paytaxtı Ər-Riyad şəhərinin hərbi hava limanında təyyarənin pilləkəni yanında böyük hörmət və ehtiramla qarşılandılar.*

*Dövlətimizin başçısını Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Əbdüləziz Al Səud, Ər-Riyad vilayətinin qubernatoru Əmir Salman bin Ədbüləziz Al Səud, paytaxtın meri Əbdüləziz bin Əyyaf Al Mükrin, Ticarət və Sənaye naziri Hişam bin Abdulla Yamani, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Elman Araslı, Səudiyyə Ərəbistanının Bakıdakı səfiri Əli Həsən Cəfər və digər yüksək səviyyəli şəxslər qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi. Azərbaycanın və Səudiyyə Ərəbistanının dövlət himnləri əzəmətlə səsləndi.*

*Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin önündən keçdi.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət nümayəndələri, vəliəhd Əmir Abdulla bin Əbdüləziz Al Səud Azərbaycan nümayəndə heyətinin üzvləri ilə görüşdülər.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*Həmin gün – martın 8-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgaha – Vəliəhd Əmir Adbulla bin Əbdüləziz Al Səudun sarayına gəlmişdir.*

*Sarayda Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Əmir Abdulla bin Əbdüləziz Al Səuda təqdim olundu.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə Vəliəhd, Baş nazirin birinci müavini, Milli Qvardiyanın rəisi Əmir Abdulla bin Ədbüləziz Al Səud arasında qısa görüş oldu.*

*Görüşdən sonra Əmir Abdulla bin Əbdüləziz Al Səud Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verdi. Ziyafətdə Səudiyyə Ərəbistanının dövlət və hökumət nümayəndələri iştirak edirdilər.*

**AZƏRBAYCAN PREZİDENTİ İLƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ARASINDA TƏKBƏTƏK GÖRÜŞ**

*8 mart 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Kralının Əl-Yamama sarayına gəldi. Burada dövlətimizin başçısını İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Fəhd bin Əbdüləziz Al Səud böyük hörmət və ehtiramla qarşıladı.*

*Görüşdə ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı İlham Əliyev rəsmi səfərə dəvətə görə minnətdarlığını və İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun Azərbaycanın ali mükafatına – «İstiqlal» ordeninə layiq görüldüyünü bildirdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin çox yüksək səviyyəyə çatdığını vurğuladı və bunun daha da genişləndirilməsi üçün yaxşı perspektivlər olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycan münasibətlərimizin bundan sonra da yüksək sürətlə inkişafına çalışacaqdır.*

*Kral Fəhd bin Əbdüləziz Al Səud səmimi sözlərə və dəvətini qəbul edib səfərə gəldiyinə görə Azərbaycan prezidentinə dərin təşəkkürünü bildirərək dedi ki, biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Azərbaycanın ümummilli lideri, dünya şöhrətli siyasi xadim, Sizin atanız Heydər Əliyevin dövlətlərimiz arasında əlaqələrin inkişafındakı tarixi xidmətlərini və onun 1994-cü ildə ölkəmizə rəsmi səfərini yaxşı xatırlayır və Allahdan ona rəhmət diləyirik.*

*Sonra Kral Fəhd bin Əbdüləziz Al Səud Azərbaycan prezidenti İlham Əliyevi Səudiyyə Ərəbistanı Krallığının ali dövlət mükafatı – «Kral Əbdüləziz» ordeni ilə təltif etdi. Xatırladaq ki, bu orden*

*dünyanın ən nüfuzlu, ən görkəmli siyasi xadimlərinə təqdim olunur.*

*Prezident İlham Əliyev yüksək dövlət mükafatına görə minnətdarlığını bildirdi.*

*Daha sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi, ikitərəfli münasibətlərlə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN İŞTİRAKI İLƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*8 mart 2005-ci il*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev Əmir Abdulla bin Əbdüləziz Al Səuda ölkəmizin ən ali mükafatına – «İstiqlal» ordenini təqdim etdi.*

**A l  S ə u d:** Cənab Prezident, Ali mükafata görə dərin minnətdarlığımı bildirirəm. Sizi və nümayəndə heyətinizi İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanının xalqı adından salamlayıram. Arzu edirəm ki, Sizin Səudiyyə Ərəbistanına səfəriniz uğurlu olsun və ölkələrimiz arasında əlaqələrin inkişafına yeni mərhələ açsın. Əminəm ki, bu səfəriniz Sizdə xoş və zəngin təəssürat yaradacaq və bir daha Səudiyyə Ərəbistanına gələrək bizim ali qonağımız olacaqsınız.

**İ l h a m  Ə l i y e v:** Yüksək qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Bu gözəl ölkəyə səfərimdən çox şadam. Biz artıq fikir mübadiləsi aparmışıq və görürük ki, həqiqətən ölkələrimiz arasında dərin tarixi, dini və mədəni köklərə söykənən çox yüksək əməkdaşlıq münasibətləri vardır. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Səudiyyə Ərəbistanı ölkəmizi daim dəstəkləmiş və ona həmişə kömək göstərmişdir. Əminəm ki, bu səfər

ölkələrimiz arasında münasibətlərin daha sürətli inkişafına səbəb olacaqdır.

*Sonra görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı münaqişənin kökləri və indiki vəziyyət, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, qaçqınların və məcburi köçkünlərin ağır şəraiti barədə ətraflı söhbət açdı.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi və dərinləşdirilməsi barədə ətraflı fikir mübadiləsi oldu. Prezident İlham Əliyev vurğuladı ki, əlaqələrimizin inkişafının böyük perspektivləri vardır və biz buna nail olmalıyıq.*

*Ermənistan–Azərbaycan münaqişəsinə münasibətini açıqlayan Əmir Abdulla bin Əbdüləziz Al Səud dedi ki, Səudiyyə Ərəbistanı həmişə olduğu kimi, bundan sonra da Azərbaycanın haqq işini dəstəkləyəcəkdir. Bizim ölkəmiz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını istəyir və bunun üçün beynəlxalq təşkilatlar çərçivəsində əlindən gələn köməyi əsirgəməyəcəkdir. Bu məsələ ilə bağlı hökumət üzvlərinə konkret tapşırıqlar və göstərişlər veriləcəkdir. Biz istəyirik ki, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrimiz siyasi münasibətlərimiz səviyyəsinə qalxsın.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi edildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərinin ikinci günü – martın 9-da öz iqamətgahında ölkənin ən kütləvi tirajlı mətbuat orqanı olan «Ər-Riyad» qəzetinə, habelə Səudiyyə Ərəbistanının hökumət televiziya xidmətinə müsahibə verdi.*

### Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında sənədlərin imzalanması mərasimi

*Martın 9-da Əmir Abdulla bin Əbdüləziz Al Səudun sarayında Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Səudiyyə Ərəbistanı Krallığının İnkişaf Fondu ilə Vəlvəlçay-Taxtakörpü kanalının tikinti layihəsinin maliyyələşdirilməsinə dair 18 milyon dollarlıq kredit sazişini Səudiyyə Ərəbistanı Krallığının Maliyyə naziri İbrahim əl-Əssaf və Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov imzaladılar.*

*Səudiyyə Ərəbistanı Krallığı hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişi Səudiyyə Ərəbistanı Krallığının Maliyyə naziri İbrahim əl-Əssaf və Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE PALATASINDA NİTQ

*9 mart 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi binanın önündə palata sədrinin müavini Səəd bin İbrahim böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığı işgüzar dairələrinin nümayəndələri ilə görüşü oldu. Səəd bin İbrahim görüşü açaraq Azərbaycan prezidentini və onu müşayiət edən nümayəndə heyətinin üzvlərini salamladı, səfər çərçivəsində aparılan danışıqların ölkələrimiz arasında iqtisadi-ticarət münasibətlərinin inkişafına təkan verəcəyini bildirdi. Ölkəsinin neft və qaz ehtiyatları ilə zəngin olan Azərbaycana böyük maraq göstərdiyini, iş adamlarının dost və qardaş Azərbaycana sərmayə qoyması üçün gözəl şərait yaradıldığını vurğuladı. O dedi ki, əsası dünya şöhrətli tarixi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası uğurla həyata keçirilir, Səudiyyə Ərəbistanı–Azərbaycan əlaqələri davam etdirilir. 1994-cü ildə «Əsrin müqaviləsi» məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə imzalanmışdır və Səudiyyə Ərəbistanı Krallığının neft şirkəti də onun iştirakçılarından biridir. Əminik ki, əməkdaşlığımız daha da genişlənəcəkdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli dostlar!

Çox sağ olun. Ən əvvəl, bu görüşdə iştirak etməyə dəvətinizə görə və münasibətlərimizin iqtisadi sahəsi, gələcək perspek-

tivləri ilə bağlı fikir mübadiləsi aparmaq məqsədi ilə yaradılmış imkana görə sizə minnətdarlığımı bildirirəm.

Əvvəla, onu demək istəyirəm ki, ölkənizdə olmağımdan çox şadam. Dünən İki Müqəddəs Ocağın Xadimi, Əlahəzrət Kral və Əlahəzrət Vəliəhd ilə çox mühüm görüşlər keçirmişəm. Biz ikitərəfli münasibətlərə aid bir sıra məsələləri, regional inkişafı, təhlükəsizlik məsələlərini müzakirə etmişik. Bir daha aydın şəkildə bəyan etdik ki, ölkələrimiz arasında siyasi münasibətlərin səviyyəsi çox yüksəkdir. Azərbaycan bunu yüksək qiymətləndirir. Mən hesab edirəm ki, bu əlaqələrimiz gələcək ikitərəfli əməkdaşlığımız və ümumiyyətlə, regional inkişaf üçün çox vacibdir.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Səudiyyə Ərəbistanının ölkəmizə daimi dəstəyinə görə çox minnətdarıq. Azərbaycan bu dəstəyi BMT, İslam Konfransı Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində hər zaman hiss etmişdir. Biz bu dəstəyin şahidiyik və onun gələcəkdə də davam edəcəyinə əminik.

Səudiyyə Ərəbistanı Ermənistanla heç bir diplomatik münasibət yaratmayıbdır. Bu addım ölkələrimiz arasında olan dostluq və qardaşlığın parlaq nümunəsidir. Bu baxımdan Səudiyyə Ərəbistanı hökumətinin Azərbaycanda qaçqın və məcburi köçkünlərə verdiyi yardımı da xüsusi qeyd etmək lazımdır. Biz bunu yüksək dəyərləndiririk.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüquq normaları və prinsipləri, yəni ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında həllinin tərəfdarıyıq. Bildiyiniz kimi, erməni işğalçıları Azərbaycanın ərazi bütövlüyünü pozublar. Ölkəmizin ərazisinin 20 faizini zəbt ediblər, etnik təmizləmə aparıblar və bunun nəticəsində, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və dözülməz şəraitdə yaşayır. Biz hesab edirik ki, bu münaqişəni aradan qaldırmaq və təcavüzə son qoymaq üçün o, beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır və Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməlidir. XXI əsrdə bir ölkənin

ərazisinin digər ölkə tərəfindən işğal edilməsinə imkan vermək olmaz. İşğalçının cəzasız qalması yolverilməzdir. Məhz buna görə də, hesab edirəm ki, əgər bütün ölkələr sizin ölkə kimi ədalətli və düzgün mövqe tutsaydı, bu münaqişə hələ bir neçə il bundan əvvəl öz həllini tapardı.

Lakin bu işğalın ağır siyasi və iqtisadi nəticələrinə baxmayaraq, iqtisadi baxımdan ölkəmiz böyük nailiyyətlər əldə edə bilmişdir. Azərbaycan çox sürətlə inkişaf edir, son on il ərzində iqtisadiyyatda orta illik artım 10 faiz səviyyəsində olmuşdur. Bu il isə ümumi daxili məhsulun artımının təqribən 14 faiz olacağı gözlənilir.

Biz eyni zamanda, xarici sərmayələrin cəlb edilməsi sahəsində fəal işlər aparırıq. Hesab edirik ki, bu sahədə Azərbaycan çox etibarlı tərəfdaşa çevrilmişdir. Sərmayələr qanunvericiliyimiz əsasında çox etibarlı şəkildə qorunur.

2004-cü ildə Azərbaycanın iqtisadiyyatına yatırılan sərmayələrin həcmi 5 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Bu bizim üçün böyük göstəricidir. Həmin sərmayələr bizim siyasətimizə olan inam və etimadı bir daha sübut edir. Sərmayəçilər bizim gələcəyimizə inanırlar. Azərbaycanın yürütdüyü siyasətin gələcəkdə proqnozlaşdırılması da mümkündür. Siyasətimizin əsas vəzifəsi milli maraqlarımızın qorunması və təmin olunmasıdır, o cümlədən dost ölkələrlə etimad doğuran qarşılıqlı və faydalı münasibətlərin yaradılmasıdır.

Hazırda ölkəmizdə infrastrukturu fəal şəkildə inkişaf etdiririk, regional inkişaf siyasəti aparırıq. Azərbaycanda son 15 ay ərzində öz səylərimiz nəticəsində 170.000 iş yeri açmışıq. Bu, yoxsulluğun azaldılması və işsizliyin aradan qaldırılması məqsədi ilə həyata keçirdiyimiz siyasətin bir hissəsidir. Hesab edirəm ki, ölkəmiz əlavə sərmayələr və müxtəlif sahələrdə əməkdaşlıq üçün çox önəmli məkandır.

Beynəlxalq səviyyədə tanınmış iri şirkətlərlə 1994-cü ildən bu günə kimi çox uğurlu əməkdaşlıq tariximiz vardır. Bizim bu sahədə heç bir tərəflə heç vaxt mübahisəmiz və ya məhkəmə çəkişməsi olmamışdır. Yəni hökumətimiz və sərmayəçilər, yaxud

yerli şirkətlər arasında heç bir ziddiyyət olmamışdır. Zənnimcə, ölkəmizdə əlverişli sərmayə mühitinin olması Azərbaycana sərmayə qoymaq arzusunda olan şirkətlər üçün yaxşı stimuldur.

Mən bu fikirlə tamamilə razıyam ki, ölkələrimiz arasında olan iqtisadi əlaqələr lazımi səviyyədə deyildir. Dünən biz bu məsələni müzakirə etdik və belə bir qənaətə gəldik ki, siyasi və iqtisadi münasibətlər arasında olan fərq çox böyükdür. Siyasi əlaqələrimiz ən yüksək səviyyədədir, yəni bir çox məsələlər, o cümlədən regional inkişaf məsələsi üzrə tərəflər arasında tam anlaşma mövcuddur. Lakin iqtisadi münasibətlərimiz hələ ki, ilkin mərhələdədir. Ona görə də əminəm ki, bu dəfəki səfərim və indiki görüşümüz bu əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəkdir. Hökumətlərarası komissiya yaradılıb və bu qurum birgə iqtisadi işlərin aparılmasını tənzimləyə bilər. Biz sizin ölkənizlə, iş adamlarınızla olan iqtisadi və ticarət münasibətlərimizi genişləndirmək əzmindəyik.

Artıq qeyd etdiyim kimi, Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Bizim ölkə bazar iqtisadiyyatının prinsiplərinə tam sadiqdir. Hazırda ümumi daxili məhsulda özəl sektorun payı təqribən 74 faiz səviyyəsindədir. Ölkəmizdə kənd təsərrüfatı, nəqliyyat və xidmətlər sahəsində özəlləşdirmə aparılır. Bir çox sektorlar artıq özəlləşdirilibdir. Özəlləşdirmə proqramında iştirak etmək üçün də Azərbaycanda geniş imkanlar yaradılıbdır. Bu baxımdan, turizm sərmayələr üçün çox maraqlı sahədir. Ölkəmizdə füsunkar təbiət, gözəl iqlim mövcuddur, turizm infrastrukturu inkişaf edir. Bu nəinki sərmayə qoymaq üçün, həm də səyahət və istirahət üçün çox sərfəlidir. Azərbaycan dost ölkədir və mən istəyərdim sizin simanızda bir çox dostlarımız respublikamıza səyahət etsinlər və ölkəmizi görsünlər.

1991-ci ildə müstəqillik qazandığımız dövrdən 2005-ci ilə qədər keçdiyimiz yol və əldə etdiyimiz nailiyyətlər bir daha açıq-aydın göstərir ki, biz Azərbaycanda əlverişli biznes mühitinin yaradılmasında, sərmayələrin qorunmasında və infrastrukturun inkişafında çox maraqlıyıq.

Hazırda müxtəlif beynəlxalq maliyyə təsisatları, o cümlədən İslam Bankı ilə infrastrukturun inkişafı, yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi, su təchizatı sahəsində iş aparırıq. Bilirik ki, Səudiyyə Ərəbistanında beynəlxalq səviyyədə tanınmış bir sıra nəhəng şirkətlər var və onlar da bu layihələrdə nəinki sərmayəçilər qismində, o cümlədən xidmət göstərən podratçı kimi iştirak edə bilər. Belə olsa, biz bundan çox şad olardıq. Biz dostlarımızla işbirliyi yaratmaq istəyirik.

Son illər ərzində biz "açıq qapı" siyasətini həyata keçirmişik. Qapılarımız bütün sərmayəçilərin üzünə açıqdır. Şübhəsiz ki, Azərbaycan iqtisadi əlaqələrini məhz dost ölkələrlə daha sıx etmək istəyir. Bu baxımdan, hesab edirəm ki, iqtisadi münasibətlərimizin gələcək potensialı böyükdür. Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm. Sizləri ölkəmizdə görməkdən çox şad olardıq və ümid edirik ki, gələn illər ərzində iqtisadi əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Mən göstərdiyiniz qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm və arzu edirəm ki, yaxın gələcəkdə biz ölkələrimiz və şirkətlərimiz arasında keyfiyyətcə yeni və daha geniş əməkdaşlığın şahidi olaq.

Çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin iş adamlarını maraqlandıran suallara verdiyi cavab

**S u a l: Zati-aliləri, hər bir iş adamı üçün biznesi başlamaqda əsas məsələ əvvəlcədən proseduraları bilməkdir. Yəni getdiyimiz ölkədə mövcud olan imkanları ilkin olaraq öyrənməkdir. Ölkəyə gəldikdən sonra biz daxili prosedurlar haqqında məlumat almalıyıq. Bu məlumatı biz səfirlikdən, yoxsa tövsiyə olunan digər departamentdən ala bilərik? Əvvəlcədən bilsək, işimizi daha asan və sürətlə apara bilərik. Sağ olun.**

**C a v a b:** Hesab edirəm ki, imkanlar müxtəlifdir və onlar bir-birini tamamlayır. Təbii ki, ölkənizdə iş adamı üçün daha

asan yol bizim buradakı səfirliyimizə müraciət etməkdir. Səfirliyimiz isə sizi maraqlandıran sahədən asılı olaraq, Azərbaycanın müvafiq nazirlikləri ilə əlaqə saxlaya bilər. Mən artıq qeyd etdim ki, ölkəmiz inkişaf edir. Böyük imkanlar mövcuddur. Misal üçün, iqtisadiyyatımızın bəzi sektorları hələ o qədər də inkişaf etməyibdir. Bank sektoru, sığorta işi, turizm, özəlləşdirmə kimi sahələrdə geniş imkanlar vardır.

Konkret maraq sahəsinə uyğun olaraq, bizim səfirlik müvafiq dövlət qurumları ilə əlaqə saxlaya bilər. Eyni zamanda, hökumətlərarası komissiya da bu işdə sizə yardımçı ola bilər. Hesab edirəm ki, bu qurum müxtəlif biznes layihələrinin tənzimlənməsində mühüm rol oynamalıdır. Mən sizinlə razıyam ki, vəziyyətlə tanış olmadan, mövcud imkanlar, qanunvericilik və ya vergi siyasəti haqqında məlumat olmadan biznes fəaliyyətini aparmaq çətindir. Belə halda qərar qəbul etmək asan deyildir. Lakin hesab edirəm ki, dediyim üsullardan istifadə etsəniz, istədiyinizə nail ola bilərsiniz.

Mən birbaşa uçuşlar haqqında burada söylənilən fikirlə də razıyam. Şübhəsiz, birbaşa hava xəttinin olmaması problemlər yaradır. Bizim aviakonsernimiz gəncdir. Hazırda təkmilləşdirmə işləri aparılır, yeni təyyarələr alınır, yeni marşrutlar təyin olunur. Konsernimizin rəhbəri burada əyləşib, siz birbaşa uçuşların açılması imkanlarını onunla müzakirə edə bilərsiniz. Ümumiyyətlə, birbaşa uçuşların açılması əməkdaşlığımızın vacib elementidir. Yəni birbaşa marşrut olmayanda siz iki və üç ölkəni keçib Azərbaycana gəlirsiniz. Belə bir vəziyyətdə həvəs də azalır. Hesab edirəm ki, ölkələrimizdə olan imkanlar barədə lazımi təqdimatın baş tutması üçün hər iki tərəf kompleks şəkildə çalışmalıdır. Məlumat kitabçaları hazırlansa, hər bir iş adamı orada olan ümumi məlumatdan istifadə edə bilər.

**S u a l: Zati-aliləri, Ticarət və Sənaye Palatasına gəldiyinizə və bizimlə görüşdüyünüzə görə Sizə minnətdarıq. Mən daşınmaz əmlak sahəsində bizneslə məşğulam. Bilmək istərdim ki, bu sahədə ölkənizdə xarici sərmayədar üçün hansı imkanlar var? Sərmayəçi üçün hansı şərait yaradılır və**

**ümumiyyətlə, bu istiqamətdə hər hansı bir irəliləyiş varmı? Sağ olun.**

**C a v a b:** Hazırda Azərbaycanda, xüsusən də paytaxtda, yəni Bakı şəhərində genişmiqyaslı tikinti və şəhərsalma işləri gedir. Tikinti sahəsində biznes çox gəlirlidir. Bir çox hallarda binanın hələ bünövrəsi qoyulanda gələcək bütün mənzillər satılır. Çünki indi insanlar daha yaxşı şəraitdə yaşamağı seçirlər. Təsəvvür edin, əgər 6-7 il bundan əvvəl binalar yalnız imkanlı adamlar üçün tikilirdisə, hazırda əhalinin orta təbəqəsinin formalaşması ilə yanaşı, artıq digər ölkələrdə olduğu kimi, bizdə də bu təbəqə üçün evlər tikilir. Tikinti işlərinin əksəriyyəti yerli şirkətlər tərəfindən aparılır. Lakin bu sahədə xarici sərmayəçilər də var. Bu çox önəmli biznesdir. Tikinti sahəsində işləyən iş adamları hazırda böyük uğurlar əldə ediblər.

Bizim şəhərlərimizin müasirləşdirilməsi ilə bağlı bir neçə yeni ideyalarımız var. Yeni binalar ucaldılır. Əhali üçün yeni yaşayış binalarının tikilməsinə böyük ehtiyac var. Eyni zamanda, biznes fəaliyyəti ilə məşğul olan iş adamları üçün də yeni geniş və rahat binalar lazımdır. Əgər indi yuxarıdan Bakıya nəzər salsanız, görərsiniz ki, bir çox hündür yaşayış binaları, iqamətgahlar və ofislər tikilibdir. Bir sözlə, hesab edirəm ki, tikinti işinə sərmayə qoyan iş adamı uduzmayacaqdır.

**S u a l: Bəs xarici sərmayələrin qorunması üçün hansı zəmanətlər verilir?**

**C a v a b:** Xarici sərmayələrin qorunmasına gəldikdə, bizim qanunvericilik birmənalı olaraq bunu təmin edir. Mənim heç yadıma gəlmir ki, sərmayələrin qorunmasında bizim hər hansı bir tərəflə problemimiz olsun. Biz bilirik ki, etimadın qazanılması nə qədər çətindir. İllər, bəlkə də onilliklər lazımdır ki, siz öz işinizlə etimad qazanasınız. Lakin adi bir səhv addımla bir gün ərzində həmin etimadı itirə bilərsiniz. Buna görə də bizim ölkədə sərmayələr qorunur.

O ki qaldı əlavə zəmanətlər, açığını desək, biz bu haqda düşünməmişik. Çünki bu sahədə biz heç vaxt sərmayəçilərin diqqətindən kənarda qalmamışıq. Adətən, zəmanət o vaxt verilir ki,

həmin işə diqqət az olsun. Tikinti işi hazırda Azərbaycanda ən cəlbedici və get-gedə inkişaf edən işlərdən biridir. Lakin bu məsələ üzərində də düşünəcəyik.

**E l m a r  M ə m m ə d y a r o v** (*Azərbaycanın Xarici İşlər naziri):* Biz elə bu gün iki ölkə arasında sərmayələrin qorunması haqqında saziş imzaladıq. Mən şəxsən Səudiyyə Ərəbistanının Maliyyə naziri ilə bu sənədi imzaladım və bu sənəd məhz sərmayələrin qorunmasına aiddir.

**S u a l: Zati-aliləri, xarici iş adamları Sizin ölkənizdə daşınmaz əmlakı alıb öz mülkiyyətinə çevirə bilərmi?**

**İ l h a m  Ə l i y e v:** Sizi əmin edirəm ki, bizim bu sahədə heç bir problemimiz yoxdur. Hər hansı əcnəbi vətəndaşın Azərbaycanda mülkiyyəti ola bilər. Bir çox xarici şirkətlərin və ya vətəndaşların Azərbaycanda mülkiyyəti var. Yəni bir daşınmaz əmlaka sahib olmaq üçün heç bir yerli şəxsdən istifadə edilməməlidir. Misal üçün, bizim ölkədə tam xarici vətəndaşlara məxsus olan banklar var. Bu baxımdan istənilən imkan açıqdır.

**S u a l: Üzr istəyirəm, mən ingiliscə o qədər də yaxşı bilmirəm, ona görə ərəbcə sual verəcəyəm. Zati-aliləri, Səudiyyə Ərəbistanı hazırda ölkənizdə dəmir yol şəbəkəsinin inkişafında, xüsusilə relslərin istehsalı ilə məşğul olmaq istəyir. Biz bilirik ki, Azərbaycanda bu sahəyə tam ehtiyac vardır. Ümumiyyətlə, bu sahədə birgə kooperasiya şəraitində işləmək, yaxud Səudiyyə Ərəbistanı iş adamlarının oraya sərmayə qoyması üçün imkanlar varmı?**

**C a v a b:** Bəli, belə imkanlar var. Ümumiyyətlə, demək istəyirəm ki, bizdə nəqliyyat infrastrukturu çox sürətlə inkişaf edir. Azərbaycanın coğrafi mövqeyi ölkəmizi nəqliyyat baxımından çox mühüm bir məntəqəyə çeviribdir. İndi avtomobil yolları sürətlə tikilir və beynəlxalq maliyyə qurumları da buna öz dəstəyini verir. O cümlədən İslam İnkişaf Bankı da öz yardımını əsirgəmir.

Ölkəmizin müxtəlif şəhərlərində yeni müasir hava limanları tikilir. Bu yaxınlarda Avropa tipli 5 yeni təyyarənin alınması barədə saziş imzalanıbdır. Beləliklə, Azərbaycanın bütün nəq-

liyyat infrastrukturu, o cümlədən gəmiçilik çox sürətlə inkişaf edir. Dəmir yolunda da lazımi işlər görməyə böyük ehtiyac var. Çünki bəzi relslər köhnəlibdir və onlar yeniləşməlidir.

Bizim hökumətlərarası müştərək komissiyanın həmsədri də buradadır. Mən ona tapşırıq verirəm ki, bu görüşdən sonra sizinlə əlaqə saxlasın və lazımi məlumatı sizə versin ki, Azərbaycanda bu baxımdan nə kimi imkanlar vardır.

**S u a l: Zati-aliləri, Sizi Ər-Riyadın Ticarət və Sənaye Palatasında görməkdən çox məmnunuq. Əlbəttə, biz Azərbaycanla biznes əlaqələrinin genişləndirilməsində çox maraqlıyıq. Lakin bilmək istərdik ki, Səudiyyə Ərəbistanı ölkənizə bu günə qədər hansı həcmdə sərmayə qoyubdur? Bu haqda məlumat bizim gələcək işlərimizə çox yardım edərdi. Biz İqtisadiyyat naziri ilə bu məqsədlə görüşməkdə çox maraqlıyıq. Çox sağ olun.**

**C a v a b:** Biz iqtisadi inkişafa və nailiyyətlərimizə həsr olunmuş bir neçə maraqlı kitab və məlumat vərəqələri hazırlamışıq. Bunlarda gələcək perspektivlər və imkanlar da təsvir olunur. Biz onları səfirliyimiz vasitəsilə Ticarət və Sənaye Palatasına təqdim edəcəyik. Hesab edirəm ki, səfirlik həm də bu istiqamətdə fəal rol oynamalıdır.

Beləliklə, iki ölkədən olan biznes tərəfdaşları bir-birilə tanış ola bilərlər. Təbii ki, bütün bu informasiya bizim tərəfimizdən təqdim olunacaqdır. Eyni zamanda, yaxşı olardı ki, qarşılıqlı səfərlərin sayı da artsın. Bilirəm ki, hər bir iş adamı qərar qəbul etməzdən əvvəl, gərək özü gələ, görə və vəziyyətlə şəxsən tanış ola. Təbii ki, qarşılıqlı səfərlər xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Ümid edirəm ki, bu səfərlər baş tutacaqdır. Bir sözlə, bütün lazımi məlumatlar təqdim olunacaqdır.

**H ü s e y n ə l - A t a l** (*Ticarət və Sənaye Palatasının Baş katibi*): Zati-aliləri cənab Prezident, icazə verin, bütün iş adamları adından Sizin buradakı səfirliyinizin və xüsusən də bütün yerli biznesmenlərin dostu olan Azərbaycan səfirinin gördüyü işi xüsusilə qeyd edim. O bizim bütün görüşlərimizdə iştirak

edir və çox fəal işləyir. Hesab edirəm ki, biz onun vasitəsilə ölkəniz haqqında hər hansı bir məsələ barədə məlumat ala bilərik.

Sizi əmin edirəm ki, bugünkü görüşdə əldə etdiyimiz məlumatı digər iş adamlarına da ötürəcəyik. Səfirlik bu günə qədər çox yaxşı işləyib və bizim iş adamlarımızın əksəriyyəti ilə sıx əlaqələr qurubdur. Ümid edirəm ki, mənim yanımda əyləşən bizim səfir də fəal işləyir.

**İ l h a m Ə l i y e v:** Bəli, mən onun işini yüksək qiymətləndirirəm.

**H ü s e y n ə l - A t a l:** Məncə, biz onu təbrik edə bilərik ki, o, Azərbaycan kimi gözəl qardaş və dost ölkədə işləyir. Sağ olun.

**S ə ə d b i n İ b r a h i m:** Zati-aliləri, hesab edirəm ki, biz iqtisadi əlaqələrimizin müzakirəsinə kifayət qədər vaxt sərf etdik. Prezident Əliyevin səfər proqramı çox sıxdır. Zati-aliləri, buraya bizimlə görüşə gəldiyinizə görə Sizə dərin təşəkkürümüzü bildirir, yaxın gələcəkdə Bakıda Sizinlə görüşməyə ümid edirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Öz növbəmdə, mənə göstərdiyiniz qonaqpərvərliyə və diqqətə görə sizə minnətdarlığımı bildirirəm. Sizin gözəl dost ölkənizdə olmağıma çox şadam. Mən heç şübhə etmirəm ki, ölkələrimiz arasındakı münasibətlər həm siyasi, həm iqtisadi, həm də humanitar və mədəni sahələrdə çox uğurla və sürətlə inkişaf edəcəkdir. Çox sağ olun.

**S ə ə d b i n İ b r a h i m:** Cənab Prezident, sonda burada keçirdiyimiz görüşün xatirəsi olaraq fotoşəkillərdən ibarət albomu Sizə təqdim edirəm. Bundan başqa, Səudiyyə Ərəbistanı tərəfindən Sizə kiçik bir hədiyyəmiz var. Bu, ölkəmizdə bitən quru xurmalardır. Daha bir hədiyyəmizdə isə bizim görüş keçirdiyimiz qədim bina təsvir olunubdur. Gördüyünüz təsvir binanın xarici görünüşünü əks etdirir. Rəssamın adı da burada yazılıbdır. Ümid edirəm ki, xoşunuza gələcəkdir.

Görüş əsnasında Ticarət və Sənaye Palatasında çəkdirdiyimiz fotoşəkillər bu diskə yazılıbdır. Onu Sizə hədiyyə etmək is-

təyirik. Burada fotoların bir hissəsidir. Qalan hissəsi isə səfirliyiniz vasitəsilə Sizə göndəriləcəkdir.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində ölkəmizin səfirliyi binasının tikintisi üçün ayrılmış sahəyə baxmışdır.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Ciddə şəhərinə yola düşmüşdür.*

*Dövlətimizin başçısını hərbi hava limanında Ər-Riyad vilayətinin qubernatoru Həmid Salman bin Əbdüləziz Al Səud böyük hörmətlə və mehribanlıqla yola saldı.*

*Prezident İlham Əliyev həmin gün Ciddə şəhərinə gəldi. Azərbaycanın və Səudiyyə Ərəbistanının dövlət bayraqları ilə bəzədilmiş hava limanında prezident İlham Əliyevi müqəddəs Məkkə bölgəsinin əmiri Əbdülməcid bin Əbdüləziz Al Səud yüksək hörmət və ehtiramla qarşıladı.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha – «Ciddə» Konfrans sarayına gəldi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva martın 9-da Ciddədən İslam dünyasının əsas müqəddəs şəhəri olan Məkkəyə Ümrə ziyarətinə gəldilər. Həzrəti Məhəmməd (s) bu torpaqda doğulmuş, peyğəmbərliyə çatmış, İslam dini Məkkədə yaranmışdır.*

*Məkkədəki Allah evi Kəəbə Həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən birinci müqəddəs yerinə çevrilmişdir. Sonralar Kəəbə və müqəddəs "Zəmzəm" çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilmişdir.*

*Həmin gün axşam Azərbaycan prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər xüsusi libas geyinərək Əl-Həram məscidinə gəldilər. Bir neçə mərtəbəli və doqquzminarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edirdi.*

*Ziyarətgahın rəhbərləri dövlətimizin başçısını mehribanlıqla qarşıladılar. Kəəbəyə daxil olmaq və orada namaz qılmaq şərəfi heç də hamıya nəsib olmur. Hər il həcc ziyarəti zamanı dünyanın ən müxtəlif guşələrindən gələn müsəlmanlar Kəəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılırlar. Azərbaycan prezidentinə xüsusi ehtiram göstərildi, dövlətimizin başçısı İlham Əliyev və onu müşayiət edən şəxslər Kəəbənin içərisini ziyarət etdilər və orada namaz qıldılar.*

*Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlandı. Azərbaycan prezidenti və nümayəndə heyətinin üzvləri bu iki müqəddəs təpə arasındakı bir kilometrlik məsafəni yeddi dəfə qət etdilər.*

*Dövlətimizin başçısı Əl-Həram məscidini seyr etdi. Azərbaycan prezidentinə məscid haqqında ətraflı məlumat verildi.*

*Prezident İlham Əliyev nümayəndə heyətinin üzvləri ilə xatirə şəkli çəkdirdi.*

*Ziyarəti dinimizin tələblərinə tam uyğun şəkildə başa çatdıran prezident İlham Əliyev və Azərbaycan nümayəndə heyətinin üzvləri Məkkədən ən pak hisslərlə və zəngin təəssüratla, bəşəri dəyərlər, sülh və əmin-amanlıq ideyaları təbliğ edən qüdrətli islam dininə mənsub olmaqdan sonsuz qürurla ayrıldılar.*

## Kəəbəni ziyarət etdikdən sonra Məkkə məscidinin qarşısında jurnalistlərə verilən qısa müsahibə

**J u r n a l i s t:** Cənab Prezident, Siz bu gün hər bir müsəlman üçün vacib olan şərəfli bir missiyanı yerinə yetirdiniz. Zi-

yarətdən sonra öz hisslərinizi Azərbaycan xalqı ilə bölüşməyi xahiş edirik.

**İ l h a m Ə l i y e v:** Bu mənim həyatımda çox əlamətdar, tarixi bir gündür. Mən ikinci dəfədir ki, buranı – Məkkəni ziyarət edirəm və müqəddəs Kəəbənin içərisində dualar etmişəm. Birinci dəfə 1994-cü ildə prezident Heydər Əliyev burada olarkən onunla bərabər olmuşam. Bu gün isə yenə də buradayam.

Bu hissləri ifadə etmək çox çətindir. Bunu yaşamaq lazımdır. Mən hər bir müsəlmana bu gözəl hissləri yaşamağı arzulayıram.

Mən bu gün çox xöşbəxtəm. Çox şadam ki, ürəyimdə olan niyyətlərimi ifadə etdim, dua oxudum. Hesab edirəm ki, mənim həyatımda bu çox böyük bir hadisədir.

Bildiyiniz kimi, ümumiyyətlə, səfər çox uğurlu keçir. Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında siyasi münasibətlər çox yüksək səviyyədədir. Bu səfər bunu bir daha təsdiqlədi. Biz bir-birimizi daim dəstəkləyirik, ikitərəfli formatda, regional işbirliyi çərçivəsində sıx əməkdaşlıq edirik.

Bilirsiniz ki, Səudiyyə Ərəbistanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz mövqeyini açıq bəyan edib və Ermənistanla bu günə kimi diplomatik əlaqələr qurmayıbdır. Bunun özü gözəl bir nümunədir. Dostluq, qardaşlıq, mehribanlıq nümunəsidir. Çox şadam ki, bizim aramızda belə gözəl münasibətlər vardır və hörmətli Əlahəzrət Vəliəhd mənim xahişimi yerinə yetirdi. Müqəddəs Kəəbənin qapılarını bizim nümayəndə heyətinin üzünə açdı. Biz də orada öz ibadətimizi etdik.

**J u r n a l i s t:** Cənab Prezident, çox sağ olun, Allah ziyarətinizi qəbul etsin!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

* * *

*Həmin gün gecəAzərbaycan prezidenti İlham Əliyev Məkkədən Ciddəyə qayıtdı.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ

*Ciddə şəhəri*

*10 mart 2005-ci il*

*Azərbaycanın dövlət bayrağının asıldığı binanın önündə dövlətimizin başçısı İlham Əliyevi İKT-nin Baş katibi Ekmələddin İhsanoğlu böyük hörmət və qonaqpərvərliklə qarşıladı.*

*Səmimilik və işgüzar şəraitdə keçən görüşdə prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərinin uğurla davam etdiyini vurğuladı. İslam Konfransı Təşkilatı ilə ölkəmizin əməkdaşlığını yüksək qiymətləndirərək dedi ki, bu təşkilat Azərbaycana münasibətdə, xüsusilə ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində həmişə düzgün mövqe tutmuş, bir neçə mühüm qərar və qətnamə qəbul etmiş və Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləmişdir.*

*İslam Konfransı Təşkilatının Azərbaycan üçün çox vacib bir təşkilat olduğunu diqqətə çatdıran dövlətimizin başçısı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlardan və münaqişənin həlli perspektivlərindən bəhs edərək dedi ki, bu münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və əminik ki, İslam Konfransı Təşkilatı bu məsələdə Azərbaycanı bundan sonra da dəstəkləyəcəkdir. Hesab edirik ki, İslam Konfransı Təşkilatının mövqeyi digər təşkilatlara nümunə ola bilər.*

*Dövlətimizin başçısı son illər ərzində Azərbaycanın beynəlxalq təşkilatlardakı uğurlu fəaliyyəti sayəsində nailiyyətlər qazanıldığını da diqqətə çatdırdı.*

*Prezident İlham Əliyevi yenidən görməyindən məmnunluğunu bildirən, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin tarixi*

*xidmətlərinin heç vaxt unudulmayacağını xüsusi vurğulayan İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu dedi ki, biz Azərbaycanın mövqeyini həmişə dəstəkləmişik və daim dəstəkləyəcəyik. Münaqişənin həlli ilə bağlı bundan sonra da İKT bütün mötəbər tədbirlərdə birmənalı mövqedə qalacaqdır.*

*Arzumuz budur ki, Azərbaycanla əməkdaşlığımızı bundan sonra da davam etdirək və bu əlaqələri daha yüksək səviyyəyə qaldıraq.*

*Görüşdə Azərbaycanla İslam Konfransı Təşkilatı arasında əməkdaşlığın indiki vəziyyəti və perspektivləri müzakirə olundu, İKT-nin ölkəmizə iqtisadi yardım göstərməsi məsələsi barədə geniş fikir mübadiləsi aparıldı.*

## İSLAM İNKİŞAF BANKININ (İİB) PREZİDENTİ ƏHMƏD MƏHƏMMƏD ƏLİ İLƏ GÖRÜŞ

*«Ciddə» Konfrans sarayı*

*10 mart 2005-ci il*

*Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə* bu *beynəlxalq maliyyə* qurumunun *Azərbaycana* olan *münasibəti və ölkəmizlə* bank *arasında əlaqələr, həyata keçirilən birgə layihələr barədə söhbət getmişdir.*

*Prezident İlham Əliyev görüşdən məmnunluğunu bildirərək demişdir ki, biz mövcud əməkdaşlığı qənaətbəxş* hesab *edir, İİB-*in *Azərbaycan təşkilatları ilə birgə işləməsini çox müsbət qiymətləndiririk. İstəyirik ki, əlaqələrimizi* daha da *genişləndirək və İİB-*ni *Azərbaycanla bağlı bütün layihələrə cəlb edək.* *İslam İnkişaf Bankının* prezidenti *Əhməd Məhəmməd Əli səmimi qəbula görə təşəkkür edərək* dedi *ki, ümumiyyətlə, Azərbaycanın* prezidenti *ilə keçirilən hər bir görüş yaddaqalan* olur. *Biz indiki əməkdaşlıqdan razıyıq. Söz verirəm ki, bu işlə gələcəkdə də çox fəal və* ciddi *məşğul olacağıq. Azərbaycanla işləməyi özümə çox böyük şərəf bilirəm və* bundan *qürur* hissi *keçirirəm.*

*Dövlətimizin başçısı Azərbaycanda aparılan* iqtisadi islahat*lardan, yoxsulluğun azaldılması və yeni iş yerlərinin açılması, regionların* sosial-iqtisadi *inkişafı sahəsində görülən tədbirlərdən danışdı və* bildirdi *ki, ölkəmizdə* ümumi daxili *məhsulun həcmi ilbəil artır.* Sosial *problemlərin tezliklə həlli istiqamətində İslam İnkişafı Bankı ilə əməkdaşlığın* bizim *üçün böyük əhəmiyyəti vardır.*

*Cənab Əhməd Məhəmməd Əli Azərbaycanda gələcəkdə də müəyyən layihələrin həyata keçirilməsinə kömək göstərəcək-*

lərini, bununla bağlı konkret kredit sazişinin imzalanacağını vurğuladı.

* * *

Martın 10-da «Ciddə» Konfrans sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı arasında sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı arasında Yevlax–Gəncə magistral yolunun və Samur–Abşeron kanalının Vəlvələçay–Taxta körpü hissəsinin yenidən qurulması barədə kredit sazişləri imzalandı. Həmin sazişlərə əsasən, İslam İnkişaf Bankı layihələrin hər birinə 10 milyon dollar kredit ayıracaqdır.

## İSLAM DÜNYASININ MÜQƏDDƏS ŞƏHƏRLƏRİNDƏN OLAN MƏDİNƏYƏ SƏFƏR

*10 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Ciddə şəhərində görüşlərini başa çatdırdıqdan sonra İslam dünyasının müqəddəs şəhərlərindən olan Mədinəyə yola düşdü.*

*Hava limanında dövlətimizin başçısını müqəddəs Məkkə bölgəsinin əmiri Əbdülməcid bin Əbdüləziz Al Səud və digər rəsmi şəxslər böyük hörmətlə yola saldılar.*

*Azərbaycan prezidenti İlham Əliyevi Mədinənin hava limanında əmir Mükrin bin Əbdüləziz Al Səud böyük mehribanlıqla və səmimiyyətlə qarşıladı. Hava limanında ali qonağın şərəfinə fəxri qarovul düzülmüşdü.*

*Dövlətimizin başçısı xanımı və qızı ilə birlikdə hava limanından birbaşa Peyğəmbər məscidinə gəldi. Prezident İlham Əliyev burada Həzrəti Məhəmmədin (s) qəbrini ziyarət etdi və namaz qıldı.*

*Dövlətimizin başçısına Peyğəmbər məscidi haqqında ətraflı məlumat verildi. Peyğəmbər əleyhissəlamın tikdirdiyi məscid sonralar müsəlman dünyasının ən görkəmli memarlarının iştirakı ilə yenidən qurulmuşdur. İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səudun dövründə burada çox böyük işlər görülmüşdür. Məscidin əzəməti, gözəlliyi buraya gələn hər bir adamı valeh edir. Məscidin qorunmasına xüsusi diqqət yetirilir. On bir zonaya bölünmüş məscidin hər yerinə minlərlə videokamera ilə nəzarət olunur. Baş verə biləcək təhlükə haqqında nəinki Mədinədəki, hətta ölkənin paytaxtı Ər-Riyadda yerləşən dörd təhlükəsizlik mərkəzinə dərhal məlumat çatdırılır.*

*Sonra Azərbaycan prezidenti məscidin istilik, elektrik, soyuducu, kommunikasiya sistemlərini tənzimləyən idarəetmə mərkəzinin işi ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına ilk öncə, məscidin Peyğəmbər əleyhissəlam dövründən bu günə qədər genişləndirilməsi və abadlaşdırılması layihələri haqqında, o cümlədən xəlifələr, habelə Səudiyyə Ərəbistanı Krallığının indiki rəhbərliyi tərəfindən həyata keçirilən ən böyük layihələr barədə ətraflı məlumat verildi və bildirildi ki, hazırda məscidin ümumi sahəsi 100 min kvadratmetrə çatır. Bu da həcc ziyarəti mövsümü zamanı daxili və xarici nəzərə alınmaqla, bir milyon insanın eyni vaxtda namaz qılmasına imkan verir.*

*7 kilometr aralıda yerləşən güclü nasoslar vasitəsilə məscidə su verilir. Zirzəmidə yerləşən 124 paylayıcı-soyuducu qurğu havanı sərinləşdirir. 4200 səsgücləndirici azan səsinin 4 kilometr ətrafa yayılmasına şərait yaradır. Elektrik təchizatı üçqat zəmanətlə işləyir. Hər birinin gücü 2,5 meqavat olan 8 elektrik mühərriki məscidi enerji ilə təmin edir. Bir şəbəkədən digərinə avtomatik olaraq, 60 saniyə ərzində keçilir. Bu anda məsciddə işıqların sönməməsi üçün xüsusi akkumulyatorlardan istifadə olunur. Ümumiyyətlə, burada elektrik enerjisinin kəsilməsinin şahidi olmaq mümkün deyildir.*

*Sonra Azərbaycan prezidenti məscidin damında quraşdırılmış və uzaq məsafədən avtomatik hərəkətə gətirilən qübbələrin iş prinsipi ilə tanış oldu. Bildirildi ki, hərəsinin çəkisi 80 ton, sahəsi 300 kvadratmert olan qübbələr bir neçə saniyə ərzində səssiz açılır və bağlanır. Bundan məqsəd namaz vaxtı havanı təmizləməkdir.*

*Məscidin açıq hissəsində xüsusi materialdan hazırlanmış 12 ədəd nəhəg çətir quraşdırılmışdır. Ümumiyyətlə, məsciddə bütün xidmət sahələrində 2 mindən çox mühəndis, texnik və digər işçilər çalışır.*

*Prezident İlham Əliyev xanımı və qızı ilə birlikdə qübbələrin və çətirlərin açılıb bağlanması prosesini maraqla seyr etdi və xatirə şəkli çəkdirdi.*

* * *

*Martın 10-da axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri başa çatdı.*

*Dövlətimizin başçısının şərəfinə Mədinənin hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyevi Mədinənin əmiri Mükrin bin Əbdüləziz Al Səud, ölkəmizin ər-Riyaddakı səfiri Elman Araslı, Səudiyyə Ərəbistanı Krallığının Bakıdakı səfiri Əli Həsən Əhməd Cəfər və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün Vətənə qayıtdı.*

## XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ

Hörmətli Qəmər xanım!

Sizi–Azərbaycanın ilk peşəkar balerinasını 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan balet məktəbinin yaranmasında və inkişafında əvəzsiz rol oynamış böyük sənətkarsınız. Avropa və rus klassiklərinin şah əsərlərində yaratdığınız rəngarəng, dolğun səhnə obrazları öz təkrarolunmaz ifa tərzi və yüksək peşəkarlıq səviyyəsinə görə əsl sənət inciləridir. Sizin milli balet əsərlərində ifa etdiyiniz partiyalar Azərbaycan xoreoqrafiya sənətinin misilsiz nailiyyətləri sırasındadır.

Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdirilən bir çox əsərin uğuru məhz Sizin verdiyiniz quruluşla bağlıdır. Görkəmli balet ustası kimi, Siz öz yüksək ifaçılıq məharətiniz sayəsində klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin ahəngdar vəhdətini yarada bilmisiniz.

Azərbaycan balet sənətinin sirlərini gənc nəslə öyrətmək sahəsindəki pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir. Bakı Xoreoqrafiya Məktəbində milli xoreoqrafiya kadrlarının hazırlanması üçün Siz uzun illər böyük əmək sərf etmisiniz. Yetirmələriniz olan bir çox balet artisti artıq sənət aləminin yüksək pillələrinə qalxmış, milli balet sənətinin inkişafına öz töhfələrini vermişdir.

Keçdiyiniz sənət yolu parlaq və şərəfli olmuş, fəaliyyətiniz həmişə yüksək qiymətləndirilmişdir. Bu yolda qazandığınız ən böyük mükafat isə qədirbilən xalqımızın Sizə və sənətinizə bəslədiyi hədsiz məhəbbət, dərin ehtiram olmuşdur.

Səhnə həyatınızın bundan sonra da gələcək nəsillər üçün əsl vətənpərvərlik, sənətə sədaqət və fədakarlıq nümunəsi olacağına inanıram.

Sizə möhkəm cansağlığı və xoşbətlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *10 mart 2005-ci il*

## BMT-nin ASİYA VƏ SAKİT OKEAN ÜZRƏ İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ VƏ BMT-nin AVROPA ÜZRƏ İQTİSADİ KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 mart 2005-ci il*

*UNESCAP və UNECE-nin nümayəndə heyətlərinin ölkəmizə səfərinin əməkdaşlıqda yeni bir səhifə açdığını vurğulayan dövlətimizin başçısı Azərbaycanda gedən böyük iqtisadi inkişaf proseslərindən bəhs etdi, makroiqtisadi və digər iqtisadi göstəricilərin sürətlə artdığını nəzərə çatdırdı. Azərbaycanda iqtisadi inkişafla bağlı bir sıra proqramların, o cümlədən regional inkişaf, yoxsulluğun azaldılması proqramlarının həyata keçirildiyini bildirən prezident İlham Əliyev son bir il ərzində ölkəmizdə 170 mindən çox yeni iş yerinin yaradıldığını vurğuladı və bu sahədə beynəlxalq təsisatlarla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd etdi. Azərbaycanda iri qlobal enerji layihələrinin uğurlu həyata keçirildiyini bildirən dövlətimizin başçısı ölkəmizdə ilk növbədə sosial təminat məsələsinə xüsusi diqqət yetirdiyini vurğuladı.*

*Regional əməkdaşlıq məsələsinə toxunan prezident İlham Əliyev dedi ki, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, habelə ölkədəki ictimai-siyasi sabitlik bölgədə əməkdaşlığın, sülhün və sabitliyin təmin olunması işinə öz töhfəsini verir. Əfsuslar olsun ki, Ermənistanın Azərbaycana təcavüzü, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün*

*vəziyyətinə düşməsi bölgədə əməkdaşlıq və iqtisadi inkişaf, firavanlıq proseslərinə böyük əngəl törədir. Bu münaqişənin davam etdirilməsi, ümumiyyətlə, regional təhlükəsizliyə, iqtisadi proseslərin irəliləyişinə böyük maneədir. Beynəlxalq təşkilatlar bu cür məsələlərə diqqəti artırmalıdırlar.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, nümayəndə heyətlərinin ölkəmizə səfəri UNESCAP və UNECE ilə Azərbaycan arasında beynəlxalq iqtisadi əməkdaşlığın daha da genişlənməsi, qarşılıqlı surətdə faydalı əlaqələrin güclənməsi işinə xidmət edəcəkdir.*

*BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi, BMT Baş katibinin müavini xanım Brigita Şmoqnerova Azərbaycanın BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv qəbul olunmasını yüksək qiymətləndirdi. O, Azərbaycanın regional iqtisadi inkişaf proseslərində fəal iştirakının UNESCAP və UNECE tərəfindən yüksək qiymətləndirildiyini nəzərə çatdırdı. Xanım Brigita Şmoqnerova bu proseslərin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O, əmin olduğunu bildirdi ki, respublikamızın UNESCAP-a üzvlüyü Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə regional iqtisadi əməkdaşlığının genişlənməsi işinə öz töhfəsini verəcəkdir. Qonaq bir daha əmin olduğunu bildirdi ki, qarşılıqlı əməkdaşlıq bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.*

## RUSİYA FEDERASİYASI PENSİYA FONDU İDARƏ HEYƏTİNİN SƏDRİ GENNADİ BATANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 mart 2005-ci il*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluğunu vurğulayan prezident İlham Əliyev bu il Rusiya Federasiyasında Azərbaycan ilinin, gələn il isə Azərbaycan Respublikasında Rusiya ilinin keçirilməsini əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*İki ölkənin dövlət və hökumət strukturlarının, nazirliklərin əməkdaşlığının daim genişləndiyini nəzərə çatdıran prezident İlham Əliyev bu səfərin Azərbaycan və Rusiya pensiya fondları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin yaxşı göstəricisi olduğunu vurğuladı.*

*Rusiya və Azərbaycan pensiya fondlarının keçirdikləri birgə seminarı bu əməkdaşlığın yaxşı nümunəsi kimi qiymətləndirən dövlətimizin başçısı ölkəmizdə sosial təminat məsələlərinə böyük diqqət yetirildiyini, iqtisadi inkişaf proseslərinin uğurla getdiyini bildirdi. Ölkələrimizin pensiya fondlarının həm də beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanda bu sahədə də böyük işlər aparıldığını bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Rusiya pensiya fondları arasında təcrübə mübadiləsi aparılmasının hər iki tərəf üçün çox faydalı olduğunu xatırlatdı.*

*Azərbaycan və* Rusiya pensiya *fondları arasında əlaqələrin genişləndiyini söyləyən cənab* Gennadi Batanov *bu sahədə beynəlxalaq təşkilatlar çərçivəsində də əməkdaşlığın yaxşı səviyyədə olduğunu bildirərək* dedi ki, *qarşılıqlı təcrübə mübadiləsi hər* iki *tərəf üçün faydalıdır.*

Rusiyada *Azərbaycan* ilinin *keçirilməsində bütün dövlət və hökumət strukturlarının yaxından iştirak* etdiyini *bildirən* qonaq pensiya *fondlarının* bu *işdə fəal* iştirak *etdiklərini nəzərə çatdırdı. Cənab* Gennadi Batanov Rusiyada *Azərbaycan* ilinin *və Azərbaycanda* Rusiya ilinin *keçirilməsinin* ölkələrimiz *arasında əlaqələrin* daha da *sıxlaşdırılmasının yaxşı nümunəsi* kimi *dəyərləndirdi.*

Qonaq *əmin olduğunu* bildirdi ki, *ölkələrimizin* pensiya *fondlarının əməkdaşlığı Azərbaycan–*Rusiya *əlaqələrinin* inki-*şafına öz töhfəsini verəcəkdir.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ YARANMASININ 13-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*12 mart 2005-ci il*

Əziz əsgərlər və zabitlər!

Sizi Daxili Qoşunların yaranmasının 13-cü ildönümü münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə uğurlar arzulayıram.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda Daxili Qoşunlar yarandı. Bu, ölkəmiz üçün çox çətin bir dövr idi. Müstəqilliyimizin ilk illəri Azərbaycanda anarxiya və xaosla müşayiət olunurdu. Demək olar ki, ölkə parçalanma ərəfəsində idi və Azərbaycanda yaşanan böhran, ümumiyyətlə, ölkəmizi uçurum kənarına gətirmişdi. Bu çətin şəraitdə, əlbəttə ki, Daxili Qoşunlar öz funksiyalarını tam mənada icra edə bilməzdilər. Amma eyni zamanda, Daxili Qoşunlarda xidmət edən şəxsi heyət Azərbaycanın ərazi bütövlüyü uğrunda cəsarətlə vuruşmuşdu, şəhidlər vermişdi və torpaqlarımızın qorunması uğrunda böyük işlər görmüşdü. Azərbaycanın gələcəyi, Azərbaycanın müqəddəratı məhz o illərdə müəyyən olunurdu. Azərbaycan hansı yolla inkişaf edə bilər, Azərbaycanda sabitlik yaranacaq, yoxsa yaranmayacaq – bütün bu məsələlər hər bir vətəndaşı narahat edirdi, düşündürürdü. Azərbaycan xalqı yalnız və yalnız öz müdrikliyi, uzaqgörənliyi sayəsində ümummilli liderinə üz tutub onu Azərbaycana dəvət etdikdən və xalqımızın lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət tamamilə dəyişdi. Anarxiyaya, xaosa son qoyuldu, yaşanan böhranın acı nəticələri yavaş-yavaş aradan qaldırılmağa başladı. Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan inkişaf yoluna

qədəm qoydu. Atəşkəs rejimi yarandı və bu, Azərbaycana imkan verdi ki, öz potensialını hərtərəfli inkişaf etdirsin. Atəşkəs rejimi bu gün də mövcuddur.

Bilirsiniz ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün danışıqlar aparılır. Hesab edirəm ki, danışıqlarda müsbət meyllər daha da güclənir və bu danışıqlar yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası çərçivəsində davam etdirilə bilər. Biz bu münaqişəni beynəlxalq hüquq prinsipləri əsasında həll etmək istəyirik və əminəm ki, buna nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və edəcəkdir. Biz bunu sülh yolu ilə, danışıqlar yolu ilə həll etmək istəyirik. Amma heç kəs üçün sirr deyil ki, biz bütün başqa variantlara da hazır olmalıyıq, hazırıq və bu istiqamətdə də çox böyük işlər görülübdür.

Son illər ordu quruculuğu istiqamətində böyük işlər görülübdür. Ordunun maddi-texniki bazası gücləndirilib, lazım olan yeni texnika və avadanlıq alınıbdır. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, təbii ki, bizim hərbi potensialımız da güclənəcək və güclənməlidir. Təsadüfi deyil ki, 2005-ci ilin büdcəsində orduya ayrılan xərclərin həcmi təxminən 40 faiz səviyyəsində qaldırılıbdır. Biz bunu bundan sonra da edəcəyik. Azərbaycan öz doğma torpaqlarını azad etməlidir. Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq, nəyin bahasına olursa-olsun, doğma torpaqlarımızı azad edəcəyik.

Atəşkəs rejimi yaranandan sonra Azərbaycan üçün yeni perspektivlər, yeni üfüqlər açıldı. Ölkəmiz sürətlə inkişaf etməyə başladı. Xalqımızın lideri Heydər Əliyev tərəfindən aparılmış siyasi-iqtisadi islahatlar ölkəmizi hərtərəfli inkişaf etdirdi. Bu gün Azərbaycanın həm bölgədəki siyasi nüfuzu, həm də daxildəki iqtisadi potensialı ölkəmizi regionda lider ölkəyə çeviribdir. Mən hesab edirəm ki, bütün müsbət meyllər uğurla davam etməlidir, Azərbaycan öz qüdrətini, öz potensialını daha da gücləndirməlidir.

Son illər ərzində görülmüş bütün işlər ölkəmizi çox sürətlə inkişaf etdirdi. Bu gün bizim vəzifəmiz ölkəmizin beynəlxalq

nüfuzunu artırmaq, beynəlxalq təşkilatlarda öz sözümüzü daha da cəsarətlə, inamla ifadə etmək, müdafiə etmək, bölgədə dost, qonşu ölkələrlə daha da sıx səmərəli əlaqələr qurmaq və əlbəttə, iqtisadi potensialımızı gücləndirməkdir. Bu istiqamətdə də böyük işlər görülür. İqtisadi inkişaf proqramı uğurla icra edilir və görülən bütün bu işlərin nəticəsində Azərbaycan daha da güclü, qüdrətli dövlətə çevriləcəkdir.

Ölkəmiz üçün, xalqımız üçün və eyni zamanda bütün region üçün çox önəmli, çox irimiqyaslı layihələr həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla icra edilir. Bizim bütün digər enerji layihələrimiz uğurla icra edilir və bu, ölkəmizə böyük faydalar gətirir və gələcəkdə də gətirəcəkdir.

O da sirr deyil ki, Azərbaycan öz coğrafi-siyasi vəziyyətinə görə, iqtisadi potensialına, təbii ehtiyatlarına görə bir çox xarici dairələrin diqqətini çəkir, bir çox məsələlər burada xarici dairələr tərəfindən istiqamətləndirilib, yaxud da buna cəhdlər göstərilir. Biz buna imkan verə bilmərik. Azərbaycan tam mənada müstəqil dövlətdir. Müstəqillik yalnız dövlət atributları demək deyildir. Azərbaycan əsl mənada müstəqil siyasət aparır. Biz öz siyasətimizi yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarının qorunması üçün aparırıq. Biz bütün ölkələrlə, bütün təşkilatlarla mehriban səmimi münasibətlər qururuq və bu siyasət davam etdiriləcəkdir. Amma ilk növbədə, Azərbaycanın öz milli maraqları tam mənada müdafiə olunmalıdır.

Azərbaycanın böyük xoşbəxtliyi ondadır ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti nəticəsində ölkə həm iqtisadi, həm də siyasi cəhətdən möhkəmlənibdir və bu, indi bizə imkan verir ki, tam mənada müstəqil siyasət aparaq. Bu siyasət bundan sonra da davam etdiriləcək və mən əminəm ki, Azərbaycanı çox parlaq gələcəyə gətirib çıxaracaqdır.

Əldə edilmiş bütün bu nailiyyətləri qorumaq və gələcəkdə inkişaf etdirmək, daha böyük işlər görmək üçün ölkədə ictimai-siyasi vəziyyət sabit olmalıdır. Sabitlik olmayan yerdə heç vaxt inkişaf ola bilməz. Hər bir inkişafın başlıca şərti sabitlikdir. Bu sabitlik Azərbaycanda var, bu sabitlik möhkəmdir. Sabitliyi

pozmaq istəyən qüvvələr də, əminəm ki, yaxşı başa düşürlər ki, buna cəhd edənlər layiqli cavabını alacaqlar. Biz imkan verə bilmərik ki, Azərbaycanda ictimai-siyasi vəziyyət gərginləşsin, sabitlik pozulsun və vətəndaşlarımızın hüquqları pozulsun. Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcəkdir. Bu istiqamətdə Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

Son illər ərzində Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu bizim üçün çox böyük nailiyyətdir. Azərbaycanda ictimai-siyasi vəziyyətin qorunması və möhkəmləndirilməsi bizim hamımız üçün başlıca şərt olmalıdır. Yalnız bu şəraitdə ölkə uğurla inkişaf edə bilər. Biz hamımız bilirik ki, Azərbaycanın çox gözəl, parlaq gələcəyi olacaqdır. Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsindən sonra Azərbaycana çox böyük həcmdə valyuta gələcəkdir. Bu, ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün yeni imkanlar yaradacaqdır. Azərbaycanın hər bir vətəndaşı bundan istifadə etməlidir. Bu imkanlar da yaranıb və bundan sonra da yaranacaqdır. Belə olan halda daxili sabitlik, əmin-amanlıq bizim üçün başlıca şərtdir. Mən şübhə etmirəm ki, bu siyasət, 10 ildən artıq aparılan siyasət bundan sonra da aparılacaqdır. Əgər prezident seçkiləri ərəfəsində kimdəsə bu barədə hansısa şübhələr var idisə, hesab edirəm ki, artıq bu şübhələr üçün, bu narahatlıq üçün heç bir əsas yoxdur.

Prezident seçkilərindən keçən dövr onu göstərdi ki, xalqla iqtidar arasında böyük etimad var. Biz bu dəstəyi hiss edirik, bu dəstəyə arxalanırıq. Mən əminəm ki, bu birlik Azərbaycanın gələcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. Harada bu birlik, harada xalqla iqtidar, hakimiyyət arasında etimad varsa, o ölkələrdə uğur da olur. Harada ki bu yoxdur, o ölkələr böyük çətinliklərlə üzləşirlər. Mən hesab edirəm ki, biz qarşımıza qoyduğumuz bütün məsələləri uğurla həll edəcəyik. Hər halda, prezident

seçkilərindən keçən dövr onu göstərdi ki, qarşımıza qoyduğumuz hər bir məsələ öz həllini tapır. Elə məsələ yoxdur ki, biz onu həll edə bilməmişik, yaxud da verdiyimiz hansısa vəd yerinə yetirilməmişdir. Verilən bütün vədlər, bütün sözlər yerinə yetirilir. Biz sözümüzün üstündə möhkəm dururuq, xalqın inamını qazanmışıq və bu inamı bundan sonra da möhkəmləndirəcəyik.

Daxili Qoşunların təchizat məsələsi də mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə də böyük addımlar atılıbdır. Deyə bilərəm ki, Daxili İşlər Nazirliyi tərəfindən mənə edilmiş bütün müraciətlər, xahişlər müsbət cavab alıbdır. Bu gün burada gördüyümüz texnikanın böyük hissəsi son bir il ərzində alınıbdır. Biz buna böyük əhəmiyyət veririk. Ümumiyyətlə, Azərbaycanın hər bir sahəsi, xüsusilə hərbi sahə yeni texnika ilə təchiz olunmalıdır. Azərbaycanın imkanları genişlənir. Maddi vəziyyət yaxşılaşır və iqtisadi siyasətimizin əsas məqsədi də odur ki, ölkədə güclü iqtisadi potensial yaransın və biz bütün məsələləri uğurla həll edə bilək. Hesab edirəm ki, texnikanın alınması prosesi davam etdiriləcəkdir. Qarşımıza yeni məsələlər çıxa bilər. Ona görə biz bunu edəcəyik.

Eyni zamanda, şəxsi heyətin sosial məsələləri də öz həllini tapır. Maaşlar qaldırılıb, bütövlükdə Azərbaycanda bu meyllər artıq güclənibdir. İnsanlarımızın həyat səviyyəsinin yaxşılaşması bizim üçün, hökumət üçün prioritet məsələdir. Azərbaycanda yoxsul adam olmamalıdır, işsiz adam olmamalıdır. Məhz bu məqsədlə regional inkişaf proqramının həyata keçirilməsi nəzərdə tutulub və o, uğurla həyata keçirilir. Bütün digər proqramlar – yoxsulluğun azaldılması proqramı və s. həyata keçirilir. Ancaq buna vaxt lazımdır. Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı çox böyükdür, haradasa 40 faizdir. Biz çalışırıq ki, bunu azaldaq və azaldacağıq. Minimum əməkhaqqının iki dəfə qaldırılması məhz bu məqsədi daşıyır. Biz elə etməliyik ki, hər bir vətəndaş, hər bir azərbaycanlı yaxşı yaşasın. Hər halda, bizim niyyətimiz bundan ibarətdir. Bizim gördüyümüz işlərin məqsədi də budur. Bu işləri düşünülmüş proqramlar – iqtisa-

di inkişaf proqramı, regional inkişaf proqramı və digər sosial proqramlar əsasında görürük.

Azərbaycanda cinayətkarlığa qarşı mübarizə güclənməlidir. Bu istiqamətdə bu vaxta qədər böyük işlər görülüb və Daxili İşlər Nazirliyi tərəfindən cinayətkarlar ifşa olunubdur. Bir neçə cinayətkar dəstə zərərsizləşdirilibdir. Bu gün ölkədə hökm sürən əmin-amanlıq, asayiş onu göstərir ki, bu istiqamətdə uğurlara nail ola bilmişik. Xüsusilə qonşu ölkələrlə müqayisədə, keçmiş Sovet İttifaqı respublikaları ilə müqayisədə statistika da onu göstərir ki, Azərbaycan ön sıralardadır. Amma eyni zamanda, bu mübarizə lazımi səviyyədə deyildir. Burada çox böyük nöqsanlar var və ciddi işlər görülməlidir ki, nöqsanlar tezliklə aradan götürülsün.

Bilirsiniz ki, bu yaxınlarda, martın 10-da Milli Təhlükəsizlik Nazirliyi tərəfindən keçirilmiş xüsusi əməliyyat nəticəsində böyük cinayətkar dəstə ifşa olunub, həbs edilib və girov saxlanılan şəxs də azadlığa çıxıbdır. Təəssüf edirəm ki, bu cinayətkar dəstənin başçısı Daxili İşlər Nazirliyində uzun illər işləmiş bir şəxsdir və onun ətrafında olan cinayətkarların da bir hissəsi Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır. Bu, Daxili İşlər Nazirliyi üçün böyük ləkədir və onlar bu ləkəni yumalıdırlar.

Bilirsiniz ki, 10 il ərzində bu cinayətkar dəstə Azərbaycanda müxtəlif cinayətlər törətmişdir. Adam oğurluğu ilə məşğul idi. Adamları oğurlayır, sonra pul alıb onları buraxırdılar. Bundan başqa, onlar tərəfindən bir neçə qətl törədilmişdir və əfsuslar olsun ki, uzun illər ərzində bu cinayətlər açılmamış qalırdı. Son hadisə, adam oğurluğu hadisəsi baş verəndə mən bu məsələni Milli Təhlükəsizlik Nazirliyinə tapşırdım və bu istintaq və araşdırma çox məxfi şəkildə aparılırdı. Demək olar ki, qısa müddət ərzində, haradasa iki həftə bundan əvvəl artıq cinayətkar dəstə və onda iştirak edən, ona başçılıq edən bütün adamlar müəyyən edilmişdi. Sadəcə olaraq, girovda saxlanılan şəxsin yeri bəlli olmadığına görə mən əməliyyat aparmağa icazə verməmişdim və məsələni belə qoymuşdum ki, ilk növbədə, insanın sağlamlığı təmin olunmalıdır. Martın 10-da böyük bir peşəkarlıqla keçiril-

miş əməliyyat nəticəsində, demək olar ki, cinayətkar dəstənin bütün üzvləri həbs olunub və girov azadlığa buraxılıbdır.

Bu, dəhşətli hadisədir. Bu, uzun illərdir ki, Azərbaycanı, Bakını qorxuda saxlayan quldur dəstəsidir və biz onu ifşa etdik. Onlar qanun qarşısında cavab verəcəklər. Ən dəhşətlisi odur ki, son girov qadın idi. Bu heç bir əxlaqa, mənəviyyata sığmayan hərəkətdir, çox alçaq hərəkətdir. Əlbəttə, bu quldur dəstəsi, onun üzvləri törədilmiş bütün cinayətlərə görə qanun qarşısında cavab verəcəklər. Hər bir cinayətkar, qanunu pozan hər bir şəxs qanun qarşısında cavab verməlidir. Qanunun aliliyi hamımız üçün əsas olmalıdır. İnsanlar bilməlidirlər ki, dövlət cinayətkarlara qarşı amansız mübarizə aparır. Biz imkan verə bilmərik ki, burada cinayətkar dəstələr baş qaldırsın. Biz imkan verə bilmərik ki, insanlarımız qorxu içində yaşasınlar.

Mən bir daha demək istəyirəm ki, xalqımızın rahat yaşaması, əmin-amanlıq, sülh şəraitində yaşaması bizim başlıca vəzifəmizdir. Prezident kimi, mən bu vəzifəni dərk edirəm və əlimdən gələni edirəm ki, sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Ona görə mən dünən Daxili İşlər nazirinə ciddi göstərişlər vermişəm ki, daxili istintaq aparılsın, ciddi araşdırmalar aparılsın və Daxili İşlər Nazirliyində, bu sistemdə baş vermiş nöqsanlar tezliklə aradan qaldırılsın.

Ancaq onu da demək istəyirəm ki, bəziləri bu vəziyyətdən istifadə edib şəxsi, yaxud da siyasi maraqlarını təmin etmək üçün Daxili İşlər nazirinə qarşı bir kampaniya başlamaq istəyirlər. Biz buna imkan verməyəcəyik. Dediyim kimi, bu hadisə bütün orqanlar üçün böyük ləkədir. Amma onu da bilməliyik ki, belə hadisələr başqa təşkilatlarda da baş verə bilər. Bu hadisə Daxili İşlər Nazirliyi tərəfindən bu günə qədər görülmüş işlərin üstündən xətt çəkməməlidir. Daxili İşlər Nazirliyi Azərbaycanda çox mühüm işlər görübdür. Onların çox mühüm funksiyaları vardır. Azərbaycanda qanunun keşiyində duran qurumdur və mən keçmişdə görülmüş bütün işləri yüksək qiymətləndirirəm. Ancaq eyni zamanda, ciddi tapşırıq verirəm ki, bütün nöqsanlar aradan götürülsün və bu barədə ictimaiyyətə məlumat verilsin.

Yenə də deyirəm, mən imkan verməyəcəm ki, bu, kampaniyaya çevrilsin və bundan kimsə öz şəxsi, yaxud da siyasi maraqları üçün istifadə edərək bütün orqana böhtan atsın.

Əziz əsgərlər və zabitlər!

Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Ölkəmiz bölgədə öz gücünü artıq hiss edir və bunu təkcə biz deyil, ictimaiyyət və beynəlxalq aləm də görür. Azərbaycanın son müddət ərzində əldə etdiyi diplomatik uğurlar da göz qabağındadır. Beynəlxalq təşkilatlar tərəfindən Ermənistanı ifşa edən çoxlu sənədlər qəbul edilmişdir: Avropa Şurası tərəfindən qəbul edilmiş son qətnamə, ondan əvvəl Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş qətnamələr, İslam Konfransı Təşkilatı tərəfindən qəbul edilmiş qətnamələr. Ümumiyyətlə, beynəlxalq aləmdə bizim haqq işimizə dəstək görürük və bunu hiss edirik. İlk dəfədir ki, Avropanın beynəlxalq təşkilatı Ermənistanı işğalçı dövlət kimi tanıdı, Ermənistan tərəfindən aparılmış etnik təmizləmələr siyasətini pislədi. Beləliklə, danışıqlar prosesinə çox gözəl, yeni bir zəmin yaratdı.

Mən yenə də deyirəm, biz müharibə istəmirik. Biz bilirik ki, müharibə humanitar fəlakət deməkdir. Amma eyni zamanda, hamı bilməlidir ki, biz müharibəyə hazır olmalıyıq və hazırıq da. Bundan sonra da bu istiqamətdə böyük işlər görüləcəkdir. Ordu quruculuğu istiqamətində aparılan işlər prezident kimi, mənim fəaliyyətimdə prioritet məsələdir. Biz bütün səylərimizi, bütün gücümüzü ona yönəltməliyik ki, ordumuz daha da güclü olsun, daha da peşəkar olsun, ən müasir texnika ilə təchiz edilsin və istənilən an doğma torpaqları azad etməyə qadir olsun. Biz bunu bundan sonra da edəcəyik.

Mən heç şübhə etmirəm ki, bu münaqişə, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Ermənistanın siyasətinin heç bir axırı yoxdur, heç bir hüquqi əsası yoxdur, heç bir siyasi dəstəyi yoxdur. Sadəcə olaraq, erməni diasporu, Ermənistanın dünyadakı havadarları, bəzi riyakar siyasətçilər, dairələr, təşkilatlar ikili standartlar siyasəti apararaq vəziyyətin normallaşmasına imkan vermirlər. Amma əda-

lət zəfər çalacaqdır. Bizim işimiz haqq işidir. Biz heç kimin torpağını zəbt etməmişik, heç kimə qarşı etnik təmizləmə aparmamışıq, heç kimin ərazi bütövlüyünü pozmamışıq. Biz öz haqqımızı tələb edirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı da biz heç kimə verən deyilik. Bunu hamı bilməlidir. İlk növbədə, bunu Ermənistan bilməlidir ki, Azərbaycan xalqının səbri tükənməz deyildir. Mən bir daha demək istəyirəm ki, ən son məqama qədər, bilsək ki, heç olmasa, 5 faiz ümid var ki, məsələ sülh yolu ilə həll olunsun – biz danışıqlar prosesində iştirak edə bilərik. Əgər görsək ki, ümid yoxdur, onda biz danışıqlardan çıxacağıq və məsələni başqa yolla həll edəcəyik. Heç kim buna şübhə etməsin!

Əziz əsgərlər!

Əziz zabitlər!

Mən sizi Daxili Qoşunlar günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Bakının Nərimanov rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində keçirilən mərasimdə əsgər və zabitlərin ifasında «Əmrindəyəm, komandanım» sıra mahnısı səsləndi, qoşun bölmələrinin nümunəvi çıxışları oldu.*

*Daxili Qoşunların şəxsi heyəti marş sədaları altında tribunanın önündən keçdi.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi hissənin məişət və xidmət sahəsi, yeni tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış oldu.*

*Ali Baş Komandana məlumat verildi ki, daxili imkanlar hesabına müasir tələblər səviyyəsində əsaslı bərpa olunmuş bu obyektlərdə Yaponiya və Türkiyədən gətirilmiş avadanlıq quraşdırılmış və əsgərlərin sağlamlığının qorunması və məişəti üçün hər cür şərait yaradılmışdır.*

*Daxili Qoşunlarda görülən işləri yüksək qiymətləndirən, fiziki hazırlığın yüksəldilməsi, nizam-intizamın daha da möhkəmləndirilməsi üçün müvafiq tapşırıqlar verən Ali Baş Komandan İlham Əliyev sonra hərbi qulluqçularla birlikdə bayram naharı etdi.*

## Mərasimdən sonra jurnalistlərə verilən müsahibə

**S u a l: Cənab Prezident, ilk sualım Sizin vurğuladığınız hadisə ilə bağlıdır. Bu, cəmiyyətdə böyük əks-səda doğurubdur. ümumiyyətlə, bu araşdırmaların sonu olacaqmı, Daxili İşlər Nazirliyi rəhbərliyinin bu hadisədə hər hansı bir rolu olubmu və bu gurultulu hadisədən sonra Daxili İşlər Nazirliyi rəhbərliyinin aqibəti necə olacaqdır?**

**C a v a b:** Son hadisə bizim hamımızı çox narahat etdi. Çünki bu, birinci hadisə deyildir. Əlbəttə, qəti göstərişlər verilmişdir ki, məsələ ciddi araşdırılsın. Əfsuslar olsun ki, bu vaxta qədər buna oxşar məsələlərlə bağlı istintaqlar, aparılmış axtarış tədbirləri heç bir nəticə verməmişdir. Ona görə mənim tərəfimdən belə bir qərar qəbul olundu ki, bu məsələni Milli Təhlükəsizlik Nazirliyinə həvalə edim. Halbuki bu onların birbaşa funksiyası deyildir. İstintaq və bütün tədbirlər çox məxfi şəkildə aparıldı və bu böyük cinayətkar dəstə ifşa olundu. Bu barədə məlumat da verildi. Yəqin ki, görmüsünüz və oxumusunuz. İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəməzdim. Hər şey üzə çıxacaqdır. Artıq 9 adam oğurluğu hadisəsi və 3 qətl hadisəsi açılıbdır. Bu hadisələr Azərbaycanda, cəmiyyətdə çox güclü rezonans doğurmuşdu, uzun illər açılmamış qalmışdır. Biz hamımız narahat idik. Çünki insanlarımızın rahat yaşaması bizim üçün başlıca vəzifədir. Mən bilirəm ki, bu son hadisələrdən sonra cəmiyyətdə müəyyən narahatlıq yaranmışdı. Bəzi insanlar çox narahat idi və bu da təbiidir. Hərənin ailəsi var, övladı var, həyat yoldaşı var. Mən hesab edirəm ki, Azərbaycanın müasir tarixində bu əməliyyat ən böyük əməliyyatdır, ən böyük uğuru-

muzdur. Azərbaycan dövləti öz gücünü göstərdi, bu cinayətkar dəstə zərərsizləşdirildi və məsuliyyətə cəlb olundu.

Mən çıxışımda dedim, Daxili İşlər nazirinə göstəriş verilibdir ki, nazirlik tərəfindən daxili istintaq aparılsın. Eyni zamanda, prokurorluq da istintaq aparır və cinayətdə əli olmuş hər bir şəxs məsuliyyətə cəlb olunacaqdır. Burada həm cinayət məsuliyyətindən, həm də inzibati məsuliyyətdən söhbət gedir. Kimin bu cinayətdə əli varsa, o, məsuliyyətə cəlb olunacaq və bütün başqa tədbirlər də görüləcəkdir.

**S u a l: Cənab Prezident, Siz bildirdiniz ki, bu hadisədən Daxili İşlər Nazirliyinin nüfuzuna ləkə gətirmək məqsədi ilə də istifadə etmək istəyirlər. Bunun daha geniş vüsət almaması üçün hansı tədbirlər görüləcəkdir? Çünki bu kampaniya ləkə yaxmağa, Daxili İşlər Nazirliyi rəhbərliyinin adının hallandırılmasına yönəldilə bilər.**

**C a v a b:** Mən elə ona görə dedim ki, biz bu kampaniyaya imkan verməməliyik. Əlbəttə, bu çox acınacaqlı bir haldır və dedim ki, böyük ləkədir, Daxili İşlər Nazirliyi bu ləkəni yumalıdır və ciddi tədbirlər görməlidir, olan nöqsanları aradan götürməlidir. Bu adam 10 ildən artıqdır ki, bu idarədə işləyib və necə olub ki, onun yanında işləyən əməkdaşlar bunları görməyiblər? Necə olub ki, 10 il ərzində bu cinayətkar dəstə bu əməlləri edibdir? Nəyə görə?! Çünki yəqin əmin idi ki, bu cinayətlərin üstü açılmayacaqdır. Yəqin əmin idi ki, cəzasız qalacaqdır. Ona görə, əlbəttə, burada məsuliyyətdən söhbət gedir və hər bir insan öz məsuliyyətini dərk etməlidir. Amma eyni zamanda, biz bu məsələnin ümumiləşdirilib Daxili İşlər nazirinin əleyhinə kampaniya aparılmasına heç cür imkan verə bilmərik.

Mən öz çıxışımda dedim, indi də demək istəyirəm ki, Daxili İşlər Nazirliyi Azərbaycanda asayişin qorunması üçün, cinayətkarlığa qarşı mübarizə aparılması istiqamətində böyük işlər görübdür. Biz bunu inkar edə bilmərik və bir hadisə bütün görülən işlərin üstündən xətt çəkməməlidir. Hər şey ədalətli olmalıdır, mən ədalətin tərəfdarıyam. Kim günahkardır, kimin günahı var, o, məsuliyyətə cəlb olunacaqdır.

**S u a l: Cənab Prezident, Ramil Usubovun aqibəti necə olacaqdır? Mətbuatda onu istefaya göndərəcəyiniz barədə məlumatlar yayılıbdır.**

**C a v a b:** Mən bilmirəm hansı mətbuatda bunu yazıblar. Bu mənim səlahiyyətimdir, mənim işimdir və mənim belə fikrim yoxdur. Yenə də deyirəm, bu hadisə heç kimdə ajiotaj yaratmamalıdır. Heç kim bundan siyasi kampaniya naminə istifadə etməməlidir.

Bilirsiniz, əfsuslar olsun ki, Azərbaycanda baş vermiş hadisələr, bəzi qətllər müəyyən çirkin qüvvələr tərəfindən öz maraqlarını təmin etmək üçün kampaniyaya çevrilir. Elmar Hüseynovun qətli ilə bağlı bəzi siyasi qüvvələr tərəfindən görün nə dərəcədə əxlaqsız hərəkətlər edilibdir. Yenə də biz heç bir kampaniyaya yol verməməliyik. Ramil Usubovun işdə qalması, yaxud qalmaması mənim səlahiyyətimdədir və bu hadisə burada rol oynamamalıdır. Mən Ramil Usubovun fəaliyyətindən bütövlükdə razıyam. Belə hadisələr ola, baş verə bilər. Ona görə mətbuatın belə yazılarına fikir verməyin.

**S u a l: Cənab Prezident, belə fikirlər də var ki, ümumiyyətlə – Gürcüstanda bu variantdan istifadə etdilər, – Daxili İşlər Nazirliyinin faydalı bir struktur kimi fəaliyyəti bundan sonra şübhə altına düşə bilər. Milli Təhlükəsizlik Nazirliyi ilə Daxili İşlər Nazirliyinin birləşdirilib vahid bir strukturun yaradılması variantı ola bilərmi?**

**C a v a b:** Yox, mən onu, ümumiyyətlə, nəzərdən keçirmirəm. Belə bir praktika keçmişdə, Sovet İttifaqı zamanı olmuşdur – səhv etmirəmsə, deyəsən, Xruşşovun dövründə – ancaq özünü doğrultmayıbdır. İnanmıram ki, bu praktika özünü doğrulda bilər. Bu iki nazirliyi birləşdirmək olmaz. Ümumiyyətlə, onların ayrı-ayrı funksiyaları var. İkinci tərəfdən, mənim də fəaliyyətim üçün müxtəlif nazirliklərin məlumatı mühüm rol oynayır. Yəni mən imkan verə bilmərəm ki, yalnız bir mənbədən məlumat alım. Həm Daxili İşlər Nazirliyinin, həm də Milli Təhlükəsizlik Nazirliyinin hərəsinin öz funksiyası var və belə söhbət ola bilməz ki, onlar birləşdirilsin.

**S u a l: Cənab Prezident, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə bağlı hökumət hansı yeni addımları atmaq istəyir?**

**C a v a b:** Öhdəliklər yerinə yetirilir. Bilirsiniz ki, bu istiqamətdə böyük işlər görülübdür və bütün öhdəliklər yerinə yetirilməlidir. Biz öhdəliyi ona görə üzərimizə götürmüşük ki, onu yerinə yetirək. Ona görə götürməmişik ki, yerinə yetirməyək. Amma vaxtı var, hər bir öhdəliyin müddəti var, vaxtı var. Vaxtlı-vaxtında yerinə yetirilir. Hardasa müəyyən yubanma var. Onun da obyektiv səbəbləri var.

Bilirsiniz ki, ictimai televiziyanın yaranması ilə bağlı öhdəlik var. O da yaranıbdır və indi maddi-texniki məsələlər həll olunur. Hər bir öhdəlik yerinə yetirilməlidir. Azərbaycan Avropa Şurasına daxil olanda bu öhdəlikləri üzərinə götürübdür və yerinə yetirəcəkdir.

**S u a l: Cənab Prezident, dünən parlamentdə belə fikirlər səsləndi ki, Azərbaycanda bir çox nalayiq yerlərin arxasında polis rəisləri durur. Siz dediniz ki, Daxili İşlər nazirinə göstəriş vermisiniz. Nazirliyin strukturunda ciddi dəyişikliklərin aparılması barədə göstəriş vermisinizmi və ümumiyyətlə, baş verən bu hadisələrin Elmar Hüseynovun qətli ilə hər hansı bir əlaqəsi barədə versiya varmı?**

**C a v a b:** Bilirsiniz, siz deyirsiniz ki, mətbuat belə yazır. İndi deyirsiniz, parlament. Bax, mətbuatda da, parlamentdə də bu məsələni müxalifət qaldırır. Dünən parlamentin iclasında müxalifət nümayəndəsi bu məsələni qaldırıbdır. Amma dediyinizdən belə çıxır ki, bunu parlament qaldırır. Yaxud da müxalifət mətbuatı bundan istifadə edib, öz yazılarını yazır və deyilir ki, mətbuat yazır. Biz bunu ayırmalıyıq. Ümumiyyətlə, yenə də deyirəm, belə məsələlərdən siyasi məqsədlər üçün istifadə etmək olmaz.

Nalayiq yerləri saxlayan elə müxalifətin özüdür. O yerlərə gedən və o yerlərdən biabırçı şəkildə çıxan elə müxalifətin özüdür. Bu yaxındakı hadisələr bunu göstəribdir. Ona görə məsələni ümumiləşdirmək olmaz. Daxili İşlər Nazirliyində və bütün

başqa hüquq-mühafizə orqanlarında nöqsanlar var. Bunu heç kəs inkar etmir və biz də bunu bilirik. Bu nöqsanlarla mübarizə aparmaq lazımdır. Amma normal şəraitdə, normal qaydada. Yenə də deyirəm, mən heç bir kampaniyaya imkan verə bilmərəm.

Artıq müxalifət bütün imkanlarını itiribdir. Xalqın inamını çoxdan itiribdir. Oktyabr seçkilərindən sonrakı vəhşi hərəkətləri onları, demək olar ki, yox səviyyəsinə endiribdir. Onların əlində bir şey qalmayıb ki, burada vəziyyəti gərginləşdirsinlər. Bir şey qalıb ki, Azərbaycanda hansısa xaos, hərc-mərclik yaransın, hansısa xoşagəlməz hadisələr yaransın ki, onlar da iqtidarı tənqid, yaxud ittiham etsinlər. Bu da alınmır. Elmar Hüseynovun qətli bir daha onların əxlaqsız hərəkətlərini göstərdi. Onların nalayiq çıxışları cəmiyyətdə heç bir əks-səda doğurmadı. Əksinə, cəmiyyətdə onlara qarşı olan mənfi münasibət daha da gücləndi. Çünki bir insanın, bir ailənin faciəsi bunların əlində bayraq oldu. Burada hansı əxlaqdan söhbət gedə bilər?

Ona görə mən hesab edirəm ki, biz bu məsələni ümumiləşdirməməliyik. Hər bir təşkilatda, hər bir idarədə nöqsanlar var. Ciddi göstəriş verilibdir ki, tezliklə araşdırılsın. Təkcə bu hadisə deyil. Bütövlükdə, Daxili İşlər Nazirliyində xoşagəlməz halların qarşısı alınmalıdır, ciddi tədbirlər görülməlidir, ciddi kadr dəyişiklikləri edilməlidir. Günahkar olan əməkdaşlar, nalayiq işlərlə məşğul olan əməkdaşlar ifşa edilməli və məsuliyyətə cəlb olunmalıdır.

O ki qaldı, Elmar Hüseynovun qətli ilə bu hadisənin əlaqəsinə, bu barədə bir şey deyə bilmərəm. Hələlik ilkin istintaq heç bir əlaqə üzə çıxarmayıbdır. Amma istintaq davam edir və biz bunu yaxın zamanlarda biləcəyik.

**S u a l: Cənab Prezident, atəşkəs rejiminin pozulmasını necə qiymətləndirirsiniz? Ümumiyyətlə, bu, danışıqlar prosesinə təsir edə bilərmi?**

**C a v a b:** Mən atəşkəs rejiminin pozulmasını mənfi qiymətləndirirəm. Siz məndən başqa cavab gözləməyin. Hər halda, atəşkəsin pozulması müsbət hal deyildir. Bu bizə lazım deyildir. Çünki bilirsiniz ki, Azərbaycanın mövqeyi indi daha da güclüdür və müqayi-

sə etsək görərik ki, münaqişənin nizama salınması işində biz çox böyük nailiyyətlər əldə etmişik. Həm diplomatik, həm siyasi, həm də başqa nailiyyətlər. Ona görə bu bizə əl vermir. O, ermənilərin təxribatıdır. Yəqin ki, istəyirlər bu yolla hansısa məqsəd güdsünlər. Biz buna hazırıq, əgər hücum etsələr, biz elə cavab verərik ki, onların həvəsi qaçar.

**S u a l: Cənab Prezident, neft-qaz, enerji sektorunda şəffaflığın yaranması ilə bağlı müəyyən addımlar atırsınız. Qazın qiymətləri qaldırıldı. Amma ölkədə ciddi bir problem yaranıbdır. Yəni insanlarımızın heç bir təminatı yoxdur, amma onlar o pulu ödəməlidirlər. Bu sahədə mənfi hallar meydana çıxır. Bununla bağlı «Azəriqaz»ın, «Azərenerji»nin, «Azərsu»nun rəhbərlikləri müəyyən misallar gətirirlər ki, vəsait ayrılmadığına görə biz bunu edə bilmirik. ümumiyyətlə, bu sahədə Siz hansısa bir yeniliklər, dəyişikliklər edəcəksinizmi?**

**C a v a b:** Birincisi, onlara vəsait ayrılıbdır. 30 milyard manat vəsait ayrılıbdır ki, bu vəsaitin hesabına sayğaclar quraşdırılsın. İkincisi, onların öz vəsaitləri də var. Bilirsiniz ki, qiymətin qalxması ilə bağlı onların da gəliri artacaqdır. Bu onların vəzifəsidir. Bilirsiniz ki, «Azəriqaz» Dövlət Neft Şirkətindən müftə qaz alır, pulunu vermir. Neft Şirkəti xaricdən qazı alıb «Azəriqaz»a verir, onun pulunu almır.

«Azəriqaz»ın öz daxili imkanları hesabına bütün bu işlər görülməlidir. Yenə də deyirəm ki, onlara 30 milyard manat ayrılıbdır. Əlbəttə, sayğaclar tezliklə quraşdırılmalıdır. Çünki insanlar bilməlidir ki, nəyin pulunu verirlər, nəyə görə verirlər.

Əfsuslar olsun ki, bizdə keçmişdə də sayğaclar olmayıbdır. Baxmayaraq ki, Sovet İttifaqının tərkibindəki başqa respublikalarda olubdur, Rusiyanın hər yerində sayğac var idi. Azərbaycanda nədənsə, keçmişdə də bu məsələ yarımçıq qalmışdı. İndi gərək biz bunu düzəldək. Buna böyük vəsait lazımdır. Amma hesab edirəm ki, imkanlı adamlar özləri sayğacları almalıdır. İmkansız adamların, hansı ki, pulu yoxdur, əlbəttə, onların mənzilində sayğacı dövlət quraşdıracaqdır. Amma imkanlı adam,

məsələn, yeni tikilmiş evlərdə mənzil almağa 100 min dollar pul ödəyən adam necə olur ki, sayğac ala bilmir. Özləri alsınlar, qoysunlar.

**S u a l: Cənab Prezident, erməni mənbələrinin yazdığına görə, yaxın vaxtlarda prezidentlərin növbəti görüşü gözlənilir. Ümumiyyətlə, bu görüşün yeri və vaxtı dəqiqləşdirilibmi?**

**C a v a b:** Belə bir təkliflər var ki, görüş keçirilsin. Buna etiraz etmirəm, amma o şərtlə ki, görüşün mövzusu olsun. Biz artıq neçə dəfə görüşmüşük. Demək olar ki, bütün məsələlər müzakirə olundu, mövqelər də ortaya qoyuldu. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Biz hansı güzəştə gedə bilərik, onlardan nəyi almışıq ki, qaytaraq? Ona görə, ümumiyyətlə, qarşılıqlı güzəştlərdən söhbət gedə bilməz. Bu əvvəlcədən, bəri başdan yalnış bir tezis idi ki, münaqişə qarşılıqlı güzəştlər əsasında həll olunmalıdır. Kimsə bunu ortalığa atıbdır və necə deyərlər, bir müddət bu tezis yaşayıbdır. Mən hesab edirəm ki, biz tərəfdən ediləsi güzəşt yoxdur. Yeganə bir addım ola bilər ki, Dağlıq Qarabağda yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinin təminatı. Bu baxımdan biz, necə deyərlər, işləyə bilərik, burada danışıqlar üçün mövzu var. Amma başqa ediləsi güzəştimiz yoxdur.

O ki, qaldı görüşə, xarici işlər nazirlərinin görüşləri yəqin ki, buna zəmin yaratmalıdır. Əgər o danışıqlarda irəliləyiş olarsa, Ermənistan konstruktiv mövqe tutarsa və nəhayət, anlasa ki, bu məsələ yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər və xarici işlər nazirlərinin görüşü bir səmərə verərsə, onda prezidentlərin görüşü də mümkün ola bilər.

**S u a l: Cənab Prezident, ABŞ Konqresində konqresmenlərin təşəbbüsü ilə demokratiyanın irəliləməsi haqqında layihə diqqət mərkəzində olacaqdır. Bunu "məxməri" inqilabların xüsusilə keçmiş sovet respublikalarında yayılması prosesi kimi qiymətləndirirlər. Bəzi politoloqlar deyir ki, növbəti inqilab Azərbaycana gələcəkdir. Ümumiyyətlə, Azərbaycan prezidentini belə bir təhlükə gözləyirmi?**

**C a v a b:** Siz belə bir təhlükəni gözləyirsiniz?!

**J u r n a l i s t:** Mən cavab verə bilmərəm.

**İ l h a m Ə l i y e v:** Siz həmişə hansısa bəzi politoloqlara istinad edirsiniz.

Yox, mən belə təhlükə gözləmirəm. Azərbaycan belə bir təhlükə ilə üzləşə bilməz. İnqilablar o yerdə olur ki, orada xalqla iqtidar arasında uçurum var, inamsızlıq var, ümumiyyətlə, iqtidar dəstəklənmir. Azərbaycanda isə vəziyyət tamamilə başqadır. Müxalifət tərəfindən, yaxud da hansısa müstəqil – əgər belə demək olarsa – xarici fondlar tərəfindən aparılmış sorğulara baxın. İqtidarın, o cümlədən prezidentin reytinqinə baxın. Ən yüksək həddədir. Hətta sizə deyə bilərəm ki, prezident seçkilərindən sonra bəlkə də ən yüksək həddə gəlib çatıbdır. Yəni mən bunu özümü tərifləmək üçün demirəm. Bu həqiqətdir. Əgər sual verməsəydiniz, mən bu həqiqəti deməzdim. Çünki bunu demək, bəlkə də, mənim üçün yaxşı deyil, amma bu həqiqətdir. Azərbaycan iqtidarı xalqına xidmət edir. Bizim gördüyümüz bütün işlərin bir məqsədi var ki, ölkəmiz daha da güclü olsun, Azərbaycanın nüfuzu qalxsın, Ermənistanla münaqişə bizim xeyrimizə həll olunsun. Biz daha da güclü olaq, ordumuzu gücləndirək, sosial məsələləri həll edək. Belə olan şəraitdə, adətən, inqilablar baş vermir. İnqilablar o yerdə baş verir ki, iqtisadi vəziyyət pisləşir, sosial vəziyyət pisləşir, yaxud da iqtidar hansısa addımlar atır və bunlar xalq tərəfindən mənfi qarşılanır. Azərbaycanda bunların heç biri yoxdur və olmayacaq da. Mən də çalışacağam bundan sonra da elə işləyim ki, xalq həmişə məni dəstəkləsin. Sağ olun.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı böyük məmnunluq doğurur.

Ümidvaram ki, xalqlarımızın iradəsini yerinə yetirərək, əlaqələrimizin hərtərəfli genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində bundan sonra da səmərəli fəaliyyət göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2005-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ**

Hörmətli cənab Prezident!

Banqladeşin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2005-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Ölkəmizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Yunanıstan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Yunanıstan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 mart 2005-ci il*

## TÜRKİYƏ RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜSTƏŞAR MÜAVİNİ, SƏFİR ƏHMƏD ÜZÜMÇÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2005-ci il*

*Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə ilə Azərbaycan arasındakı* dostluq *və qardaşlıq münasibətlərinin bütün sahələrdə sürətlə inkişaf* etdiyini *nəzərə çatdırdı. Türkiyəyə rəsmi səfərini və* orada *keçirilmiş beynəlxalq tədbirlər zamanı* bu *ölkəyə rəsmi ziyarətlərini məmnunluqla xatırlayan prezident İlham Əliyev ölkələrimiz arasında* siyasi *sahədə* daim *məsləhətləşmələr aparılmasını yüksək* qiymətləndirdi.

*Azərbaycan ilə Türkiyənin beynəlxalq və* regional *əməkdaşlıq* sahəsində *də əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı dünya miqyaslı,* qlobal enerji *layihələrində* iki *ölkənin iştirakını çox əhəmiyyətli* bir amil kimi *dəyərləndirdi.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə* toxunan *prezident İlham Əliyev hazırda danışıqların* Praqa prosesi *çərçivəsində xarici işlər nazirləri səviyyəsində aparıldığını vurğuladı. Dövlətimizin başçısı* bu *danışıqların münaqişənin həllinə müəyyən kömək göstərəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar tərəfindən münaqişənin həlli məsələsinə* daha *böyük diqqət yetirilməsinin vacibliyini qeyd etdi.*

*Cənab Əhməd Üzümçü Türkiyə prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın səmimi* salam*larını və ehtiramını* prezident *İlham Əliyevə çatdırdı.* Qonaq *Azərbaycan ilə Türkiyə arasında* dostluq *və qardaşlıq münasibətlərinin* siyasi, iqtisadi, *hərbi, mədəni və digər sahələrdə sürətlə inkişaf* etdiyini *vurğuladı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə,* xarici *işlər nazirləri səviyyəsində aparılan danışıqlara* toxunan *cənab Əhməd Üzümçü* dedi ki, *Türkiyə* bu *münaqişənin sülh yolu ilə* nizamlanması istiqa*mətində Azərbay*can Xarici *İşlər* Nazirliyi *ilə* daim siyasi *məsləhətləşmələr aparır.*

*Prezident İlham Əliyev Türkiyə prezidenti Əhməd Necdət Sezərin və Baş nazir Rəcəb* Tayyib *Ərdoğanın səmimi salamlarına və ehtiramına görə təşəkkürünü* bildirdi *və* onun da *səmimi salamlarını və ehtiramını cənab Əhməd Necdət Sezərə və cə*nab *Rəcəb* Tayyib *Ərdoğana çatdırmağı xahiş* etdi.

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN MƏRUZƏÇİSİ MALKOLM BRYUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2005-ci il*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyev Avropa Şurası ilə əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən müzakirələri müsbət bir addım kimi dəyərləndirdi. O bu münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun bilavasitə mandata malik olduğunu qeyd edərək, eyni zamanda beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının bu məsələyə daha çox diqqət yetirməsinin vacibliyini vurğulamışdır. Prezident İlham Əliyev münaqişə ilə bağlı AŞPA-da keçirilən müzakirələrin və qəbul olunmuş sənədlərin bu məsələnin həllində mühüm rol oynayacağına əminliyini ifadə etmişdir.*

*Azərbaycan prezidenti bildirmişdir ki, ölkəmiz AŞ qarşısında götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirir və bütün bu proseslər cəmiyyətimizin daha da demokratikləşməsi, Avropa strukturlarına daha sıx inteqrasiya etməsi işinə öz töhfəsini verir.*

*Cənab Bryus Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təqdim olunmuş son məruzəni ədalətli sənəd kimi dəyərləndirərək dövlətimizin başçısının AŞPA-dakı çıxışının bu sənədin qəbul edilməsində çox mühüm rol oynadığını vurğulamışdır. O, prezident İlham Əliyevin bu çıxışı zamanı Azərbaycanın təşkilat qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, münaqişə-*

*nin həlli ilə bağlı ölkəmizin mövqeyi barədə söylədiyi fikirlərin avropalı deputatlar tərəfindən yüksək qiymətləndirildiyini bildirmişdir.*

*Malkolm Bryus Azərbaycan xalqının tolerantlıq prinsiplərinə sadiqliyini yüksək qiymətləndirmişdir.*

*Cənab Bryus Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığından həm bu təşkilatın, həm də ölkəmizin qarşılıqlı surətdə faydalandığını xüsusi olaraq vurğulamışdır.*

*Görüşdə məhbuslarla bağlı məsələlər də müzakirə olunmuşdur.*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN BİR QRUP ƏMƏKDAŞINA ÖLKƏMİZİN ORDEN VƏ MEDALLARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Prezident sarayı*

*16 mart 2005-ci il*

Hörmətli Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları!

Hörmətli zabitlər!

Bir neçə gün bundan əvvəl Milli Təhlükəsizlik Nazirliyi tərəfindən keçirilmiş xüsusi əməliyyat nəticəsində böyük cinayətkar dəstə ifşa olundu, dəstənin üzvləri həbs olundular. Bu barədə ictimaiyyətə də məlumat verilmişdir. Artıq bu barədə kifayət qədər məlumat var. Onu qeyd etmək istəyirəm ki, bu, Azərbaycanda son illər ərzində baş vermiş ən böyük cinayətlərdən biri idi. Milli Təhlükəsizlik Nazirliyi tərəfindən aparılmış əməliyyat ən uğurlu, ən böyük əməliyyat idi. Böyük cinayətlər törətmiş, müxtəlif cinayətlərdə əli olmuş bu insanlar uzun illər Azərbaycanda cəzasız yaşayıblar. Azərbaycan ictimaiyyəti bütün bu hadisələrlə bağlı, cinayətlərlə, qətllərlə bağlı çox böyük narahatlıq hissi keçirirdi. Bu bizim ümumi işimizə böyük zərbə idi.

Azərbaycanda son illər ərzində yaranmış ictimai-siyasi sabitlik, əmin-amanlıq bizim hamımız üçün çox mühümdür və ölkəmizin uğurlu inkişafı üçün başlıca şərtdir.

Bu cür amansız, qəddar cinayətlər əlbəttə, cəmiyyətdə hökm sürən sabitliyə mənfi təsir göstərir. Böyük peşəkarlıqla keçirilmiş əməliyyat bir daha onu göstərdi ki, Azərbaycan dövləti öz vətəndaşlarını qorumağa qadirdir. Azərbaycan dövləti öz gücü-

nü göstərdi və bir daha hamı, o cümlədən cinayətkarlar onu gördülər ki, biz hər bir cinayətə qarşı, hər bir cinayətkar dəstəyə qarşı amansız mübarizə aparacağıq.

Deyə bilərəm ki, bu cinayətlə bağlı aparılmış bütün əməliyyat tədbirləri yüksək səviyyədə keçirilmişdir. Həm araşdırma mərhələsində, həm istintaq mərhələsində, həm də əməliyyatın keçirilməsi zamanı yüksək peşəkarlıq nümayiş etdirilmişdir. Nəticədə həm girov saxlanılan şəxs sağ-salamat azad edildi, eyni zamanda cinayətkar dəstənin üzvləri də həbs olundular. Bundan sonra uzun illər açılmamış qalmış bir neçə cinayətin də üstü açıldı. Deyə bilərəm ki, bu istiqamətdə bütün işlər yüksək peşəkarlıqla görülmüşdür və nəticədə Azərbaycan ictimaiyyəti, Azərbaycan xalqı bir daha gördü ki, cinayətkarlığa qarşı mübarizədə bizim qarşımızda heç nə və heç kim dura bilməz.

Mən buna görə sizə öz şəxsi minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanın prezidenti kimi, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, mən bu əməliyyatda iştirak etmiş bütün şəxslərə öz adımdan və bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Mən şübhə etmirəm ki, milli təhlükəsizlik orqanlarının əməkdaşları bundan sonra da vətənə ləyaqətlə xidmət edəcək və xalqımızın, dövlətimizin təhlükəsizliyinin təmin olunması işində fəal iştirak edəcəklər.

Ümumiyyətlə, milli təhlükəsizlik orqanlarının Azərbaycanda çox böyük funksiyaları vardır. Ölkəmizin keçid dövrünü yaşadığını, Azərbaycanın gənc müstəqil dövlət olduğunu və hər bir gənc dövlət kimi, Azərbaycanın da çoxlu problemləri olduğunu, ölkəmizin coğrafi-siyasi vəziyyətini, təbii ehtiyatlarını və ərazimizdən keçən neft-qaz kəmərlərini, nəhəng enerji layihələrinin Azərbaycanda həyata keçirilməsini nəzərə alsaq, görərik ki, müxtəlif dairələrin diqqəti Azərbaycana yönəlmişdir. Biz buna hazır olmalıyıq. Yeni zəmanənin çağırışlarına hazır olmalıyıq və bu baxımdan, Milli Təhlükəsizlik Nazirliyinin müstəsna əhəmiyyəti və funksiyası var. Mən çox şadam ki, bu funksiya uğurla icra edilir və bu gün nazirlik ən yüksək peşəkarlıq səviyyəsi nümayiş etdirir.

Bir ilə yaxındır ki, nazirlikdə kadr dəytşiklikləri baş vermişdir. Mənim tərəfimdən Eldar Mahmudov yeni nazir təyin edilmişdir və bu müddət ərzində görülən işlər onu göstərdi ki, bu çox düzgün seçim idi. Baxmayaraq ki, Eldar Mahmudov milli təhlükəsizlik orqanlarında o vaxta qədər işləməmişdi, ancaq mən onu tanıyırdım. Bilirdim ki, peşəkar insandır, vətənə, dövlətə sədaqətli insandır və şübhə etmirdim ki, qısa müddət ərzində nazirlikdə yeni şərait, yeni ab-hava yaradacaq və bizim milli təhlükəsizliyimiz üçün lazımlı tədbirlər görüləcəkdir. Həyat da onu göstərdi.

Onu da demək istəyirəm ki, «Qara kəmər» əməliyyatı ilə bağlı, bu cinayətkar dəstə ilə bağlı məlumatlar keçmişdə də var idi. İndi görülən bu işlər, aparılan istintaq bunu bir daha göstərir. Sizə deyə bilərəm ki, hələ 2001-ci ildə baş prokuror tərəfindən Milli Təhlükəsizlik naziri Namiq Abbasova bu barədə yazılı surətdə məlumat verilmişdi. Cinayətkar dəstənin başında duran şəxs haqqında məlumat verilmişdi. Başqa işlər haqqında da məlumat verilmişdi ki, onların ətrafında əməliyyat tədbirləri aparılsın və müəyyən şübhələr araşdırılsın. Çox təəssüf edirəm ki, o vaxt buna çox laqeyd yanaşıldı. Demək olar ki, heç bir tədbir görülmədi və nəticədə biz dörd ili itirdik.

Mən çıxışlarımın birində demişdim ki, bu son adam oğurluğu hadisəsi baş verəndən sonra bu araşdırmanı Milli Təhlükəsizlik Nazirliyinə tapşırdım. Baxmayaraq ki, bu sizin birbaşa funksiyanız deyildir. Amma Azərbaycanın ümumi işində, ölkədə sabitliyin, asayişin qorunması işində, Azərbaycanda milli təhlükəsizliyin qorunması işində korporativ maraqlar ola bilməz. Bütün hüquq-mühafizə orqanları bu işdə bir-birinə kömək etməli, birgə işləməlidir. Əgər o vaxt Milli Təhlükəsizlik Nazirliyində bu məsələyə ciddi yanaşılsaydı, ola bilsin ki, bir çox cinayətin qarşısı alınardı.

Bir sözlə, mən o vaxt da, Eldar Mahmudovu vəzifəyə təyin edəndə də bilirdim ki, bu, düzgün seçimdir. Mən çox şadam ki, bu gün Azərbaycan xalqı da, Azərbaycan ictimaiyyəti də bunu gördü və bildi. Hesab edirəm ki, gələcəkdə nazirliyin üzərinə

düşən bütün vəzifələri uğurla icra edəcək, Azərbaycanın gələcəyi üçün, gələcək inkişafı üçün, Azərbaycan vətəndaşlarının təhlükəsizlik şəraitində yaşaması üçün əlindən gələni edəcəkdir.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Milli Təhlükəsizlik Nazirliyinə xüsusi münasibəti var idi. Onun ömrünün böyük hissəsi bu nazirlikdə keçmişdir. Ən kiçik vəzifədən general vəzifəsinə yüksəlmişdi. Sonrakı fəaliyyətində – artıq Azərbaycana birinci katib vəzifəsinə seçiləndən sonra, prezident vəzifəsinə seçiləndən sonra da o daim bu orqana öz diqqətini əsirgəməyibdir. Bu orqanın əhəmiyyətini çox gözəl dərk edirdi və onun işini çox gözəl bilirdi.

Bu diqqət bu gün də göstərilir. Mən öz tərəfimdən çalışıram və çalışacağam ki, bütün lazımi şərait yaradılsın, nazirliyin uğurlu fəaliyyəti üçün bütün məsələlər öz həllini tapsın. Bundan sonra da bunu edəcəyəm. Onu da demək istəyirəm ki, Milli Təhlükəsizlik Nazirliyi, bu orqan mənim üçün də çox əziz və doğmadır. Şübhə etmirəm ki, biz hamımız birlikdə Azərbaycanın gələcək inkişafı üçün böyük işlər görəcəyik.

Nazirliyin maddi-texniki bazası möhkəmlənməlidir. Artıq bu istiqamətdə müəyyən işlər görülübdür, daha da böyük işlər görüləcəkdir. Nazirlik ən müasir texnika ilə təchiz olunmalıdır ki, Azərbaycana ola biləcək istənilən təhlükənin qarşısı tezliklə alına bilsin.

Yenə də demək istəyirəm ki, ölkəmiz indi öz müstəqil tarixinin çox vacib illərini yaşayır. Ölkədə gedən proseslər, Azərbaycanın uğurlu inkişafı, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurla tikilməsi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikilməsi – əlbəttə, biz hamımız bunu bilirik – Azərbaycan üçün çox gözəl şərait yaradacaqdır. Xalqımız, dövlətimiz daha da inkişaf edəcəkdir. Yeni imkanlar yaranacaqdır. Bizim maddi vəziyyətimiz yaxşılaşacaqdır. O da sirr deyil ki, Azərbaycana düşmənçilik mövqeyində dayanan dairələr də az deyildir. İlk növbədə, bu, erməni lobbisidir. Ermənistanın dünyadakı havadarlarıdır ki, Azərbaycana qarşı çox çirkin kampaniya aparırlar.

Onu da demək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinə dair və ümumiyyətlə, Ermənistan–Azərbaycan məsələsinə dair Milli Təhlükəsizlik Nazirliyi tərəfindən demək olar, son vaxta qədər gözə görünən işlər aparılmamışdır. Mən Eldar Mahmudovu vəzifəyə təyin edəndə ona bu barədə də tapşırıqlar verdim. O, araşdırma apardı və gördü ki, nazirlikdə bu istiqamət, ümumiyyətlə, çox zəif səviyyədə idi. Sirr deyil ki, Azərbaycan üçün, bizim gələcəyimiz üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli prioritet məsələdir. Biz bunu sülh yolu ilə etmək istəyirik. Amma bütün başqa imkanlardan – siyasi, diplomatik və s. imkanlardan istifadə edib bu məsələni ədalətli həll etmək istəyirik. Hesab edirəm ki, bu gün bu istiqamətdə də çox vacib addımlar atılır.

Ancaq yenə də o fikrə qayıdıram ki, bizə qarşı dünyada mütəşəkkil bir qurum mübarizə aparır. Keçmiş sovet respublikaları arasında bəlkə də yeganə ölkəyik ki, bizə qarşı məqsədyönlü mübarizə aparılır və bu mübarizə çoxşaxəlidir.

Bilirik ki, erməni lobbisi dünyada çox güclü mövqelərə sahibdir. Onların çox böyük maliyyə imkanları var. Məhz bu maddi imkanlardan istifadə edərək müxtəlif siyasətçiləri də istiqamətləndirirlər. Biz bunların hamısını bilirik. Bəzi xarici kütləvi informasiya vasitələrində Azərbaycana qarşı kampaniya da məhz erməni lobbisi tərəfindən təşkil olunur və istiqamətləndirilir. Nəyə görə? Dünyada Azərbaycanın imicinə xələl gətirmək, Azərbaycanı mənfi şəkildə təqdim etmək üçün. Biz bunların hamısını bilirik və bununla mübarizə aparırıq. Amma onu da bilməliyik ki, bu lobbi həm iqtisadi, həm də siyasi cəhətdən böyük təsirə malikdir. Lakin mən şübhə etmirəm ki, bütün bunlara baxmayaraq, Azərbaycanın haqq işi, Azərbaycanın siyasəti və görülmüş bütün işlər, atılmış addımlar, bizim bu məsələyə yanaşmamız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həllinə gətirib çıxaracaqdır. Mən hesab edirəm ki, bu istiqamətdə görülən bütün işlər və atılan addımlar öz səmərəsini verəcəkdir. Milli təhlükəsizlik orqanlarının da bu

istiqamətdə gördüyü və görəcəyi işlər böyük əhəmiyyət kəsb edir.

Əziz zabitlər!

Bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizdən çox şey asılıdır. Azərbaycanın gözəl gələcəyi var. Azərbaycan inamla addımlayır, öz siyasətini müstəqil şəkildə aparır. Azərbaycan xalqı naminə, Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi naminə ümumi işimizə Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları da böyük töhfə verirlər. Nazirlikdə çalışan insanlar peşəkar, vətənə sadiq, dövlətçiliyimizə sadiq insanlardır. Mən çox şadam ki, nazirlikdə görülən işlər nəticəsində böyük uğurlar qazanıldı, ölkəmiz üçün çox vacib məsələlər öz həllini tapdı. Quldur dəstəsi, cinayətkar dəstə, uzun illər cəmiyyətimizi qorxuda saxlayan bu dəstə zərərsizləşdirildi. Bu sizin əməyinizdir, sizin qələbənizdir, bizim hamımızın qələbəsidir.

Mən bu gün nazirliyin əməkdaşlarını mükafatlandırmaq üçün bir neçə sərəncam imzalamışam. Onları sizin diqqətinizə çatdırmaq istəyirəm: Milli təhlükəsizlik naziri Eldar Mahmudova general-leytenant hərbi rütbəsi verilməsi haqqında sərəncam imzaladım.

Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəisi Hilal Əsədova general-mayor hərbi rütbəsi verilibdir və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında sərəncam imzalanıbdır. Sərəncamda deyilir: «Son dövrlərdə böyük ictimai əks-səda doğurmuş, cəmiyyətdə ciddi narahatlığa səbəb olmuş, əmin-amanlığın və ictimai asayişin pozulmasına yönəlmiş qəsdən adamöldürmə, adam oğurluğu və digər xüsusilə ağır cinayətlərin açılmasında, həmin cinayətləri törətmiş şəxslərin ifşa edilməsində və xüsusi əməliyyat nəticəsində mütəşəkkil cinayətkar dəstəni zərərsizləşdirərək tutulmasında, girov götürülmüş şəxsin azad olunmasında yüksək peşəkarlıq, cəsarət və igidlik göstərdiklərinə görə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşı təltif edilsin».

Demək istəyirəm ki, quldur dəstəsi tərəfindən törədilmiş ağır cinayətlər üzə çıxdı. Açılan bir cinayət keçmişdə törədilmiş cinayətlərin açılmasına gətirib çıxardı və uzun illər açılmamış qalan qətl hadisələrinin də üstü açıldı. O da çox mühümdür ki, öldürülən insanların qanı yerdə qalmadı.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşına «Azərbaycan bayrağı» ordenini, «Vətən uğrunda», «İgidliyə görə» və «Hərbi xidmətlərə görə» medallarını təqdim etdi.*

## YEKUN NİTQİ

Hörmətli zabitlər!

Sizi bir daha təbrik edirəm. Eyni zamanda, qarşıdan gələn Novruz bayramı və peşə gününüz münasibətilə sizi ürəkdən təbrik edirəm. Mən şübhə etmirəm ki, bundan sonra da siz və milli təhlükəsizlik orqanlarının bütün əməkdaşları doğma vətənimizə sədaqətlə xidmət edəcəksiniz. Azərbaycanın milli təhlükəsizliyini daha da möhkəmləndirəcəksiniz, Azərbaycana yönəlmiş təhlükələrin qarşısını alacaqsınız və ölkəmizin gələcək inkişafı üçün əlinizdən gələni edəcəksiniz. Ölkəmizi daha da inkişaf etdirmək, Azərbaycan xalqının həyat səviyyəsini yaxşılaşdırmaq, ölkədə gedən demokratikləşmə proseslərini sürətləndirmək bizim hamımızın vəzifəsidir. Bir sözlə, bizim məqsədimiz Azərbaycanı müasir, qüdrətli dövlətə çevirməkdir.

Görülən bütün işlər, atılan bütün addımlar məhz o istiqamətə yönəlibdir. Son müddət ərzində görülən işlər deməyə əsas verir ki, qarşıya qoyduğumuz bütün məqsədlərə çatırıq, öz fəaliyyətimizi nəzərdə tutulmuş proqram çərçivəsində həyata keçiririk. İstər xarici siyasətdə, istərsə də daxildə gedən proseslərin inkişafı bunu göstərir. Görürük ki, ölkəmiz günü-gündən güclənir, regionda Azərbaycanın mövqeləri daha da möhkəmlənir.

Azərbaycan öz xarici siyasətini uğurla aparır. Bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarının qorunmasına xidmət edir. Biz istəyirik ki, bütün qonşularımızla mehriban münasibətləri möhkəmləndirək. Avratlantik strukturlarına Azərbaycanı daha da sürətlə inteqrasiya edək. Mən hesab edirəm ki, bütün istiqamətlərdə uğurlar var. Ən önəmlisi ondadır ki, Azərbaycan düşünülmüş, məqsədyönlü siyasət aparır. Bizim siyasətimiz vahid konsepsiya çərçivəsində aparılır və bu da uğurun qazanılmasına şərait yaradır.

Azərbaycanın Avropa İttifaqı ilə inteqrasiya prosesi çox geniş vüsət alıbdır. Azərbaycan Avropa İttifaqının yeni qonşuluq siyasətinə daxil edilibdir və bu, ölkəmizin qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Biz istəyirik ki, Azərbaycan müasir, demokratik, qüdrətli dövlətə çevrilsin. Bunu etmək üçün bütün imkanlar var, o cümlədən xalqın dəstəyi də var. Bu da hər bir islahatın, hər bir siyasətin aparılması üçün başlıca şərtdir.

Daxildə gedən proseslər də müsbət istiqamətdə inkişaf edir. Bizim iqtisadi nailiyyətlərimiz də onu göstərir. Regional inkişaf proqramı həyata keçirilir və bu proqram çərçivəsində artıq on minlərlə, yüz minlərlə, hardasa 200 minə qədər yeni iş yeri açılıbdır. Yəni bu onu göstərir ki, görülən hər bir tədbir, atılan hər bir addım düz istiqamətdə atılır. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, möhkəmlənməsi də məhz bu məqsədi daşıyır ki, ölkə dinc şəraitdə inkişaf etsin. Biz bilirik ki, yalnız və yalnız əmin-amanlıq, sülh şəraitində ölkələr inkişaf edə bilər. Orada ki, xaos var, anarxiya, hərc-mərclik, inamsızlıq var, o ölkələr heç vaxt uğur qazana bilməz.

Azərbaycanın təcrübəsi onu göstərir ki, biz düz yoldayıq. Bu yolun, siyasətin əsasını 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur. O, xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra ölkəni çətin vəziyyətdən xilas etdi, Azərbaycanı parçalanmadan xilas etdi. Həmin dövrdə ölkədə gedən proseslər bizim hamımızın xatirindədir. Ümumiyyətlə, ölkənin gələcəyi şübhə altında idi. Yalnız və yalnız Heydər Əliyevin nüfuzu, siyasi biliyi, təcrübəsi, müdrikliyi, xalqa

sədaqəti, cəsarəti imkan verdi ki, ölkə o çətin, ağır vəziyyətdən çıxsın və bu gün Azərbaycan bölgədə qabaqcıl mövqedədir.

Heydər Əliyevin təməlini qoyduğu və on il ərzində apardığı siyasət bu gün bizə imkan verir ki, siyasətimizi müstəqil şəkildə aparaq. Bəzi başqa qonşu ölkələr kimi, biz kimdənsə asılı deyilik. Biz siyasətimizi yalnız və yalnız Azərbaycanın milli maraqlarının qorunması istiqamətində aparırıq. Bu maraqlar isə bizi istəyən, bizimlə əməkdaşlıq edən ölkələrin də marağına uyğundur. Amma ilk yerdə duran bizim öz maraqlarımızdır. Maraqlarımızın qorunması da hər bir vətəndaş üçün başlıca vəzifə olmalıdır.

Bütövlükdə Azərbaycanın milli maraqlarının qorunmasında Milli Təhlükəsizlik Nazirliyinin çox mühüm və əhəmiyyətli funksiyası vardır. Bu sizin üzərinizə böyük məsuliyyət qoyur, vəzifələr qoyur. Azərbaycanın uğurlu inkişafı üçün, məqsədlərimizə nail olmaq üçün Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyəti çox önəmlidir.

Bir daha demək istəyirəm ki, bu fəaliyyətdən çox razıyam. Mən çox sevinirəm ki, Milli Təhlükəsizlik Nazirliyi qarşıda duran bütün vəzifələri ləyaqətlə icra edir və "Qara kəmər" şərti adı ilə keçirilmiş son əməliyyat bunu göstərdi. Göstərdi ki, bizimlə zarafat etmək olmaz. Göstərdi ki, dövlətlə dövlətçilik etmək olmaz. Bütün qüvvələr onu görməlidir. Cinayətkar dəstələr, Azərbaycanın gələcəyini istəməyən, Azərbaycana zərbə vurmaq istəyən həm xarici, həm daxili qüvvələr bunu görməlidir ki, burada bu niyyətlər baş tutmayacaqdır.

Ona görə yenə də deyirəm, bu əməliyyatın bütün mərhələlərinin uğurla aparılması böyük ictimai-siyasi məna daşıyır. Söhbət təkcə bu dəstənin ifşa olunmasından getmir. Halbuki, bu da çox önəmli məsələdir, Azərbaycanda on il ərzində cəmiyyətimizi hədə-qorxuda saxlayan o quldur dəstəsi indi ifşa olunubdur. Söhbət daha geniş mənada gedir. Biz göstərdik ki, öz maraqlarımızı, öz vətəndaşlarımızın təhlükəsizliyini qorumağa qadirik. Bunu qısa müddət ərzində edirik. Ona görə hesab edirəm ki, bu hadisə və əməliyyat Azərbaycanda cəmiyyətin ictimai şüuruna

da çox güclü təsir etdi və bunun gələcəkdə çox böyük əhəmiyyəti olacaqdır.

Sizi bir daha ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, siz həmişə Azərbaycanın bayrağını belə yüksək tutasınız. Sağ olun.

**E l d a r  M a h m u d o v** (*Milli Təhlükəsizlik naziri, general-leytenant*): Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, Sizə şəxsi heyət adından dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olasınız ki, Sizin bütün tapşırıqlarınız eyni şəkildə, bundan daha da yüksək peşəkar səviyyədə yerinə yetiriləcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*17 mart 2005-ci il*

*Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dövlət bayraqları ilə bəzədilmiş Pekin hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Çin Xarici İşlər nazirinin müavini Li Siey, Azərbaycanın Pekindəki səfiri Yaşar Əliyev və Çinin Bakıdakı səfiri Çjan Siyun böyük səmimiyyətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından avtomobil karvanının müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha – "Diao Yu Tai" dövlət qonaq evinə gəldi.*

* * *

*Həmin gün martın 17-də Çin Xalq Respublikasının parlamentində – Ümumçin Xalq Nümayəndələri Məclisində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidentinin şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü. ÇXR-in sədri Xu Szintao dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladı. Çinin rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri ÇXR-in sədrinə təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Çinin dövlət himnləri səsləndi. Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi. Hər iki ölkənin rəhbərləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇXR-in SƏDRİ XU SZİNTAONUN RƏHBƏRLİYİ İLƏ GENİŞ TƏRKİBDƏ AZƏRBAYCAN–ÇİN DANIŞIQLARI**

*17 mart 2005-ci il*

*ÇXR-in sədri Xu Szintao Azərbaycan prezidenti İlham Əliyevi Çin hökuməti və xalqı adından səmimi salamlayaraq, dövlətimizin başçısını və Azərbaycan nümayəndə heyətinin üzvlərini, habelə xalqımızı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi. Cənab Xu Szintao prezident İlham Əliyevə müraciətlə dedi: «Sizin Çinə səfəriniz Azərbaycan–Çin dövlətlərarası münasibətlərin tarixində çox mühüm hadisədir. Səfəriniz Azərbaycanla Çin arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edəcək və Azərbaycan–Çin münasibətlərinin hərtərəfli inkişafının rəmzi olacaqdır». ÇXR-in sədri bildirdi ki, bu səfər ikitərəfli münasibətlərlə bağlı və qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirəsi üçün gözəl imkan yaratmışdır və biz bundan maksimum istifadə etməyə çalışacağıq.*

*Cənab Xu Szintao prezident İlham Əliyevin Azərbaycanın iqtisadi yüksəlişi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsindəki məqsədyönlü siyasəti barədə Çində kifayət qədər məlumat olduğunu vurğuladı və Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən məmnun olduğunu söylədi. ÇXR-in sədri bildirdi ki, onun ölkəsi Azərbaycana təmənnasız olaraq, 15 milyon yuan məbləğində birdəfəlik yardım göstərəcəkdir.*

*Prezident İlham Əliyev Çinə dövlət səfərinə dəvətə görə təşəkkürünü bildirərək vurğuladı ki, Azərbaycan bu səfərə böyük əhəmiyyət verir. Səfər ölkələrimiz arasında siyasi SAhədə, iqtisadiyyat və mədəniyyət sahələrində münasibətləri yeni*

*səviyyəyə qaldıracaqdır. Bu münasibətlərin inkişafı üçün yaxşı zəmin var. Dövlətimizin başçısı əmin etdi ki, Azərbaycan rəhbərliyi Çinin işgüzar dairələrinin ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına bundan sonra da kömək göstərəcəkdir. Prezident İlham Əliyev daha sonra dedi ki, ölkələrimiz beynəlxalq səviyyədə bir-birini dəstəkləyirlər və əminəm ki, bu, gələcəkdə də davam edəcəkdir. Bu, qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə etibarlı zəmanət verir.*

*Tərəflər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da fikir mübadiləsi apardılar. Cənab Szintao bildirdi ki, Çin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Tayvan məsələsində Çinin də belə bir problemlə üzləşdiyini vurğulayan ÇXR-in sədri dedi ki, biz münaqişələrin sülh yolu ilə, beynəlxalq hüquq normalarına, ən əsası isə, BMT-nin Nizamnaməsinə uyğun olaraq həll edilməsinə tərəfdarıq.*

*ÇXR-in sədri Tayvan məsələsində onun ölkəsinin mövqeyini dəstəklədiyinə görə Azərbaycan rəhbərinə minnətdarlığını ifadə etdi.*

*Ölkəmizin ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən prezident İlham Əliyev Çinin Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq təşkilatlar səviyyəsində dəstəklənməsini yüksək qiymətləndirdi.*

*Görüşdə ikitərəfli əlaqələr və regional məsələlər barədə ətraflı fikir mübadiləsi edildi.*

* * *

*Geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan–Çin sənədlərinin imzalanma mərasimi oldu. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında birgə bəyannaməni Azərbaycan prezidenti İlham Əliyev və ÇXR-in sədri Xu Szintao imzaladılar.*

*Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ekstradisiya haqqında müqavilə, habelə Çin Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycanın Xarici İşlər Nazirliyinə*

*texniki yardım göstərilməsi haqqında memorandum, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş, habelə Azərbaycan hökuməti ilə Çin hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında gəlirlərdən ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında saziş, Azərbaycan hökuməti ilə Çin hökuməti arasında gömrük işində qarşılıqlı kömək haqqında saziş, Azərbaycan Mədəniyyət Nazirliyi ilə Çin Mədəniyyət Nazirliyi arasında 2005-2009-cu illər dövründə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokol imzalandı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin Çinə dövlət səfərinin ilk günü, martın 17-də «Diao Yu Tai» dövlət qonaq evində ikitərəfli bir neçə sənəd də imzalanmışdır.*

*Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş üzrə əməkdaşlıq haqqında saziş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkəti ilə Çin Mərkəzi Televiziyası arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Çin İnformasiya Sənayesi Nazirliyi arasında qarşılıqlı əlaqələr haqqında memorandum, Azərbaycan Milli Olimpiya Komitəsi ilə Çin Milli Olimpiya Komitəsi arasında texniki-idman əməkdaşlığı haqqında saziş, Azərbaycan Ədliyyə Nazirliyi ilə Çin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalandı.*

* * *

*Martın 17-də Çin Xalq Respublikasının sədri Xu Szintaonun və xanımının adından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və xanımının şərəfinə ziyafət verildi.*

## PEKİNDƏ KEÇİRİLƏN AZƏRBAYCAN–ÇİN BİZNES FORUMU

*18 mart 2005-ci il*

*Forumun iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Çinin Kommersiya Nazirliyi, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və ölkəmizin Çindəki səfirliyinin təşkilatçılığı ilə keçirilən forumda respublikamızın 40 və Çinin 400-dək şirkətinin nümayəndələri iştirak edirlər.*

*Çinin Avropa ilə İqtisadi Əməkdaşlıq Assosiasiyasının prezidenti, Kommersiya Əməkdaşlıq Assosiasiyasının prezidenti, Kommersiya nazirinin müavini Çjan Sziqan forumu açaraq, prezident İlham Əliyevi ölkəsinin hökumət rəhbərləri və iştirakçılar adından səmimi salamladı. O, Azərbaycan ilə Çin arasında iqtisadi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayaraq dedi ki, qarşılıqlı ticarət dövriyyəsinin ilbəil artması buna əyani sübutdur. Çin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoyuluşunun artırılmasında maraqlıdır.*

*Nazir müavini Çin iqtisadiyyatının uğurları, o cümlədən ixracın getdikcə artan həcmi barədə də məlumat verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev biznes forumunda nitq söylədi. Dövlətimizin başçısı hazırda Azərbaycan iqtisadiyyatının inkişaf meylləri, bazar münasibətləri yolu ilə gedən respublikamızda sahibkarlığın geniş vüsət alması və indi ümumi daxili məhsul istehsalının üçdə ikisindən çoxunun özəl bölmənin payına düşməsi, ölkəmizdə əlverişli sərmayə mühitinin yaranması, o cümlədən xarici sərmayələrin etibarlı şəkildə qorunması barədə ətraflı söhbət açdı. Azərbaycan–Çin iqtisadi əlaqələrinin müasir vəziyyətinə toxunan prezident İlham Əliyev*

*əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlər olduğunu vurğuladı, bu sahədə hər iki ölkənin iş adamları qarşısında duran vəzifələrdən danışdı.*

*Forumun gedişində iki ölkənin biznes strukturları arasında 20-dək müqavilə imzalandı. Azərbaycanda Çin texnologiyaları ilə şüşə lifdən kabel, kompüterlər, neft sənayesi üçün səyyar qazma avadanlığı, kənd təsərrüfatında istifadə üçün qablar və qablaşdırma materialları istehsalı üzrə müəssisələr yaradılması, toxuculuq, ayaqqabı sənayesi, tikinti materialları buraxılışı sahəsində əməkdaşlığı genişləndirmək məsələləri müzakirə edildi.*

*Xatırladaq ki, 2004-cü ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 260 milyon ABŞ dolları olmuşdur. Əməkdaşlığın öncül istiqaməti energetikadır. Keçən il Azərbaycandan Çinə 40 milyon dollarlıq neft və neft məhsulları ixrac edilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK ÇİN SƏDDİNDƏ

*18 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə ölkəmizin nümayəndə heyətinin üzvləri Çinin ən möhtəşəm abidələrindən biri olan Böyük Çin səddində olmuşlar.*

*Burada dövlətimizin başçısına dünyanın ən nadir tikililərindən biri sayılan qədim memarlıq abidəsi haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Böyük Çin səddinin ilk hissələri eramızdan əvvəl IV–III əsrlərdə tikilmişdir. Eramızdan əvvəl 221-ci ildə Çinin birləşdirilməsindən sonra imperator Sin Şi-Xuandi ölkənin xarici hücumlardan qorunması üçün şimal-qərb sərhədi boyunca başdan-başa sədd çəkilməsini əmr etmişdir. Sonralar dəfələrlə yenidən tikilən və bərpa olunan sədd şərqdən qərbə doğru 4 min kilometrdən çox (bəzi məlumatlara görə 5 min kilometr) məsafədə uzanır. Çin səddinin hündürlüyü 6,5 metr (bəzi yerlərdə 10 metrədək), eni aşağı hissədə 6,5 metrə, yuxarı hissədə 5,5 metrə qədərdir. Bütün sədd boyunca keşikçi qüllələri, dağ keçidlərində isə qalalar tikilmişdir. Böyük Çin səddinin xeyli hissəsi əvvəlki görkəmində qalmışdır.*

*Prezident İlham Əliyev və Mehriban Əliyeva Azərbaycan nümayəndə heyətinin üzvləri ilə birlikdə xatirə şəkli çəkdirdilər.*

*Azərbaycan prezidenti Böyük Çin səddinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Böyük Çin səddi ilə tanış oldum. Çin səddi dünya memarlığının analoqu olmayan nadir əsəridir, Çin xalqının istedadının parlaq nümunəsidir. Çin xalqının mədəniyyətinin çoxəsrlik tarixi dövlət tərəfindən lazımi səviyyədə qorunur.

Çin–Azərbaycan əlaqələri yüksək sürətlə inkişaf edir və iki dost xalqın rifahına xidmət edir. Çin xalqına sülh, inkişaf və tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti»**

* * *

*Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya fəxri qonaqlar kimi Çin səddində olmalarını təsdiqləyən* sertifikatlar, *habelə xatirə hədiyyələri təqdim* edildi.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZİN PEKİNDƏKİ SƏFİRLİYİNDƏ

*18 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Çinə dövlət səfəri çərçivəsində ölkəmizin Pekindəki səfirliyinə gəldi.*

*Səfirliyin əməkdaşları prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı diplomatik nümayəndəliyimizin və onun əməkdaşlarının iş şəraiti ilə tanış oldu.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan səfirliyində qoyulmuş əzəmətli büstünə tamaşa etdi.*

### Səfirliklə tanışlıqdan sonra prezident İlham Əliyevin səfərdə onu müşayiət edən Azərbaycan jurnalistlərinə müsahibəsi

**S u a l: Cənab Prezident, Bəyannamədə qeyd olunub və danışıqlarda da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münqişəsi ilə əlaqədar Çinin mövqeyi açıq-aydın bildirildi, yəni Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bununla bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Bəli, ümumiyyətlə, Çin bizim birgə bəyannamələrdə, müxtəlif tədbirlərdə, beynəlxalq təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu, çox mühüm məsələdir. Bilirsiniz ki, Çin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür və əlbəttə, onun belə mövqeyi çox müsbət haldır.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağla bağlı Ermənistan prezidenti ilə gələcəkdə görüşünüz**

**planlaşdırılırmı? Çünki atəşkəs, demək olar, hər gün pozulur. Bu, danışıqlara müəyyən təsir edə bilərmi?**

**C a v a b:** Bu yaxınlarda bu barədə sual verilibdir. Mən cavab verdim ki, əgər xarici işlər nazirlərinin görüşləri səviyyəsində hansısa yeni vəziyyət yaranarsa, onda görüş mümkün ola bilər. Bildiyiniz kimi, bütün mövzular ətrafında söhbətlər aparılıbdır, mövqelər də bəllidir. Xarici İşlər Nazirliyi tərəfindən danışıqlar indi Praqa prosesi çərçivəsində aparılır və əgər burada irəliləyiş varsa, onda görüşə ehiyac ola bilər.

**S u a l: Cənab Prezident, dünən faktaraşdırıcı missiya məlumatlarını açıqlayıbdır. Bu barədə Sizə məlumat veriblərmi? Missiyanın gəldiyi nəticələr Azərbaycanı qane edirmi?**

**C a v a b:** Xeyr, hələ ki, mənə rəsmi deyilməyibdir. Amma, ümumiyyətlə, onların fikirləri mənə bəlli idi, bunu bilirdim. Biz gərək bu sənədi araşdıraq, öyrənək. Hər halda, missiyanın bölgəyə getməsi müsbət haldır. Bilirsiniz ki, orada ermənilərin məskunlaşması haqqında onların kifayət qədər məlumatları vardır. Eyni zamanda, bu vaxta qədər qeyri-rəsmi məlumatlara görə belə bir fikir mövcud idi ki, orada, işğal olunmuş torpaqlarda hər şey tamamilə dağıdılmışdır. Orada erməni silahlı qüvvələri tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində həm insanlarımız oradan qovulub, həm də bütün infrastruktur dağıdılıbdır. Çox vəhşi hərəkətlər edilibdir. Belə olan halda, əlbəttə, tamamilə dağıdılmış ərazilərdə hər hansı məskunlaşmadan söhbət gedə bilməz. O yerlərdə ki, infrastruktur qalıbdır, orada ermənilər yaşayırlar. Hesab edirəm ki, bu çox ciddi məsələdir və mən bunu soruşacağam.

**S u a l: Cənab Prezident, həmin missiyanın bəyanatında qeyd olunur ki, süni məskunlaşma ilə bağlı Azərbaycanın iddiaları təsdiqini tapır. O cümlədən bildirilir ki, prosesin bu cür davam etməsi siyasi danışıqlara təsir göstərə bilər. Ona görə bu dayandırılmalıdır, siyasi danışıqlar daha da intensivləşdirilməlidir. Ümumiyyətlə, bu bəyanatlardan**

**rəsmi Bakının faydalanması necə olacaq və danışıqların intensivləşməsi hansı formada ola bilər?**

**C a v a b:** Mən hesab edirəm ki, hardasa son bir il, bəlkə də ondan da çox müddət ərzində yaranmış bütün imkanlar münaqişənin həllinə yönəldilibdir. Əgər nəzər salsaq, görərik ki, müxtəlif istiqamətlərdə atılmış addımların məqsədi də məhz bundadır. Həm Avropa Şurasında aparılmış müzakirələr, həm Birləşmiş Millətlər Təşkilatında, həm Minsk qrupunun həmsədrləri tərəfindən müşahidə olunan fəallaşma və nəhayət, faktaraşdırıcı missiyanın bölgəyə səfəri – bütün bu faktlar danışılqlar prosesinə müsbət təsir etməlidir. Amma o da həqiqətdir ki, danışıqlar iki tərəf arasında aparılır. Əgər bir tərəf qeyri-konstruktiv mövqe tutursa, o biri tərəfin, sadəcə olaraq, imkanı yoxdur ki, digər tərəfi, yəni Ermənistan tərəfini bu qeyri-konstruktiv mövqedən döndərsin. Bu elə məsələdir ki. təkcə bizim fəaliyyətimizdən asılı deyildir. Yalnız məsələnin siyasi tərəfidir. Danışıqlar iki tərəf arasında aparılır və görəndə ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur, biz daha çox müxtəlif beynəlxalq addımlara ümid bəsləyirik. Hesab edirik ki, bu fürsətdən də istifadə etmək lazımdır. Hər bir fürsətdən istifadə etmək lazımdır. Mən bunu bir neçə dəfə demişəm. Biz çalışacağıq ki, bütün imkanlardan istifadə edək.

Danışıqlar prosesi on ildən artıqdır gedir. Heç bir nəticə yoxdur. Ermənistanın qeyri-konstruktiv hərəkətləri və dünya ictimaiyyətinin bu məsələyə biganəliyi onları çox arxayın edibdir. Onlara qarşı heç bir sanksiya tətbiq olunmur. Ermənistan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, ona qarşı heç bir sanksiya tətbiq olunmur. Avropa Şurası artıq onları təcavüzkar kimi tanıyıb və etnik təmizləmə siyasətini öz sənədində əks etdiribdir. Yenə də heç bir sanksiya tətbiq olunmur. Belə olan halda Ermənistanın mövqeyində heç bir dəyişiklik gözləmək mümkün deyildir. Biz istəyirik ki, bütün mümkün olan sülh vasitələrindən istifadə edək. Əgər bunlar heç biri nəticə verməsə, onda aydın olacaq ki, Ermənistan, sadəcə, özünü qeyri-səmimi aparır, bu məsələni də

həll etmək fikrində deyildir. Onda, ümumiyyətlə, aramızda yeni vəziyyət yaranacaqdır.

**S u a l: Cənab Prezident, Çin Azərbaycanın ərazi bütövlüyünü tanısa da, işğal olunmuş Azərbaycan ərazilərindəki vəziyyətlə bağlı BMT Baş Məclisində qərar çıxarılanda bitərəf mövqe tutmuşdu. Bunu ATƏT-in işinə qarışmaq kimi izah etmişdi. Çinin bu mövqeyi bundan sonra da davam edəcəkmi, yoxsa Çinin açıq mövqeyini görə biləcəyik?**

**C a v a b:** Bu mövqelərə təbii yanaşmaq lazımdır. Bilirsiniz ki, biz o məsələni Birləşmiş Millətlər Təşkilatında qaldıranda ATƏT-in Minsk qrupu bundan çox narahat idi və öz möqeyini də bildirmişdi ki, bu məsələ yalnız Minsk qrupu çərçivəsində həll olunsun. Biz buna etiraz etmirik. Yenə də hesab edirik ki, indi bundan başqa mandat yoxdur və biz də axtarmırıq. Yəqin ki, ATƏT-in Minsk qrupunun və onların həmsədrlərinin belə mövqeyi başqa ölkələrin mövqelərinə təsir edibdir və onlar bu məsələdə heç bir tərəfi dəstəkləməyiblər. Bu səbəb ola bilər. Mən başqa bir səbəb görmürəm.

Gələcəkdə görərik, nə olacaq. Hər halda, mən hesab edirəm ki, artıq bundan sonra bizim imkanlarımız da məhdudlaşacaqdır. Çünki bütün mümkün olan addımlar atılıbdır. Məsələ Avropa Şurasında, həmçinin BMT-də müzakirə edilib, faktaraşdırıcı missiya bölgədə olubdur. Bundan artıq nə edilməlidir?! Yəni danışıqlar yolu ilə nə edilməlidir ki, Ermənistan onlara məxsus olmayan torpaqlardan çıxsın?

**S u a l: Cənab Prezident, Siz səfərdən qabaq Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarını təltif etdiniz, hərbi rütbələr verdiniz. Oradakı çıxışınızda deyildi ki, son hadisələrlə bağlı Respublika Prokurorluğu tərəfindən MTN-in keçmiş rəhbərliyinə müraciət edilib, amma heç bir tədbir görülməyibdir. Qeyd etdiniz ki, haradasa, 4 il vaxt itirildi. Kimlərinsə cəzalandırılması mümkündürmü və Sizin tərəfinizdən onlara qarşı hansı tədbirlər görüləcəkdir?**

**C a v a b:** Siz bilirsiniz ki, araşdırmalar aparılır. Biz bu məsələ ilə ciddi məşğuluq. Bu hadisələr üzə çıxanda göstəriş verdim ki, bu vaxta qədər görülmüş bütün işlər haqqında mənə məruzə edilsin. Görək ki, bu barədə və buna oxşar cinayətlərdə adı çəkilən insanlar haqqında keçmişdə müəyyən məlumat var, ya yox. Şübhələr var idi, yox idi. İndi görürük ki, şübhələr vardı. Mən öz çıxışımda bunu dedim. Çox təəssüflə dedim ki, biz dörd ili itirdik. Əgər o vaxt ciddi tədbirlər görülsəydi, bəlkə də bu cinayətlər törədilməzdi.

O ki qaldı hansısa cəzalandırmaya, hər şey istintaqın gedişindən asılı olacaqdır.

**S u a l: Cənab Prezident, yəqin məlumatınız var, dünən Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının daha bir uğurlu əməliyyatı keçirilibdir. Nəticədə Azərbaycanda fəaliyyət göstərən terrorçu qrup yaxalanıbdır. MTN belə məlumat verib ki, həmin dəstənin rəhbəri bir vaxtlar Əl-Qaidənin tərkibində döyüşübdür. Ümumiyyətlə, Sizdə bu barədə məlumat varmı ki, onlar hansısa bir ölkənin maraqlarına xidmət edirlərmiş və ölkədə terror aksiyası hazırlanırmış fikrinə gəlmək olarmı?**

**C a v a b:** Əlbəttə, Azərbaycanda baş verən bütün hadisələr barədə mənim məlumatım var. Uzun müddətdir ki, bu barədə mənə məruzələr edilibdir. Milli Təhlükəsizlik Nazirliyi tərəfindən son müddət ərzində çox uğurlu, çox yüksək peşəkarlıqla bir neçə əməliyyat keçirilmişdir. Bu əməliyyatlar nəticəsində təhlükələr aradan götürüldü.

Mən bir neçə dəfə qeyd etmişdim ki, Azərbaycanın coğrafi-siyasi vəziyyəti, bölgədəki rolu və ümumiyyətlə, gələcək inkişaf perspektivləri Azərbaycanı müxtəlif cinayətkar dəstələr üçün cəlbedici ölkəyə çevirir. Eyni zamanda, Azərbaycanın həm iqtisadi potensialına, həm də təbii ehtiyatlarına görə, ümumiyyətlə, siyasi mövqeyinə görə bu cür təhlükələr mövcuddur, biz bunu bilməliyik.

Allaha şükürlər olsun ki, Azərbaycan xalqı uzun illərdir əmin-amanlıq şəraitində yaşayır, sabitlik şəraitində yaşayır.

Bizim də vəzifəmiz ondan ibarətdir ki, bu sabitliyi, əmin-amanlığı qoruyaq, saxlayaq ki, vətəndaşlarımız rahat yaşasınlar. Amma indiki zəmanədə, indiki dünyada, dünyanın müxtəlif ölkələrində böyük təhlükələr var. Hətta özünü hər cəhətdən qorunmuş hesab edən ölkələr də terror aktlarına məruz qalırlar. Biz hər şeyə hazır olmalıyıq. Ona görə hüquq-mühafizə orqanlarının üzərinə böyük vəzifələr düşür. Mənim tərəfimdən bu vəzifələr onların qarşısında qoyulubdur. Mən Milli Təhlükəsizlik Nazirliyinin bu istiqamətdəki fəaliyyətindən razıyam və görürəm ki, günü-gündən bu fəaliyyət daha da güclənir.

**S u a l: Cənab Prezident, bəzi dairələr Sizin bir-birinin ardınca Rusiyaya, İrana və Çinə səfərlərinizi belə qiymətləndirməyə başlayıblar ki, Azərbaycan öz xarici siyasətində müəyyən düzəlişlər edir. Bunu Qərbdən və Birləşmiş Ştatlardan uzaqlaşmaq cəhdləri kimi də dəyərləndirmək olar. Doğrudanmı bu düzəlişlər var, yoxsa bu məlumatlar əsassızdır?**

**Bir də indi ən çox diqqət mərkəzində olan məsələ bütün dünyada gedən proseslərdən sonra NATO-nun Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təhlükəsizliyinə cəlb olunmasıdır. Bunu nə qədər real sayırsınız?**

**C a v a b:** Bizim xarici siyasətimizdə heç bir düzəliş, yaxud da dəyişiklik yoxdur. Azərbaycanın xarici siyasəti bizim milli maraqlarımızın qorunmasına xidmət edir. Bu istiqamətdə böyük işlər görülübdür və bu strateji xətdə heç bir dəyişiklik yoxdur.

O ki qaldı mənim səfərlərimə, bu səfərləri ümumi kontekstdən çıxarmaq düzgün olmaz. Əgər mənim səfərlərimə nəzər salsanız – siz də bunların iştirakçısısınız – görərsiniz ki, bir çox ölkəyə səfərlər olubdur. İrana, Çinə, Rusiyaya olubdur. Amma eyni zamanda, Avropanın bütün aparıcı ölkələrinə – Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Belçika və s. olubdur. Yəni bunları kontekstdən çıxarmaq lazım deyildir.

Mən hesab edirəm ki, Azərbaycan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmalıdır. Bu bizim mAraqlarımıza xidmət edir. Bizim əlaqələrimiz nə qədər geniş olsa, o qədər çox

beynəlxalq dəstək də olacaqdır. Eyni zamanda, bilirsiniz, hər səfər şəxsi tanışlıq baxımından çox böyük rol oynayır. Mənim səfər etdiyim ölkələrə rəhbərlik edən şəxslərlə çox gözəl şəxsi əlaqələrim yaranıbdır. Eyni zamanda Bakıya gəlmiş dövlət başçıları ilə bizim əlaqələrimiz çox səmimidir və mehribandır. Bu bizim ölkəmiz üçün lazımdır. Ona görə siyasətimizdə heç bir dəyişiklik yoxdur. Azərbaycanın strateji xətti dəyişməz olaraq qalır. Bunu dəfələrlə – həm andiçmə mərasimindəki çıxışımda, həm də ondan sonrakı çıxışlarda bəyan etmişəm.

O ki qaldı Bakı–Tbilisi–Ceyhan neft kəmərinin qorunmasına, Azərbaycan bir dövlət kimi, öz ərazisindən keçən kəmərin qorunması tədbirlərinin görülməsi üçün üzərinə öhdəlik götürübdür. Biz bu öhdəliyi yerinə yetiririk və bu vaxta qədər Azərbaycan ərazisində kəmərdə heç bir təhlükə olmayıbdır. Güman edirəm ki, olmayacaq da.

Amma, əlbəttə, gələcəkdə bu kəmər bizə düşmənçilik mövqeyində dayanan bəzi qüvvələrin də diqqətini çəkə bilər. Bilirsiniz ki, Ermənistan Bakı–Tbilisi–Ceyhan kəmərinin uğurlu inşasından nə qədər narahatdır və bu narahatlıq bütün səviyyələrdə özünü büruzə verir. Ona görə biz gərək öz tədbirlərimizi görək. Əgər kəmərin qorunmasında hansısa beynəlxalq tərəf lazım olacaqsa, biz buna baxa bilərik. Hələlik buna ehtiyac yoxdur. Hesab edirəm ki, biz özümüz xüsusi təhlükəsizlik məsələlərini lazımi səviyyədə həll edə biləcəyik. Çox sağ olun.

## ÇİN DÖVLƏT ŞURASININ BAŞÇISI VEN SZYABAO İLƏ GÖRÜŞ

*Pekin,*
*Dövlət iqamətgahı*

*18 mart 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pekində dövlət iqamətgahında Çin Xalq Respublikası Dövlət Şurasının başçısı Ven Szyabao ilə görüşdü.*

*Cənab Ven Szyabao Azərbaycan prezidentinin Çinə dövlət səfərinin ölkədə çox böyük maraq doğurduğunu bildirdi. Çin hökumətinin başçısı ölkələrimiz arasında əlaqələrin indiki səviyyəsindən razılığını söylədi, getdikcə genişlənən əməkdaşlığın qarşılıqlı surətdə faydalılıq prinsiplərinə əsaslanmasını yüksək qiymətləndirdi. O, vahid Çin barəsində siyasətdə ÇXR-in mövqeyini dəstəklədiyinə görə Azərbaycan rəhbərinə təşəkkür etdi. Eyni zamanda dedi ki, Çin Azərbaycanın öz ərazi bütövlüyünün təmin edilməsi sahəsində ədalətli səylərini bundan sonra da birmənalı şəkildə dəstəkləyəcəkdir.*

*Cənab Szyabao Azərbaycan–Çin əməkdaşlığının inkişafı üçün böyük potensial olduğunu xatırladaraq vurğuladı ki, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə kənd təsərrüfatı, emal sənayesi, kənd təsərrüfatı maşınqayırması, yüksək texnologiyalar, rabitə və energetika sahəsində Azərbaycanla qarşılıqlı surətdə faydalı əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar vardır.*

*Prezident İlham Əliyev bildirdi ki, vahid Çin məsələsində Azərbaycanın mövqeyi dəyişməz qalacaqdır. Beynəlxalq aləmdə bütün problemlərin həllində ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri üstün yer tutmalıdır. İq-*

*tisadi əlaqələrdən söhbət açan dövlətimizin başçısı* energetika *sahəsində əməkdaşlığı nümunə kimi vurğuladı.* Bildirildi ki, *ölkələrimizin inkişaf sürəti digər sahələrdə,* o *cümlədən mədəniyyət,* turizm, *səhiyyə, təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlər açır.*

*Prezident İlham Əliyev* daha sonra dedi ki, *Çin şirkətləri kənd təsərrüfatı* texnikası almaq *üçün Azərbaycanda* elan olunan *müsabiqələrdə* iştirak *edə, habelə ölkəmizdəki tərəfdaşları ilə* bu *sahədə müştərək müəssisələr* yarada *bilərlər. Dövlətimizin başçısı* bildirdi ki, *bütün* bu *məsələlərin həllini əlaqələndirmək üçün ikitərəfli* iqtisadi *komissiyanın yaradılması məqsədəuyğundur.*

*Görüşdə* bir *sıra digər məsələlər ətrafında* da *fikir mübadiləsi aparıldı.*

## İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ

*18 mart 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə ölkəmizin nümayəndə heyətinin üzvləri XV əsrdə, Çin imperiyası dövründə tikilmiş məşhur Ququl imperator sarayı kompleksi ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına orta əsr Çin memarlığının nəhəng, 72 hektar ərazini əhatə edən heyrətamiz nümunəsi barədə ətraflı məlumat verildi.*

*Azərbaycan prezidenti imperator sarayının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Ququl imperator sarayı ilə tanış oldum. Saray böyük təəssürat bağışlayır. Çin xalqının böyük tarixi, zəngin mədəniyyəti, özünəməxsus memarlıq sənəti burada öz əksini tapmışdır. Çin Xalq Respublikasının və Çin xalqının mədəni irsə olan qayğısı çox yüksək səviyyədədir və təqdirəlayiqdir. Dost Çin xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti».**

* * *

*Azərbaycan prezidenti İlham Əliyev martın 18-də Çinin ən böyük iqtisadi mərkəzi olan Şanxay şəhərinə yola düşdü.*

*Azərbaycan rəhbərini Pekin hava limanında Çinin yüksək vəzifəli dövlət və hökumət rəsmiləri mehribanlıqla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün Şanxaya gəldi. Beynəlxalq hava limanında dövlətimizin başçısını şəhər meriyasının rəhbərləri hərarətlə qarşıladılar.*

*Həmin gün prezident İlham Əliyev dünyada məşhur olan Çin akrobatikası tamaşasına baxdı, Şanxayın görməli yerləri ilə tanış oldu.*

## ŞANXAYIN MERİ XAN ÇEN İLƏ GÖRÜŞ

*19 mart 2005-ci il*

*ÇXR-də dövlət səfərində olan Azərbaycan prezidenti İlham Əliyev Şanxayın meri Xan Çen ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını Şanxay hökuməti və şəhərin 17 milyon əhalisi adından səmimi salamlayan mer prezident İlham Əliyevin Çin rəhbərliyi ilə keçirdiyi görüşləri yüksək qiymətləndirdi. O dedi ki, bu görüşlər, aparılan danışıqlar barədə ətraflı məlumatı vardır, çünki Çinin kütləvi informasiya vasitələri Azərbaycan rəhbərinin dövlət səfərini geniş şərh edirlər. Mer ümidvar olduğunu bildirdi ki, Çinin ən böyük iqtisadi və maliyyə mərkəzi olan Şanxay Azərbaycan prezidentinə xoş təsir bağışlamışdır. Dövlətimizin başçısının səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına yeni təkan verəcəyini vurğulayan cənab Xan Çen dedi ki, Çin və Azərbaycan iqtisadiyyatca inkişaf edən ölkələrdir və bugünkü Şanxay Çində iqtisadi sahədə açıq siyasət və islahatlar aparıldığına real nümunədir. Mer Azərbaycanla Çin arasında əmtəə dövriyyəsinin genişlənməsində liman şəhəri olan Şanxayın rolundan da danışdı.*

*Azərbaycan prezidenti İlham Əliyev səmimi qəbula görə təşəkkür etdi və martın 19-da başa çatan dövlət səfərinin uğurlu keçdiyini bildirdi. O, ümidvar olduğunu söylədi ki, ölkə rəhbərliyi ilə keçirilən görüşlər, imzalanmış sənədlər Azərbaycan–Çin münasibətlərinin genişlənməsinə və dərinləşməsinə xidmət edəcəkdir.*

*Söhbət zamanı Azərbaycanla Şanxay arasında əlaqələrin davam etdirilməsinin perspektivləri ilə bağlı məsələlər də müzakirə olundu.*

*Görüşdən sonra Şanxay merinin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verildi.*

## ŞANXAYIN MƏŞHUR TELEVİZİYA QÜLLƏSİ İLƏ TANIŞLIQ

*19 mart 2005-ci il*

*Azərbaycan* prezidenti *İlham Əliyev və xanımı* Mehriban *Əliyeva, habelə ölkəmizin nümayəndə heyətinin üzvləri Şanxayın məşhur* televiziya *qülləsinə gəlmişlər.*

*Şərqin* incisi *adlandırılan Şanxay teleqülləsi hündürlüyünə görə* (468 metr) Asiyada birinci, *dünyada isə üçüncü yerdədir.*

*Azərbaycan dövlətinin başçısını teleqüllənin önündə* orkestr *salamladı.* Prezident *İlham Əliyev, xanımı* Mehriban *Əliyeva və* Azərbaycan *nümayəndə heyətinin üzvləri teleqüllənin baxış meydançasından Şanxayın* panoramını seyr *etdilər. Belə* bir *yüksək nöqtədən baxdıqda Çinin sürətlə inkişaf edən* bu *nəhəng şəhərinin əzəmətinə* heyran qalmamaq *mümkün* deyildir.

*Prezident İlham Əliyev Şanxay teleqülləsinin Fəxri* qonaqlar *kitabına ürək sözlərini yazdı.*

## ŞANXAY PLANLAŞDIRMA MUZEYİNDƏ

*19 mart 2005-ci il*

*Azərbaycan pezidenti İlham Əliyev Şanxay Planlaşdırma Muzeyində olmuşdur.*

*Azərbaycan dövlətinin başçısına, xanımı Mehriban Əliyevaya və nümayəndə heyətimizin üzvlərinə kommersiya sahəsində zəngin ənənələrə malik, sürətlə inkişaf edən və eyni zamanda ticarət limanı olan müasir Şanxayın formalaşması tarixi barədə məlumat verildi. Şəhərin görməli yerləri arasında həm müasir arxitektura üslubunda ucaldılmış binalar, həm də Əjdaha Məbədi, Nefrit Budda Məbədi və Yuan bağı kimi klassik Çin memarlığı nümunələri var.*

*Şəhərin qlobal maketi, habelə ayrı-ayrı infrastrukturları – hava və dəniz limanları böyük maraq doğurdu. Muzeydə Şanxayın perspektiv şəhərsalma planları da nümayiş etdirilir.*

*Azərbaycan prezidenti İlham Əliyev Muzeylə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Şanxay Planlaşdırma Muzeyinin ekspozisiyasına böyük məmnunluqla baxdım. Bu gün Şanxay dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhərin gələcək inkişaf planı muzeydə nümayiş etdirilir. Görülmüş və həyata keçiriləcək bütün işlər Şanxaya daha gözəl olmağa imkan verəcəkdir. Şanxayın bütün sakinlərinə firavanlıq və tərəqqi arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti»**

* * *

*Dövlətimizin başçısını beynəlxalq hava limanında Çin Xarici İşlər Nazirliyinin və Şanxay Meriyasının nümayəndələri yola saldılar.*

*Azərbaycan prezidentinin təyyarəsi Vətənə qayıdarkən yolüstü Sintszyan-Uyğur Muxtar Rayonunun Urumçi şəhərində yerə endi.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Sintszyan–Uyğur Muxtar Rayonunun başçısı İsmayıl Tılavaldi səmimiyyətlə qarşıladı. Milli geyimli uşaqlar prezidentin xanımına gül-çiçək dəstələri təqdim etdilər.*

## SİNTSZYAN-UYĞUR MUXTAR RAYONUNUN BAŞÇISI İLƏ GÖRÜŞ

*19 mart 2005-ci il*

*Urumçi şəhərinin hava limanında yolüstü qısamüddətli dayanacaq zamanı Azərbaycan prezidenti İlham Əliyevin bu rayonun başçısı İsmayıl Tılavaldi ilə görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinin üzvlərini muxtar rayonun başçısına təqdim etdi.*

*İsmayıl Tılavaldi Azərbaycan prezidenti İlham Əliyevi bir daha salamlayaraq, ona region barədə məlumat verdi, iqtisadiyyatın inkişafından danışdı. O, Sintszyan-Uyğur rayonu ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdiyini bildirərək, ümidvar olduğunu söylədi ki, Azərbaycan prezidentinin Çinə səfərindən sonra bu münasibətlər daha da genişlənəcəkdir.*

*Prezident İlham Əliyev Çinə dövlət səfərini yüksək qiymətləndirərək dedi ki, bu səfər Azərbaycan–Çin münasibətlərinin bütün sahələrdə, o cümlədən də Sintszyan-Uyğur rayonu ilə regional səviyyədə inkişafına təkan verəcəkdir.*

*Rayonun başçısı adından Azərbaycan prezidentinə xatirə hədiyyələri təqdim edildi.*

* * *

*Sintszyan-Uyğur Muxtar Rayonunun başçısı ilə görüşdən sonra Azərbaycan prezidenti İlham Əliyev Bakıya yola düşdü. Azərbaycan prezidentini təyyarənin pilləkəni yanında muxtariyyətin başçısı İsmayıl Tılvaldi və bu rayonun digər rəhbərləri səmimiyyətlə yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev martın 19-da axşam Bakıya gəldi.*

## Q E Y D L Ə R

**1. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də Sovet Ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl - abidə qoyulmuşdur. –5,6,10.

**2. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet Ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 5.

**3. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 6–35,136–144,145,153–162,203,214,215,216,282–283,331.

**4. İTAR-TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 6–35.

**5. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qara-

bağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. –6,10,22,28,32,37,41,42,55,100,101,110,117, 118,125,140,164,165,174,180,183,190,230,236,242,256,269,284, 285,286,287,326.

**6. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti – YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun

nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 6.

**7. İqnatenko Vitali Nikitiç** (d.1941) – jurnalist. 1991-ci ildən İTAR-TASS agentliyinin Baş direktorudur. – 6–35.

**8. Vitali Smirnov** (d.1935) – 2001-ci ildən Pusiya Olimpiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti. – 6–35.

**9. Qusman Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 6–35.

**10. Vyaçeslav Fetisov** (d.1958) – rus idmançısı (şaybalı xokkey) – 1984,1988-cu illərdə olimpiya çempionu, 1978, 1981, 1983,1986,1989,1990-cu illərdə dünya çempionu, 1978, 1981-83,1985-89,1991-ci illərdə Avropa çempionu olmuşdur. – 6–35.

**11. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 7,215.

**12. Federasiya Şurası** – 1990-cı il Rusiya Federasiyası Konstitusiyasına əsasən yaradılan qanunverici orqanın yuxarı palatası. – 7,22.

**13. Putin Vladimir Vladimiroviç** (d.1952) – 2000–08-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya

Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə Federal Təhlükəsizlik Xidmətinin direktoru, 1999-cu ilin avqustundan ilin sonunadək Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 10,29,30,139,145,154–162,203,214,215.

**14. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, üç min tələbə təhsil alır. – 11.

**15. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 12,13,39,45,47,49,54,63,67, 82,86,111,138,139,142,157,174,180,184,187,194,203,216,222, 227,254,257,269,271,304,305, 306,312,320,326.

**16. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imza-

landı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövləttmizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 13,63,67,70,83, 85,104–105,110,181,221,223,257,280–281,291,326,328,329.

**17. Nyu-Cersi** – ABŞ-in şərqində ştat. Çox hissəsi bataqlaşmış Atlantikyanı ovalıqda, şimal hissəsi Appalaç dağlarının ətəklərindədir. Sahəsi 20,3 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati mərkəzi Trenton şəhəridir. – 14.

**18. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 17,100–101.

**19. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. – 17.

**20. Şəki** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2397 km$^2$, əhalisi 132,5 min nəfərdir. – 17.

**21. Mahmud Esambayev** (1924–2000) – çeçen balet artisti, rəqqas. SSRİ Xalq artisti. Sosialist Əməyi Qəhrəmanı, 1944–56-cı illərdə Qırğızıstan Opera və Balet Teatrının solisti olmuş, 1957-ci ildən isə estradada çıxış etmişdir. Esambayevin repertuarında dünya xalqlarının rəqsləri mühüm yer tutmuşdur. Virtuozluq, yüksək emosionallıq və plastiklik, rəqsin üslub və xarakterini dəqiq vermək məharəti Esambayevin ifaçılığı üçün xarakterik idi. SSRİ Ali Sovetinin deputatı olmuşdur. – 17.

**22. Böyük Teatr** – Rusiya Federasıyasında Dövlət Akademik Böyük Teatrı. Əsası 1776-ci ildə Moskvada qoyulmuşdur. Burada xarici və rus operaları və baletləri tamaşaya qoyulur. XX əsrin əvvəllərindən teatrda çalışan vokalistlər və balet ustaları dünya şöhrəti qazanmışlar. – 18.

**23. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 18.

**24. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzv (70-dən artıq ölkədən) var idi. BOK-u 200-ə yaxın Milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 19,121.

**25. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 20.

**26. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 2,5 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir; salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 20,91.

**27. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksinin tikintisi ilə əlaqədar salınmışdır. – 21.

**28. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 23,84,85,91,110,138,182,206,211,216,291, 296,306–307,328,329.

**29. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 26.

**30. İraq,** İ r a q  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 27,40,204,205.

**31. Çeçenistan (İçkeriya)** – Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 27,209.

**32. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində insanın mənəvi azadlığı tərənnüm olunur. – 32.

**33. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 32,130.

**34. Boston –** ABŞ-ın şimal-şərqində Atlantik okeanı sahilində liman şəhəri. Massaçusets ştatının inzibati mərkəzi. Əhalisi 574 min nəfər. – 32.

**35. Brejnev Leonid İliç** (1906–1982) – SSRİ-nin partiya və dövlət xadimi. 1964–1982-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1977-ci ildən, həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 32.

**36. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən

fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talessimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 34–35,36,75,78,153,178,201,248, 249,267–268,318,324–325,326–332,336,337,338,339.

**37. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 36–88,106,107,141,149, 150,171,172,213,214,229,331.

**38. Tehran** – İranın paytaxtı. Ölkənin əsas siyasi, iqtisadi, ticarət-maliyyə və mədəniyyət mərkəzi. Tehranın əsası IX əsrdə Rey

şəhərinin yaxınlığında qoyulmuşdur. XIII əsrdə monqollar Reyi dağıtdıqdan sonra Tehran böyüməyə başladı. 1785-ci ildə İranın paytaxtı elan edilmişdir. – 36–73,141,229.

**39. Abbasəli Həsənov,** Abbasəli Kərəm oğlu (d.1953) – şərqşünas, diplomat. 1998-ci ildən Azərbaycan Respublikasının İranda Fövqəladə və Səlahiyyətli səfiridir. Eyni zamanda 1998-ci ildən – İqtisadi Əməkdaşlıq Təşkilatında idarə heyətinin üzvü, hazırda isə sədridir. – 36,43,61, 75,80–88.

**40. Xatəmi,** Seyid Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Oriyentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 37–43,44,46–47,53,57,63–64,65–73,74,76,77,82, 83,84,87,106,149,171,229.

**41. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 40,331.

**42. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 40.

**43. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–04-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 42,80–88,255, 263.

**44. Vasif Talıbov,** Vasif Yusif oğlu (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 42.

**45. Misir Mərdanov,** Misir Cumayıl oğlu (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları, əsasən riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 42.

**46. Əli İnsanov,** Əli Binnət oğlu (d. 1946) –1993–2005-ci illərdə Azərbaycan Respublikasının Səhiyyə naziri olmuşdur. – 42.

**47. Novruz Məmmədov,** Novruz İsmayıl oğlu (d.1947) – 1997-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri, Birinci dərəcəli Dövlət müşaviri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 42.

**48. Cahangir Əsgərov,** C a h a n g i r   C ə l a l   o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 42.

**49. Əsmətxanım Məmmədova,** Ə s m ə t x a n ı m   B ə y-ə h m ə d   q ı z ı (d.1941) – şərqşünas. Filologiya elmləri namizədi. 1996–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 43.

**50. Xərrazi Seyid Kamal** (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998–2005-ci illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 44–46,66.

**51. Xamenei,** H ü s e y n   X a m e n e i   S e y i d   Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının ali dini rəhbəridir. – 46–47,66,107,150,172.

**52. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin

sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə – Məsləhət Komitəsidir. – 50,136,139,143,161.

**53. Suriya,** S u r i y a  Ə r ə b  R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq bələdiyyəsinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 50, 217.

**54. İmam Xomeyni,** R u h u l l a  M u s ə v i (1903–1989) – ayətullah, 1979-cu ildən İran İslam Respublikasının başçısı olmuşdur. 1964-cü ildə şah rejimi tərəfindən ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, inqilaba başçılıq etmiş, şah rejimini devirməyə və İslam Respublikasını qurmağa nail olmuşdur. – 51–52.

**55. Haşimi Rəfsancani,** Ə l i ə k b ə r  H a ş i m i  R ə f-s a n c a n i (d.1934) – 1989–98-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 53–54,66.

**56. Əli Şamxani** (d.1955) – İran hərbi xadimi, kontr-admiral, 1997–2005-ci illərdə İranın Müdafiə naziri olmuşdur. Hazırda Əli Şamxani Tehranda Strateji Tədqiqatlar Mərkəzinin müşahidəçisidir. – 59–60.

**57. İqtisadi Əməkdaşlıq Təşkilatı**. – Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 62,70.

**58. Asxat Orazbay** (d.1960) – Fövqəladə və Səlahiyyətli səfir. 1992-ci ildən Qazaxıstan Xarici İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə çalışır. 2004–2006-cı illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi olmuşdur. – 62.

**59. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 67, 70,257,271–272,291.

**60. TRASEKA,** Transxəzər nəqliyyat dəhli-zi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 69,72,73,184,222.

**61. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 69,77.

**62. Xəzəryanı dövlətlər** – Rusiya Federasiyası, Azərbaycan, Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasıdır. – 69,84.

**63. Təbriz** – İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. «Təbriz» sözünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin (1174), Ağqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV–XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi «Şərqin paytaxtı» da adlandırırdılar.

1826–28-ci illər Rusiya–İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. – 72,74–88.

**64. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 84,112,135,138,195,200, 306–307.

**65. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu

ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 85.

**66. Şəhriyar,** Məhəmmədhüseyn Hacı Mirağa oğlu (1906–1988) – görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin «Heydərbabaya salam» poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasında yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın ikiyə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda anadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün türk dünyasında böyük şöhrət qazanmışdır. – 87–88.

**67. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 87,115, 203,213,216,331.

**68. Vidadi Rzayev,** Vidadi Vaqif oğlu (d.1967) – Azərbaycan futbolunun ən təcrübəli oyunçusu, yarımmüdafiəçi. Özünün ən çox oyununu «Neftçi» klubunda keçirmiş və 4 dəfə çempion olmuşdur. Hazırda «Qəbələ» klubunun məşqçi-seleksioneridir. – 89–94.

**69. Ağasəlim Mircavadov,** Ağasəlim Seyidəhməd oğlu (d.1947) – məşqçi. Azərbaycanın əməkdar məşqçisi. 1993–95-ci illərdə Azərbaycan Milli futbol ko-

mandasının Baş məşqçisi olmuş, 2005–2008-ci illərdə «Neftçi» və «Xəzər» (Lənkəran) klublarının Baş məşqçisi olanda MDB və Baltikyanı ölkələri çempionlarının Burlik Kuboku yarışında qızıl medallar qazanmışlar. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 89–94.

**70. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti və «Neftçi» futbol klubunun prezidentidir.

Rövnəq Abdullayev Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 89–94.

**71. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min $km^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 95.

**72. Helen Klark** (d.1950) – Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal Partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini ciddi tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın respublikaya çevrilməsini «qaçılmaz» hesad etmişdir. (Hal-hazırda rəsmi olaraq Böyük Britaniya kraliçası özünün təyin etdiyi general-qubernator vasitəsilə ölkəyə başçılıq edir). – 95.

**73. Şri-Lanka,** Ş r i - L a n k a D e m o k r a t i k S o s i a- l i s t R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min $km^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 96.

**74. Çandrika Kumaratunqa** (d.1945) – 1994-cü ildə Şri-Lankanın Baş naziri, 1994–2005-ci illərdə isə Şri-Lankanın prezidenti olmuşdur. Onun atası və anası (1956–1959) Şri-Lankanın Baş nazirləri olmuşlar. – 96.

**75. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazda dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 97,98–99,141,142, 143,203,208,209,216,235,241–243.

**76. M i x a i l  N i k o l o z o v i ç  S a a k a ş v i l i** (d.1967) – hüquqşünas. 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 97,241,242.

**77. Zurab Jvaniya** (1953–2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1992–95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 2002-ci ildən Birləşmiş demokratlar partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında «məxməri inqilab»ın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 97, 98–99.

**78. Bülbül,** M u r t u z a  M ə ş ə d i  R z a  o ğ l u  M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. –100,101.

**79. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur.

Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 102–103,110,329.

**80. Kristian Ştrohal** (d.1951) – Avstriya diplomatı. 2003–2008-ci illərdə ATƏT-in Demokratik Təəssisatlar və İnsan Hüquqları Bürosunun sədri olmuşdur. – 102–103.

**81. Karlos Maqarinyos** (d.1962) – Argentina siyasətçisi. 2001–2005-ci illərdə BMT-nin Sənaye və İnkişaf Təşkilatının Baş direktoru olmuşdur. – 104–105.

**82. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 108–112, 140,208,212,293,304–305.

**83. Böyük Millət Məclisi** (BMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 108–112.

**84. Bülənt Arınc** (d.1948) – Türkiyə siyasətçisi 2002–2007-ci illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur.

Hazırda Bülənt Arınc Türkiyə hökumətində Baş nazirin müavini və hökumət sözçüsüdür. – 108–112.

**85. Murtuz Ələsgərov,** M u r t u z  N ə c ə f  o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 109.

**86. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 110.

**87. NATO (**Ş i m a l i  A t l a n t i k a  M ü q a v i l ə s i  T ə ş k i l a t ı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 113–114, 331.

**88. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderland siyasi xadimi. – 113,114.

**89. «Nyu-York Tayms»** – ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu-Yorkda nəşr edilir. Tirajı 837,2 min (bazar günündə 1,4 milyon) nüsxədir. – 115.

**90. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 118,164,184,186,191,224, 232,233,242,286,287,311,331,332.

**91. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 123,192.

**92. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 132,303.

**93. Karlos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005-ci ildən Yunanıstanın prezidentidir. – 132,303.

**94. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 133,301.

**95. Pərviz Müşərrəf** (d.1943) – 2001–07-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi

olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 133,301.

**96. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 134.

**97. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. Kərzai Əfqanıstanı 200 il idarə etmiş tanınmış Populzay qəbiləsindən olan puştu klanının nümayəndəsidir. –134.

**98. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 137,138, 180,181,184,187,200,254,306,328,329.

**99. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra –

AİB, AKPB və AAEB – Avropa Birliyi, 1993-cü ildə isə Avropa Şurası yarandı. – 138,183,184,187,190,194,199,204,211,212,213,221.

**100. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 139.

**101. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 139.

**102. Pentaqon** – ABŞ Müdafiə Nazirliyinin binası. Vaşinqton şəhəri yaxınlığında (Virciniya ştatı), Potomak çayı sahilindədir. Məcazi mənada ABŞ-ın hərbi aparatını bildirir. Pentaqonun başçısı ABŞ Müdafiə naziridir. – 141.

**103. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da

Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 142.

**104. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Macarıstan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. – 142.

**105. Qambiya,** Q a m b i y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min $km^2$, əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banculdur. – 146.

**106. Yəhya Camme** (d.1965) – Qambiya siyasi və dövlət xadimi. 1994-cü ildən Qambiya Respublikasının prezidentidir. – 146.

**107. Rene van Der Linden** (d.1943) – holland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın sədri olmuşdur. –147.

**108. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min $km^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 148.

**109. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 148.

**110. Livan,** L i v a n R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min $km^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati

cəhətdən 5 muhafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 151,217.

**111. Emil Ləhhud** (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 151.

**112. Rafiq əl-Həriri** (1944–2005) – Livanın siyasi və dövlət xadimi. 1992–2005-ci illərdə Livanın Baş naziri olmuşdur. Terror nəticəsində həlak olmuşdur. –151.

**113. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i -k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 152.

**114. Saparmurad Niyazov,** S a p a r m u r a d A t a o ğ -l u (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1991-cı ilə qədər Türkmənistan KP MK-nın Birinci katibi, 1991–2007-ci illərdə Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 152.

**115. Ramiz Rizayev,** R a m i z H ə s ə n q u l u o ğ l u (d.1939) – kimyaçı, kimya elmləri doktoru, professor. AMEA-nın müxbir üzvü. 1993–2007-ci illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 153,162.

**116. Böyük Vətən müharibəsi,** bax: İkinci dünya müharibəsi.

**117. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından

alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə Sovet Ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet Ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 161.

**118. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti** (**ABƏŞ**) – 1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlənilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkətləri arasında imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 163–166.

**119. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. –163–166.

**120. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına

və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 163,165,298.

**121. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 163–166.

**122. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 164.

**123. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 164, 184,224,311.

**124. *bp*,** «B r i t i ş P e t r o l e u m», – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. –164.

**125. Bruney,** B r u n e y D ə r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 167.

**126. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 167.

**127. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 168.

**128. Arnold Rüytel** (d.1928) – Estoniya siyasi və dövlət xadimi. 2001–2006-cı illərdə Estoniya prezidenti. – 168.

**129. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 169.

**130. Cabir əl-Əhməd əs-Sabah** – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 169.

**131. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 170,178–225,331.

**132. ANSA** – İtaliya İnformasiya Agentliyi, qəzet və jurnal nəşriyyat sahibkarlarının aksioner cəmiyyəti. 1945-ci ildə Romada yaradılmışdır. – 170,225.

**133. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. –173–175.

**134. Qana,** Q a n a  P e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km$^2$, əhalisi 16,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkradır. –176.

**135. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 177.

**136. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000-2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 177.

**137. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma - katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 178,226–228.

**138. Roma** – İtaliyanın paytaxtı. Ölkənin siyasi, mədəni və iqtisadi mərkəzi. Dünyanın ən qədim şəhərlərindəndir. Onu «əbədi şəhər» də adlandırırlar. Ərazisində Vatikan dövləti yerləşir. Romanın adı şəhərin əfsanəvi banilərindən biri Romulun adından götürülmüşdür. E.ə. VI əsrin sonundan Roma quldarlıq respublikasının, e.ə. I əsrdən Roma imperiyasının,

1871-ci ildən Birləşmiş İtaliya krallığının, 1946-cı ildən isə İtaliya Respublikasının paytaxtıdır. – 178–225.

**139. Karlo Adzelyo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 179,180–185.

**140. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. –181,328.

**141. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. –184,222.

**142. Roberto Poli** (d.1938) – 2002-ci ildən «Eni»–şirkətinin prezidenti, həmçinin «Poli Elektron» assosiasiyasının sədridir. – 186.

**143. Silvio Berluskoni (**d.1936) – 1994–95, 2001–2006 və 2008-2011-ci illərdə İtaliya Respublikası Nazirlər Şurasının sədri olmuşdur. – 187–188.

**144. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı** (FAO) – BMT tərəfindən yaradılmış dövlətlərarası beynəlxalq təşkilat. Əsası 1945-ci ildə qoyulmuşdur. Bu təşkilatın məqsədi qidalanma haqqında informasiyanı toplamaq və öyrənmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və s.-dir. Mənzilqərargahı Romadadır. – 196–197.

**145. BMT-nin Dünya Ərzaq Proqramı Təşkilatı** – ərzaq məhsullarının istehsalında və ticarətində beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. – 198.

**146. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 201,267–268.

**147. Kolizey,** K o l o s s e y, yaxud F l a v i l ə r a m f i- t e a t r ı – Qədim Roma memarlıq abidəsi (75–80). Qladiatorların döyüşü və başqa teatr tamaşaları üçün nəzərdə tutulmuşdu. – 201.

**148. Helsinki aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 221.

**149. Dünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınması və başqa çətinliklərin aradan götürülməsində qəbul etdiyi hökumətlərarası çoxtərəfli müqavilədir. 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilə həmin müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 223.

**150. AzərTAc ,** Azərbaycan Dövlət Teleqraf Agentliyi – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən AzərTAc kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 225.

**151. İohann Pavel II,** dünyəvi adı Karol Voytıla (1920–2005) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri ilk qeyri-italyan mənşəli (polyak) Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəiflədilməsində böyük xidmətləri var. II İohann Pavel 1978-ci ildə Roma papası seçilmişdir. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 226,227.

**152. Elmar Hüseynov,** Elmar Sabir oğlu (1967–2005) –jurnalist. «Monitor» jurnalının Baş redaktoru. 2005-ci ildə muzdlu qatil tərəfindən qətlə yetirilib. – 233–240,297.

**153. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 241–243.

**154. Marneuli**, bax: Borçalı.

**155. Borçalı** – Gürcüstan Respublikasında azərbaycanlıların elliklə yaşadığı qədim tarixi mahal. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də, çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə

İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işgal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. Çar Rusiyası və Sovet Rusiyası dövründə yeridilmiş məqsədyönlü siyasət nəticəsində azərbaycanlıların qədim Borçalı mahalı etnik-ərazi vahidi kimi, tarix səhnəsindən silindi və Azərbaycanın təsir dairəsindən çıxarıldı.– 242.

**156. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 244.

**157. Zeynalabidin bin Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis prezidenti. Prezident seçilərkən Zeynalabidin bin Əli öz siyasi proqramını, Tunisdə çiçəklənən, azad, sülhsevər cəmiyyət quracağını vəd etmişdi. – 244.

**158. Namibiya,** N a m i b i y a R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 824,3 min km$^2$, əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 13 regiona bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Vindhuk şəhəridir. – 245.

**159. 8 Mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 246–247.

**160. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 248.

**161. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. –248.

**162. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 249–277.

**163.** A**bdulla bin Əbdüləziz,** Al Səud (d.1924) – 2005-ci ildən Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildə Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandanı təyin edilmişdi. Birinci kral Əbdüləziz ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin birinci müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 249–250,253–254.

**164. Elman Araslı** (d.1933) – ərəbşünas. Filologiya elmləri namizədi. Xarici ölkələrdə diplomatik vəzifələrdə çalışmışdır. Moskvada Sovet Dostluq cəmiyyətləri və Xarici Ölkələrlə Mədəni

Əlaqələr Birliyi Yaxın və Orta Şərq ölkələri şöbəsinin müdiri işləmişdir. Əvvəl Səudiyyə Ərəbistanı Krallığında, hazırda isə Qətərdə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 249,277.

**165. Fəhd bin Əbdüləziz,** A l S ə u d (1922–2005) – 1982–2005-ci illərdə İki Müqəddəs Ocağın Xidmətçisi və Səudiyyə Ərəbistanının kralı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. –251–252,253,275.

**166. İslam İnkişaf Bankı** (İİB) – beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. – 263,273–274.

**167. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 267–268.

**168. Məhəmməd** (əleyhüssəlam) (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhüssəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı «Quranı» xalqa çatdırmışdır. –267–270,275–276.

**169. Kəbə** – müsəlmanların Məkkədə müqəddəs məbədi. «Qaradaş» Kəbədədir. Kəbə hələ qədimdən bütpərəst tayfalarının məbədi olmuşdur. Müsəlmanlar Məkkəni tutduqdan sonra (630) bütlər məhv edildi və Kəbə müsəlmanların ziyarətgahına çevrildi. Kəbəni ziyarət edənlər hacı adlanır. – 267–270.

**170. Əl-Həram** – Məkkədə məscid, müsəlmanların ən müqəddəs ziyarətgahı. Bu məscidin həyətinin ortasında Kəbə və müqəddəs Zəmzəm çeşməsi yerləşir. Səfa və Mərva adlanan iki müqəddəs təpə arasında Masa adlı örtülü keçid əl-Əqsanı əl-Həramla birləşdirir. – 267–270.

**171. Ekmələddin İhsanoğlu** (d.1946) – türk diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. – 271–272.

**172. Əhməd Məhəmməd Əli** (d.1934) – İslam İnkişaf Bankının prezidenti. 1993–95-ci illərdə Ümumdünya İslam Liqasının Baş katibi olmuşdur. – 273–274.

**173. Mədinə** – Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adı Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhüssəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhüssəlamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərlərindən biridir. – 275–276.

**174. Qəmər Almaszadə,** Qəmər Hacağa qızı (1915–2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ Xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 278–279.

**175. Azərbaycan Dövlət Opera və Balet Teatrı** – respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera

truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 278.

**176. Atəşkəs rejimi –** 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 285.

**177. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 295.

**178. Konqres,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 300.

**179. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkədir. – 302.

**180. İacuddin Əhməd** (d.1931) – Banqladeş siyasi və dövlət xadimi. 2002–2009-cu illərdə Banqladeş prezidenti. –302.

**181. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 304,305.

**182. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 304,305.

**183. Eldar Mahmudov,** E l d a r Ə h m ə d o ğ l u (d. 1956) – general-leytenant, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik naziri. – 308–317.

**184. Namiq Abbasov,** N a m i q R ə ş i d o ğ l u (d.1940) – general-polkovnik. 1995–2004-cü illərdə Azərbaycan Milli Təhlükəsizlik naziri olmuşdur. 2004-cü ildən Özbəkistan Respublikasında Azərbaycanın Fövqəladə və Səlahiyyətli səfiridir. – 310.

**185. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 318–340.

**186. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin

düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 17,8 min $km^2$, əhalisi 7,2 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə.ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 318–335.

**187. Ümumçin Xalq Nümayəndələri Məclisi** (ÜXNM) – qanunvericilik hakimiyyəti. Səlahiyyət müddəti 5 ildir. ÜXNM 5 il müddətinə ÇXR sədrini və onun müavinini seçir. İcra hakimiyyəti Dövlət Şurasına məxsusdur. Dövlət Şurası ÜXNM qarşısında məsuldur. – 318.

**188. Yaşar Əliyev,** Y a ş a r T o f i q i (d.1948) – cərrah-həkim, professor, diplomat. 1990-cı ildən Azərbaycan Respublikası Ali Sovetinin, 1994-cü ildən isə Milli Məclisin deputatı və Milli Məclis sədrinin müavini, Çin Xalq Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 318.

**189. Xu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002-ci ildə ÇKP MK-nın Baş katibi, 2003-cü ildə ÇXR-nın sədri, 2004-cü ildə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. 2007-ci ildən Ümumçin Xalq Nümayəndələri Məclisinin sədridir. – 318,319–321.

**190. Tayvan** – Cənub-Şərqi Çində tanınmayan şuveren dövlət. Sahəsi 36 min $km^2$, əhalisi 21 milyon nəfərdir. İnzibati ərazisi 16 qraflığa (qəzaya), 7 şəhər bələdiyyəsinə bölünür. Tayvanın başçısı prezident, nümayəndəli orqanı – Nümayəndələr Məclisi və Qanunverici Yuandır (Şura). Paytaxtı Taybeydir. – 320.

**191. Böyük Çin səddi** – Şimali Çində qala divarı, Qədim Çinin nəhəng memarlıq abidəsi. İlk hissələri e.ə. 4-3-cü əsrlərdə tikilməyə başlanmışdır. E.ə. 221-ci ildə vahid Çin dövləti

yarandıqdan sonra, dövlətin şimal-qərb sərhədlərini köçəri xalqların hücumlarından qorumaq və karvan yollarının təhlükəsizliyini təmin etmək üçün imperator Sin Şi-Xuandi sərhəd boyunca başdan-başa sədd çəkilməsini əmr etmişdi. Bəzi məlumata görə, səddin uzunluğu 4 min kilometrə qədər, digər məlumata görə 5 min kilometrdən çoxdur; hündürlüyü 6,6 metrdir. – 324–325.

**192. Sin Şi-Xuandi** (e.ə. 259–210) – Sin padşahlığının hökmdarı (e.ə. 246–221), Çin imperatoru (e.ə. 221–210). E.ə. 221-ci ildə Çində ilk dəfə vahid mərkəzləşdirilmiş Çin imperiyasını yaratmışdı. Onun göstərişi ilə Böyük Çin səddinin çəkilişinə başlanmışdı. – 324.

**193. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə dair tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. –329.

**194. «Əl-Qaidə»** – vəhhabilərin ən böyük və tanınmış beynəlxalq terrorçu təşkilatı. 1980-ci ilin ortalarında Əfqanıstanda yerləşdirilmiş Sovet Ordusuna qarşı vuruşmaq üçün Pakistanda yaradılmışdı. Sovet Ordusu Əfqanıstandan çıxdıqdan sonra «əl-Qaidə» «Böyük islam xilafəti» yaratmaq üçün ABŞ-a, «Qərb dünyası»na və onların tərəfdaşları islam ölkələrinə qarşı mübarizəyə başladı.

Beynəlxalq aləmdə təsdiqlənmişdir ki, «əl-Qaidənin» agentləri Mərkəzi Kəşfiyyat İdarəsində (MKİ) hərbi təlimlər keçmiş və MKİ-nin keçmiş işçiləri isə «əl-Qaidə»nin mağarlarında «məsləhətçi ekspert» işləmişlər. «əl-Qaidə»nin rəhbəri

amerikalı hərbçilər tərəfindən öldürülən Usama Bin Laden idi. – 330.

**195. Ven Szyabao** (d.1942) – ÇXR Dövlət Şurasının Baş naziri, ÇKPMK Siyasi Bürosunun daimi üzvü. – 333–334.

**196. Şanxay** – Çində liman şəhəri. Çinin ən iri sənaye, nəqliyyat və ticarət mərkəzi. Sahəsi 6,2 min $km^2$, əhalisi 13,4 milyon nəfərdir. Şəhər tarixi memarlıq abidələri ilə zəngindir. – 335–339.

**197. Sintszyan-Uyğur muxtar rayonu** – Çində muxtar rayon. Ölkənin şimal-qərbində yerləşir. Sahəsi 1,6 milyon $km^2$, əhalisi 13,1 milyon nəfərdir. İnzibati mərkəzi Urumçi şəhəridir. – 340.

## Şəxsi adlar göstəricisi

Abbasov Namiq – 310
Abdullayev Rövnəq – 89–94
Adamkus Valdas – 148
Al Səud Abdulla bin Əbdüləziz– 249–250,253,254
Al Səud Əbdulməcid – 267
Al Səud Fəhd bin Əbdüləziz – 251–252,253,275
Al Mükrin Əbdüləziz bin Əyyaf– 249,275,277
Al Səud Həmid Salman – 249,267
Almaszadə Qəmər – 278–279
Araslı Elman – 249,277
Atkinson Devid – 84
Arınc Bülənt – 108–112
Batanov Gennadi – 282–283
Benesiki Paolo – 178
Berluskoni Silvio – 187–188
Bin Əli Zeynalabidin – 244
Bolkiah Hacı Həssənal – 167
Brejnev Leonid – 32
Bryuss Malkolm – 306–307
Burbulis Gennadi – 6–36
Buş Corc – 139
Bülbül – 100,101
Cammeh Yəhya – 146
Cəfər Əli Həsən – 249,277
Çampi Adzelyo – 179,180–185
Çyan Siyun – 318
Çyan Sziqan – 322
De Nikolo Paolo – 226,227
Der Linden Rene – 147
Di Benesiki Paolo – 228
Di Paskuale Piyetro – 202–220
Dyuf Jak – 196–197
Esambayev Mahmud – 17
Eyyubov Yaqub – 255
Əhməd İacuddin – 302
Əl-Atal Hüseyn – 264–265
Əl-Əssaf İbrahim – 255
Əl-Həriri Rafiq – 151
Ələsgərov Murtuz – 109

Əliyev Fərhad – 42
Əliyev Heydər –6,10,22,28,32,37,41,42,55,100, 101,110,117,118,125,140,164, 165,174,180,183,190,230,236, 242,256,269,284,285,286,287, 326
Əliyev Natiq – 163–166
Əliyev Yaşar – 318
Əliyeva Leyla – 201,267–268
Əliyeva Mehriban –34–35,36,75,78,153,178,248, 318,324–325,326–332,336, 337,338,339
Əminzadə Möhsüm – 36,75
Ərəbbaği Möhsün – 78
Ərdoğan Rəcəb Tayyib – 304,305
Əs-Sabah Cabir – 169
Əsədov Hilal – 313
Əsgərov Arif – 43
Əsgərov Cahangir – 42
Fetisov Vyaçeslav – 6–36
Gəncəvi Nizami – 32
Haşimi Rəfsəncani – 53–54,66
Həddad Adil – 48–49,66
Herkel Andres – 135
Həsənov Abbasəli – 36,43,61,75,80–88
Hüseynov Elmar – 233–240,297
Xamenei Seyid Əli – 46–47,66,107,150,172
Xan Çen – 336
Xarven – 226,227
Xatəmi Seyid Məhəmməd – 37–43,44,46–47,53,57,63–64, 65–73,74,76,77,82,83,84,87, 106,149,171,229
Xərrazi Kamal – 44–46,66
Xruşşov Nikita – 295
Xu Szintao – 318,319–321
İbrahim Səəd – 256,265
İhsanoğlu Ekmələddin – 271–272
İqnatenko Vitali – 6–35
İmam Xomeyni – 51–52,55
İnsanov Əli – 42
İohann Pavel II – 226,227
İvaniya Zurab – 97,98–99
Kazini Pyerferdinando – 199–200
Kərimov Emil – 178,228

Kərimov Məcid – 42
Kərzai Həmid – 134
Klark Helen – 95
Kosta Marqarita – 178,228
Kufuor Con – 176
Kumaratunqa Çandrika – 96
Qarayev Qara – 18
Qross Andreas – 135
Qonqadze – 235
Quliyev Vilayət – 142
Qulntieri Venaamino – 189
Qumberidze Zurab – 98–99
Qusev Pavel – 6–35
Qusman Mixail – 6–35
Lavrov Sergey – 139
Leante Luçio – 170
Ləhhud Emil – 151
Li Siey – 318
Loşşinin Valerii – 153,162
Mahmudov Eldar – 308–317
Maqarinyos Karlos – 104–105
Məhəmməd (əleyhissəlam) – 267–270,275–276
Məhəmməd Əli Əhməd – 273–274
Məmmədov Novruz – 42
Məmmədova Əsmətxanım – 43
Məmmədyarov Elmar – 42,80–88,255,263
Məntiqi Mənuçöhr – 50
Mərdanov Misir – 42
Mircavadov Ağasəlim – 89–94
Müşərrəf Pərviz – 133,301
Nəiri Seyid Rza – 55–58
Niyazov Saparmurad – 152
Noğaideli Zurab – 241–243
Orazbay Asxat – 62
Papulyas Karlos – 132,303
Pauell Con – 198
Pirvanov Georgi – 177
Pohamba Hifikepuniya – 245
Polad Bülbüloğlu – 17,100–101
Poli Roberto – 186
Provera Fiorello – 195
Putin Vladimir – 10,29,30,139,145,154–162, 203,214,215

Rizayev Ramiz – 153,162
Rostropoviç Mstislav – 248
Rüytel Arnold – 168
RzayevVidadi – 89–94
Saakaşvili Mixail – 97,241,242
Saks Suizan – 115
Sarkisyan Serj – 142
Sezər Əhməd Necdət – 304,305
Səfəri Mehdi – 36,75,229
Sxeffer Yaap – 113,114
Silentsio Marko – 202–220
Simmons Robert – 113–114
Sin Şi-Xuandi – 324
Smirnov Vitali – 6–35
Sodano Ançelo – 226,227
Sufi Əli – 36,75
Süleymani Əfşar – 36,43,75
Sübhanullahi Məhəmmədəli – 76–77,79,80–87
Şamxani Əli – 59–60
Şəhriyar Məmmədhüseyn – 87–88
Şmoqnerova Briqita – 280–281
Ştrohal Kristian – 102–103
Şvidko Mixail – 6–36
Talıbov Vasif – 42
Usubov Ramil – 295
Üzümçü Əhməd – 304–305
Ven Szyabao – 333–334
Vəkilov Cavanşir – 80–88
Ven Szyabao – 333–334
Vudvord Devid – 163–166
Yamani Hişam bin Abdulla – 249

# Coğrafi adlar göstəricisi


Afina – 20,91
Almaniya – 331
Amerika Birləşmiş Ştatları – 14,87,115,203,213,216,331
Ankara – 140,170
Asiya – 141,211,280–281,337
Atlanta – 20
Avropa – 21,87,141,170,182,183,184, 187,194,200,205,206,210,211, 221,263,291,331
Bakı – 10,14,17,27,43,76,83,84,86, 88,95,96,97,106,107,130,132, 133,134,138,139,140,145,146, 147,148,149,150,151,152,167, 168,169,170,175,202,208,219, 228,244,245,247,279,301,302, 303,327
Banqladeş – 302
Belarus – 50
Belçika – 331
Bəlucistan (Pakistanda əyalət) – 133
Bolqarıstan – 177
Borçalı – 242
Boston – 32
Böyük Britaniya – 331
Bruney – 167
Cənubi Qafqaz – 222,319
Ciddə – 267,271–274
Çeçenistan – 27,209
Çin – 318–340

Dağlıq Qarabağ – 12,13,39,45,47,49,54,63,67,82, 86,111,138,139,142,157,174,

180,184,187,194,203,216,222,
227,254,257,269,271,304,305,
306,312,320,326
Estoniya – 135,168
Əfqanıstan – 134
Əlcəzair – 50
Ər-Riyad – 249,264,267
Fələstin – 40,331
Fransa – 216
Gəncə – 32,130
Gürcüstan – 97,98–99,141,142,143,203,
208,209,216,235,241–243
Herat – 134
Hind okeanı – 73
Xəzər dənizi – 45,69,71,72,83,84,115,163,
164,215,224,229
Xocalı – 173–175
İraq – 27,40,204,205
İran – 36–88,106,107,141,149,150,
171,172,213,214,229,331
İsrail – 40
İstanbul – 115
İtaliya – 170,178–225,331
Kabil – 134
Kirman – 171
Kiyev – 89
Küveyt – 169
Qafqaz – 47,175,183,202,203,221
Qambiya – 146
Qana – 176
Litva – 148
Livan – 151,217
Lənkəran – 17
Mədinə – 275–276
Məkkə – 267–268

Mərkəzi Asiya – 281
Mingəçevir – 21
Misir – 50
Moskva – 8,17,20,28,30,136–144,153–162,203,214
Naxçıvan – 142
Naxçıvan Muxtar Respublikası– 69,77
Namibiya – 245
Nyu-Cersi – 14
Oman dənizi – 73
Özbəkistan – 28
Pakistan – 133,301
Pekin – 318–335
Roma – 178–225
Rusiya – 6,35,136–144,145,153–162,203,214,215,216,282–283,331
Sakit okean – 280–281
Seneqal – 50
Səudiyyə Ərəbistanı – 249–277
Sidney – 20
Sintszyan-Uyğur muxtar rayonu– 340
Stokholm – 21
Suriya – 50
Slovakiya – 139
Şanxay – 335–339
Şəki – 17
Şərqi Avropa – 210
Şərqi Azərbaycan – 75–88
Şri-Lanka – 96
Tayvan – 320
Tehran – 36–73,141,229
Təbriz – 72,74–88
Tunis – 244
Türkiyə – 86,108–112,140,208,212,293,

304–305
Türkmənistan – 152
Ukrayna – 143,203,209,235
Urumçi – 340
Vaşinqton – 203
Vatikan – 178,226–228
Venesiya – 204
Yaponiya – 293
Yeni Zelandiya – 95
Yunanıstan – 132,303
Zərənd – 229

# MÜNDƏRİCAT

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR
*20 yanvar 2005-ci il……………………………………………………5*

İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARI AZƏRBAYCANDA
*22 yanvar 2005-ci il……………………………………………….…6*

AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ
*22 yanvar 2005-ci il……………………………………………………8*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN AZƏRBAYCANDA İTAR-TASS GÜNLƏRİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ
*22 yanvar 2005-ci il……………………………………….…………34*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANA RƏSMİ SƏFƏRİ
*24 yanvar 2005-ci il…………………………………………….……36*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İLƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ ARASINDA TƏKBƏTƏK GÖRÜŞ
*24 yanvar 2005-ci il………………………………………….………37*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN GENİŞ TƏRKİBDƏ DANIŞIQLARI
*24 yanvar 2005-ci il………………………………………….………41*

İRANIN XARİCİ İŞLƏR NAZİRİ KAMAL XƏRRAZİ İLƏ GÖRÜŞ
*24 yanvar 2005-ci il……………………………………………………44*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ
*25 yanvar 2005-ci il……………………………………………………46*

İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİL İLƏ GÖRÜŞ
*25 yanvar 2005-ci il……………………………………………………48*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN ƏN İRİ İSTEHSAL MÜƏSSİSƏLƏRİNDƏN SAYILAN «İRAN XODRO» AVTOMOBİL ZAVODUNDA
*25 yanvar 2005-ci il…………………………………………………..50*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İMAM XOMEYNİNİN MƏQBƏRƏSİNİ ZİYARƏT ETMİŞDİR.............................................................................*51*

İRAN İSLAM RESPUBLİKASI DÖVLƏT MƏSLƏHƏT ŞURASININ SƏDRİ ƏLİ ƏKBƏR HAŞİMİ RƏFSƏNCANİ İLƏ GÖRÜŞ
*25 yanvar 2005-ci il……………………………………………………53*

İMAM XOMEYNİ ADINA «İMDAD» KOMİTƏSİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ ÇIXIŞ
*25 yanvar 2005-ci il……………………………………………………56*

İRAN MÜDAFİƏ SƏNAYESİNİN DAİMİ SƏRGİSİ İLƏ TANIŞLIQ
*25 yanvar 2005-ci il……………………………………………………59*

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TEHRANDAKI SƏFİRLİYİNDƏ
*25 yanvar 2005-ci il……………………………………..………………61*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ
*25 yanvar 2005-ci il……………………………………....……………62*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİ İLƏ GÖRÜŞ
*26 yanvar 2005-ci il……………………………………………………63*

AZƏRBAYCAN VƏ İRAN ARASINDA SƏNƏDLƏRİN BİRGƏ İMZALANMASI MƏRASİMİ
*26 yanvar 2005-ci il……………………………………………....……65*

SƏNƏDLƏRİN İMZALANMASINDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ SEYİD MƏHƏMMƏD XATƏMİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*26 yanvar 2005-ci il…………………………………………………..71*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏBRİZ ŞƏHƏRİNDƏ
*26 yanvar 2005-ci il……………………………………………………74*

ŞƏRQİ AZƏRBAYCAN VALİLİYİNDƏ GÖRÜŞ
*26 yanvar 2005-ci il…………………………………………………...76*

TƏBRİZ TRAKTOR ZAVODU İLƏ TANIŞLIQ
*26 yanvar 2005-ci il…………………………………….…..…………78*

PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ TƏBRİZDƏKİ BAŞ KONSULLUĞUNDA
*26 yanvar 2005-ci il……………………………..……………80*

«NEFTÇİ» FUTBOL KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ
*27 yanvar 2005-ci il……………………………..……………89*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA………………………………………......*95*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAYKE KUMARATUNQAYA…………………….*96*

GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ
*3 fevral 2005-ci il……………………………....……………97*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANIN BAŞ NAZİRİNİN VƏFATI İLƏ ƏLAQƏDAR BU ÖLKƏNİN BAKIDAKI SƏFİRLİYİNƏ GEDƏRƏK BAŞSAĞLIĞI VERMƏSİ
*4 fevral 2005-ci il……………………………..………………98*

AZƏRBAYCANIN MƏDƏNİYYƏT NAZİRİ POLAD BÜLBÜLOĞLUNA RESPUBLİKANIN ALİ MÜKAFATI OLAN "İSTİQLAL" ORDENİNİN TƏQDİM EDİLMƏSİ
*4 fevral 2005-ci il……………………………………………100*

ATƏT-in DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORU KRİSTİAN ŞTROHALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ

HEYƏTİ İLƏ GÖRÜŞ
*4 fevral 2005-ci il…………………………………………………102*

BMT-nin SƏNAYE İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KARLOS MAQARİNYOS İLƏ GÖRÜŞ
*4 fevral 2005-ci il…………………………………………………104*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ..................*106*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ………………………………………………*107*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ BÜLƏNT ARINÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*8 fevral 2005-ci il…………………………………………………108*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ
*8 fevral 2005-ci il…………………………………………………113*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİR İLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ
*11 fevral 2005-ci il………………………………………………116*
YEKUN NİTQİ…………………………………………………………*121*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLOS PAPULYASA…………………*132*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ............................................*133*

ƏFQANISTAN İSLAM DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ............................*134*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ CƏNAB ANDREAS QROSS VƏ CƏNAB ANDRES HERKEL İLƏ GÖRÜŞ
*12 fevral 2005-ci il……………………………....…………135*

MOSKVADA ÇIXAN «NEZAVİSİMAYA QAZETA»NIN MÜXBİRİ VİKTORİYA PANFİLOVAYA VERDİYİ MÜSAHİBƏ
*8 fevral 2005-ci il…………………………………………136*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ............................................*145*

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ..................................*146*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RENE VAN DER LİNDENƏ…………………………………………………….....*147*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDAS ADAMKUSA.......................................*148*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ……………*149*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ……………………………………….*150*

LİVAN RESPUBLİKASININ PREZİDENTİZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDƏ……………………………………..*151*

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA…………………………………*152*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ
*15 fevral 2005-ci il…………………………………………………153*

RUSİYA FEDERASİYASINDA AZƏRBAYCAN İLİNİN AÇILIŞI İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ
*16 fevral 2005-ci il…………………………………………………154*

RUSİYADA AZƏRBAYCAN İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*16 fevral 2005-ci il…………………………………………………158*

«MƏRKƏZİ AZƏRİ» PLATFORMASINDAN İLK NEFTİN HASİLATINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ
*18 fevral 2005-ci il…………………………………………………163*

BRUNEY DƏRÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA……………………………………*167*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARNOLD RÜYTELƏ…………………………*168*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA……………*169*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ……………*171*

İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ………………………………………*172*

XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT…………………*173*

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CON KOFİ AGİYEKUM KUFUORA……………*176*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA…………………*177*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA RESPUBLİKASINDA VƏ VATİKAN DÖVLƏTİNDƏ……………………………………………………*178*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİNİN TƏKBƏTƏK GÖRÜŞÜ
*24 fevral 2005-ci il*………………………………………………*180*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İTALİYA PREZİDENTİ ADZELYO ÇAMPİ ARASINDA TƏKBƏTƏK GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA MƏTBUAT ÜÇÜN BƏYANATLAR…………………………*182*

İtaliya prezidenti Adzelyo Çampinin bəyanatı…………………*182*

Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı……………...……*183*

İTALİYANVN TANINMIŞ «ENİ» NEFT ŞİRKƏTİNİN PREZİDENTİ ROBERTO POLİ İLƏ GÖRÜŞ
*24 fevral 2005-ci il………………………..…………………186*

İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİ İLƏ GÖRÜŞ
*24 fevral 2005-ci il………………………..…………………187*

AZƏRBAYCAN–İTALİYA BİZNES FORUMUNDA NİTQ
*25 fevral 2005-ci il………………………..…………………189*

BMT-nin ROMADA YERLƏŞƏN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATINDA GÖRÜŞ
*25 fevral 2005-ci il………………………..…………………196*

DÜNYA ƏRZAQ PROQRAMI TƏŞKİLATININ RƏHBƏRİ VƏZİFƏSİNİ İCRA EDƏN CON PAUELL İLƏ GÖRÜŞ
*25 fevral 2005-ci il………………………..…………………198*

İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ PYERFERDİNANDO KAZİNİ İLƏ GÖRÜŞ
*25 fevral 2005-ci il………………………..…………………199*

İTALİYA MİLLİ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ…………………………..……………………*201*

ROMA FORUMU VƏ KOLİZEY İLƏ TANIŞLIQ………………………..………………………*201*

İTALİYANIN «RAİ NEWS-24» TELEKANALININ «NEXT» PROQRAMINA VERDİYİ MÜSAHİBƏ
*25 fevral 2005-ci il………………………..…………………202*

İTALİYA–AZƏRBAYCAN BİRGƏ BƏYANNAMƏSİ......*221*

VATİKAN DÖVLƏTİNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ
*26 fevral 2005-ci il…………………………....…………………226*

İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ
*1 mart 2005-ci il………………………....……………………229*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA ÇIXIŞ
*3 mart 2005-ci il…………………………....…………….……..230*

«MONİTOR» JURNALININ BAŞ REDAKTORU ELMAR HÜSEYNOVUN ÖLDÜRÜLMƏSİ İLƏ BAĞLI MƏTBUAT ÜÇÜN BƏYANAT VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*3 mart 2005-ci il…………………………....…………………233*

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*4 mart 2005-ci il……………….…………………....……………241*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZEYNALABİDİN BİN ƏLİYƏ……………........……….*244*

NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNİYA POHAMBAYA……......*245*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK……*246*

DÜNYA ŞÖHRƏTLİ MUSİQİÇİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞ
*7 mart 2005-ci il……………………………………………………….248*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ
*8 mart 2005-ci il……………………………………………………….249*

AZƏRBAYCAN PREZİDENTİ İLƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI ARASINDA TƏKBƏTƏK GÖRÜŞ
*8 mart 2005-ci il……………………………………………………….251*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ ƏMİR ABDULLA BİN ƏBDÜLƏZİZ AL SƏUDUN İŞTİRAKI İLƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ
*8 mart 2005-ci il……………………………………………………….253*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ…………………………………………………………….*255*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ TİCARƏT VƏ SƏNAYE PALATASINDA NİTQ
*9 mart 2005-ci il……………………………………………………….256*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINA RƏSMİ SƏFƏRİ……………………………………………………*267*

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ İLƏ GÖRÜŞ
*10 mart 2005-ci il……………………………………………….....271*

İSLAM İNKİŞAF BANKININ (İİB) PREZİDENTİ ƏHMƏD MƏHƏMMƏD ƏLİ İLƏ GÖRÜŞ
*10 mart 2005-ci il……………………………………………….....273*

İSLAM DÜNYASININ MÜQƏDDƏS ŞƏHƏRLƏRİNDƏN OLAN MƏDİNƏYƏ SƏFƏR
*10 mart 2005-ci il……………………………………………….....275*

XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ……*278*

BMT-nin ASİYA VƏ SAKİT OKEAN ÜZRƏ İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ VƏ BMT-nin AVROPA ÜZRƏ İQTİSADİ KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTLƏRİ İLƏ GÖRÜŞ
*11 mart 2005-ci il……………………………………………….....280*

RUSİYA FEDERASİYASI PENSİYA FONDU İDARƏ HEYƏTİNİN SƏDRİ GENNADİ BATANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*11 mart 2005-ci il……………………………………………….....282*

DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ YARANMASININ 13-cü İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ
*12 mart 2005-ci il……………………………………………….....284*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ…………….*301*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ………….*302*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLOS PAPULYASA………………..*303*

TÜRKİYƏ RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜSTƏŞAR MÜAVİNİ, SƏFİR ƏHMƏD ÜZÜMÇÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*14 mart 2005-ci il…………………………………………………..304*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİNİN MƏRUZƏÇİSİ MALKOLM BRYUS İLƏ GÖRÜŞ
*15 mart 2005-ci il…………………………………………………..306*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRLİYİNİN BİR QRUP ƏMƏKDAŞINA ÖLKƏMİZİN ORDEN VƏ MEDALLARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*16 mart 2005-ci il…………………………………………………..308*
YEKUN NİTQİ…………………………………………………….*314*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ
*17 mart 2005-ci il…………………………………………………..318*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÇXR-in SƏDRİ XU SZİNTAONUN RƏHBƏRLİYİ İLƏ GENİŞ TƏRKİBDƏ AZƏRBAYCAN–ÇİN DANIŞIQLARI
*17 mart 2005-ci il…………………………………………………..319*

PEKİNDƏ KEÇİRİLƏN AZƏRBAYCAN–ÇİN BİZNES FORUMU
*18 mart 2005-ci il……………………………………………….....322*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK ÇİN SƏDDİNDƏ
*18 mart 2005-ci il……………………………………………….....324*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZİN PEKİNDƏKİ SƏFİRLİYİNDƏ
*18 mart 2005-ci il……………………………………………….....326*

ÇİN DÖVLƏT ŞURASININ BAŞÇISI VEN SZYABAO İLƏ GÖRÜŞ
*18 mart 2005-ci il……………………………………………….....333*

İMPERATOR SARAYI KOMPLEKSİ İLƏ TANIŞLIQ
*18 mart 2005-ci il……………………………………………….....335*

ŞANXAYIN MERİ XAN ÇEN İLƏ GÖRÜŞ
*19 mart 2005-ci il……………………………………………….....336*

ŞANXAYIN MƏŞHUR TELEVİZİYA QÜLLƏSİ İLƏ TANIŞLIQ
*19 mart 2005-ci il……………………………………………….....336*

ŞANXAY PLANLAŞDIRMA MUZEYİNDƏ
*19 mart 2005-ci il……………………………………………….....338*

SİNTSZYAN-UYĞUR MUXTAR RAYONUNUN BAŞÇISI İLƏ GÖRÜŞ
*19 mart 2005-ci il……………………………………………….....340*

*Q E Y D L Ə R……………………………………………….....341*

*Şəxsi adlar göstəricisi……………………………….………….………384*

*Coğrafi adlar göstəricisi…………………………………..….…………389*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

"Tayms" qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
"Şərq-Qərb" mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.